


B. Vahabzadə

# BƏXTİYAR VAHABZADƏ

## ƏSƏRLƏRİ
(1980-1989)

*On iki cilddə*

V *cild*

Bakı - 2008
"ELM" nəşriyyatı

*Tərtibçi, ön söz müəllifi və redaktoru*
**Ramazan Qafarlı**

**Bəxtiyar Vahabzadə.** Əsərləri. On iki cilddə. V cild (1980-1989). - Bakı, “Elm” nəşriyyatı, 2008. - 584 s.

İSBN 5-86874-037-8

V $\frac{4702060000}{655\ (05)\ -\ 2008}$ Qrifli nəşr

© B.Vahabzadə - 2008

## HƏQİQOTİN BAŞQA BİÇİMİ VARMI?
## (Şairin hayatının iki maraqlı məqamı)

*Şair əsərlərində yaşantılarına o zaman güzgü tutür ki, hayat amali, istək və arzuları həqiqətə çevrilir. Bəxtiyar Vahabzadəni XX əsrin ikinci yarısından başlayaraq Azarbaycanın bütövlüyü, azadlığı və müsləqilliyi hər an düşündürürdü. O, xəyallarının yaxın vaxtlarda gerçəkləşəcəyinə inanmasa da, sovet imperiyasının ən güclü cağlarında da özünü oda-közə vurmuşdu. Təsadüfi devil ki, 1989-cu ildə xalq hərəkatının dalğaları onu tribunaya çiyinlərdə gətirmişdi. Minlərlə yurddaşı üsyankar söz ustadına, böyük müəllimə minnatdarlıq hisslərini xüsusi şəkildə aşılamışdı. Çünki qanlı yanvaradak olan son 10 il ərzində yazdığı əsərlərində şairin iç dünyasındaki təlatümlər, yurduna qarşı haqsızlıqlar gizlin və aşkar şəkildə daha çox yer almışdı. Üsyana çağırış motivləri seirlərinin ruhuna hopmuşdu. Onun gec-tez haqqı tapdayanlarla açıq döyüşə çıxacağı millətinə bolli idi. Və Bəxtiyar Vahabzadənin işğalçı generalın üzünə qətiyyətlə tupürməsi ilk baxışda ağılsızlıq təsiri bağışlamışdı. Əslində isə bu, Azərbaycan xalqının müstəqilliyə doğru getdiyi yolda ən cəsarətli addımlardan biri idi. 1980-89-cu illər arasında qələmə aldığı şeir və poemaları nəzərdən keçirəndə şairin barışmazlığını sezməmək mümkünsüzdür.*

*Bəli, hər bir istedadlı qələm sahibi əsərləri ilə əbədi yaşamağa qadirdir. Lakin Bəxtiyar Vahabzadənin həyatının elə məqamları var ki, onlar açıqlanmadan meydana gətirdiyi bədii sənət nümunələrinin məğzini düzgün anlamaq çətindir. Eləcə də yaxın tariximizdə baş verən olayları başqa biçimdə təqdim etməyə çalışanlara cavab verməmək ədalətsizlikdir.*

**Birinci məqam: şair niyə sovet rus generalın üzünə tüpürdü?**

Gerçəkliyi mifləşdirib uydurma qəhrəmanlar yaratmaq heç kimə baş ucalığı gətirmiz. Çünki çox məsələlərdə yaddaşımızı don vursa da, 1990-cı ilin qanlı yanvarında yaşadığımız dəhşətli hadisələri hələ unutmamışıq. Azarbaycanı müstəqilliyə aparan fövqəlada sessiyanın çağırılması ideyası Tele-radio Verilişləri Komitəsinin həyətində rus generalının üzünə düşən tüpürcəklə başlanıb, "Azadlıq" padio stansiyasının aparıcısı Mirzə Xəzərin gün ərzində dəfələrlə səsləndirdiyi müraciətlə həyata keçirilmişdi. Bunları hamı yaxşı

bilməlidir. Və həqiqətin bir üzü var, necədirsə, eləcə də görünür, onun başqa biçimə və yozuma ehtiyacı yoxdur.

Hər xalqın taleyinə bir və yaxud bir neçə qara gün düşür. Elə qara gün ki, böyükdən kiçiyə hamının ruhundan keçir, içərisinə nüfuz edib silkələyə-silkələyə bütöv milləti ayıldır, ayağa qaldırır, ölümlə qalım arasında çıxış yolu aramağa sövq edir. Azarbaycanın isə qara günlari çoxdur. 1990-cı ilin 20 yanvar gecasi yaşadığımız tarixin ən dəhşətlisidır, ulu xalqa arxadan qəfil vurulan sağalmaz yaradır, milləti millət kimi yetişdirib mətinləşdirən, bütövləşdirən dərddir. O müsibətlərin unudulduğu yerdə ayrılma, parçalanma başlanır. Həyat çoxları üçün yurdun sabahı naminə sona çatsa da, ağrılar-acılar bitib-tiikənməsə də, zamanla olub-keçənlərlə az-çox “barışsaq” da, hər an xatırlamalıyıq ki, Azərbaycan adlı dövlat mövcudluğunu, müstəqilliyini ancaq şəhidlərə borcludur. Bu borca şərik çıxmağa nə “Azadlıq” meydanındaki söz pəhləvanlarının, nə də yaxında, uzaqda yaşayan siyasatçilərin haqqı var. Onda hamı yaxasını geri çakib müsibətin mənbəyini təkcə yadların, özgələşənlərin üstünə atırdı. İndi dərk edəndə ki, o qara gün işıqlı çağlara doğru uzanan yolun başlanğıcı, tarixin dönüş yaradan mühüm anlarından biridir, qırğına fitva verənlər də, əliyalın camaatı tankların üstünə yollayanlar da olaylardan sağ-salamat çıxmalarına “şükür” etmak əvəzina, o qara günün özündə qazanc axtarışına çıxırdılar. Lakin hamı bir şeyi anlamalı idi ki. başı salamat qurtaranların ən böyük qazancı məhz Allahın ömür payının o gün zorla əllərindən alınmaması, düşmənin qəfil gülləsinə tuş gəlməməsi idi. Başqa qazanclar ancaq və ancaq şahidlərin idi. Və biz yalnız həyatımız üçün onların ruhu qarşısında baş əyməliyik.

“Avropa” qəzetinin 20-26 yanvar 2001-ci il tarixli sayında qara yanvar mövzusuna böyük yer ayırması xoş maramdan xəbər verirdi. “Yanvar sessiyası. Onun çağırılması ideyası harda, necə yarandı. Və sessiyada nələr oldu” başlıqlı yazı yaralarımızın üstünə məlhəm kimi başa düşülə bilərdi. Lakin müsahibə verənin hadisələri ancaq öz prizmasından keçirib bir məqsədə nail olmaq cahdi açıq-aydın gözə çarpır və təəssüf doğurur. Onun özünü on beş - iyirmi il əvvəlki hadisaləri mərkəzi qəhrəmanlarından biri kimi göstərməsi bir yana qalsın, oxuculara açdığı məlum “şırlərlə” elə labırıntə düşür ki, oradan nainki millət fadaisi kimi çıxır, əksinə bəzi siyasətçilərin hadisələrdən sonra az-çox qeyrətə gəlib doğru addım atmalarını şişirtməklə tamam şübhə toruna bürüyür. Məqalədə açıq-aydın həmin dövrün aparıcı adamlarına qərəzli münasibət hiss olunur. Müəllif sessiya ideyasını irəli atıb gerçəkləşdirənlərin ölümlə üz-üzə gəlmələrinin üstündən xətt çəkməsəydi, haqiqətlərə yamaq vurmaqla, yeni personajlar sisiləsi meydana gatirib orbitində dolandırmaqla özünü az qala

Azərbaycana müstaqillik gətirən əsas sima kimi təqdim etməsəydi, yazıda mantiqsiz görünən məqamlar olmasaydı. söylənənlərə inanmaq mümkün idi.

Çoxları yaxşı xatırlayırlar ki, 16 yanvarda, qanlı gecəyə bir neçə gün qalmış möhtərəm şeyx həzrətləri Allahşükür Paşazada, xalq şairi Bəxtiyar Vahabzadə (hər ikisi millət vəkili idi) və başqaları Primakovla görüş zamanı hiss etmişdilər ki, xalqın başının üstündə böyük təhlükə var. Mərkəz qan tökmədən keçinməyəcək, yerli nökərlər də buna qol qoyurlar. Mərkəz "İslam fundamentalizmi" damğası vurmaqla da olsa, Azərbaycan xalqının iradəsini qırmağa çalışırdı, "erməni qırğınları" törədirdi. Aramısda emosiyaya qapılıb bu fitnəkar oyunun əsas oyunşularına çevrilənlər də tapılırdı. Məhz həmin çağlarda məqalədə xatırlanmayan Bəxtiyar Vahabzadə vəziyyətdən çıxış yolları axtararkən sessiya çağırmaq ideyası meydana gəlmişdi. Bu işi gerçəkləşdirmək məqsədi ilə deputatlara, xalqa müraciət etmək missiyasını son əlli ildə xalqımızın tale yüklü problemlərini dissidentcəsinə qabardıb çiyinlərində daşıyan şair öz üzərinə götürmüşdü. Qırğın başlananadək adları çəlilən ağsaqqalların müxalifət liderləri ilə görüşüb həqiqəti anlatmaq, qırğının qarşısını almaq təşəbbüsləri boşa çıxır. Sonra onların şəhərin müxtəlif istiqamətlərini gəzib işğalşı qoşunun qarşısında barikadalar quran əliyalın əhali ilə söhbətləri də heç bir nəticə vermir. Və xalq qanlı gecənin dəhşətlərini yaşamaq məcburiyyətində qalır. Ancaq dizləri yerə qoyulsa da, əyilmir, sınmır. Nədənsə, məqalədə bu məsələlərin üstündən sükutla keçilir.

Sessiya çağırışının labüdlüyünü anlayıb fürsəti əldən verməməyi qərara alan şair respublikanın əsas informasiya vasitələrindən istifadə etmək istəyir. Azarbaycan Tele-radio Verilişlari Komitasinin həyətində İsmayıl Sıxlı və başqa ziyalılarla rastlaşıb studiyaya qalxanda ondan soruşurlar ki, hara gedirsan?

- Efir vasitəsi ilə deputatlara müraciət etmək istəyirəm. Fövqaladə sessiya çağırmaq lazımdır.

- Hansı televiziya ilə müraciət edəcəksən? Ötürücü qurğunu partladıblar.

Bəxtiyar Vahabzadə təəccüblə soruşur:

- Kimlər?

Həyətdəki əsgərləri və onların arasında dayanan generalı - Bakı komendantını şairə göstarib deyirlar:

- Onlar.

Bəxtiyar Vahabzada hamının gözünün qabağında yaşına uyğun gəlməyən cəldliklə rus generalına yaxınlaşıb:

- Sən mənim millətimi qırmış faşistsən, qan içənsən – deyə onun üzüna

tüpürür.

General alnına düşən qəfil tüpürcəkdən qəzəblənib əlini taprancasına aparır. Lakin televiziyinın rejissoru onu arxadan qucaqlayıb qulağına nəsə pıçıldayır. Bir andaca əsgərlər avtomatla şairin sinəsini nişana alıb, barmaqları tətikdə əmr gözləyirlər. General biləndə ki, qarşısındakı xalq şairi, millət vəkili, SSRİ Dövlət mükafatı laureatıdır, güllələnməsi hamının ayağa qalxmasına səbəb ola bilər. Tez əsgərlərə silahı aşağı salmaq işarəsi verir.

Bəxtiyar Vahabzadəni hadisə yerindan uzaqlaşdırırlar. O, radionun binasına gedir. Orada onu Mirza Xəzərlə calaşdırırlar. Şair deputatlara və Azarbaycan xalqına müraciətini lentə yazdırır. Mirzə Xəzər gün ərzində bir neçə dəfə şairin çıxışını efirə buraxır. Bu çağırış ölümə məhkum edilən millətin təslimçiliyi deyildi (Təəssüflər olsun ki, onda mətinliyini qoruyub saxlayan milləti sonralar öz siyasətbazlarımız düşmən qarşısında təslim vəziyyətinə saldı, torpaqlarımızı erməni tapdağına çevirdi). Bu əslində, Azərbaycan xalqının şairin timsalında 70 il sədaqətlə qulluğunda durduğu imperiyaya tüpürməsi, ondan həmişəlik üz döndəməsi idi.

Məlum məsələdir ki. bu çağırışdan sonra maqalə müəlliflərinin yazdıqları kimi xalq cəbhəsinin fəalları da, başqa deputatlar da sessiyanın baş tutması üçün çalışıblar. Lakin sessiyanı çağırmaq ideyasının Ali Sovetin sədri E.Qafarova ilə qabaqcadan müzakirə edilməsi və razılaşdırılması həqiqətə uyğun deyil. Əgar elədirsə, bəs nə səbəbə sessiyanı E.Qafarova özü aparmadı? Bəlkə Bəxtiyar Vahabzadə zorla onun vəzifəsini "əla keçirmişdi"? Müsahibə verən özü bunu belə izah edir: «Deputatların sovet hakimiyyati əleyhinə yönəlmiş qərara səs verənlərini təmin eləmək üçün işi elə qurmuşduq ki. hamının sevdiyi şair Bəxtiyar Vahabzadə məclisə sədr seçilmişdi. Təbii ki. onun təşkilatçılıq bacarığının olmadığını bilirdik. Ancaq başa düşürdük ki, sovet hakimiyyətinə qarşı olan bir şəxs kimi Bəxtiyar Vahabzadə qorxaq deputatların milli hisslərini oyatmağa qadirdir». Burada haqiqətdən uzaq, qeyri daqiq fikirlar çoxdur. Təcrübəli huquqşünasın belə yanlışlığa yol verməsi təəccüb doğurur.

*Birincisi,* şair o vaxtadak şovet hakimiyyatinə qarşı olmayıb. Hər şeyi öz adı ilə deməк lazımdır. Sovet hakimiyyatinə qarşı çıxana SSRİ Dövlət mükafatı verməzdilər. Onun mübarizəsi rus çarizminin Azarbaycanı istila edib İranla bölüşməsinə, dilimizin siyasətlə əlimizdən alınmasına qarşı idi. Məhz keçan əsrin 50-ci illərinin sonunda «Gülüstan» əşəri meydana gələndə B.Vahabzadə bütün ziyalılar tərəfindən dəstəklənsəydi, 90-cı illərin fəlakətləri baş verməzdi. Şairin həmişə bir arzusu olub: parçalanıb sahillərə ayrılmayan vahid, bütöv Azərbaycan yaradılsın. Bunun sovet quruluşu, yaxud kapitalist ölkəsi olması

barədа isə düşünməmişdi. Sovet hakimiyyətinə nifrəti onda qəti şəkildə yanvar gecəsindən sonra baş qaldırmışdı.

*İkincisi,* sessiyanın rasmi şakildə seçilmiş Ali sovetin sədrinin aparması həm hüquqi, həm də qorxaq deputatların milli hisslərini oyatmaq baxımından daha əhəmiyyətli idi. Həmişə sovet hökumətinə qulluq göstərən parlament sədrinin sessiyada ittifaqdan çıxmaq məsələsini qaldırması bütün dünyada haqq işi uğrunda qərar çıxarmağımızı təsdiqləməzdimi? Eləcə də bununla 88-90-cı illərdə xalqımızın başına açılan oyunlara hüquqi qiymət vermis olardlq. Bax, həmin cəsarətli addımı atmağa E.Qafarovanın hünəri çatmadığı üçün B.Vahabzadə özünü qabağa atmışdı. İndi hər şey adama adi görünür. Amma onda bunun nə ilə nəticələnəcəyi müəmmalı idi. B.Vahabzadə yaxşı anlayırdı ki, sessiyanın təşkilatçısı və rəhbəri kimi onu qandalda Moskvaya, Lefertova həbsxanasına apara bilərdilər. Axı, Sovet imperiyası Xəlil Rzanın timsalında bunu da xalqımızın başında sınaqdan şıxarmışdı.

E.Qafarovanın bəyanatına gəlincə, çoxları təsdiqləyərlər ki, onu buna məhz B.Vahabzadə, H.Həsənov, İ.Şıxlı kimi deputatlar məcbur etmişdi. O, bəhanələr gətirmiş, hətta ana dilində yaxşı danışa bilməməsinə sığınmaq istəmişdi. Lakin bəyənatı Ali sovetin qeyrətli əməkdaşlarından biri hazırlayıb sədrin qabağına qoyanda Elmira xanımın mətni üzündən oxumaqdan başqa əlacı qalmamışdı.

Millətin qəhrəmanlara böyük ehtiyacı var. Lakin məlum gerçəklikləri başqa cür yozmaqla heç kəsin gözündə böyümək mümkün deyil.

## XALQA DOĞRU UZANAN YOLLARDA...

### (İkinci məqam: millət vəkili seçilən ərəfədə şairin Şəkiyə səfəri)

***Yollar insanları ünsiyyətə, bir-birinə bağlılığa, birliyə, vahidliyə, görüşə aparan vasitələrdən biridir. Həm də ayrılığa, parçalanmaya səbəb olur. İkili xüsusiyyətinə baxmayaraq yollar daimi insan məskənlərindən fərqlənir, nisbətən şərdən, qarşıdurmadan uzaqdır, qoynuna aldığı sakinləri düşündürür, götür-qoya məcbur edir. Amma yollar da qəzasız, ağrısız deyil... Bir arzuyla yola çıxmışdıq: Şəkidə seçicilərlə görüşündə xalq şairi Bəxtiyar Vahabzadəyə həmfikir olmaq. Əsrin son ilinin avqustunda 75 yaşı tamamlanan, dünyanın acısını, şirinini dadan müdrik bir insanla yol yoldaşı idik. Yol uzandıqca uzanır, şəkili Ələfsərin zurnada çaldığı həzin musiqi sədaları altında rayonların sonsuz problemlərindən danışırdıq.***

Qobustanla Şamaxı arasındakı təpələrin arasında yerləşən bir məzarın üstündə abidə qoyulmuşdu. Şair orada sürüjü Şükürdən maşını saxlamağı xahiş etdi. Narın yağış səpələyirdi. Ətrafa xeyli nəzər saldıq. Bəxtiyar Vahabzadə nəsə axtarırdı. Sonra əsrin əvvəllərində Azərbaycanı daşnaq-quldurlardan qorumaq üçün yardıma gələn türk ordusunun bir zabitinin məzarını ziyarət etdik. Düzü, qranit abidəyə doğru uzanan cığır bataqlığı xatırladırdı. Maşınla ora girən çətin çıxardı. Şair son dəfə narahatlıqla yol kənarına göz gəzdirdi. Bir az aralıda hansısa tikinti idarəsinin yerləşməsini göstərən lövhədən başqa heç nə yox idi... Yalnız Şamaxı və Qobustan şəhər icra hakimiyyəti başçıları ilə söhbəti zamanı B.Vahabzadənin nigarançılığının səbəbini öyrəndik: bir il qabaq buradan keçəndə çölün düzündəki tək qəbri görüb məsələ qaldırmışdı ki, abidə kompleksinə dönən yolda lövhə qoymaq lazımdır. Gəlib-gedən ayaq saxlamalı, 70 il unudulub məzarda uyuyan qəhrəman türk zabitinə borcunu qaytarmalıdır. Təklifinin qulaqardına vurulduğunu bildikdə öz xərci ilə mərmər lövhə aldırıb üstünə aşağıdakı misraları yazdırmıçdı:

*Yolçu, dayan burda, düşün bir daha,*
*Soruş, kimdir yatan bu tək qəbirdə?*
*O bir türk zabiti, doğuldu haqdan,*
*Sənin yardımına gəldi uzaqdan.*

*O sənin arxanda bir dağa döndü,*
*Bu torpaq yolunda torpağa döndü.*
*Yolçu, bir anlığa burda dayan bir!*
*Ayaq basdığın yer ona borcludur.*

**Bəxtiyar Vahabzadə**

Və mərmər lövhənin yolun ağzında quraşdırılmasını müvafiq idarədərdən xahiş etmişdi.

...İki rayonun rəhbəri şairin sorğusuna təəccübləndı.

- Çoxdan hazırlanıb. - dedilər.

Yolu geri qayıtmağa məcbur qaldıq. Abidəyə çatanadək icra başçısının göstərişi ilə xatirə lövhəsinin üstünə sancılmış taxta parçaları götürülür. Əvvəl təəccübləndik. Mərmər lövhəni dörd adamın görməməsi mümkünsüz idi. İşin nə yerdə olduğunu anlayıb üstünü vurmadıq. Şair də içində ağrı çəksə də, dinmədi və icra başçılarının:

- Nə qulluq göstərək, Bəxtiyar müəllim! - təklifinə bir cümlə ilə cavab

verdi:

- Mənim sizdən xahişim və istəyim odur ki, camaata çörək verin!..

Bir hal bu anadək hamı kimi məni də düşündürürdü: Bəxtiyar Vahabzadə seçgi qabağı mətbuatda çıxış edib demişdi ki, bundan sonra ancaq yaradıcılıqla məşğul olmaq niyyətindəyəm. Lakin həmyerliləri yenidən təkidlə onun namizədliyini irəli sürmüşdürlər. Şair etiraz etməmişdi. Bu, bəzi adamlarda çaşbaşlıq yaratmışdı. Əslində isə həmişə sözünü sərrast deyən, təqiblərdən, mərhumiyyətlərdən çəkinməyən B.Vahabzadənin Milli Məclisdə təmsil olunmaması ədalətə inananların ümidlərinin qırılması demək idi.

Şair özü də yaxşı anlayırdı ki, təkcə şeirlə, sözlə, teatr tamaşaları ilə xalqın çörəyini kəsənlərə qarşı mübarizə aparmaq mümkünsüzdür. Və ağsaqqal məsləhətinə tapınanlar az deyil. Namizədliyi irəli sürülən şəhərin isə problemləri o qədər çoxdur ki, insanlar ən adi şeylərdən qıcıqlanır, bütün çatışmazlıqların səbəbini başqa yerdə axtarırdılar. İşsizliyin baş alıb getməsi, su, qaz, işıqla normal təminatın olmaması bir yana qalsın, əhalini hərə bir yana çəkir, ya da yalan vədlərlə yuxuya verirdilər. Səriştəsiz şəhər rəhbərliyi bir ovuc tərəfdaşını başına toplayıb ümid toxumu səpməklə baş girləyirdi. İnsanlar həqiqətin, haqqın hər an tapdandığını görüb acizləşirdilər. İnamsızlıq və şübhəni qəsdən cücərdənlərin məqsədini anlamaq mümkün deyildi. İstəyirdilər ki, insanların problemsiz bir anı da olmasın və özləri nə yollasa, yapışdıqları kreslolardan qoparılmasınlar. Hər şeyin zülmətə büründüyünü və şərin əbədi qalibliyini zənn edənlərin, arzunu, istəyi yaddan çıxardanların çaşqınlıqdanmı, qəzəbdənmi, qərəzdənmi, bilmirəm, bəlaların mənbəyini B.Vahabzadənin adı ilə bağlamağa çalışırdılar 2000-ci ilin ərəfəsində Şəkidə vəziyyət belə idi.

Hətta bəziləri deyinirdilər ki, zülmkar icra başçısının arxasında şair durub. Həmin şaiyələri yayanlar əslində camaatı bütün müqəddəs şeylərdən narazı salanların dəyirmanına su tökürdülər. Keçən ilin oktyabrında Şəkidəki vəziyyətlə əlaqədər mətbuatda kəskin, tənqidi yazı ilə çıxış etmişdim. Əgər B.Vahabzadə icra başçısını müdafiə etsəydi, heç vaxt onunla birlikdə rayona getməyimə razılıq verməzdi. Eləcə də yadımdadır ki, bir vaxtlar əvvəlki icra başçılarını da şairlə əlaqələndirirdilər. Guya Nəzir müəllimi də B.Vahabzadə vəzifəyə qoydurub. Bu cür düşünməklə nə şəhəri bataqlıqdan qurtarmaq mümkün idi, nə də rəhbərliyin nöqsanlarını lazımı dairələrə çatdırmaq. “Məmləkət” qəzetində Valeh Yusifli adlı birisi şairə ünvanladığı açıq məktubunda bildirirdi ki, “...Sizin Şəki 43 saylı seçgi dairəsindən alternativlərinizlə bağlı ağ yalan fikirləriniz mənim bu məktubu yazmağıma səbəb oldu”. Lakin anlamaq olmurdu, müəllif “ağ yalan” deyəndə nəyi nəzərdə tuturdu? B.Vahabzadə

harda və hansı alternativi barədə fikir söyləmişdi? Əksinə şairin 75 illiyinə həsr edilən elmi məqalənin guya sifarişlə, təbliğat məqsədilə yazıldığını irəli sürməklə "ağ yalana" alternativlərdən biri əl atmışdı. Allah şahiddir ki, Şəkiyə yola düşməzdən qabaq B.Vahabzadə Respublika seçgi komissiyasının sədrinə müraciət etmişdi ki, ağsaqqallığıma hörmət qoyub namizədliyini irəli sürənlərin hamısını seçgiyə buraxsınlar. Seçgi məntəqəsinin sədrləri, yaxud icra aparatında oturanlardan kimsə, öz təşəbbüsü ilə saxtakarlıq edibsə, bunu el ağsaqqalının ünvanına yönəldib qarasınca danışmaq günahdır. Açıq məktubda daha sonra yazılırdı: "Mən özümü inandırmaq istəyirəm ki, Şəkidə Sizinlə bağlı söylənən fikirlər yalandır. Axı, nə cür ola bilər ki, H.Əliyev hakimiyyətinin mövqeyindən çıxış edəsən və Ə.Məmmədov kimi siyasi fitnəkar, keçmişi və bu günkü fəaliyyəti prezident H.Əliyevin diqqətindən yayındırılaraq saxta titullarla vəzifəyə gətirilən, mühafizə edilərək saxlanılan əqli qüsürlü bir adamın Şəkiyə məqsədli olaraq icra başçısı təyin edilməsi Sizin adınızla hallandırılsın..."

Burada aydınlaşdırılmalı məqamlar var. Birincisi, Ə.Məmmədovdan çox ölkə Prezidentini yaltaqcasına tərifləyən başqa bir şəxs tapmaq çətindir. İkincisi, hamı bilir ki, icra başçısı vəzifəsinə təyinat ancaq ölkə Prezidentinin səlahiyyətindədir. Üçüncüsü, "əqli qüsurlu adam" açıq məktub müəllifindən fakt tələb etmirsə, yazılanlara şübhə yeri qalmır. Dördüncüsü, şairin məqsədi nə imiş ki, "əqli qüsurlu adam"ı Şəkiyə icra başçısı qoydursun? Halbuki Ə.Məmmədov özünü şirin salmaq üçün bir neçə dəfə ağız dolusu söz versə də, B.Vahadzədənin bir qohumuna belə şəhərdə normal iş şəraiti yaratmamışdır. Bölgədə beş-altı ay qabaq kiminsə qələmə aldığı "Əşrəfnamə" adlı poema "Məmləkət" qəzetində göstərilənlərlə üst-üstə düşür. Səbr kasası dolanlar onu əlyazma şəklində Bakıda da yayıblar. Şəhər rəhbərliyi, nədənsə, xalq lətifələrinin, gizli bədii əsərlərin mənfi qəhrəmanına çevrildiyini görməməzliyə vurur, nəticə çıxartmaq əvəzinə toylarda şəninə sağlıqlar dedit-dirir: "Allah Ə.Məmmədovu şəkililərin üstündən əksik eləməsin". Bu qeyri-səmimi kəlmələri eşidəndə adamı xəcalət təri basır. Axırda V.Yusifli şairi "Ə.Məmmədova qulaqburması verməyə" çağırmaqla da ünvanı səhv salırdı. Ölkə Prezidentinin təyin etdiyi icra başçısına nə deputat, na də xalq şairi qulaqburması verə bilər. Şəki səfərindən qayıdanda Bəxtiyar Vahabzadədən soruşdum ki, Siz şəhərdə eşitdiklərinizə inanırsınızmı?

O, birmənalı şəkildə qəti cavab verdi:

-Nə vəzifə sahiblərinə inanıram, nə də müraciətdə deyilənlərə. Həqiqətin

düz üzü çox acıdır.

Bəli, Şəkidə haqq-ədalət tələb edənlərin də, icra aparatında işləyənlərin də öz aralarındakı qarşıdurmaya məqsədyönlü şəkildə B.Vahabzadəni qatdıqlarının şahidi olduq. Belə ki, 4-5 il əvvəl Şəkiyə sel gəlmiş, böyük dağıntılar baş vermişdi. O vaxt şair ölkə Prezidentindən xahiş etmişdi ki, dağ çayının qarşısında bənd çəkilməsinə yardım etsin, çünki fəlakət təhlükəsi vardı. Dövlət xeyli vəsait ayırdı. Bir neçə aya Şəki, Şamaxı və başqa bölgələrdən gətirilən tikinti-quraşdırıcılar pis-yaxşı bənd saldılar. O zaman hamı şairi alqışlayırdı. İndi deyirlər ki, Şəkidən işə cəlb edilən fəhlələr bu günədək əmək haqqı almayıblar, 53-dən çox ailənin yavan çörəyə olan ümidi də qırılıb. İndi onlar B.Vahabzənin qarasınca danışırlar ki, gərək o işə baş qoşmayaydı... Yaxud eşidirik ki, M.F.Axundovun ev muzeyi dağılır, şair də Bakıdakı iş adamlarından təmir üçün böyük məbləğin şəhər büdcəsinə keçməsinə nail olur. Ancaq icra başçısı müxtəlif bəhanələrlə bu işi yerinə yetirmir. Eləcə də Mədəniyyət Nazirliyi şəhər dram teatrının binasının üstünü düzəltdirmək üçün xeyli vəsait ayırır. Lakin tamaşa zalını yararlı hala salmaq üçün kasıb əhalidən - təhsil işçilərindən pul yığırlar. Söz yayırlar ki, guya bunu şairin 75 illiyinə həsr olunacaq şənlik üçün edirlər. Bəs nə oldu?.. Axı, il qurtarır, yubiley təntənəsi isə keçirilmədi... Belə iyrənc şaiyələri yayıb ehtiyacdan hövsələsini basa bilməyən imkansız adamlarla şair arasında süni uçurum yaradırlar. Və nədənsə, kimlərimsə təhriki ilə şəhərdəki bütün şər işlər B.Vahabzadənin adına calanır. Eşidirik ki, Tehran adlı iş adamı 500-1000 nəfərin daimi işlə təmin olunması üçün tədbirlər həyata keçirmək niyyətindədir. Lakin icra başçısı razılıq vermir, bildirir ki, o şəxs düz-əməlli adam deyil, camaatı şairin əleyhinə qaldırır... Çox acınacaqlıdır.

Respublikanın hər yerində böyük hörmət və izzətlə qarşılanan B.Vahabzadənin bataqlığa salınan öz doğma şəhərində ziddiyyətlərlə rastlaşmasını zamanın bəlaları kimi qəbul etmək mümkün idi. Əgər "palanı döymək" məsələsi olmasaydı. Çoxlarını bir məsələ bərk düşündürür: B.Vahabzadə hansı əqidənin sahibidir, hansı partiyaya qulluq göstərir? "Müsavatçı"lar deyirlər ki, o, bizim mövqeyimizdən çıxış edir. AXCP onu öz nümayəndəsi sayır. YAP da şairi sıralarında görmək istəyir. Lakin B.Vahabzadə partiyaların hamısından yüksəkdə dururduğunu son səhnə əsəri "Atamın kitabı"nda çılpaqlığı ilə nümayiş etdirdi. Onun düşüncəsində parçalanma, qruplara, tayfalara, dəstələrə bölünmə yoxdur. Həmişə xalqının bütövlüyü uğrunda vuruşub, indi də Vətən övladlarını birliyə çağırır. Doğrudur, müxalifət cəbhəsində duranların bəziləri qəsdən onu iqtidarın, iqtidardakılar

da müxalifətin adamı kimi qələmə verməyə çalışırlar. Məgər "Kitabi Dədə Qorqud"u, "Koroğlu"nu, yaxud Nizamini yapçılar da, musavatçılar da eyni dərəcədə sevmirlər?

Sual olunur: B.Vahabzadə deputat seçilərsə, hansı işləri yerinə yetirəcək? Əgər şair Bakıdakı şəxsi mənzilini qaçqın ailəsinə, Şəkidəki dədə-baba obasını uşaq bağçasına veribsə, şəkililərin mühüm problemlərinin də həllinə can atacağı sözsüzdür. Və seçicilərlə görüşündə xüsusi vurğuladığı kimi, dörd dəfə deputat vəsiqəsini alıb, indiyədək "səsvermə düyməsi"ni millətinin əleyhinə basmayıb. Yenə seçilsə, ancaq haqqı, ədaləti müdafiə məqsədi ilə ona barmağını toxunduracaq. İcra başçılarına gəlincə, camaata çörək versə, qarşıdurmalara şərait yaratmasa, qazanacaq... Əks halda Allah şəkililəri dözümlü və səbirli etsin... Kimlərsə öz acizliyinə görə ağsaqqalın üzünə ağ olmaqla, hansısa başçının, yaxud hər hansı bir vəzifəli şəxsin bəd əməllərini onun adına çıxıb qəlb sındırmaqla aradan qaldıracağına ümid bəsləyirsə, yanılır. Əksinə B.Vahabzadənin dediyi kimi, adamlar bir yumruq kimi birləşərək haqsızlığa qarşı birlikdə sinə gərməlidirlər.

***Ramazan Qafarlı***

## TƏRTİBÇİ - REDAKTORDAN

*Xalq şairi Bəxtiyar Vahabzadənin «Əsərləri»nin V cildinə yaradıcılığının ötən əsrin 80-cı illərini (1980-1989) əhatə edən və ənənəvi olaraq «Əlvan çiçəklər», «İnsan və zaman», «Həsrət nəğmələri», «Qəzəllər, qoşmalar, gəraylılar», «Uşaq dünyası», «Poemalar» bölmələrində toplanmış əsərləri daxil edilmişdir. Cildə, həmçinin, şairin yaradıcılığının əvvəlki dövrlərinə aid olsa da, müxtəlif səbəblərdən «Əsərləri»nin müvafiq cildlərinə düşməmiş, yaxud müəyyən naqisliklərdə çap olunmuş bəzi şeirləri də salınmışdır.*

*Janrından, mövzusundan və formasından asılı olmayaraq, bu əsərlər də Bəxtiyar Vahabzadənin bütövlükdə yaradıcılığı üçün səciyyəvi olan həyata fəlsəfi baxış tərzi, milli ruhu, mübariz vətəndaşlıq mövqeyi və cəsarəti, müasirliyi, habelə yüksək bədii məziyyətləri, canlı və zəngin obrazlı dili, bənzərsiz üslub xüsusiyyətləri ilə seçilir.*



# ƏLVAN ÇİÇƏKLƏR

*Vətəndaş! Nə gözəl səslənir bu söz.*
*Yəni – bir iqlimdə böyümüşük biz.*
*Səni də, məni də böyüdən Vətən,*
*Sənə də anadır, mənə də ana.*



## VƏTƏN VAR

Hardaysa bu dəmdə
Dəryada batan var.
Vardırsa köməksiz,
Fəryada çatan var.
Dünyada alandan
Əvvəlcə satan var.

Atəş öz-özündən
Birdən-birə yanmır.
Bir şey bu cahanda
İzsiz və səbəbsiz
Bihudə yaranmır.
Vardırsa yaranmış,
Mütləq yaradan var.
Varsansa...
özündən
Əvvəlcə atan var.

Dünya quru bir səs,
Qəm çəkməyə dəyməz.
Yüz-yüz itən olsun,
Min-min də bitən var.
Şükr eyləyəlim ki,
Bizlərdən həm əvvəl,
Həm sonra Vətən var.

*Avqust 1980*

## VƏTƏNDAŞ

Vətəndaş! Nə gözəl səslənir bu söz.
Yəni – bir Vətənin övladıyıq biz.
Anamız eynidir, qardaşıq demək.
Mən sənə arxayam, sən mənə kömək.

Vətəndaş! Nə gözəl səslənir bu söz.
Yəni – iki canda bir ürəyik biz.
Gücsüzük, bir heçik
Sən də, mən də - tək.
Vətənə güvənib olduq Vətəndaş.
Mənim ürəyimi qanatsın gərək
Sənin dırnağına dəyən çırtma daş.

Vətəndaş! Nə gözəl səslənir bu söz.
Yəni – bir iqlimdə böyümüşük biz.
Səni də, məni də böyüdən Vətən,
Sənə də anadır, mənə də ana.
Sən də cavabdehsən, mən də hər zaman
Vahid anamızın xoşbaxtlığına.

Vətəndaş! Nə gözəl səslənir bu söz.
Yəni – bir qaynaqdan su içmişik biz.
O su qəlbimizdə coşdu, qaynadı,
Eyni bir ad ilə tanıtdı bizi.
Vətənin ünvanı, Vətənin adı
Bizə xatırlatdı vəzifəmizi!

Vətəndaş! Nə gözəl səslənir bu söz.
Vətən əbədidir, gedəriyik biz.
İnsan qüdrətlidir öz vətənində.
Bilirik, dünyaya biz niyə gəldik.
O bizi yaradan, biz ona bəndə.
Yaradan uğrunda ölməyə gəldik.

*Avqust 1980*

## MÜBARƏK!

Biz zəhmətin övladıyıq,
bizi zəhmət yaratdı.
Qüdrətimiz,
Cürətimiz
bizi bizə tanıtdı.

Qanad aldıq neçə-neçə
arzudan,
İndi zaman sığışmayır
zamana.
İnsan vaxta «Dayan!» -
dedi bir zaman,
Zaman deyir indi «Dayan!» -
insana.

Zəhmətdədir hər insanın
şöhrəti,
Özümüzdən öndə gedir
eşqimiz.
Sürətimiz oldu fikir
sürəti,
Hünər ilə qabaqladıq
vaxtı biz.

Qarşımızda daha geniş
üfüqlər,
Biz dayandıq zaman ilə

döş-döşə.
Bu gün bizim çaldığımız
hər zəfər,
Sabah üçün bir pillədir
həmişə.
Bu günündən gələcəyə
siz ey körpü salanlar,
Səfəriniz mübarək!
Ey bu ana torpaqdan
üz ağlığı alanlar,
Zəfəriniz mübarək!

*Oktyabr 1980*

## PAYIZ DÜŞÜNCƏLƏRİ

Könlümdə mələdi küləklər bu il.
Qış döydü qapımı...
-Ey... gələn kimdir?
Əslində, qapımı döyən qış deyil,
İçimdən boylanan istəklərimdir.

Qaçır, yaman qaçır ağzın ləzzəti,
Əlimiz uzanıb aşa çatanda
Tökülür önünə dünya neməti,
Ömrümüz, günümüz başa çatanda.

Hələlik payızdır...
Üşüyürəm mən.
Bu dəli küləklər bəs hardan əsir?
Ömrümdən ayrılıb məni qəhr edən,
Məndən üz döndərən bahardan əsir.

Arzu yanımdadır
Ancaq mən ona
İndi yazıq-yazıq baxan olmuşam.
Endikcə könlümün dərinliyinə
Ağlın zirvəsinə qalxan olmuşam.

Boyalı dünyanı boyasız, rəngsiz
Ömrün zirvəsində dərk edirik biz.
Onda da qocalıb düşürük əldən,
Duyub yaşamağa gücümüz qalmır.
Görünür, qaydadır bu da əzəldən,

Nəsə itirmədən, nəsə tapılmır.
Əvvəllər dərk edə bilmədiyimi,
Dərindən dərk edir, bilirəm indi.
Olub keçmişlərə yad adam kimi
Baxdıqca, bu yaşda gülürəm indi.

Ağıl hissləri boğandan bəri
Könül də çox şeyə uymur, dərd budur.
Ağlın bildikləri, dərk etdikləri
Məni yaşamağa qoymur, dərd budur!

İndi dərk etdiyim, indi bildiyim
Xoşbəxt elədimi bircə an məni?
Gülsəm də, heç demə, indi güldüyüm
Köhnə əməllərmiş yaşadan məni.

O şaqraq, qayğısız günlərim hanı?
Günlər də canlıdır
Ölsə, dirilmir.
Yaş ötür, yamanca...
Sarsıdır canı
Amma ruhumuza toxuna bilmir.

Hər gün təzə uçuş... təzə bir arzu.
Dolur, təzələnir ürək günbəgün.
İnsan qocaldıqca nə sirrdir bu –
Ürək cavanlaşır arzular üçün.
İmkanla arzumuz vuruşan zaman,
Ruh – əzab çəkəndir,
Yaş – barışdıran.

*Noyabr 1980*

## YAŞAYA-YAŞAYA YAŞAMAYAN VAR

Sən bütün sulardan qupquru çıxdın
Düzəlir ən çətin işin bir anda.
Kim deyə bilər ki, bir yol karıxdın,
Məgər danışdın ki, karıxasan da...
Susmaqdır ən böyük silahın sənin
Olmadı heç zaman «günahın» sənin.

Bu boyda dünyada deyirəm, yəqin,
Nə ölən dostun var,
Nə sağ düşmənin.
Heç kəsin şərinə ortaq olmadın,
Hamının xeyrində payın var sənin.

Hər şey sənin üçün adidən adi,
Hələ heyrətini görmədik sənin.
Qəlbin bircə dəfə qımıldanmadı
Sinəndən asılan daş imiş yəqin.

Xeyirə dinmədin,
Şərə dinmədin.
Fərqi yox,
bir olsun,
ya da min olsun.
Sən bir alçaqlığa qəzəblənmədin,
Barı ucalığa heyrətin olsun.

Səfərdə arxana sən dönə-dönə,
Gah qaldın arxada,
Gah keçdin önə.
İki üzün oldu sac əppəyi tək.
Hamam fərşi kimi sürtük üzünə
Əgər tüpürsələr, donar tüpürcək.
Eşq olsun nifrəti açıq düşmənə!
Qəsdi bilinməyən dostdan əlhəzar!
Düşmənin nifrəti təkandır mənə,
Dostun soyuqluğu ürək yandırar.

«Dünyaya gəlmişik, dolanaq» - dedin.
Ancaq bir mətləbi qana bilmədin!
Yaşamaq məqsədə çevrilən zaman
Yaşaya-yaşaya yaşamır insan.

İstidən, soyuqdan qorxub həsdiyən,
İçməyə suyu da ılıq istəyən,
Yalana, böhtana qəzəblənməyən,
Haqsızlıq önündə susub dinməyən
Axı, yaşamamış bir insan kimi
Dolanmış, sürünmüş öz mədəsiyçün.
Beləsi vətəndaş ola bilərmi
İstili, soyuqlu Vətənə bir gün?

*Noyabr 1980*

## SARAY - DAXMA

*Dostum L.V.Kornilova*

Balaca bir daxma... əyri dirəklər
Doğulmuş, yaşamış Fətəli burda.
Böyüyür çox zaman böyük ürəklər
Kiçik daxmalarda, dar daxmalarda.

Qaranlıq daxmanın dar bacasından
Düşdü el-obaya bir zərrəcik nur.
Qəribə gəlməsin bu da,
çox zaman
İşıqlı fikirlər zülmətdən doğur.

Balaca daxmadan bir az o yanda
Durur xan sarayı... təzada bir bax!
İşıqlı saraydan zülmət axanda
Qaranlıq daxmadan nur axdı ancaq.

Xan öz dövranını sürdü xan kimi,
Fətəli dərd çəkdi gecəbəgündüz.
Gələcək illərə ərməğan kimi,
Xandan saray qaldı, Fətəlidən söz.

Xandan saray qaldı... xandanmı qaldı?
Hünər kimin idi, ad kimin oldu?
Dövran kül üfürür çox zaman gözə
Dedik «Xan sarayı»!.. Mənim bu sözə

etirazım var.
Tikdirən xan idi, tikən sənətkar.
Sarayın divarı, daşı xanındı
Ölməz sənətisə yaradanındı.
Xan ki ola bilməz sənətkarla tən
Biri tikdirəndir, o biri tikən.
İşıqlı saraylar yaradan insan
Yaşamış, yaratmış zülmət daxmada.
Böyük Fətəlilər, axı, çox zaman
Doğulmuş, boy atmış zülmət daxmada.

*Noyabr 1980*

## SALAM, ÖZBƏKİSTAN!

Uluqbəyin ulduzları alışdı,
Sənə məndən, mənə səndən danışdı.
Tarixlərin dolayından adlayan
Yollarımız bir-birinə qarışdı.

Şöhrətləndi qədim Sibir düzləri.
At çapdılar düz Altaydan Oğuza
Nəvainin şirin-şirin sözləri
Körpü saldı Cığataydan Oğuza.

Özbəkistan, Azərbaycan yan-yana,
Tən çıxmışıq neçə-neçə yarışdan.
Dilimizin qohumluğu bir yana,
Könlümüzü anlamışıq baxışdan.

Hər sözümüz, hər qəsdimiz bir olmuş
Eyni arzu könlümüzdə çağladı.
Bir əqidə, bir çırpıntı, bir uçuş
Səni mənə, məni sənə bağladı.

Biz bir canıq, bir vahidik binadan
Bu Vətənə o Vətəndən salamlar.
Biz bir yolun yolçusuyuq hər zaman
Sənə məndən, mənə səndən salamlar.

*1980*

## ÇƏKMƏÇİ ƏLİ

*Filarmoniya rəqqasları üçün xüsusi çəkmələr tikən Əli Əhmədova.*

Nəcabət saçılır söz-söhbətindən
Eşqi – xeyirxahlıq,
Qəsdi – məhəbbət.
Çəkməçi Əlinin tanrısı Vətən,
Dostu – sənətkarlar,
Mehrabı – sənət.

Qeyrət seli axır damarlarından,
Soyuqqanlıları o, düşmən sanır.
Çəkməçi köşkünün divarlarından
Nizami boylanır,
Sabir boylanır.

Şeir xəzinəsi – onun sinəsi
O, qəzəl öyrədir qəzəlxanlara.
Qəlbindən od alan nifrət gülləsi,
Tuşlanır qeyrətsiz «ölü canlara».

Onun sözü – sənət,
Söhbəti – şeir.
Arzuya köklənib könlünün sazı.
Bizlə çəkmə tikir, sözlə bizləyir

Nadanı,
Qanmazı,
Söz anlamazı.

Böyük arzularla o, aşıb-daşır,
Məramı, məqsədi özündən öndə.
Əli çəkmə tikir, fikri dolaşır,
Londonun, Parisin səhnələrində.
Gəzir ölkələri belədən-belə
Vətəni qürbətə çəkən çəkmələr.
Yazır ruhumuzu cəngi dililə
Uzaq səhnələrdə səkən çəkmələr.

Arzusu, məramı boy atır tel-tel,
Çaldığı iynədə qəlbi əks edir.
Qürbət səhnələrdə çəkməsi deyil,
O elə bilir ki, xalqı rəqs edir.

Bu zaman çatılır onun qaşları.
Rəqqasın rəqsini nuş edir Əli.
Hardasa səslənən gur alqışları
Balaca köşkündə eşidir Əli.

Kim ki, bu dünyada borcunu anlar,
Əmr də, fərman da nə gərək ona.
Çəkmə tikməklə də
qəlbi yananlar
Oğulluq borcunu verər yurduna.

*İyul 1980*

* * *

Dünyadan əgər hörmət umub, nəşə dilərsən,
Öz qəlbinə bax,
zülməti boğ,
nifrəti öldür.
Güldürsən əgər başqasını, sən də gülərsən.
Gülmək diləyindirsə əgər, özgəni güldür.
Bildinmi neçin, öylə gülür bağçada güllər?
Gül güldü ki, gülsün onu gördükdə könüllər.

*İyul 1980*

## DEYIRƏM, BƏLKƏ DƏ...

Çöllərə, düzlərə qırov düşəli,
Susur gur çeşmələr,
Susur dağ-dərə.
Susuram...
              Elə bil sarı şüşəli
Gözlükdən baxıram biçənəklərə.

Haraylı-həşirli yallar, yamaclar
Dumana bürünüb yuxuya daldı.
Deyirəm, bəlkə də yaşıl ağaclar
Qışın dəhşətindən qorxub saraldı.

Düzüldü qatara durna dəstəsi,
Aranın əlləri üzüldü dağdan.
Yaşıl ağacların qalın kölgəsi
Hardasa gizləndi qorxub soyuqdan.

Səsi həzinləşdi bulaqların da,
Payız başdan-başa düşüncə, fikir.
Çılpaq ağacların budaqlarında
Qərib yuvaların gözü yol çəkir.
Atılan necə tez unudulurmuş.
Vətəndə yuva də qərib olurmuş.

Dağda cığırlara düşən xal nədir?
Çalıb qamçısını göydə yellədir.
Çırpır xəzəlləri

Xəzan yelləri...
Çöllər saçlarına xınamı qatmış?
Yaşımız zamanla necə uyuşdu.
Mənim sevgilimin payıza çatmış
Xınalı saçları yadıma düşdü.

Dövranı başlanır qəmin, möhnətin
Yazın növrağını dağıdır payız.
Həm insan ömrünün, həm təbiətin
Kamala yetişən çağıdır payız.

Yaman qənimidir zaman insanın,
Arzunu xəyaldan uman insanın.
Dünyanın dərdiylə dolan insanın
Köksünü boşaldan ahıdır payız.

*Noyabr 1980, Mərdəkan*

## USTAD ŞƏHRİYARDAN SÜLEYMAN RÜSTƏMƏ

***(Məktuba cavab)***

*Biz bir dərya qan vermişik,*
*Zindanlarda can vermişik.*
*...Mən də təkəm, sizə qurban*
*Tək canım hamuza qurban.*

**Şəhriyar**

«Qan verdiniz», «can verdiniz»,
Siz qan səpib od dərdiniz.
Gücünüzü göstərdiniz
Haqqınızı yeyənlərə –
Bir əsrdə neçə kərə.

Dərdinizə biz yanırıq,
Sizi anır, hey anırıq
Gələcəyə inanırıq.
Birləşəcək ya gec, ya tez
O ayrılan əllərimiz.

Nahaq deyil axan qanlar,
Verdiyiniz o qurbanlar.
Fədailər, qəhrəmanlar
Öz qanını «varam» - deyə
Beh də verdi gələcəyə.
Azadlığın dəyəri – qan,

Yoxdur onu satan, alan.
Öz qanına qəltan olan
Heç demədi can bahadır.
Verdiyi beh sabahadır.

Gah gözlədin sən fürsəti,
Gah səslədin ədaləti,
Gah hünəri, cəsarəti
Səbr əlində qul eylədin.
Nifrətini büleylədin.

Qurban olum «qardaş» - deyən
«Heydərbaba» dilinə mən.
Ağsaqqalsan elinə sən
De, Səttaram, de, Babəkəm,
Demə «təkəm», demə «təkəm»!

Bir oğluyuq bir obanın
Mənim qanım – sənin qanın.
Səhəndin, Heydərbabanın
Qardaşıyam – Şah dağıyam
Arxasıyam, dayağıyam.

Xudafərin körpüsündən
Keçəmmirik nə sən, nə mən.
Hələ ordan keçə bilən
Şeirimizdir, gedər, gələr,
Aramızda körpü salar.

Yaşamadıq biz yad kimi,
Uçduq qoşa qanad kimi.

Sənin şəklin ustad kimi,
Asılıbdır otağımda.
Şeirlərin dodağımda.

Hər sitəmə sinə gərdin
Qəlbimdədir sinə dərdin.
Mənə salam da göndərdin
Salam olsun salamına –
Ana dilli kəlamına.

Sən ötürsən şirin-şirin,
Dərdlərini o ellərin.
Yaralanan könüllərin
Məlhəmisən, dərmanısan,
Ümidisən, gümanısan.

Daim görüm səni öndə,
Ellərimin düyünündə.
Övladımın toy günündə
Sən olasan masabəyim.
Mən o zaman «oxqay» deyim.

*1980*

## EYNİ YAŞDAYIQ

*1981-ci il yanvarın 23-də ustad Şəhriyarla telefon söhbətimiz münasibətilə.*

Telefon telləri, sizə bu axşam
Həsrətin nə boyda ehtiyacı var.
Xəttin bu başında mən dayanmışam,
Xəttin o başında ustad Şəhriyar.

Dilim qabar-qabar,
Ürəyim köz-köz
Vüsala əsrlik həsrətdən açam.
Səsimi aparın Şəhriyara siz,
Telefon telləri, sizə möhtacam.

Üzünü görmədim hələ bircə an,
Nisgilə döndərdi bu nisgil bizi.
Ancaq əlli ilin dost-tanışından
Yaxşı tanıyırıq bir-birimizi.

Həsrət gözlərimdə həsrət gözlərin,
Həsrətin zülmündən kasa dolubdur.
Dərdlərdən söz açan dərdli sözlərin
Bu gün dərdimizə dərman olubdur.

Çox uçduq ardınca fikrin, xəyalın,
İndi də əməlin zamanı gəlmiş.
Vahid bir torpağa haqqı olanın
Tük kimi bir telə gümanı gəlmiş.

Özüm tel olaydım, açaydım qanad,
Səninlə duraydım üzbəüz indi.
Özümüz görüşə bilmədik, ustad,
Səsimiz görüşdü...
qəlbimiz dindi.
Məndən xəbər aldın: - Neçə yaşın var?
Yaşımı söylədim,
Dedin: - Min alqış!

Dedim: - Nəyə alqış, ustad Şəhriyar?
Dedin ki, cavansan, sən mənə baxmış.
Arzum göyərmədi, keçibdir yaşım
O gözəl günləri sən gör, qardaşım.

Doğrudur, bir deyil bizim yaşımız,
Ancaq yaşa vurma ötən illəri.
Eyni ağrılarla yaşamışıq biz.
Ayrılıq dərdini o vaxtdan bəri.

Bizi birləşdirir eyni bir Vətən
Bu uzun ayrılıq bəs nədir, ustad?
Dərdimiz birdirsə dövrü-qədimdən
Bizim yaşımızda eynidir ustad.

Dərdimin yaşıdır mənim öz yaşım,
Biz bir arzudayıq, bir təlaşdayıq.
Sənin göz yaşındır mənim göz yaşım,
Dərdimiz birdirsə, eyni yaşdayıq.

Bizim bir kimsəyə qərəzimiz yox,
Biz iki qardaşıq, bir anamız var.

Bir böyük torpağın iki oğluyuq,
Orda Şəhriyaram, burda Bəxtiyar.

Biz öz haqqımızı əgər qanmasaq,
Kimdir son mənzili bizə göstərən?
Dediyin günlərə qanadlanmasaq,
Nədən ilham alıb yazardıq, görən?

Zamanın qəribə oyunları var
Dünən dağ dediyin uçulur bu gün.
«Mənəm, mənəm!» deyən imperiyalar
Dünənki quluna qul olur bu gün.

Kim deyə bilərdi odsuz yaş ağac
Tutuşub yanacaq külün içində –
Min il qürur ilə başda gəzən tac
Ayağa düşəcək bir gün içində?

Zülm də, zalım da çəkilir dara,
Dünyada hər dərdə əncam çəkilmiş.
Vaxt özü döndərir mıxı mismara
Vaxtın yazdığını kim poza bilmiş?

Dərs varmı tarixin dərsindən artıq?
Bizi tapdadılar, yenə cücərdik.
Əgər özümüzə inanmasaydıq,
Uçrum dərələrdən necə keçərdik?

İnamdır yaşadan bizi, ey ustad
O bizi yaşatdı, biz də arzunu.

İnam ölməyibsə qurtarmır həyat,
Həyatın sonudur inamın sonu.

*Yanvar 1981*

## NƏ ONDANSAN, NƏ BUNDAN

*«Sizdənəm, yəni azərbaycanlıyam. Amma ana dilimi bilmirəm. Dilimi öy rənmək üçün mənə dərslik göndərin»*

**Güney Azərbaycandan gələn bir məktubdan.**

Yad dildə məktub yazıb qardaş, öz qardaşına,
Bu məktubu oxuyan nə kül töksün başına?!
Hökmünə bax həsrətin,
Hökmünə bax zillətin!
Bəs anası yox imiş bu zavallı millətin –
Bir əmcəkdən süd əmən əkiz övladlarına
öz dilini öyrədə?
Bir yuvadan uçurub, bu uçuşu seyr edə?

Məktubunu oxudum, yazırsan ki: «Sizdənəm,
Ancaq mən öz dilimi bilmirəm, bilmirəmsə,
Necə deyim mən mənəm»?
Çox gözəl etirafdır!
Səhvini anlayanı düz olmazdı danlamaq,
Günahını azaldır, günahını anlamaq!
Bu yaradır,
Bu yerdə yarılanır bu yara.
Nə deyək, nə ad verək
Dilini bilməməklə öyünən nadanlara?
Haqlısan...

Bizdən olub,
ey bizliyindən dönən,
Səni mən bağışlaram, bağışlarmı bəs Vətən?
Bilmirsənsə dilini, sən Vətənin üzünə
istəmədən ağ oldun.
Sən özünə bir ögey, özgəyə yamaq oldun.
Bu halınla
sünbəyə
nə toxmaq,
nə də, qardaş,
tüfəngə çaxmaq oldun.
Sən çıxmaq istəsən də özgənin əfsunundan,
Nə ondansan, nə bundan!

Bilsən də yad dilini lap yadın özü kimi,
Səni doğma bildimi?
Bilməyib, bilməyəcək!
Ona «can qurban» desən,
o, haqqını yeyəcək.
Ürək qızdırmayacaq sənə «özgəsən» - deyə,
Sənin özününkü də satılmış biləcəkdir
qardaşını özgəyə.
Yazırsan: «Dəyişmişəm,
Başqa gözlə baxıram indi bütün hər şeyə.
Mənə dərslik göndərin dilimi öyrənməyə».
Dərslik?
Bu nə deməkdir?
Kitablardan nə səmər?
Axı, ana dilini anadan öyrənərlər.
Anan bunu etmədi,
O sənə öyrətmədi

Anasının dilini.
Anan sənə öyrətdi ağasının dilini.
Öz doğma övladına doğma ana dilini
Öyrətməyən analar,
Bəs ana adlanmağa sizin haqqınızmı var?
Dilinizi danırkən,
özünüzü dandınız!
Ancaq bu alçaqlığı siz ucalıq sandınız.
Ey kökündən ayrılıb öz-özündən qaçaqlar,
Əmin olun,
sizi də bir zaman danacaqlar!

*Fevral 1980*

* * *

Böyük arzuları xəyalmı saydıq?
Xəyal arzu ilə tarazdı, qardaş.
Arzu qanadında biz uçmasaydıq
Dünyanın özü də olmazdı, qardaş.
Güvənək,
Öyünək bu halımıza
Arzu da borcludur xəyalımıza.

*Yanvar 1980*

* * *

Bir anın içində dəyişir halım.
Sıxılır ürəyim...
                    Niyə? – bilmirəm.
Haldan hala düşür təbim, əhvalım.
Amma niyəsini deyə bilmirəm.

Qatı zülmət enir könlümə bir an.
Birdən işıq düşür,
                    bilmirəm, niyə?
Birdən ürəyimdə qol-qola yatan
Duyğular döyüşür…
                    bilmirəm, niyə?

Siz deyin, siz deyin, birəm, ya iki?
Yoxsa, duyğum qədər, yüzəm, minəm mən?
Hardan gəldiyimi bilirəmmi ki,
Baş aça biləydim özüm-özümdən?

*Fevral 1980, Ağdaş*

## BAHAR HƏSRƏTİ

Lənət oxuyurdum yağışa, qara
Baharçın darıxıb köks ötürürdüm.
Baxdım budaqlarda tumurcuqlara,
Əyilib dibində bənövşə gördüm.

Cumdum otağıma…
Mən çoxdan bəri
Yazmırdım…
Sinədə laldı duyğular.
Bağlayıb qapını, pəncərələri,
Yazdım: «Xoş gəlmisən, bahar, ay bahar!
Gəl, gəl ürəyimi dilə gətir sən.
Dolsun ürəyimə ılıq nəfəsin,
Şeirimdə nəğmələş sətir-sətir sən».
Şeir burda bitdi…
                «Bu nədir?» - dedim.
Çalışdım,
Ardını yaza bilmədim.
Könül tərpənmədi,
                Könül dinmədi.
Bahar sözlərimdə
                nəğmələnmədi.

Birdən qulağıma gəldi bağçadan
Bülbülün cəh-cəhi, bülbülün səsi.
Hələ açılmayan gülün eşqinə

Baharı səsləyir onun nəğməsi.
Bu səsin oduna əriyib axdım
Qapayıb dəftəri bağçaya çıxdım.

Bozumtul havadan gördüm ki, dən-dən
Çılpaq budaqlara ələnir bahar.
Duydum ki, bülbülün cəh-cəh səsindən
İndi ürəyimə çilənir bahar.

Onun səsindəki yanğı nədir, nə?
Bu həzin nəğmədə nəsə deyir o.
Gülü vəsf eləmir, gülün eşqinə
Həsrət nəğmələri bəstələyir o.
Bülbül vəsf eləmir, bülbül ağlayır,
Onunçun nəğməsi sinə dağlayır.

Qələmi yerə at, ey könül, dayan,
Yanğısız nəğməyə nəğmə deyilməz.
Özü alışmayan, sözü yanmayan
Nəğmələr bir qəlbi yandıra bilməz.

Bahardan nə desin, nə desin bu gün
Bahar həsrətilə yanmayan ürək?
Sözümü bahara çevirmək üçün
Özümü həsrətə çevirəm gərək.

*Mart 1980, Yalta*

## DAĞDAN AŞAN GÜN

Gəncləşmək istədin…
Tapdın əlacı.
Xislətin dəyişdi,
                    belə deyildin.
Əhsən!
Altmış ilə ağaran saçı
Bir günün içində qaralda bildin.

Saçını qaraltdın.
                    Yaxşı,
                              bəs sonu?
Həmişə qalammaz qılınc da qında.
Sən ağ saçlardakı zəhmət nurunu
Boğdun niyyətinin qaranlığında.

Qaraldı cığalı o burma tellər
Gəncləşə bildinmi?
                    Sən bunu söylə.
Rəng ilə özgəni aldatdın,
                              Yetər!
Aldada bildinmi özünü, söylə?..
Kişiyə nə gərək
Yaraşıq, bəzək?

Yaşın kiçilmədi,
Özün kiçildin.
Bəzəyin, düzəyin kara gəldimi?

Saçının rəngini dəyişə bildin,
Qocalıq gəncliyə dəyişildimi?
Bir yol var: İrəli!
Mümkünmü geri?
Çoxu saç ağartdı bu sevdalarda.
Qaytara bilsəydik rənglə illəri,
Boya tapılmazdı dükan-bazarda.
Yetmişdə yorğalıq?
        Çətindir, çətin!
Kösöyün təzədən alovlanması.
Gülüncdür, sənin tək atdan düşənin
Özünü yenə də atlı sanması.
Sönən bir ağacın tüstüsü nəymiş?
Dağdan aşan günün istisi nəymiş?

Hələ sönməsə də eşqin, həvəsin,
«Sonası ovlanan gölsən», qadası!
Gülüncdür, güləşdə yıxılan kəsin
Məğlub olduğuna inanmaması!

Sən indi özünlə yarışmalısan,
Vaxt ilə güləşmə bu qoca sində.
Zamanın hökmüylə barışmalısan,
Bunu istəsən də, istəməsən də…

*Fevral 1980, Ağdaş*

## ÖZ DÜNYAM MƏNİM

*Cərrahi əməliyyatla gözlərini açmaq istəyən həkimə Aşıq Veysəl demişdir: «Gözlərim açılsa, mənim öz dünyam yıxılıb gedər. Buna razı deyiləm».*

Qəzadan, qədərdən hələ uşaqkən
Gözləri tutuldu aşıq Veysəlin.
Getdi arxasınca, o getdi erkən
Qəlbində yaxdığı odun, məşəlin.

Zülmətə nur saçdı bir məşəl təki,
Eşqini göz bildi, nur sandı Veysəl.
Zülmətə göz yumub, öz qəlbindəki
İşıqlı dünyaya qapandı Veysəl.

-Gözünü açarıq – dedi – həkimlər,
O razı olmadı əməliyyata.
Dedi: - korluğumla bir zərrə qədər
Küskün deyiləm ki, mən bu həyata.

Dünya necədirsə, qoy olsun elə.
Amandır, məni də rahat qoyun siz.
Mənim öz qəlbimdə, öz ürəyimcə
Qurduğum dünyaya toxunmayın siz.
Ən şirin, ən gözəl diləklərimdən
Səltənət qurmuşam öz qəlbimdə mən.
O, mənim xəyalım, o, mənim röyam.
Mənim öz dünyama tapılmaz əvəz.

Bunu bilirəm ki, xəyali dünyam
Sizin dünyanıza əsla bənzəməz.
Dünyam dünyanıza əgər tay olsa,
Solar içimdəki gülüm, gülşənim.
Ondan qorxuram ki, gözüm açılsa,
Dağılıb yox olar öz dünyam mənim.

Dayazı görmürdü kor baxışları,
Dərini görürdü... Onun nə dərdi!
Çərdəkdə ağacı, çiçəkdə barı,
Baxışda ürəyi görə bilirdi.

Zülmətə nur saçdı bir məşəl təki,
Eşqini göz bildi, nur sandı Veysəl.
Zülmətə göz yumub, öz qəlbindəki
İşıqlı dünyaya qapandı Veysəl.

Min şeir yatırdı hər nəfəsində,
Bülbül tək ötürdü gül həvəsində.
Çiçəyin ətrində, quşun səsində
Yatan mənaları tapandı Veysəl.

Odu suda gördü, xeyiri şərdə,
Sevincin sirrini tapdı kədərdə.
Gözlünün yəhərdən aşdığı yerdə
Atını dörd yana çapandı Veysəl.

*1980*

## ƏL-ƏLƏ, QOL-QOLA

Yenə cökələrin arasındayam
Başımın üstündə tənək talvarı.
Alışır çiçəklər bağçada şam-şam
Ətirlə doldurur əsən rüzgarı.

Çiçəklər doydurur kəpənəkləri,
Şehlə şirələnir hər sarı tel də.
Arxa səpələnir gül ləçəkləri
Damcılar güllənir balaca göldə.

Dağın zirvəsində saçaqlanan gün
Qızıl tellərini səpir çəmənə.
Yenə səhər-səhər görüşmək üçün
Gendən əl uzadır yarpaqlar mənə.

Torpaqla,
ağacla,
güllə,
böcəklə.
Bir qatar boyunca silsiləyik biz.
Ana təbiətlə, deyirəm, hələ
Yaxşı ki, qol-qola,
Əl-ələyik biz.

*İyul 1980, Şəki*

## ÜLKƏR ƏFSANƏSİ

*Atası Ə.Kürçaylının ölüm xəbə rini eşidən kimi intihar edən qızı Ülkərin xatirəsinə.*

Bir anlıq sarsıntı,
Dözmədi ürək.
Qəza birdən gəldi, bir tufan kimi.
Bir ömrü yandırdı,
Bir ani şimşək
Bütöv bir meşəni yandıran kimi.

Hər şeyin dəyəri varsa, bəs hanı?
Müsibət törətdin müsibətindən.
Bu ölüm, de, nəyə dəydi?
Atanı
Yaşada bildinmi ölümünlə sən?

Sən yandın bir anda,
Dandın hər şeyi
Bu yaşda dünyadan usanmış kimi.
Yolunda özünü qurban verdiyin
Atan bu ölümə qol çəkərdimi?

Ata ölümünə dözməyib yəqin
Atasız dünyanı sən istəmədin.
Bəlkə haqq verərdik,
əgər atanı
Yaşada bilsəydi ölümün sənin.

Həyatın naminə ölmək bir əzm!
Bu yol müqəddəsdir, bu yol uludur.
Sən həyat naminə ölmədin, qızım,
Sən ölüm naminə öldün, dərd budur!

Dünyada hər şeyə yumub gözünü
Unudub özünü, danıb özünü
Yalnız başqasını düşünən zaman
Qalxır insanlığın fövqünə insan.
Bax, bu böyüklüyün, bu cürətindir
Məni də, ay qızım, belə sarsıdan.

Səni düşünəndə, kökü dananlar,
Ata kölgəsində xumarlananlar,
Durur göz önümdə bircə anlığa.
Yalnız, bax, bu zaman fədakarlığın
Yüksəlir, a qızım, qəhrəmanlığa.

Atan şeir yazdı vətənə, elə
Vətəni hay verdi onun səsinə.
Sənsə şeirlə yox, öz ölümünlə
Ucaldın atanın səviyyəsinə.

Bir kam almamışdı hələ dünyadan
Bəs niyə ölümə can atdı Ülkər?
Verib öz ömrünü ataya qurban
Öz qısa ömrünü uzatdı Ülkər.

*Fevral 1980*

## TARAS ŞEVÇENKOYA

Dünyaya gələli düşdü zillətə,
Taras öz yurdunda əsir doğuldu.
Elə buna görə mütləqiyyətə,
Zülmə, əsarətə o, qənim oldu.

O, zülüm görəndə ögey anadan
Qaçdı təbiətin ana qoynuna.
Böyük şairlərə nədən, hər zaman
Həyat ögey oldu, təbiət doğma.

Düşündü: kiməsə, bilmirəm, niyə
Həm özüm,
Həm yurdum əsir olmalı?
Axı, kim haqq verdi bu köləliyə?
Qaldı ürəyində onun sualı.

Tökdü vərəqlərə cavabsız qalan
Bütün sualları o, birər-birər.
Dillərdə şüara döndü...
                    Bir zaman
Qəlbində közərən dərdli sətirlər.

Tarasın sahibi qorxmadı haqdan
Üzdə səcdə qıldı allaha, dinə.
Ancaq o bilmədi, ona qul olan
Hakim kəsiləcək xalqın qəlbinə.

Onun qələminə heyran qaldılar,
Onu sahibindən satın aldılar
İki min beş yüzə bir əşya kimi...
Dedilər: «Azadsan»...
-Bəs Vətənimi
Kim azad edəcək, deyin, kim? – deyə
Yazdı...
Yazdıqları döndü nəğməyə.

Yazdı, mən bilirəm, azadlıq nədir,
Mən seçə bilirəm dostdan düşməni.
Xalqım nə qədər ki, əsarətdədir,
Mənə azad deyən, tanımır məni.

Xalqın azadlığı bir qəlbə döndü,
Bir qəlb min sinədə yandı, döyündü.
Gəldi bir şairin səsi min yerdən,
Onu həbs etdilər,
Onu əzdilər,
Böyük olmasaydı rütbəlilərdən,
Onu qəsdən belə «kiçiltməzdilər».

Həbsdə susmadı, yenə – döyüşdü,
Çıxıb əsarətdən zindana düşdü.
Zindan kəsəmmədi yolunu şeirin,
Bədəni sürgündə, sözü vətəndə.
Sözü «Vətən» olan vətənpərvərin
Sözüylə bərabər özü Vətəndə...
Sənət bir sirrdir, uludan ulu,
Yolunu kəsdikcə gen olar yolu.

Payız sazağında,
dumanda,
çəndə
Qaydadır, zillənər göz dərinliyə.
Fikrin qabağına daş gillədəndə
İşləyər həmişə söz dərinliyə.
Şeiri yaradan da baş açmır ondan,
Qəsdən alçaltdıqca ucalar sənət.
Məhdud edildikcə, məhdudluğundan
güc alar sənət.

Dünyaya gələli düşdü zillətə,
Taras öz yurdunda əsir doğuldu.
Elə buna görə mütləqiyyətə,
Zülmə, əsarətə o, düşmən oldu.

*1984*

## YUNUS İMRƏYƏ

-Bir yerdə ölüb, bəs, niyə min yerdə doğuldu?
-Eşqində yanırkən yenidən bir də doğuldu.
-Şeirindəki hikmətli sətirlərdə doğuldu.

-Bir yerdə ölüb, bəs, niyə min yerdə məzarı?
-Hər gün qazılır çünki könüllərdə məzarı.
Otlarda, çiçəklərdə və güllərdə məzarı.

-Əfsanəmi, gerçəkmi? Bu insan, necə insan?
-Varlıq səsidir, qopmuş o, türkün qopuzundan.

*Oktyabr 1985*

## ABDULLA TUKAYA

Dünyanı işıqlatmaq üçün qəlbini yaxdın,
Şimşək kimi çaxdın.
Qəlbin alovundan axan amal işığında
Sən əsrinə baxdın.
Çəkdin on ömürlük yükü sən bircə ömürdə
«Xalqım» - deyə xalq ömrünə ulduz kimi
axdın.
Vaxtında doğuldun...
Niyə getdin belə erkən?
Xalqın böyük övladı bu dünyaya gəlirkən
Xalqın özü oğluyla bərabər yenə təkrar
Dünyaya gələrmiş.
Xalqın kif atan fikrini qeyrətli bir övlad
Fikriylə və eşqiylə, inandım, təzələrmiş.

*1985*

* * *

Bulud əllərini açır çöllərə
Düşəndə çiskinə, borana dağlar.
Öpür qayaları, öpür daşları
Bala sevgisiylə o ana dağlar.
Nə yaman qışqırır sular dərədə,
Səfərə çıxıbdır arana dağlar.

*1986*

## SOVETLƏR BİRLİYİNİN XALQ DEPUTATLARINA AÇIQ MƏKTUB

Sənə səs verdim ki, yoldaş deputat,
O yüksək kürsüdə səsin gur olsun.
Sənə öz səsimi vermədim ki, mən,
Qulağın kar olsun, gözün kor olsun.

Sənə səs verdik ki, hər qarış yerin
«Əzəli sahibi mənəm», - deyəsən.
Sənin torpağına göz dikənlərin
Dərsini verməkdən çəkinməyəsən.

Sənə səs verdik ki, elin, obanın
İstəyi, arzusu gəldin səsindən.
Bar-bar bağırasan: suyun, havanın
Millətin kökünü çürütməsindən.

Dedinmi bunları?
Yox! Bir dinsənə!
Sənə şəklənmişdi qulaqlarımız.
Ağzına su alıb susdun... Bəs sənə
Millətin vəkili necə deyək biz?

Xalqını söydülər, üzünə qənşər,
Sən susdun...
Vəzifən susmaqmış məgər?
Xalqın şərəfini qorumayan kəs,

Millətin vəkili necə oldu bəs?
Susmağa göndərdim məgər mən səni?
Ora getməmişdin sən əsnəməyə.
Sən ora getmişdin xalqın dərdini,
Xalqın arzusunu açıq deməyə.

Lal gedib, lal gəldin... sən kimsən bu gün?
Xalqın vəkiliykən, xalqa yad oldun.
Yoxsa, dinməməyi bacardığınçün
Bu xalqın adından deputat oldun?

Biz öz haqqımızı bilmədik yenə,
Heç demə, millətin vəkilliyinə
Aşkarlıq dövründə lal-kar gərəkmiş.
Bizə aşkarlığı inkar gərəkmiş.

*İyul 1989*

## QANMAQ İSTƏMƏZ

Başa keçən başı boş millətə qan qusdurur,
Aşkarlıqdan dəm vurur, danışanı susdurur.
Köhnələri uçurub, sözdən imarət qurur,
O, millətin dərdini bir an qanmaq istəməz.

Bir təməlsiz mehraba ömrü boyu baş qoyan,
Eşitdiyi hər təzə fikrə, sözə quş qoyan,
Qırx il bundan əzəlki şüarlarla yaşayan
Köhnə yolu, vərdişi bu gün danmaq istəməz.

Cəhaləti çox olur savadlı cahillərin,
Onlar xəbərsizdilər tələbindən illərin.
Cəhalət girdabında yuxuları çox dərin,
Cəhalət yuxusundan heç oyanmaq istəməz.

Vəzifə paltarını geyən kimi əyninə,
Millət üz üstə düşsün, gəlməz onun eyninə.
Vətən, millət qayğısı batmaz onun beyninə,
Rütbə siyahısından qaralanmaq istəməz.

Ağasının yanında hörmət qazanmaq üçün
Millətinin başında qoz sındırır o, bu gün.
Arxasını kənarda tapan bu bic tünbətün
Millətin kölgəsinə daldalanmaq istəməz.

Abrımızı qoruyub biz günahkar olmuşuq,
Gözləri kor, dili lal, qulağı kar olmuşuq.

Bir zamanlar axı biz, ər oğlu ər olmuşuq.
Yaddaş öz dünənini niyə anmaq istəməz?

Dərdinin şiddətindən oyum-oyum oyulan,
Hər işdə haqlı ikən, hər işdə haqsız olan,
Yurdundan, yuvasından ilim-ilim qovulan
Qardaşının dərdinə qardaş yanmaq istəməz.
Beş addım irəlini görmürük, dumandayıq,
Dənizdəyik, bilmirik, hara gedir bu qayıq.
Həmişə gumandayıq, elə bir zamandayıq,
Qanan görmək istəməz, görən qanmaq istəməz.

*İyul 1989*

## BABA-NƏVƏ

Niyə nəvəsini çox sevir baba?
Oğul istəyirəm bu sualıma
Düz cavab tapa...

Arxaya baxanda nəvələrimi
Atam, anam sanır,
          eyirəm nə qəm!
İrəli baxanda – sonsuzluq kimi
Nəvəmi özümə əvəz bilirəm.

Bu sonu puç dünya çünki hər zaman
Gözünü sabaha dikənlərindir.
Bizi əvəz edən övladımızdan
Övladın əvəzi daha şirindir.

Babadan nəvəyə nəsil – bir axın!
Zəncirdə son həlqə odur, ilksə mən.
Nəvələr babaya övladdan yaxın –
İlklə son birləşir ağacı əysən.

*1988*

## MƏN BELƏ DÜNYAYA
## NƏ DEYIM INDI

Gözümün önündə haqqı döyürlər,
Qışqırır, səsinə bir səs verən yox.
Zorun arxasında elə gizlənib,
Onu nə eşidən, nə də görən yox.

Gözümün önündə haqqı danırlar,
Qışqırır, sözünə bir inanan yox.
Haqsız şivən çəkir, tez inanırlar,
Haqlının haqqını niyə qanan yox?

Gözümün önündə haqqı yeyirlər,
Haqqı yüzlüklərlə şilləleyirlər.
Fəryad qoparıram, aman, qoymayın,
Haqqı öldürürlər, ona qıymayın!

Məni dinləyirlər... amma duyan yox,
Haqqın hüququnu bir qoruyan yox.
Əlimdən nə gəlir yanmaqdan özgə –
Haqqın haqlığını qanmaqdan özgə.

Ürəksiz, candərdi məni dinləyir,
Cibi ürəyindən yüzqat ağırlar.
Tapdanan onların haqqımı? Xeyr?
Onda fəryadımın nə mənası var?!

Nahaq haqq olanda haqq da haqq deyil,
Mənim fəryadımdan, axı, nə fayda?

Haqqın tapdanması, vallah, elə bil
Adicə qaydadır, adicə qayda.

Haqqın haqqı yoxdur «Mən haqqam» - desin,
Doğrunun üstünə zor kəkələndi.
Əyrinin önündə doğru titrəsin?
Mən belə dünyaya nə deyim indi?

*Yanvar 1989*

## DİN

*Ə.İmamverdi müəllimə*

Ləpələndikcə könül,
Açılır, çin-çin olur.
Dibə endikcə könül
Tutulur, bədbin olur.

Daşa dəydikcə oxum
Gümanım min-min olur.
Şükür olsun ki, yuxum
Yenə hərdən çin olur.

Zülm artdıqca neçin
Şərə meydan gen olur?
Bizi daim yaşadan
Od özü xain olur.
Yolu allahdan uman
Kim deyir miskin olur?

Həyat – onsuz da qəliz...
Əl açırkən göyə biz
Soyuyur nifrətimiz
Odumuz təskin olur.

Yola düşmüşsə düyün,
Acı talelə bu gün
Ola bilmir barışıq,

İşimiz qat-qarışıq.
Bizə zülmətdə işıq
Yenə, vallah, din olur.

*Oktyabr 1981*

## ƏBƏDİYYƏT

*Tapmışam,*
*Səsmiş əsl əbədiyyət.*
**Qabil**

Səslər əbədimi?
Bu, bir bilməcə!
Səcdəyə qalxsaq da müqəddəsləri
Yer özü əbədi deyil,
bəs necə
Əbədiyyət olur yerin səsləri?

Axtarış özü də başqa bir giley,
Təsəllin – ölümlə son barışındır.
Dünyada əbədi olan təkcə şey –
Sənin əbədiyyət axtarışındır.

*Fevral 1989*

* * *

Öz dərdin özünə böyük göründü,
Dərdinin əlacı dərdinə döndü.
Bir toyda, bir yasda sən yana-yana
Danışıb dərdini yaydın hər yana.
Özgənin dərdinə daim tüpürdün,
Dünyada sən ancaq özünü gördün.
Əgər adamsansa...
Boğub içindəki «mən», «mən» səsini,
Özünlə bərabər gör özgəsini.

*İyul 1989*

* * *

Tələsə-tələsə yol gedirik biz,
Bir ömür yolunu başa vurmağa.
Bu yollar nizamsız, qanun-qaydasız
Burulur gah sola, dönür gah sağa.

Keçilən cığırlar dərə-təpəydi,
Qarşı da elədir, elə sərasər.
Özünə bənzətdi, bizi də əydi,
Hər gün keçdiyimiz yollar, döngələr.

Nəyisə arayar, nəyisə izlər,
Əyri cığırlardan keçənlər hələ.
Bu əyri döngələr, bu əyri izlər
Dedik, çıxmalıdır axır düz yola.

Düz yola çıxmadıq, qarşı – dağ-dərə,
Yollar əydi bizi, biz də əyildik.
O qədər öyrəşdik əyintilərə,
Bu əyri yolları biz qayda bildik.

Hələ çıxmasa da yollar düz yola,
Düzü heç olmasa əyridən seçək.
Qorxum ondadır ki, yollar düzələ,
Biz yenə düz yolu əyilib keçək.

Qorxuram düşməyək vərdişimizdən,
Ayrıla bilməyək biz, yenə bizdən.

*İyul 1989*

* * *

Bermud üçbucağı, yaxud qar adam,
Möcüzə sayılır bu gün, möcüzə.
Sabahsa tapılar elə bir adam,
Onların sirrini faş edər bizə.

Elə möcüzələr var ki, ürəkdə,
Sirri axıradək açıla bilməz.
Ürəyin tərkinə varmaz fələk də,
Sirrinə göy sirri tay ola bilməz.

Fitrətin zahiri aldadır səni,
Min hiylə yatırmış haqq-salamda.
Qırx ildə tanıya bilmədiyini
Bəzən tanıyırsan bircə məqamda.

Əslini bilmirik, vallah, heç nəyin,
Neçə il «can» deyib, «can» eşitdiyin
Sənə düşmən olur bir an içində.
Yüz insan yaşayır insan içində.
Heç kəsin cövhəri görünmür gözə,
Deyərdim, bax budur əsl möcüzə!

Məzluma zülmdən həzz alır insan,
Görünməz astardan üz alır insan.
Beləsi bir üzdə on üz gəzdirir,
Qapıdan qovursan, bacadan girir.
Axı, necə sığır on üz, bir üzə?
Bax budur, bax budur əsl möcüzə!

Səndən yuxarıya şikayət yazan
Səninlə oturur hər gün üz-üzə.
Göylərdə möcüzə axtaran oğlan,
Yerdədir, yerdədir əsl möcüzə.
Heç kəsin cövhəri görünmür gözə,
O, məqam gözləyir, o, yalnız məqam.
Heç demə, deyilmiş əsl möcüzə,
Nə Bermud bucağı, nə də qar adam.

Qəlbin astarıdır, qəlbin öz üzü,
Adicə bir təkan ona bəs imiş.
Bu gün insan üçün insanın özü
Dünyanın ən böyük möcüzəsiymiş.

*Avqust 1989*

## NOVRUZ BAYRAMI

Hamarlanıb açılır qırışığı torpağın
Cücərdikcə göy otlar.
Cücərən torpaq kimi puçurlanır umudlar.
Duyğular da ürəkdə açır dən-dən baharda.
Ömrü, günü, hər şeyi başlamaq istəyirik
Biz təzədən baharda.
Havalanır ürəklər təzə istəklər üçün,
Göylər dönür güzgüyə sığallanan yer üçün.
Bahar bahar gətirir könüllərə, gözlərə
Ömrün bahar çağında.
Gəlir həyat nəğməsi quşların dodağında.

Qapının ağzındadır, gəlir novruz bayramı.
Yələnqolar qalansın son çərşənbə axşamı.
Sonsuz gəlinlərimiz od üstündən tullana,
Müqəddəs odumuzda bəla yana, dərd yana.
Deyələr bir ağızdan:
«Hər dərdimiz, bəlamız buğum-buğum tökülsün,
Ağırlığımız, uğurluğumuz tökülsün».
Dünyamıza göz açan təzə-təzə balalar,
Bu Vətənin, bu yurdun hər qarış torpağını
Bizdən təhvil alalar.
Xəkəndazda, nimçədə biz üzərlik yandıraq,
Təzə doğulmuşların başına dolandıraq.
«Üzərliksən, havasan,
Min bir dərdə dəvasan».
Gəlir ilaxır günü,

Kosa geyir əyninə üzü tərsə çevrilən
Köhnə-kürüş kürkünü.
Boynunda zər-zınqırov
Oxuyur mahnısını, gəzib kəndi evbəev:
«Kosam bir oyun eylər,
Quzunu qoyun eylər.
Yığar bayram xonçası,
Hər yerdə düyün eylər».

Kosa boş torbasını silkələr, hey silkələr,
Hər qapıdan pay dilər.
Doqqaza toplaşanlar baxmaz onun üzünə,
Kosa pay istər yenə.

Keçini haylar biri,
Tökülər hər tərəfdən keçinin torbasına
Bayram hədiyyələri.
Kosa bunu görüncə, «onu mənə ver» - deyə
Hücum çəkir keçiyə.
Alır ondan torbanı, alıb yeyir doyunca,
Öz köhnə mahnısını o, oxuya-oxuya...
Sonra gedir yuxuya.
Keçi gəlir, yavaşca o, bəlləyir dörd yanı.
Kimsəni görməyincə,
Buynuzlayıb "öldürür" yuxudaca kosanı.
El sevinir bu hala,
Keçini alqışlayır.
Kosanın ölümüylə qış bitir, yaz başlayır.
Hələ günəş doğmamış gün kimi sığallanaq,
Çeşmə üstə yollanaq.
Unudaq ötən ilin sitəmini, dağını,

Dolduraq şəfa sudan çərşənbə bardağını,
Həyətlərə çiləyək.
Yeni ili gətirən günəşin yollarına
Biz uğurlar diləyək.

*Mart 1989*

## YALNIZ SUSUN

*Gürcüstandakı daşqında 28 nəfəri ölümdən*
*xilas etmiş Rahib Məmmədovun xatirəsinə.*

Bu dünyada qovan da var,
Qaçan da var.
Min-minləri, milyonları
Alaq kimi biçən də var.
Başqasının ömrü üçün
Öz ömründən keçən də var.
Yaranışdan –
O da insan,
Bu da insan.
Aradakı dağlar boyda
fərqə də bax.
Bu fərqin, bu başqalığın
Öz adını, ünvanını
biz nə qoyaq?

Əgər cəllad insandırsa,
İyirmi səkkiz köməksizə əl uzadan –
Dada çatan,
Öz ömrünü qurban verən Rahib nədir?
Öz balaca xeyri üçün
Başqasını tapdayanlar arasında
Rahib adi divanədir.
Başqasının nəzərində
Bu, bəlkə də əfsanədir?
Yox, yox! Bu da həqiqətdir.

İnsanları bir-birindən
Ayırmamaq –
                    cəhalətdir,
                              qəbahətdir!
Qəhrəmanın anasını, atasını
Danışdıran müxbirə bax!
Sorğu – sual varaq-varaq.
Uşaqlıqda oynadığı oyunlardan,
Danışdığı sözlərindən
Siz Rahibi tanımaqmı istədiniz
Lap dərindən?
-Gözü necə?
-Qaşı necə?
-Yaşı neçə?
İnsan heç vaxt tanınmayıb
Nə qaşından, nə gözündən,
Nə yaşından, nə sözündən.
Doğru sözün qüdrətini mən danmıram.
Söz yalanın bəzəyinə çevriləndə
Heç sözün də qüdrətinə inanmıram.

Ata, ana baxır sağa,
Baxır sola.
Mən bilmirəm ata, ana nə deyəcək
O igidin
Göstərdiyi şücaətdən üstün ola?
Hörmətiniz varsa əgər o igidə,
Nə atadan, nə anadan
Heç nə, heç nə soruşmayın.
Yalnız susun!
Bu sükutu

O əbədi xatirəyə hörmət sayın!
Bir sorğunuz varsa əgər,
Bu torpaqdan xəbər alın.
Bu torpaqda Rahib kimi öz ömrünü
Başqasına verənləri yada salın.
O, tək deyil, yox, tək deyil.
Bu torpaqda əlacsıza
əl uzadan bir dəyanət,
Düşməninə sərtlik yatır.
Bu torpağın cövhərində
Səxavətlə mərdlik yatır.
Bu sükutun danışdığı
Hikmətlərə pəl qatmayın
səslə-küylə
Varlığının cövhərini
Rahib özü yaxşı demiş
ölümüylə
Bu sükutda siz düşünün
Onun iki əli varkən,
İyirmi səkkiz əli bəs o, hardan aldı?
Öz ömrünü iyirmi səkkiz ömrə verib?
O, ölümə neçə dəfə zəfər çaldı?

*Fevral 1987*

## ÜMİD, YAŞA!

Ümid, ümid,
Sən varsansa, mən də varam.
Sən yoxsansa,
Bu dünyanın cəbri ilə barışmaram.
Allah bizə verdiyini
Bir-bir alır bu dünyada.
Bel bükülür,
Diş tökülür,
Can sökülür
        bu dünyada,
Ən sonuncu ümid ölür bu dünyada.

Yaxşı nədir? Yaman nədir?
Yaxşı-yaman bir-birilə üz-üzədir.
Yarışları,
Vuruşları
        möcüzədir.
Yamanların hər diləyi, hər amalı–
Dünya malı, dünya malı!
Gecə-gündüz hey andığı,
Şərəfinin hesabına qazandığı –
                Dünya malı!
O da qalır bu dünyada.
Yaxşıların uduzduğu –
Yenə həmin dünya malı,
O da qalır bu dünyada.
Nə yaxşının, nə yamanın

O dünyaya aparmağa heç nəyi yox,
    əbədiyyət ümidi var.
Bu ümidlə yaşar, yaşar.

Allah bizə verdiyini
Bizdən alır bu dünyada.
Ən sonuncu ümid ölür bu dünyada.
Ümid yaşa, ümid yaşa!
Sənsiz deyil, səninlə bir
Ömrümüzü vuraq başa!

*İyul 1989*

## SİNƏ DAŞI

Bu dünyanın o dünyaya vədəsiyəm,
Mən varlığın yoxluqdakı var səsiyəm.
O dünyadan bu dünyaya gələr oldum,
Bu dünyadan o dünyaya gedəsiyəm.

Bu dünyada çox yanmışam,
Güman edin, yana-yana dayanmışam
Başdaşımla mən yanaşı.
Siz qoymayın qəbrim üstə sinə daşı.
Mən diriyəm məzarda da,
Çünki ölməz imanım var.
O dünyadan bu dünyaya dönməyimə
Mənim dəli gümanım var.
Yox! Qoymayın qəbrim üstə sinə daşı!

*Oktyabr 1989*

## GƏLƏCƏK VAR

Salam, sən ey gələcək,
Ey ümidim, xəyalım.
Səndən arzularıma
İşıq alım, nur alım.
Ümid deyim mən sənə,
Arzu deyim mən sənə.
Vaxt sabahı bu günə,
                    Bu günü də dünənə
Döndərib dolansa da,
Sən həmişə öndəsən.
Qaranlıqdan işığa
            yol açan insanların
                    Dilində, könlündəsən.
Məni daim uçuran
                    qanadlarımsan mənim,
Heç zaman tükənməyən
                    sonsuz varımsan mənim.
Sən ölüm tanımırsan,
                    Sən həmişə dirisən.
Qolları bağlıların,
Dilləri bağlıların
                    Təkcə ümid yerisən.
Sən varsansa, heç zaman
                    Bu dünyaya zaval yox.
Sən yoxsansa, ümid yox,
Əqidə yox,
xəyal yox.

Qərinələr, əsrlər
                    Hey dolanıb dönsə də,
Min qapı bağlansa da,
Min-min ocaq sönsə də,
Qarşıda gələcək var,
Hər müşkülü o açar.

*1989*

## ÇÖLDƏN İŞIQ DÜŞMÜR

Büdrədim, yıxıldım mən neçə kərə,
Bu yoxuş yollarda neçə yaram var.
Könlümdə dünənə yüz-yüz pəncərə,
Sabaha açılan bir pəncərəm var.

Nə qədər boylandım o pəncərədən,
Bir işıq görmədim...
Özümə daldım.
Ümidi vurunca inam daşına,
Alışan arzumdan qığılcım aldım.

Çöldən işıq düşmür,
                    Düşməsin, nə qəm!
Çölə işıq düşür o pəncərədən.
Ümid güllərimi göyərdəcəyəm,
Könlümdən sızılan o işıqla mən.

*1988*

## TƏSADÜF SAXLAYAR

Deyirsən, itirib gücünü şallaq,
Eşşəyə bənzəyir indiki atlar.
Hər şey dönüb olub tərsəmayallaq,
Şəhərə köçübdür ağcaqanadlar.

Mən sənə deyirəm – getmə dərinə,
Dəyişib dünyanın məhvəri çoxdan.
Yaxşı – pis qarışıb biri-birinə,
İndi göz umuruq kor yapalaqdan.

İndi qardaş olub dovşana tazı,
Kəsəyən yenə də kəshakəsində.
İndi Koroğlunun dəli Eyvazı,
Yaman ağıllanıb ət növbəsində.

Yaltaqlıq, satqınlıq sayılır hünər,
Düzlüyə dolanmır fələyin çarxı.
İndiki iblislər, indiki divlər
Enişdən yoxuşa axıdır arxı.

Div də gileylidir öz əməlindən,
Baxırsan, naləsi dirənib göyə.
İndi Məlik Məmməd divin əlindən
İmzasız məktublar yazır tülküyə.

Vüqarı, mərdliyi möhkəm olmağı
İndi öyrənirik biz göbələkdən.
Şəhərdə tapırıq indi biz yağı,

Müasir geyimi kənddən-kəsəkdən.
Əyrilər doğrunu saldı tələyə,
Zülm, ədaləti taxdan salandan.
«Mən niyə həqiqət yarandım?» - deyə
Həqiqət utanır indi yalandan.

Qəmbər kövrək olub, daşlaşıb şüşə,
O gözəl vərdişlər unudulubdur.
Xaşıl «divan tutub» sındıran dişə,
İndi qoz sındırmaq dərman olubdur.

Rütbələr o qədər qat-qarışıq ki,
Oxumaq öyrədir qarğa bülbülə.
Şələ də o qədər ağırlaşıb ki,
Şələnin altında əyilir lələ.

Danışma dünyanın dərdindən mənə,
Hamı həftə sayır, hamı gün sayır.
Gör, məmə yeyəndən, pəpə yeyənə
Hamı artist olub necə oynayır.

Cida çıxmayıbdır hələ çuvaldan,
Təsadüf saxlayar bizi zavaldan.

*Fevral 1987*

## İŞ – VAXT ÖLÇÜSÜ

An, dəqiqə, saat, gün – fikirlərdə şərtlənir,
Məgər şərti deyilmi yaxınlıqla uzaqlıq?
De, harda bir-birindən ayrılıb sərhədlənir
Qocalıqla cavanlıq, cavanlıqla uşaqlıq?

Daracıq köksümüzdə gah boşalan, gah dolan,
Yoxluğunda var olan
Nəfəsi göstər mənə.
Dodaqlarda inləyən o səsi göstər mənə,
Könülləri titrədən naləni göstər mənə,
Fəqanı göstər mənə,
Yazdan yaya adlayan o anı göstər mənə.
Mümkün deyil! İşimi
Axıb keçən zamana ancaq sübut gətirdim,
Vaxt ərzində gördüyüm işə «vaxt» adı verdim.

An axır, an dəyişir, o nə ilkdi, nə sondu.
Filosof paltarını vaxt elə ki, soyundu,
İş paltarı geyinir.
Özünü dərk edəli insan elə deyinir:
«Vaxt çatışmır, çatışmır».
Axı, kimə gərəkdir vaxtdan bu umu – küsü?
Vaxt ərzində görülən işdir vaxtın ölçüsü!

*Mart 1987*

## MƏNİM ÇIRAĞIM

*«Xalq» qəzetinin «Çıraq» güşəsinə*

Yan çırağım, yan köküm, qoy işığın gur olsun.
Bizə töhfən nur olsun.
İşığının altında şən məclislər qurulsun.
Yan, işığın mübarək.
Balalar çiçək-çiçək
Dövrəndə dövrə vursun,
Ağsaqqallar otursun.
Nağıl desin nənələr –
Rəvayətli, nağıllı, bayatılı sinələr.

Əcdaddan miras qalan bayramları, yasları,
Müqəddəs təmasları
Bir zaman göstərişlə əlimizdən aldılar,
Bizim düşüncəmizi çərçivəyə saldılar.
Neçə sifət asıldı gördüyümüz bir üzdən,
Ayrıldıq özümüzdən.
Elin öz bayramına min cür damğa vurdular,
Bizimçün təzə yaslar, bayramlar uydurdular.
Doğma bayramlarımız daxmalara çəkilib
Gizlində bayram oldu.
Küçələrdən qovuldu.
Ögey bayramlarımız – küçələrdə təntənə,
Evlərdə dinməz oldu,
Kimsə sevinməz oldu.
Yan çırağım, yan köküm,
Bizə töhvən nur olsun.

İşığının altında gur çeşmələr qurulsun.
Sevindir hamımızı,
Qaytar Novruz adlanan bahar bayramımızı.
Tut arağı evimizə gələli
Tut bəhməzi, tut irçalı süfrəmizdən qovuldu.
Təzə xislət qazandıq,
Köhnə xislət yad ovçuya ov oldu.
Qaytar, a gur çırağım, köhnə xislətimizi,
Qaytar bizə sən bizi.

Bir parçacıq çörəkçün taleyilə güləşən,
Doğma ata yurdundan bir gün didərgin düşən,
Öz ruhundan gen düşən
Vətən oğullarını
Çağır gur işığının doğma hənirtisinə,
Bəlkə onlar uzaqdan boş qalan yurdlarının
Havasına isinə.

Qaytar, a gur çırağım,
Köhnə xislətimizi,
Qaytar bizə sən bizi.
Başımızdan aşağı töksələr də arıtmaz,
Təmizləməz su bizi,
İşığınla yu bizi,
Hər yerdə izlə bizi,
Arıt, təmizlə bizi.

Yan, yaddaşı oyandır?
Bizi öz rəngimizə, huyumuza boyandır.
Gələcəklə keçmişin arasında sən bağ ol,
Gecə-gündüz oyaq ol!

Hərdən bu günümüzə qonaq gətir, amandır,
Ulu keçmişimizi.
Çırağım, ruhumuzun ilkinə qaytar bizi.

*Fevral 1989*

## YASƏMƏN ÜÇÜN

*Həbib dayı, haçanacan qəlbimiz*
*İntizarda əriyəcək bu sayaq?*
*Tez-tez gəl ki, bir zamandan sonra biz*
*Bir – birini görə bilsək, tanıyaq.*

**11 yaşlı təbrizli qız Yasəmənin qürbətdə yaşayan dayısı Həbibə məktubundan.**

Balaca Yasəmən, qorxuna qurban!
Qorxursan dayının yadlaşmasından.
Nə gözəl duyğudur! Dərd olub sənə
Dayının yurdundan ayrı düşməsi.

İncidir könlünü, ana vətənə
Bir Vətən oğlunun özgələşməsi.
O necə?
Görəsən qorxurmu bundan?
Yoxsa, öz xalqına baxır yad kimi?

Haqlı tapşırığın ana yurdundan
Didərgin düşəni silkələdimi?
Əsrin hökmünə bax! Bir millət nədən
Ayrı düşməlidir öz vətənindən?
Neçin öz yurdundan qaçaq olmalı,
Yurdun övladları?
Nə deyək buna?
Neçin illər boyu həsrət qalmalı
Qardaş – qardaşına, ana – oğluna?

Bu haqsız hökmdə kimdir günahkar?
Vətənmi? Millətmi? Yoxsa, oğullar?
Vətən ola bilməz hər qara torpaq.
Millət qərib olar özgə diyarda.
Millət öz yurdunda millətdir ancaq,
Millət zillət çəkər yurddan kənarda.
Əridər qəribi qürbət qar kimi,
Ondan nə ad qalar, nə nişan, nə iz.
Torpaqdan ayrılan ağaclar kimi
Millət də quruyar köksüz, vətənsiz.

Ağla, bu zillətə ağla, ey Vətən,
Ömrünü qürbətdə çürüdüb itən
Bu Həbib dayılar nə vaxt ayılar?
Vaxt keçər, bir zaman tanınmaz olar
O, həm millət üçün, həm Vətən üçün,
Həm də dayı gəzən Yasəmən üçün.

*İyul 1989*

## GƏLİRSİZ ZƏHMƏT

Zəhmətsiz gəlirlər yox olsun dedik,
Gəlir çox, zəhmətdən amma nişan yox.
Zəhmətsiz gəliri hər gün pislədik,
Gəlirsiz zəhmətdən heç danışan yox.

Bir ayı sərasər çalışdı fəhlə,
Maaş əvəzinə dərd-qəm verdilər.
Dedilər: - Fabrikə üstəlik hələ
Son borclu qalmısan bu ay, bu qədər.

Fəhlə gülüb dedi: - Tutaq ki, qəsdən
İşə gəlməmişəm, bu ay başa-baş.
Bəs onda fabrikdən nə aldım ki, mən,
Üstəlik borclu da qaldım, a qardaş?

Cavab vermədilər, güldülər ancaq.
Yüz haqdan güclüymüş, demə, bir nahaq!

Zəhmətsiz gəlirlər yox olsun dedik,
Gəlir çox, zəhmətdən amma nişan yox.
Zəhmətsiz gəliri hey lənətlədik,
Gəlirsiz zəhmətdən heç danışan yox!

*İyul 1989*

* * *

Dedin ki, dünyanın dərdini çəkmək
Mənəmi qalıbdır, nəyimə gərək?!
Bu dünya tərsinə dönsə də, vallah,
Sənin nə vecinə! Ay bərəkallah!

İnsanın özündən fikri böyükdü,
Eləysə... fikirlə yorma beynini.
Düşüncə dediyin çox ağır yükdü,
O yükün altına vermə çiynini.

Düşünmək nəyinə gərəkdir oğlan,
Beləcə hırılda, dönüm gözünə!
Bir azca düşünüb qaşını çatsan,
Gündüzün görünər qaranlıq sənə.

Elə hırılda ki, bu qədər yalan
Dönüb gözlərinə gerçək görünsün.
Elə hırılda ki, qarşına çıxan
Çalalar, çuxurlar güzgüyə dönsün.

Sən əsrin meyvəsi, günün oğlusan,
Düşünmə, düşünmək nəyinə gərək?
Düşünsən, dərini görərsən, dayan,
Yaman xatalıdır dərini görmək.

*İyun-iyul 1989*

## HUN SƏSLƏRI

Yuxu qaçır gözlərimdən... Alır məni
Qulağımda pıçıldaşan dan səsləri.
Sükutdakı savaşa bax... Çox sirlidir
Səhərin ilk, gecəninsə son səsləri.

Bu savaşdan qan çilənir dan yerinə,
İşıq – zülmət! Diş qıcadır bir – birinə.
Qalib gəlir gecənin də kədərinə
Al səhərin həyat dolu şən səsləri.

Məqama bax! Biri gəlir, biri gedir.
Bu sərhəddə vaxt özü də heyrətlidir.
Ah, necə də sehirlidir, heybətlidir,
Xoruzların yaxın-uzaq ban səsləri.

Gələn-gedən! Hər biri öz təlaşında.
Gedənin də izi qalır yurd daşında.
Şərlə xeyrin bu əbədi savaşında
Qımıldanır ürəyimdə Hun səsləri.

*İyul 1989, Şəki*

## MƏNİMKİ GƏTİRMİR

Əlini dizinə vurub inlədin,
«Mənimki heç zaman gətirmir» - dedin.
Düşündün həmişə: «O yüksəkliyə
Neçin filankəs tək layiq olmadın».
Amma ömrün boyu bir yol sən nəyə
Layiq olduğunu heç anlamadın.

Sən çox böyük görüb öz qüdrətini
Həmişə, hər yerdə hamıdan umdun.
Amma başqasının fərasətini,
Görə bilməməkçin gözünü yumdun.

Zənn etdin, taleyin gur bulağından,
İşlərin su kimi gərək axaydı.
Bilmədin, sən belə düşünən zaman
O, öz taleyilə əlbəyaxaydı.

Demə, taleyimlə şahmat oynadım,
İstədiyi yerə o, atdı məni.
De ki, iradəmi xəyala satdım,
Xəyalım şah oldu, aldatdı məni.

«Onunku gətirir» - deyə hey ona
Baxıb sən həsədlə haqqı da dandın.
O qədər dedin ki,
öz yalanına
Axırda özün də dönüb inandın.

Onunku gətirir!
Aldığı qədər.
Bilmədin, ömründən bəs o, nə verdi.
Ona o taleyi gətirmədilər,
O, öz zəhmətilə özü gətirdi.

*Mart 1987*

* * *

Çox dözdüm «dostların» xəyanətinə,
Amma gözləmirdim mən bu zərbəni.
Xalqın mənə olan məhəbbətinə
Qısqandılar məni,
Dandılar məni.

Bu da qismətimmiş taledən yəqin.
Nə etmək?
Buna da dözərəm yenə.
Xalqın məhəbbəti,
rəqiblərimin
Döndü nifrətinə, xəyanətinə.

Mən hardan biləydim, unudularmış
Bir anda qırx illik zəhmət, ey Vətən
Beşinin nifrəti güclü olarmış,
Beş-altı milyonun məhəbbətindən.

Anlaya bilmirəm, adamlar neçin,
Özünü dəfn edir öz əməlində.
Xalqı tanrısına çevirənlərin
Taleyi oynayır biclər əlində.

Ey mənim rəqibim, məni nə bildin?
Elə zənn etmə ki, zəfər sənindi.

Sən kağız üstündə adımı sildin,
Xalqın ürəyindən sil görüm məni!

*İyul 1989*

## AĞLIMIZLA

Dünya bina olandan gecə-gündüz çalışdıq,
Aşılmayan dağları aşdıq biz ağlımızla.
Hər əzaba qatlaşıb, hər zillətə alışdıq,
Göyün yeddi qatına uçduq öz ağlımızla.

Yazıya pozu varmış... Vaxt yazanı pozandı
Qaldı köhnə ölçüsü, amma ömrü uzandı.
Alıb vaxtın rəngini təzə məna qazandı,
Köhnə avaz, köhnə səs, köhnə söz, ağlımızla.

Böyük-böyük danışdıq, əslində xırdalandıq,
Cismən göyə ucalıb qəlbən yaman talandıq.
Bulandıqca durulduq, durulduqca bulandıq,
İndi biz dayanmışıq üzbəüz, ağlımızla.

Dedik, daha bu dünya idraka məchul deyil,
Bilmədik, sirrlər var, biz girəsi kol deyil.
Döşümüzə çox döyüb dedik, daha qul deyil,
Təbiətə hakimik, hüdudsuz ağlımızla.

Kamal artır günbəgün, duyğularsa dərbədər,
İnsan ağıllanınca addımbaşı səhv edər.
Əqrəb öz zəhərilə öz-özünü məhv edər,
Özümüzə qənimik indi öz ağlımızla.

*20 fevral 1989*

* * *

Qağanoviç sədaqətlə
qulluq etdi rəhbərə,
Hər sözünə «bəli» dedi yüz kərə.
Arvadını tutdular.
Arxasınca
Molotovun arvadını tutdular.
Kalininin arvadını tutdular.
Ərlər susdu, dinmədi,
Bu zilləti uddular.

Rusiyanın tarixini
                Yada saldım bu dəmdə,
Dekabristlər gəldi, durdu gözümdə.
Onlar da tutuldular,
Haqsız məhkum oldular.
Qadınları birbəbir
Ərlərinin arxasınca getdilər.
O dövranı bu dövranla
                tutuşdurdum, bilmədim,
Kişi kimdir, qadın kim?

*İyul 1989*

## HAQQA HAQSIZ DEDİLƏR

Yasir dedi: - Bilirəm
Torpağımda əylənən
Zorakı mənəmliyi
Ağasından öyrənən
Düşmənimin qəsdini,
Qaytarın Fələstini!
Haqqını çeynədilər,
Ona haqsız dedilər.

Yasir dedi: - Bir ölkə
Öz haqqına güvənər,
Qüvvətinə güvənməz.
Dedilər: - Gücsüz susar,
Döyülər,
Amma dinməz.
Öz özünə güvənməz.
Yasir dedi: - Millətim
Yurdundan qaçaq oldu,
Yadlara yamaq oldu,
Bundan dünya halıdır.
Dedilər: - Bu əsrdə
Uduzdunuz...
                Neyləyək
Belə də olmalıdır!

Yasir dedi: - Bu nədir –
Yersiz gəldi, yerli qaç?

Dedilər: - Sədəqəyçün
Təl-Əvivə sən əl aç.
Dedi: - Bəs haqq?

Dedilər:
-Güclü haqsız olmamış –
Bu hikmətdən halısan,
Haqqını yeyənlərə
Minnətdar olmalısan.

Yasir dedi: - Görürəm
Mən dağların dalını,
Kağızlara bükməyin
Bir xalqın amalını.
Dedilər: - Unut bala,
Unut xam xəyalını.
Sən niyə düşünürsən?
Ağ evdə düşünən var
Millətinin halını.

Okeanın o tayı
Bir elin öz dərdini
Eldən yaxşı bilirmiş.
Qulaq suyun dadını
Dildən yaxşı bilirmiş.
Demə, bel ağrısını
Kəmər nalə qoparıb
Beldən yaxşı bilirmiş.

*Mart 1980*

## ARZUMLA GÖRÜŞ YERİM

Olur ki, birinə gileylənirsən,
Deyirsən sən ona könül dərdini.
Üzdən dinləsə də,
görürsən bəzən,
Qəlbin qulağıyla dinləmir səni.

Özüm özüm ilə dərdləşən zaman
Bəs niyə şəklənir dərhal qulaqlar?
Özgənin sirrindən, duyğularından
Xəbərdar olmağa həvəsimiz var.

Gördüm iç dünyamı, gördüm gözümlə,
İç dünyam arzumla görüş yerimdir.
Mənim şeirlərim –
özüm-özümlə
Asta pıçıltımdır, söhbətlərimdir.

*Mart 1987*

## QIŞQIRTI – PIÇILTI

Danışmır, qışqırır, qışqırır yaman,
Heç nə anlamıram qışqırığından.

Boş küydür, hədəfsiz sözün gülləsi,
Səsinə nə ağıl, nə ürək dinər.
Bərkdən qışqıranın sözü yox, səsi,
Asta danışanın sözü dinlənər.

*Mart 1987*

## HÖRMƏT – RÜŞVƏT

Sözlər də insan tək enir, yüksəlir,
Yaxşının dilində, pisin dilində.
Sözlər, mənim sizə yazığım gəlir,
Rənginiz, məğziniz dəyişiləndə.

Elə «hörmət» idi bir zaman «hörmət»,
Saxlardı mənanı, məğzi özündə.
Ləyaqət, fəzilət, qeyrət, şərafət,
Sədaqət yaşardı «hörmət» sözündə.

Nə oldu?
Aradan nə keçdi?
Bu gün
Dəyişdi
məzmunu, rəngi bu sözün:

Biri başqasına: Bilirəm ki, mən
Quşu da vurarsan gözündən, - dedi.
Əgər bu müşkülü aşıra bilsən,
Hörmət eləyərəm sənə mən, - dedi.
Hörmətin boynuna minnət qoyuldu,
Səxavət çevrilib cinayət oldu.

Hörmət hörmətini itirdi bu gün,
Əyrilik düzlüyün oldu kölgəsi.
Hörmət!
Hörmətə bax!
Bu gözəl sözün

Gizləndi ardında rüşvət kəlməsi!
Hörmət! Alçaqlığın öz səsidir bu,
Oğrunun məbədə girməsidir bu!
Çirkinin üzünə çəkilir qalay,
Gözəllik taxtında əyləşir bu gün.
Aman! Haray çəkin,
Haray, hay haray,
Sözlərin mənası dəyişir bu gün.

Rüşvətin maskası varmış cürbəcür,
Dalda diş qıcadar, üzdə nəzakət.
Qapıdan qovurlar, bacadan düşür,
Gədaya dönübdür ağsaqqal hörmət.

Bülbülün nəğməsi, gülün nəfəsi!
Sözün də öz yükü, öz vəzifəsi.
İlkin məzmunundan söz ki, gen düşür,
Özündən ayrılıb hörmətdən düşür.

Sözlər axan zaman öz çeşməsindən,
Bilinir siqləti, bilinir yolu.
Çayın öz səmtini dəyişməsindən
Sözün dəyişməsi daha qorxulu!

Söz ki var, sərvətdir, quru söz deyil,
Sözlər kərpic kimi ovulur indi.
Ulu dədələrin yaratdığı dil
Namərdlər ağzında xar olur indi.

Bircə söz öləndə boşalır yeri,
Gəlin, qol çəkməyək bu yamanlığa.
Artıb çoxaldıqca söz qəbirləri,

Bu gün dil çevrilir qəbristanlığa.
Xalqın varlığıdır hər kəlmə, hər söz,
Xalqa təcavüzdür, sözə təcavüz!

Sözünün xisləti dəyişir, əlbət
İnsanın xisləti dəyişən kimi.
Hörmət libasını geyinən rüşvət
İçindən dağıdıb sökür dilimi.

Rüşvətxor bu gün var, sabah yox! Nə qəm!
Rüşvətlə yer tutar, ucalmaz alçaq!
Mən fəryad çəkirəm, haray çəkirəm,
Dağılıb sökülən dilimə ancaq.

*Mart 1987*

## GÖYNƏRTİ

*Nurəddin Bağır oğlu, bu şeiri atalarımızın xatirəsinə həsr edirəm.*

Mənim atam
Öz qəlbində dəfn etmişdi
öz-özünü.
İçəridən alışardı
Öz ahıyla, öz dərdilə
Dağıdardı tüstüsünü.
Nə dərdini bildirərdi bir kimsəyə,
nə qəmini.
Saçlarında ağardardı sitəmini.
Hər acıya qatlaşardı,
o, aşardı
Aşılmayan sirti, dağı,
Onun üçün ən dəhşətli bir əzabdı,
Əzabından danışmağı...
Bir pərdəyə köklənmişdi onun qəlbi –
Axşamı da, səhəri də,
Sevinci də, kədəri də...
Salammadı onu bir an
Nə ağrısı, nə acısı
Dayandığı məqamından...
Vaxt ötdükcə...
İstədiyi yönə salıb
Zaman onu xamır kimi
kündələdi.
Yaman onu rəndələdi...

Qırışlandı illər onun
sifətində,
Zaman onun qəlbində də
cığır açdı.
Ürəyi də yuxalaşdı...
Bulud kimi hey boşalıb
doldu kişi,
Dəymə-düşər oldu kişi.
Görürdük ki, gah açılır,
gah tutulur.
O, hamıdan sevgi umur,
qayğı umur.
...Mən də onun özü kimi
Xəsis idim
öz sevgimi bildirməyə.
Ona təsəlli verməyə
Utanırdım, sıxılırdım.
Ürəyimi bildirməyi
Öz-özümə ar bilirdim.
Mənə elə gəlirdi ki,
Onu öpüb qucaqlamaq
Yüngül çıxar,
Çox şit çıxar.
O, karıxar,
O, darıxar.
Nə biləydim,
Elə bunu gözləyirmiş
Bəlkə məndən
o, dolanda,
Bulud kimi tutulanda...
Adicə bir övlad kimi,

Mən atama
nə qayğımı bildirərdim,
Nə sevgimi...
Ürəyinə baş vurmadım,
Qulluğunda heç durmadım...
Bilmədim bir istəyini,
diləyini,
Öz sevgimlə
İsitmədim ürəyini...
yaşayarkən
mənim ona kiçicik bir təbəssümüm
Süzülərdi ürəyinə
könül açan bir nəğmə tək.
O öldümü?
Bundan sonra
Təəssüflə axıtdığım göz yaşlarım
Kimə gərək,
Nəyə gərək?

Bəli, artıq keçmiş ola!
Kim görüb ki,
Təəssüflə qəlb boşala?
Hayıf! Hayıf! Nidasına
Çatır ancaq qüdrətimiz.
Əlimizdə olan zaman
Biləmmirik heç bir şeyin qədrini biz.
Ey övladlar,
ayıq salmaq istəyirəm
indi sizi.
Gizlətməyin
atanıza, ananıza

sevginizi.
Olursunuz, duman olun,
sis olmayın,
Nədə xəsis olsanız da
Sevgidə xəsis olmayın!
Əbədilik bir ağrı tək
Sonra sizi yandıracaq,
göynədəcək.
Toydan sonra bu nağara
Kimə gərək,
Nəyə gərək?
İtirdiyin doğmaları,
əzizləri
Qaytara ki, bilməyəcək.

Qəlbinizdə döyünəcək
Özünüzün özünüzə atdığınız
tənə daşı,
Gözünüzdə həsrət tozu...
Ondan sonra
Kimə verə bilərsiniz
Bağrınızda sızıldayan
Qayğı, sevgi borcunuzu?..

*Noyabr 1973*

## QEYRƏT

Kitablar oxudun, məktəb bitirdin,
Neçə müəllimə imtahan verdin.
Vəzifə taxtına çıxandan bəri
Gəzdin şəhərləri, məmləkətləri.

Görürəm, maşallah, bol savadın var,
Hər yerdən, hər şeydən məlumatın var.
Bunları bilməklə çox öyünmə sən,
Xəbərin varmıdır bəs öz-özündən? –
Öz doğma kəndindən,
öz el-obandan?
Əslindən, kökündən, ulu babandan?
Böyük dahiləri əzbər bilirsən,
Özgələr önündə çox əyilirsən.
De, neçin?
Bilikdən, savaddan qabaq
Qeyrət istəyirəm mən səndən ancaq.
Bilik alınmadır, biliyə nə var –
Onu zəhmətlə də qazanmaq olar.
Çətindir qeyrəti səylə qazanmaq –
Əgər mayamızla bir doğulmasa...
Vallah, biliklərin bir faydası yox
Onu xərcləməyə qeyrət olmasa.
Axtarma ədada, sözdə sən onu,
Sanma ki, o sənin öz əlindədir.
Qeyrət – paltar deyil, geyəsən onu
Qeyrət – qeyrətlinin əməlindədir.

Amma qeyrətinin naqisliyindən
Şikayət eləyən görməmişəm mən.
Kaş elə bir cihaz kəşf ediləydi –
Qandakı qeyrəti ölçə biləydi.
Onda şərəfsizlər rütbəyə minməz,
Onda əməl üçün sözə nə hacət.
Onda öz yerini tutardı hər kəs,
Qapılar dalında qalmazdı qeyrət.

*Avqust 1984*

## QEYRƏTMİ, AĞILMI?

Hanı dəlilərin, a nənəm Nigar,
Namərdlər doğuldu bu zəmanədə.
Dədəsi kor olan qoç koroğlular
Özləri kor oldu bu zəmanədə.
Alı dədəmizin gözü kor oldu,
Çağdaş gədələrin özü kor oldu.

Törədi Koroğlu dəlilərindən
Savadlı, bilikli «ağıllılar» hey.
Bu ağıl hünərə deyil, bəs nədən
Kölə ehtiyata səcdə qılar hey?

Vaxtın havasına baş əyən ağıl
Hava bürosudur, o, ağıl deyil.
Sabahı bu gündən bəlləyən ağıl
Bilikdir, arzuya, eşqə yol deyil.

Onlara özgəsi hamıdan yaxın,
Onların özləri özünə özgə.
Bəli, hər şeyi var «ağıllıların»,
Mərdlikdən savayı, qeyrətdən özgə.

Elə hey deyirsən: - «Fərasətimiz
Çatışmır, ağıllı olmalıyıq biz».
Sən ağıl deyəndə nəyi deyirsən?

Məni əyən ağlı istəmirəm mən.
Həmişə danışdıq yerli-yataqlı,
Niyə azalmadı bir dərya dərdim?
Bizi ehtiyata çağıran ağlı
Bir çimdik qeyrətə dəyişdirərdim.

Qeyrət azadlıqdır, bu amal üçün
Qeyrət addımlayır Yer kürəsini.
Qeyrətdir dəyişib yaradan bu gün,
Dünyanın siyasi xəritəsini.

Qoy ağıl, qeyrətin getsin dalınca,
Qoy yedək olmasın ağıla qeyrət.
Ağlımız qeyrətdən geri qalınca
Dönür əfsanəyə, nağıla qeyrət.

El deyib: «Ağıllı fikirləşincə,
Dəli vurub keçdi çayı bir anda».
De görək, neylədi ağıllı Həmzə
Dəlilər «huy» - deyib cəbhə yaranda?

Dəlilik istərəm, ağıllı başdan
Qar yağar, soyuqdur onun tədbiri.
Dəlibaş atəşdir, o keçər daşdan,
Şumlar daş dözümü, əridər səbri.

«Ağıl», «ağıl» - deyən boş nağılların
Dalında həmişə qorxu gizlənər.
Dünyada açılan bütün yolların

Əvvəli qeyrətdir, axırı zəfər.
Bizə qeyrət gərək, bizə od gərək,
Ölümə getməyə istedad gərək.

*Sentyabr 1985*

## ALLAH

*(«Fəryad» pyesindən)*

İdrakda yol açmış gecədən gündüzə allah,
Güldürməsən öz könlünü, gülməz üzə allah.
Dünyaya şəfəqlər kimi tanrım səpələnmiş,
Qəlbin gözü yanmazsa, görünməz gözə allah.

Allah! Bilirik, cism deyil, bəs nədir allah?
Ən yüksək olan haqda, həqiqətdədir allah.
Dondunsa təkamül və gözəllik qabağında,
Dərk et, bu təəccübdə, bu heyrətdədir allah.

Bildik, bilirik, gizlidir insandakı qüdrət,
Hər kəs onu fəhm etməsə, acizdir o, əlbət.
İnsanın əzəl borcudur insanlığa hörmət,
İnsanlığa hörmətdə, ləyaqətdədir allah.

Gerçək də budur: Gizlidir hər zərrədə vəhdət.
Bir zərrə ikən küllə qovuşmaq ulu niyyət.
Gördüklərimiz zahiridir, bətnə nüfuz et!
Batindəki, cövhərdəki fitrətdədir allah.

Fitrət də yatır sözdə, sözün öz yükü fikrim.
Seçmiş, seçəcək daima tükdən tükü fikrim.
Mən bir ağacam, yarpağı sözlər, kökü – fikrim,
Sözlərdə deyil, sözdəki hikmətdədir allah.

İnsan! Təpədən dırnağa sən arzu, diləksən.
Nəfsində doyumsuz, fəqət eşqində mələksən.

Zülmün üzünə haqq deyilən şilləni çəksən,
Şilləndə möhürlənmiş o qeyrətdədir allah.

Cahil enər alçaqlığa, öz qəlbinə yenməz,
Vicdandan əgər dönsə də, xeyrindən o dönməz.
Zülmətdə, cəhalətdə, ədavətdə görünməz,
İlqarda, sədaqətdə, məhəbbətdədir allah.

*1984*

* * *

Sevinc – ağ, qəm – qara! Həqiqətsə bu,
Bəs niyə yananda şam gözəlləşir?
Dərd, ələm sevginin yol yoldaşıdır,
Di gəl ki, sevəndə qəm gözəlləşir.
Kömür boyananda atəş rənginə
Üzü həm qızarır, həm gözəlləşir.

*May 1973*



# İNSAN VƏ ZAMAN

***Hara gedir bu sürət –***
***Hara gedir bu gərdiş?***
***Bizim yaratdığımız***
***Bizə qənim kəsilmiş.***



## BÜTÖVLÜK

Durmuş, duracaq üz-üzə yer göy
Ziddiylə çıxar meydana hər şey.
Nurun gücü zülmətdə bilinmiş,
Elminki cəhalətdə bilinmiş.
Qəm olmasa, şadlıq da bilinməz,
Zəncirsiz, azadlıq da bilinməz.
Vəhdətdə birəm,
hicrdə yüzdüm,
Bir yolda min illik dağa dözdüm.

Allahımı ruhumda tapandan,
Bihudə düşüncəmdən əl üzdüm.
Bil, yer də mənəm,
göy də mənəm, mən.

Matəm də mənəm,
toy da mənəm, mən
Arif də mənəm,
kor da mənəm, mən.

Dünya da mənəm,
gor da mənəm, mən.
Şadlıq da mənəm, qəm də mənəm, mən.
Cənnət də, cəhənnəm də mənəm, mən.
Mehrab da mənəm, səcdə edən də.

Dünya özü əksiylə də vəhdətdədi məndə.
Nəşəm də doğur dərdi-qəmimdən.
Ziddimdə tamam, bir bütövəm mən.

*1983*

## TAPMAQ – İTİRMƏK

Bir eniş var
sonunda
Hər dikin,
Hər yoxuşun.
Yerə bir enmək də var
Uçuşunda hər quşun...
Bu yollar dolay-dolay,
Fikirlər qoşun-qoşun.

Dolaşırıq dünyanı
Əldə dəmir bir əsa,
Ayaqda dəmir çarıq.
Biz tapdıqca itirir,
İtirdikcə tapırıq.
Həvəsimiz, meylimiz
Gah suyadır, gah oda.
Tapdığımız qədər də
İtiririk dünyada.

Sonda sevincə dönür
Çəkdiyimiz əzablar.
Uduzduğum – ömürdür,
Qazandığım – kitablar.

Nehrəni çalxamadan
Süd də dönüb yağ olmur.
Nəyisə itirmədən

Nəyisə tapmaq olmur.
Hər gəliri-çıxarı
Çəkir mizan –tərəzi.
Hər əyləncə, hər səfa
Bir cəfanın əvəzi!

Qazancın iki ucu:
Həm xeyri, həm bəlası –
Yollardakı qəzalar
Sürətin öz bahası...

Nağıl döndü gerçəyə:
Bu məqamda biz artıq
Sürəti yox,
əyləci
Tapana minnətdarıq.

Hara gedir bu sürət –
Hara gedir bu gərdiş?
Bizim yaratdığımız
Bizə qənim kəsilmiş.

İztirabsız bir fərəh,
Əziyyətsiz bəhər yox.
Həyatın qiymətini
Ölümlərə borcluyuq.

Könül duymaz sevinci
Ona zülüm olmasa.
Həyat bizi bezdirər
Əgər ölüm olmasa.

Həvəsimiz, meylimiz
Gah suyadır, gah oda.
Tapdığımız qədər də
İtiririk dünyada.

*İyul 1980*

## SUALIMIZ YOXSA...

Şübhə qıfılına suallar açar,
Kimini açammaz,
Kimini açar.
Suallar önündə dayanıb insan,
Sirlər dünyasına yol açır kamal.
Hər daşın, hər dağın yaranışından
İlki də sualdır, sonu da sual.

Şiş dağlar sualdır, gen düzlər cavab
Gecələr sualdır, gündüzlər cavab.
Çıxıb axtarışa uçur xəyallar,
Hər böyük uçuşun dayağı yerdir.
Ağıldan fışqıran min-min suallar
Gerçəyə açılan pəncərələrdir.

Suallar önündə çox donmuşuq biz,
Sual bağrımızı çox yardı bizim.
Hələ şagird ikən cavablarımız
Dönüb qiymətimiz olardı bizim.

Müəllim imlaya sual qoyardı,
Dara çəkərdilər sualla bizi.
Bizim də nə qədər sorğumuz vardı,
Cavabsız qoydular sualımızı.

Sualı sualla dilləndirmirəm,
Mən də cavabsızam, o da cavabsız.

İndi mən heç kəsə sual vermirəm
Özümə verirəm, özümə yalnız.

İndi bu dünyaya qeylü-qallarım
Nə bir sual verir, nə cavab alır.
Özümə verdiyim öz suallarım
Həyatın özütək cavabsız qalır.

Sualdan tor atdıq ulduza, aya.
Zülməti işığa çevirir onlar.
Sualımız yoxsa əgər dünyaya,
Nə özümüz varıq, nə də dünya var.

*Oktyabr 1980*

## NİZAM-AHƏNG

*«Dünya baş-ayaq dayanıb»*
**M.Şaqal**

Nizamlar, qaydalar pozulur indi,
Minillik vərdişdən ürək gen düşüb.
Şeir qafiyəsiz yazılır indi,
Nəğmədən nəğməlik didərgin düşüb.

Rəsm də başqa cür çəkilir indi,
Ayaq başa keçib,
Baş ayaq olub.
Rəssam da bu işə axır deyindi,
Söylədi: «Bu dünya baş – ayaq olub».

Bağrına dağ çəkdik hey zaman-zaman
Həm yerin, həm göyün, həm təbiətin.
Dünyanın ahəngi pozulduğundan
Pozulub ahəngi həm də sənətin.

Keçmişi gəmirir gorda goreşən,
Ariflər sabahı bu gündə gəzmiş,
Nizamı dağılıb ahəngsizləşən,
Dünyanın sabahı dünənimizmiş.

*Fevral 1987*

## GÖZ, YA QULAQ

*Çin Elmlər Akademiyasının Çan-çun Elmi Tədqiqat Dəqiq Optik Cihazlar İnstitutunun 160-dan çox elmi işçisini «düşmənçilik fəaliyyətində» təqsirləndirmiş və «əldəqayırma» tribunalın mühakiməsinə vermişlər.*

**Qəzetlərdən**

Dustaq dedi:
-Nədir mənim cinayətim, onu deyin.
Hakim dedi:
-Günahındır günahını bilməməyin.
Dustaq dedi:
-Hardan bilim, əgər yoxsa günah özü.
Hakim dedi:
-Günah da var, əgər varsa günah sözü.
Dustaq dedi:
-Söz əməldən haqlı imiş xəbərim yox.
Hakim dedi:
-Biz söz ilə olmayanı oldurmuşuq.
Dustaq dedi:
-İnanmıram.
Vicdanını ya satmısan, ya danmısan.
Hakim dedi:
-Mən bilirəm, sən şübhəyə inanmısan.
Dustaq dedi:
-Şübhə ki var, qapısıdır həqiqətin.
Hakim dedi:

-O qapıdan içəriyə girmək çətin.
Dustaq dedi:
-Mən girmişəm,
Mən görmüşəm
Nədir yalan, nədir doğru?
Hakim dedi:
-Nədir, axı, sənin doğrun?
Dustaq dedi:
-O, ürəkdə yanan bir od, boğulan səs.
Dilə gələn indi gerçək ola bilməz.
Əsl həqiqət dilə gəlməz.
O, ürəkdə yanar, inlər.
Həqiqətdir yalnız dilə gəlməyənlər.
Hakim dedi:
-Bil ki, yasaq qapısından girənlərin,
Görülməsi rədd edilən həqiqəti
görənlərin
Gözlərinə şiş batırıb görməyənlər
göz görəsi.
Söylə sənin gücün varmı
Bu gerçəyi döndərəsi?
Ağlın varsa sus, danışma!..
Dustaq dedi:
-Bacarmıram.
Hakim dedi:
-Hamı susur, bax soluna, bax sağına.
Rahat olmaq istəyənlər
İnanmayıb gözlərinə,
İnanıbdır qulağına.

*Fevral 1980*

## A.LİLİYENTALIN KARTERƏ MƏKTUBU

*«Middl ist perspektiv» jurnalının redaktoru Alfred Liliyental Karterə yazdığı məktubunda hökumətin Fələstinə dair siyasətini amansızcasına tənqid etmişdir.*

Cənab Karter,
Sən dünyanı ədalətə çağırırsan.
Gecə-gündüz bağırırsan:
-Zülm oduna haqq yanmasın,
Gərək insan hüquqları tapdanmasın!
Gözəl sözdür,
Mən də şərik!
Sözümüzə düz olmasaq,
Özümüzü itirərik.
Sən bu sözü deyən zaman
Söylə görək,
Düşündünmü Fələstini?
Yalan dedin,
Bu yalanı söyləyərkən
Bəs ağzında dil əsdimi?
«Haqq-ədalət» deyən zaman,
Düşündünmü
Öz yurdundan ayırdığın bir milləti?
O vəhşəti,
O zilləti...
Hara yazaq bir ölkədə
Bir dünyalıq cinayəti?

Kemp Deviddə bir vaxt düşdün
Ağsaqqallıq xəyalına.
Yol göstərib sən gah ona,
Gah da buna
Həsrət qoydun bir milləti öz yurduna.
Özgəsinin torpağını
Öz dədənin malı kimi
Paylamaqda yaman çoxdur səxavətin.
Uç deyirsən,
Ayağına daş bağlayıb həqiqətin.
Sən gücsüzü ayaqlayıb
Güclüləri alqışladın.
Bir millətin öz haqqını,
O birinə bağışladın.
Yəhudinin qolu zorlu,
Bəs harada doğulubmuş ərəb oğlu?
Bəs hardadır onun yurdu?
Quş yuvasız ola bilməz,
Xalq vətənsiz olarmı bəs?
Bir millətə rəva bildin
Başqasının qarşısında alçalmağı,
əyilməyi,
De, səni kim vəkil etmiş
Yer üzündə yer bölməyi?

*1980*

## YAXIN UZAQ OLDU

Oynama qarşımda «mədəniyyəti»,
Çölün bir söz deyir, için ayrı söz.
Zahirdə axtarma sən ləyaqəti,
Divar tez uçular, axı, təməlsiz.

Əynində dublyonka, qolunda «seyko»,
Əlində diplomat, gözündə çeşmək.
Mədəniyyət oldu, nəciblik oldu,
Sənin düşüncənlə bu bəzək – düzək.

Sifətin dəyişir sənin anbaan,
Min dona girirsən bir gün içində.
Adını yazmağı bilməyən baban
Əsl mədəniydi kürkün içində.

Kürkümüz dolandı bütün dünyanı,
Oldu dublyonka... Vətənə döndü.
Kürkə güldüyümüz zamanlar hanı?
Adını dəyişdi, gözəl göründü?

Baban sənin kimi dilində deyil,
Qəlbində yaşatdı eşqi, niyyəti.
Baban sənin kimi çölündə deyil,
İçində daşıdı mədəniyyəti.

Yaxın uzaq oldu,
Uzaqlar yaxın.

Özgənin «kəşfini» tez qanan oldun.
Kürk kimi məğzini saxlayanların,
Dəyişən adına aldanan oldun.

Dəblər gəlib gedir, dəyişir tez-tez,
Hər fəsil dəyişən havalar kimi.
İçi zəngin olan əllər, dəyişməz,
Çöldəki havaya bircə qəsdini.

Böyüklük adına dəblərə qulluq
Bənzər söz qomuna... O, mətləb deyil.
Amma xeyirxahlıq, mərdlik, yaxşılıq
Mətləbdir, əməldir, işdir, dəb deyil.

Qərbin səs-küyünə sulanır ağzın,
Onu da duymursan...Görürəm səni.
Qərbi də duyardın, əgər duysaydın,
«Yaxan düymələ»ni, «Uzundərə»ni.

Dəblərin önündə deyil, ay bala,
Sən fikir önündə səcdə qıl, diz çök.
Qulluq et bir fikrə, tək bir amala
Budur mədəniyyət, budur böyüklük!

Eltondan, Demisdən danışdın mənə,
Gördüm, dədənə də biliyin yetər.
Bilmək mədəniyyət deyildir hələ,
Mənə zatındakı ağlını göstər!

Çoxda ki, çölümüz içdən öndədir,
Son zəfər, irəli keçməkdə deyil.

İnsanlıq insanın əməlindədir,
Taxdığın «firmenni» çeşməkdə deyil.

Rəngilə dünyanın öz ahəngini
Kim dəyişə bilmiş?
Rəng elə rəngdir!
Əsl mədəniyyət için rəngini
Çölün boyasıyla gizləməməkdir.

Dünyada ən böyük bir səadətdir
Tamaha göz yumub, nəfsi öldürmək.
Böyük nəciblikdir, mədəniyyətdir
Borcunu haqqından irəli görmək.

*Dekabr 1980*

## YAXŞI Kİ, BİLMİRİK...

İmkanın həddini bilsə də insan,
Xəyala, arzuya yenə təşnədir.
Bizi yuxularda kama çatdıran,
Arzunu güldürən yuxular nədir?

Sonsuz arzularla həyat tən olsa,
O şirin olmazdı yuxular kimi.
Yuxular həmişə əgər çin olsa,
Yaşamaq insanı bezdirməzdimi?

Ömrümüz boyunca xeyirdən, şərdən,
Könül bir möcüzə gözləyir nəsə.
Yaşamaq əzaba dönərdi, hərdən
Xəyala gələnlər başa gəlməsə.

Xəyal – qovulduqca qaçan bir pəri
Bəzən kül üfürür gözlərimizə.
Alıb əlimizdən nəqd günləri
Nisyə gələcəyi bəxş edir bizə.

Al-əlvan boyalı düşüncələrdən
Bəzən yol salırıq toy-düyünlərə.
Qanadlı, qanadsız yuxular, bəzən
Şəkər damcılayır acı günlərə.

Yuxuda uçuruq, bu çəmən, bu dağ
Arzu gülşəninin çiçəkliyinə.

Bu ki, günah deyil... Bəzən aldanaq
Şirin yuxuların gerçəkliyinə.

Ürəkdə doğulan sirli bir səsə
Uyuruq...
Bilmirik hardandır bu səs?
Əgər öz yuxumda uçan mənəmsə,
Onda çarpayıda yatan kimdi bəs?

Biz hələ bilmirik nədir bu axın –
Dolan, o tərəfdən boşalır yenə.
Biz hələ bilmirik öz dünyamızın
Bu tayında nə var, o tayında nə?

Çox şeyi bilmirik,
Sirlər qatbaqat.
Bitməsin insanın arzusu, dərdi.
Yaxşı ki, bilmirik...

Yoxsa, bu həyat
Necə adiləşər, bəsitləşərdi.

*1980-1981*

* * *

Hər ömrün sonunda,
Son anda yalnız
Necə yaşamağı dərk edirik biz.
Qanrılıb ölümün astanasında
Bir də boylanırıq həyat tərəfə
- Başqa cür yaşardım – deyirik onda –
Dünyaya gəlsəydim ikinci dəfə.

Bizimlə bərabər gedir torpağa
Ömrün zirvəsində düşündüyümüz.
Bu sirri birinə pıçıldamağa
Nə macal tapırıq,
Nə imkan,
Nə söz.

*Avqust 1981*

## AXTARAN TAPAR
## (TROYA)

*Homerin təsvir etdiyi Troya şəhərini üzə çıxaran Şlimanın xatirəsinə*

O, Homeri oxudu səkkiz, doqquz yaşında
Troya uğrundakı bütün qanlı döyüşlər
İz açdı yaddaşında.
Şeirin sirli ecazı onun uşaq qəlbini
Oynatdı öz yerindən.
Yelenanın, Parisin çılğın məhəbbətinə
O inandı dərindən.
Troya – öz şöhrəti, sonsuz dəbdəbəsiylə
Köçdü onun qəlbinə Homer sətirlərindən:
Ensiz, uzun küçələr,
Daş barılar içində
Uca-uca qəsrlər.
Qəsrlərin içində
möcüzələr,
və sirrlər.
Menelayın sarayı.
Sarayda dəbdəbələr,
Tavanda çilçıraqlar, döşəmədə gəbələr.
Doqqazların başında qotazlı fəvvarələr
Hovuzlarda dövr elər.
Keçdi yuxularında neçə dəfə Şliman
O qoca Troyanın dəmir darvazasından.
Yuxusunu danışdı,
Dedilər: -Əfsanədir.

Hələ heç kəs bilməyir
Şairlərin sözündə yalan nədir, düz nədir.
Belə şəhər olmamış yer üzündə heç zaman.
Aldanmışdır həmişə
Həqiqət gözləyənlər şair uydurmasından...
Dedi: - Uydurma deyil, həqiqətdir bu şəhər.
Həqiqətdir gözəllik –
Gözəlliyin naminə gedən qanlı döyüşlər.
Həqiqətdir şairin yaşadığı kədər, qəm.
Bəlkə də bu dünyaya
Mən elə Troyanı tapmaq üçün gəlmişəm.

Tapındığı inamdan qüdrətini alınca
O, bir böyük sualın tutub ətəklərindən
Getdi onun dalınca.
Getdi, getdi tarixin gizli sirrlərilə
bir barışmaz vuruşa.
«Uf» demədən xərclədi ömrünü qətrə-qətrə
O, böyük axtarışa!
Axtarışlar naminə oğul istər yanası!
Axtarışdır, axtarış gerçəyin astanası!
Niyə gəldik cahana! Düşünsək dərin-dərin,
Deyərik axtarışdır bəlkə ömrün mənası?
İnsan gəzir sirrini həmişə göyün, yerin.
Həqiqətə çatmağa bizi qanadlandıran
Bir əbədi inancdır.
Axtarışlar naminə əriyən ömürlərin
İtirdiyi tapıntı, xərclədiyi qazancdır.
Tapmaq üçün
ürəkdə gərək axtarış özü
əriyib inam olsun.

Allah da gizlənib ki,
İnamın gözlərilə onu axtaran olsun.
Tarix boyu həqiqət
İşıqdan zühur olur.
Əritməkçün zülməti əriyən ömürlərin
ərintisi nur olur.
O, axtarış yolunda əridib öz ömrünü
İşıqlatdı zülməti.
İnamın işığında o tapdı həqiqəti –
Həqiqətə çevirdi əfsanəni, röyanı.
Qazdı iradəsinin əliylə uzun illər
Neçə dağı, qayanı.
Yerin yeddi qatından tapıb üzə çıxartdı
Möhtəşəm Troyanı!
Bəli, axtaran tapar!
Ancaq bu da var: əgər,
Əslən heç olmasaydı yer üzündə bu şəhər
Yaranmış olsaydı o, Homer təxəyyülündən
Nəyi tapacaqdı bəs o axtarış övladı
Tarixlərin külündən?
Fikri, qəsdi yolunda öz ömrünə o, qıydı.
Əgər inanırdısa –
İnamını, eşqini o, hökmən tapmalıydı.
İnamın işığında
O, zülməti yarırdı.
Şəhər axtarmırdı o,
həqiqət axtarırdı.
Həqiqət gizlindədir, ancaq yox deyil,
O var!
Onu axtaran tapar! Onu axtaran tapar.
Onu axtaran gərək!

Özünü alışdırıb
Qəlbinin işığında zülməti yaran gərək!
Troya – inam olub Şlimanın qəlbində
Yaşadı röya kimi.
İnam – həqiqət olub, düşdü onun qəlbindən
Bir gün Troya kimi.

*İyul 1981, Şəki*

## TƏBƏSSÜM ORDENİ*

Təbəssüm ordeni varmış, heç demə,
Bəs kimə verilir bu orden, kimə?
Nə yaxşı işçinin, nə qəhrəmanın,
Nə məslək yolunda ölən insanın
Haqqı deyil bu.
Düşün, adamsansa ilkin borcunu!

Uzaq, şərdən uzaq, riyadan uzaq.
Bir bax gülüşünə gülün, gülşənin.
İnsansan, insana sevinc paylamaq,
Təbəssüm paylamaq borcundur sənin.
Yaşa kindən uzaq, qəzəbdən uzaq.
Özgə bostanına heç vaxt daş atma!
Tikə bilmədiyin bir qəlbi yıxmaq
Ən böyük günahdır,
Günaha batma!
Çalış, bir sifətin, bir üzün olsun
Dünyanın min rəngli görünüşündə.
Özgəyə təbəssüm paylayanların
Təbəssüm ordeni yanır döşündə.

*1983*

---

*Polşada "Təbəssüm" ordeni var.

* * *

Torpağı göyərdən iki qüvvə var:
Biri – məhəbbətdir,
O biri – qeyrət.
İnsan məhəbbətdən insan doğular,
Fitrəti, mayası, cövhəri – qeyrət!
Qeyrətdir insanın şərəfi – şanı!
Qeyrətsiz insanda insanlıq hanı?

«Torpaq», «yağış», «günəş» - deyib durma, gəl,
Yoxdursa qeyrətdən od alan ürək
Ən dolu toxumu torpaqdan əvvəl
Qeyrətin üstünə əkəsən gərək.

Şairin könlündə od qalanmasa,
Sözüylə bir qəlbi isidə bilməz.
Alimin könlündə ulduz yanmasa,
Göydəki ulduzu kəşf edə bilməz.

Torpağa könülsüz toxum atanda
Əllər nalə çəkər,
Torpaq ah çəkər.
Qeyrətlə məhəbbət yoldaş olanda
Qaya dil-dil ötər,
Daş qah-qah çəkər.

*1983*

## HƏQİQƏTİ YAŞADAN

Həqiqətin sinəsində
At oynatdı yalanlar.
Həqiqətə qurban getdi
həqiqət axtaranlar.
Sokrat dedi: Bu ağ,
Bu da qaradı.
Yalanların çirkabında
Ömrü boyu həqiqəti aradı.
Dedilər ki,
Ürəyinin işığıyla
Qaranlığı yaranlar –
Həqiqət axtaranlar
Onu dustaq edənlərin
fərmanıyla öləcək.
Bu inamdan sən əl çək!
Sokrat dedi: mən bilmirəm, ölüm nədir –
O yaxşımı, yamanmı?
Bu dünyadan kənar dünya
Həqiqətmi, yalanmı?
Ancaq bunu bilirəm ki,
əqidəsi, inamı
yaşatmalı hər kəsi.
Qəbahətdir düşünənin
inamından dönməsi.
Hər düşüncə nişangahı
tuşlanır bir hədəfə.
Qəbahəti məlum olan dönüklükdən

yüz dəfə
Yaxşılığı ya pisliyi
hələ məlum olmayan
ölüm daha gözəldir.
Ölüm – ömrün zirvəsidir
Zirvə – sondur,
Əvvəldəki əyriliyi düzəldir, -
Deyə zəhər badəsini
Sokrat çəkdi başına.
Ölümüylə
altmışında
o çatdı min yaşına:
ömrü boyu
Həqiqətin səngərindən
Yalanlara daş atdı,
Həyatından daha artıq ölümüylə
həqiqəti yaşatdı.

*İyul 1984*

## BARIT QOXUSU VAR

Bu dünyanın əzabları
Bu dünyanın boyunamı biçilibdir?
İnsan raket sürətinə güvənəli
Dünya yaman kiçilibdir.
Ey dünyanın taleyini düşünənlər,
Gələcəyə
ehtimallar cığırıyla yol açmayın.
Bombaların tüstüsündən
Dumanlanan aynalarda
fal açmayın.
Şükür olsun, insan ağlı
sığışmayır yerə, göyə,
Gözlə deyil,
raketlərin düz nişangah güzgüsündən
yaxşı baxın gələcəyə.
Planetdə yaman barıt qorxusu var.
Vaxtdır, bilək
dünyamızın
külə dönmək qorxusu var.
Ey!.. Dayanın,
Səs salmayın,
Körpələrin yuxusu var.
Raketlərin nişangahı tuşlanıbdır
Körpələrin gözlərinə.
Tuşlanıbdır dan yerinə.
Siz ey raket barmağıyla
Bu dünyanı hədələyən,

öz haqqını dərk eləyən
Millətlərin başlarına od ələyən
cahangirlər,

Bu əsrdə nədir belə
Beyinlərə, ürəklərə
vurduğunuz bu qandallar, bu zəncirlər?
Lakin bu da həqiqətdir,
fikir zəncirdə saxlanmaz;
fikir – işıq qaynağıdır,
Dəlib keçər qaranlığı,
O, işıqda işıqlanmaz.
Okeanın o tayından bu tayına
Hədə – qorxu sədası var.
Bu «mənəmlik» sədasında
Birincilik iddiası, ədası var.
Zorda, gücdə birincilik!
Sən fəxrə bax,
güvəncə bax!
Axı, sən də bir insansan
Güc heyvanlıq ölçüsüdür.
İnsanlığın ölçüsüylə, gəl yarışaq!

*Avqust 1984*

## QARTAL

*İkram Abdullayevə*

Sərrast atəşinə güvənən ovçu
Süzən bir qartalı vurdu, nə vurdu.
Heç «uf» da deməd nadanlığından.
Düşdü üzü üstə yaralı qartal.
Bu halı uzaqdan gördü Xançoban,
Özünü yetirdi qartala dərhal.

Yazıq quşcuğazı qaldırdı yerdən,
Dağların şəfalı çiçəklərindən
Onun yarasına məlhəm də qoydu.
Qartalın gözləri yaşla doluydu.

Axtara-axtara yamacı, yalı
Ovçu Xançobanın gəldi yanına.
Tez tələb elədi ondan qartalı,
Xançoban qəzəblə təpindi ona.
Qatillə xilaskar yaman tutuşdu.
Araya bir böyük mərəkə düşdü.
Süzdü bu davanı qartal...
Elə bil,
Nəsə hiss elədi,
Nəsə anladı.
Amma insan kimi dolayı deyil,
Qartal bu mətləbi kəsə anladı:
«Bütün qartalların bir xisləti var –
Düşməni də bəlli, dostu da bəlli.

Bir xislətdə deyil bütün adamlar
Hər biri min üzlü, min bir əməlli...
Qanımı axıtdı onların biri,
Yaramı sarıdı amma digəri.
Baş aça bilmirəm bu dolaşıqdan –
Ovçu da insandır, çoban da insan...»

*Avqust 1984*

* * *

«Dəyişib zəmanə, dəyişib maraq,
Dəyişib həyatın ritmi» - deyirlər.
Zamanı sürətdən oğurlayaraq,
Hər şeyi vaxtından tez istəyirlər.

Arzunu gerçəyə çevirmək üçün
Maşının, qatarın artıb sürəti.
Bunlarla qol-qola dəyişir bu gün
İnsanın xisləti, zövqü, fitrəti.
Vaxtın özündən də vaxt kəsirik biz,
Həmişə, harasa tələsirik biz.
Qovhaqov,
qaçhaqaç,
tələshatələs.
Bu vaxtdan o vaxta göz tikirik biz.
Tələsə-tələsə bu nədəndi bəs,
Həmişə, harasa gecikirik biz?!

Baxıram torpağa, baxıram göyə,
İqlim o iqlimdir hava o hava.
Təbiət uymayır, görən, bəs niyə
İnsanda yaranmış bu qovhaqova?

Əvvəl necəydisə, elədir yenə.
Vaxtında açılır güllər, çiçəklər.
Günəş də əvvəlki hərəkətinə
Pəl qatmır,
Vaxtında açılır səhər.

*İyul 1984, Şəki*

## İŞIQ

Al günəşdən od içib şaxələnən
Gül-işıq,
Lalə – işıq,
Zanbaq – işıq.
Bizi gerçəklərə qalib aparan
Od – işıq,
ulduz – işıq,
Bayraq – işıq.

Biz işıq yolçusuyuq, məqsəd – işıq,
Biz olan yerdə olur zülmət – işıq.
Ruh - işıq,
Məslək – işıq,
qeyrət – işıq,
güc – işıq,
qüvvət – işıq,
cürət – işıq.

O könüldən ki keçir, eşq ilə qeyrət damarı
Ora öz bayrağını asdı – işıq,
Atalardan bizə mirasdı işıq.
Qoy alışsın fikir avizələri
Darasın zülməti nur nizələri.
fikir – işıq,
idrak – işıq,

amal – işıq.
Fikrimizdən doğacaq bir günəşə
yol – açıq,
meydan – açıq,
Meydana çıx!

*İyul 1984*

## ƏŞYALAR DANIŞIR...

*Üzeyirbəyin əziz xatirəsinə*

Yolun son mənzili ilkini dandı.
Güney bitən yerdən başlanır quzey.
Elə ki, dahinin qəlbi dayandı,
Adı – tarix oldu, evi – bir muzey.

Dahinin qələmi, mizi, dəftəri
Eksponat oldu o gündən bəri.
Bu cansız əşyalar ilkini dandı,
İtdi o əvvəlki vəzifələri,
Onlar tamam başqa dəyər qazandı.

Dahinin gözləri qapanan zaman
Dahinin yerinə onlar dindilər.
Çıxıb adiliyin dar otağından
Qeyri-adiliklə rütbələndilər.

Əşyalar danışır...
Günlər incitək
Xatirə sapına düzülür indi.
Əşyalar üfürür...
Sönən bir ürək
Boz külün altından çözülür indi.

Açılır bir ömrün eşqi, məlalı,
Fərəhi,
Sevinci

gələcək üçün.
Böyük bir insanın fikri, xəyalı
Soyuq əşyalarda yaşayır bu gün.
Əşyalar danışır hey şirin-şirin,
Bu gün dünən ilə üz-üzə durmuş.
Dahinin əlləri dəyən şeylərin
Ömrü öz ömründən uzun olurmuş.

*Avqust 1981*

* * *

Üç qiymət göndərdilər:
Biri əla, biri yaxşı,
biri pis.
Əla mənim, yaxşı sənin,
pis kimin?

Üç ovqat göndərdilər:
Biri toydur, biri bayram,
biri yas.
Toy mənimdir, bayram sənin,
yas kimin?

Üç sovqat göndərdilər,
Göydən üç alma düşdü:
Biri mənim, biri sənin,
Üçüncüsü bəs kimin?

Gəl almanı yarı bölək,
Üçüncüyə verməyək.

*1982*

* * *

Bağrından min nemət, min bar yetirdi
İnsan övladına bu ana torpaq.
Bəs bu nə möcüzə, bəs bu nə sirdi?
Sirrini vermədi insana torpaq.

*1981*

## BIÇAQ – QƏLƏM

*Güney Azərbaycanda nəşr olunan «Varlıq» məcmuəsinin naşiri – cərrah-ədib Cavad Heyətə.*

İnsana xidmətdir məramın sənin,
Sən ömrün boyunca ömr uzatmısan.
Cərrah bıçağıyla min-min xəstənin
Ağrı – acısını kəsib atmısan.
Xəstəylə bərabər sevindin sən də,
Cismani bir dərdə əlac edəndə...

Mənəvi dərdlərsə qaldı əlacsız,
Bəs onun dərmanı nə imiş, görən?
Cərrah bıçağıyla gördün ki, yalnız
Cismani ağrını kəsə bilərsən...

Bir xalqın mənəvi ağrılarına
Əlacı, qardaşım, qələmdə gördün.
Gündüzlər bıçaqla kəsmək bir yana,
Gecələr əlinə qələm götürdün.

Yarıya bölünmüş ana vətənin
Bu gün səndən umur dərdinə məlhəm.
Qardaş, qoşalaşdı silahın sənin,
Gündüzlər – bıçaqdır, gecələr – qələm.

Sən sözə çevirdin iztirabları,
Yazdın, bir həsrətdən min dərd göyərdi.

Əlində birinin azar – bezarı,
Dilində bir xalqın çox əsgi dərdi.
Gecə də, gündüz də hey döyüşürsən,
Mənəvi, cismani ağrılarla sən.
Həkim nüsxələri yazdın həmişə
Xəstən şəfa tapıb sağaldı... fəqət,
Ədib qələmiylə yazdığın nüsxə
Bir xalqın dərdinə şəfadır, əlbət!

Yaz ki, bütöv idik, parçalanmışıq,
O taydan dünyaya səsin ucalsın.
Yaz ki, qələmindən süzülən işıq
Vətəndən Vətənə bir körpü salsın!

*Oktyabr 1982*

## AŞIQ ƏLİ*

Dədəmizin söhbətini
Sən bu taydan eşidəli,
Kökümüzdən gələn səsə
Cavab verdin aşıq Əli.

Həm o tayda, həm bu tayda
Dövran sürdü Dədə Qorqud.
Saz üstündə səni mənlə
Görüşdürdü Dədə Qorqud.

Dədəmizi yada salaq,
Balamıza gün ağlayaq.
Ayrılığı ayaqlayaq
Sən o taydan, mən bu taydan.

Deməsinlər təklənmişik,
Eyni dərdlə yüklənmişik.
Bir arzuya köklənmişik
Sən o taydan, mən bu taydan.

Biz ataşdən od almışıq,
Dərdimizdən ad almışıq.

---

*Cüney Azərbaycanın qocaman aşığı.

Uçmağa qanad almışıq
Sən bu taydan, mən o taydan.

*1982*

## CAVAB

*İranda Azərbaycan xalqının milli varlığını danan, xalqımızı farslardan dönmə hesab edən «alimlər» peyda olmuşlar. Bunlardan biri də milliyyətcə azərbaycanlı olan Yəhya Zəkadır.*

Özgə qapısına daş atan – azğın,
Sən özgə daşını özünə atdın.
Özgəyə qənimi çox eşitmişik,
Özünə qənimi sənmi yaratdın?

Nədir bu böhtanlar, bu uydurmalar?
Fitnə kökündədir çaldığın bu saz.
Siyasət fitinə könülsüz, naçar
Zaman oynasa da, tarix oynamaz.

Zamanın süzgəci narından narın,
Keçirir hər sözü neçə ələkdən.
Özünə qalacaq uydurmaların,
Gördünmü zir-zibil keçə ələkdən?

Mən yaxşı bilirəm məqsədin nədir,
Uydurma tarixin məramı nəymiş.
Nəsimi, Fizuli, Xətai, Sabir
Səncə, Firdovsinin yetimləriymiş.

Sənin şanın hanı, şərəfin hanı?
Əyilmə özgəyə öz mənzilində.

Nənən bayatını, anan laylanı
Niyə çağırmadı bəs fars dilində?
Altay dağlarını baban aşanda,
Ağan bu cürəti heç danmamışdı.
Qorqud öz dilində nəğmə qoşanda
Sədinin qəzəli yaranmamışdı.

Tarixlər yaradıb tarixdən qədim
Bu xalqın qılıncı,
Bu xalqın sözü.
Bəs necə oldu ki, ey dönük alim,
Biz olduq özgənin tör-töküntüsü?

Cırtdan nağılını danışdı nənən,
Bu nağıl qanana ibrətdir bu gün.
Divə əyilmədi Cırtdan...
Amma sən
Qarğa qabağında sərçəyə döndün.

Ey sözündən əmin, özündən razı,
Yalanı söylədin kimin adından?
Ananın laylası, atanın sazı,
Babanın ocağı çıxdı yadından?

Anan duasında dedi: «Ya allah,
Balamın həmişə üzü ağ olsun.
Elə yaşasın ki, el ona pənah,
O da el-obaya bir dayaq olsun».

Dayaq olmalıykən öz elinə sən,
Elin kürəyində bir bıçaq oldun.

Sən igid olmalı, ər olmalıykən,
Özgənin əlində oyuncaq oldun.

Bu halda sən kimsən, nəçisən, düşün,
Xalqının başında özgə yumruğu!
Ömrünü-gününü qoltuqda sürdün,
Səni isitdimi özgə qoltuğu?
Su töküb özgənin dəyirmanına,
Özün inandınmı öz yalanına?

Çəkdiyin boyalar pozuldu yenə,
Yağanda zamanın gur yağışları.
Tarix sillə kimi çəkdi üzünə
Özgədən aldığın o alqışları.

Özgənin şoruna sən qaymaq deyib,
Demə öz südünə bulama, Yəhya,
Sən bu gün tüpürüb öz boşqabına,
Özgə boşqabını yalama, Yəhya!

De, hardan öyrəndin sən bu oyunu?
Qamış tapılmadı ölçəm boyunu.
Sən öz bostanının kəsib suyunu,
Özgə bostanını sulama, Yəhya.

Onsuz da özgəyə sən yadsan, oyan,
Canını versən də boyatsan, oyan.
Sən onun əlində alətsən, oyan,
Özünü özgəyə calama, Yəhya!

Ağan hökm elədi... haqq bildin onu,
Yerinə yetirdin hər buyruğunu.

Söyüb öz dədəni, sən quyruğunu
Özgənin önündə bulama, Yəhya!

Sən ki, inanansan allaha, dinə,
Bəs bu nə lotuluq, bəs bu nə fitnə?
Sən öz çirkabına,üfunətinə
Gəl, bu boyda xalqı bulama, Yəhya!

Qatma yad mayası sən öz nehrənə,
Söymə təndirinə, söymə təhnənə.
Özgə məhləsindən sən öz məhlənə
Belə cani-dildən ulama, Yəhya!

*1984*

* * *

Qızıl ləçəkləri yumulu qönçə
Kim bilir, açacaq, ya solacaqdır.
Almanı göyə at,
yerə düşüncə
Göydə neçə dəfə fırlanacaqdır.

*İyul 1979*

## BİR ÖMRÜN TƏRCÜMEYİ – HALI

Jerar Filip suya «batdı» - ölmədi.
Neçə dəfə zəhər daddı – ölmədi.
Oda girdi,
Saçlarından tonqal çatdı – ölmədi.
Özünü beşmərtəbəli evin
Damından atdı – ölmədi,
Yatağında rahat yatdı – öldü.

*May 1982*

## ƏSARƏT, YA ÖLÜM?

Qırdı boynundakı ipi bir gecə,
Meşəyə üz tutdu keçi gizlicə.
Oynaya-oynaya o, aşdı dağdan,
Ona ləzzət verdi əl-qol açması.
Birdən qulağına gəldi uzaqdan
Tükləri ürpədən qurd ulaşması,
Bilmədi neyləsin...
Dayandı...
durdu
Ölümlə əsarət arasında o.
Bilmədi hansını seçsin o, öncə.
Boynunun kəndiri yada düşüncə
Əvvəlki qorxusu yüz qat çoxaldı,
O, meşəyə tərəf döndü yön aldı.

*Avqust 1984, Şəki*

* * *

Bir böyük amala vurulan zaman
Özünü
Yenidən yaradır insan.
O böyük amalın çağrış səsində
Qayğılar əriyir,
Məqsəd doğrulur.
Özünü yaratma mərtəbəsində
İnsan kamilləşir, şəxsiyyət olur.

*1982*

## HÜSEYN CAVİDƏ

Sözünün cövhəri yatır dərində
Yaşar könlümüzdə arzu, niyyətin.
Bir xalqın balası, çiyinlərində
Daşıdın dərdini bəşəriyyətin.

Üççə söz dilinin əzbəri oldu:
Həqiqət, məhəbbət, bir də ədalət.
Zaman dolandıqca sular duruldu,
Hər şey öz yerini tapdı, nəhayət.

Amansız bütləri amansız zaman
Keçirdi ələkdən birbəbir bu gün.
Vətənin sızlayan yaralarından
Qeyrət çiçəkləri göyərir bu gün.

Sənətin bənzəyir xəzansız bağa,
Orda bülbül ötdü, çiçəklər dindi.
Sağ ikən güvəndin ana torpağa,
Öldün, ana torpaq sənə güvəndi.

Şeirin sinə gərdi burulğanlara
Ölüb məzarında yüz yaşa doldun.
Vücudun torpağa dönəndən sonra
Ana torpağına qayıdan oldun.

Yanar sinəsiylə buz qıranların
Haqq səsi, dağ səsi tutub dünyanı.
Səni torpağına qaytaranların

Ömrü uzun olsun torpağın sanı.
Sən bir qüvvətə bax, qüvvət içində
Yüz ömür calandı ömrünə, Cavid.
Gələcək nəsillər heyrət içində
Minnətdar olacaq bu günə, Cavid.

*1983*

* * *

Kiminin anadan aldığı adı
Torpağın çiyninə ağır yük oldu.
Kiminin adısa tarix içində
Tarixin özündən çox böyük oldu.

Kiminin adını xəcalət ilə
Köksündə ləkə tək daşıdı tarix.
Kimsə öz adıyla tarixi belə
Daşıdı çiynində.
Onun adıyla
Yaşadı tarix.

*1984*

* * *

Yamanca qorxuruq səhv eləməkdən,
Qapanıb qalırıq vərdişimizdə.
Düzgün işimizdə gizlənir bəzən,
Ancaq açılırıq səhv işimizdə.

*Avqust 1981*

## ŞAM

*Almaniyanın Heydelberq şəhərinin sakini professor A.Alitan vida gecəsi bizə şam bağışladı*

Bizə şam bağışladı.
Dedi: - Odlar yurdudur Sizin ölkənin adı,
Şam da odun rəmzidir,
Bu od kimi qəlbiniz
Gülsün, daim şad olsun.
İstədim od oğlunun töhfəsi də od olsun.
Sən ölkəndən üzündə gülüş gətirdin mənə
Dedim, sən də nur apar ölkəmdən öz ölkənə.
Ölkələr arasında könül tellərimizdən
Qoy körpülər qurulsun.
Bizim bir-birimizə
Ən böyük hədiyyəmiz gülüş olsun, nur olsun.

Mən indi vətəndəyəm,
yeni ilin axşamı
Yandırdım o insanın insani duyğularla
Bəxş etdiyi o şamı.
Şam yandı,
işığıyla evə yaraşıq oldu.
Şam yandı,
işıq oldu,
Nur saçdı qəlbimizə,
Fərəh bəxş etdi bizə.
Bu şamın işığında nə qərəz var, nə kin var

Bu şamın işığında əriyib yoxa çıxdı
Ürəklər arasında o dikələn hüdudlar.
Könüllərdən silindi qara-qara kölgələr,
Əl verdi bir-birinə uzaq-uzaq ölkələr.
Dedim yanaq şam kimi,
Odumuz işıq olsun, təkcə barıt olmasın.
Bu odun tüstüsündən üfüqlər qaralmasın,
Ürəyimiz şam kimi işıq naminə yansın.
Qoy bu şamdan utansın
İşığın qarşısında sədd kimi dayananlar –
İşıq üçün yanmayıb kölgə üçün yananlar.

*Dekabr 1982*
*Almaniya, Manhaym – Bakı*

## TƏHQİR

Kəfkir,
satıl,
aftafa,
qazan,
güyüm,
tas,
sini...
Piştaxtanın üstündə gözləyir müştərini.
Üstündəki butalar göz oxşayan, qəlb açan
Satıla bax, satıla, qazana bax, qazana.
Necə əhsən deməyək
O incə naxışları qazan üstdə yazana.
Bu Qərb məmləkətində, axı, kimə gərəkdir
Satıl güyüm, ya kəfgir?
Bu şeylərin dəyəri gərəkliyində deyil,
İncə sənətindədir.
Naxışlarda danışır xalqın zövqü, hikməti.
Naxışların diliylə Şərqi Qərbə tanıdır
Bu qədim türk sənəti...

Satıcıdan soruşdum türk dilində:
-Türkmüsən?
Anlamadı o məni, anlamadı, deyəsən.
Dilmanc mənim sorğumu ona başa salınca,
Sıyrılıb çıxdı qından kişi dönüb qılınca,
Söyüş söyüş dalınca döşədi cəmdəyimə.
O, türklüyü özünə təhqir bilirmiş, demə.

Düşündüm:
Bu dünyanın qat-qarışıq işləri:
Dikləri, enişləri
gülməlidir,
gülməli
Dünya bina olandan...
Gözəl türk sənətindən qazanc götürən oğlan
Bəs türklüyü özünə niyə təhqir bilməli?..

*Dekabr 1982*
*Almaniya, Dortmund*

## ÖZÜNÜ HAMIYA BORCLU SAYANLAR

*Dostum R.Nadirin xatirəsinə*

Dünən toy elədik,
Yasdayıq bu gün.
Həyat, həyat boyu təlatümdədir.
Bilinmir nə imiş qazancı ömrün?
Verdiyin bəllidir, aldığın nədir?

Bəzən qorxudurdu xoşbəxtlik bizi,
Bir hiss gəmirirdi ürəyimizi:
Sevinc arxasında bir kədər də var.
Bu, böyük hikmətdir,
Adi söz deyil.
Xoşbəxt gəzintilər, xoş zarafatlar
Deyirik, bəlkə də haqqımız deyil.

Fəlakət həmişə fürsət axtarır,
Onun pusqusundan xəbərsizik biz.
Heç demə, özündən yüz dəfə ağır
Borca dönəcəkmiş adi haqqımız.

Ey tale, de niyə qismətimizə
Özün yazdığını çox gördün bizə?
Qətrə sevinc verib əvəzində sən,
Dərya kədər aldın...
Ədalət bumu?
Bir insan həyatı, «ədalətindən»
Bir qətrə sevincə əvəz oldumu?

Sevinc yuxusunun xumarlığından
Kədər ayıldarmış, demə, insanı.
Demə, varın yoxa çevrilməsiyçün
Bir nəfəs bəs imiş...
O nəfəs hanı?
Ey könül, hamının dərdini çəkmək
Sənin həyat qayən, məqsədin oldu.?
Elə bununçün də ömrü ömür tək
Yaşamaq, Nadirçün çox çətin oldu.

Əridin şam kimi, söndün şam kimi.
Necə üzülməsin o qəlb bir anda?
Sızladı həmişə bir nəslin qəmi
Onun ürəyinin ağrılarında.

Həyatın yükünü daşımaq çətin!
Dərd imiş həyatın ən düzgün adı.
Hamının dərdinə çatan ürəyin
Özünü dərmana çatdırammadı.

Hara baxırıqsa, hara, büsbütün
Çıxır qarşımıza qayğının izi.
Bizə bəslədiyin məhəbbət bu gün
Əzaba çevrilib ağrıdır bizi.

Özünü hamıya borclu sayanlar
Özgəni yaşadır öz ömründə.
Dünyada özüyçün yaşamayanlar
Yaşaya bilməzmiş dünya üçün də.

*1981*

## UÇMAQ İSTƏYİRƏM

Uçmaq istəyirəm,
Mən elə uçmaq!
Qanad verməsə də təbiət mənə.
Qucmaq istəyirəm, dünyanı qucmaq,
Verdi bu arzunu məhəbbət mənə.

Məhəbbət qanaddır, gəzir hər yeri.
Olmayan qüdrəti o verir bizə.
Gözlə görünməyən dərinlikləri
Məhəbbət göstərir gözlərimizə.
Məhəbbət – özümü dərk edim deyə,
Məni yerdən alıb qaldırır göyə.

Uçmaq istəyirəm,
yalınz zirvədən
Seyr edim bu günü, ötən çağları.
O qədər ucalım, yüksəlim ki, mən,
Görməyim yerdəki xırdalıqları.

Uçmaq istəyirəm, arzu dalınca
Özümü səsləyim, hay verin mənə.
Xəyaldan o taya mən ucalınca
Yer mənə dar gəlir, göy verin mənə!

Uçmaq istəyirəm,
əsəblərimi,

Əsrin öz kökündə çəkib tarıma.
Uçmaq istəyirəm,
dərdi-sərimi
Dərmana yetirən nağıllarıma.

*Avqust 1980*

## YAXŞI BAX DÜNYAYA

*Dostum A.Azər üçün*

-Dünya mənimkidir – dedim, gənc ikən,
Qalmasın gözündə bircə arzu, kam
Dedim: - Bu dünyada yaşamaram mən
Dünyanı özümə heyran qoymasam.

Gəzdim ölkələri mən addım-addım.
Həsrətlə boylandım hər ötən çağa.
Elə heyran oldum,
macal tapmadım
Dünyanı özümə heyran qoymağa.

Hər güldə, çiçəkdə min rəng, min boya,
Hər duyğu könlümə şəfəqlər çilər.
Dünyadan gedənlər,
qoca dünyaya
Heyran yaşadılar, heyran getdilər.

Bir vaxt ayıldım ki, gün olub gecə,
Əlimdən çıxanı əlimdə bildim.
Dünyanı özümə heyran edincə
Mən özüm dünyaya heyran kəsildim.

Yaxşı bax həyata,
ey könül, çaşma.
Dağdan arana bax,

Arandan dağa.
Çalış, bu dünyada yaşa,
çalışma
Dünyanı özünə heyran qoymağa.

Dekabr 1980

## ÇƏKİSİZLİK

Qanadı yoxsa da
yaranışından,
Həmişə uçmağa can atmış insan.
Uçmuş dağdan-dağa röyalarında
Uçmağa imkanı olmayan zaman.

Ürəkdə gizlənən nə sirrdir bu?
Bəlkə fitrətdədir uçmaq arzusu.

Həmişə düşünən, axtaran insan
Daim ucalığa can atmış niyə?
Bəlkə... qurtarmaqçın ağırlığından
Düşmək istəmişdir çəkisizliyə?

Fikrən də, mənən də biz ucalanda
Dərdimiz – qayğımız az olur bizim.
Dünyəvi yüklərdən azad olanda
Sanki, çəkimiz də azalır bizim.

Uçuruq, havada kəpənək kimi,
Necə də xoş gəlir yaşamaq bizə.
Hər şey mahnı kimi, gül – çiçək kimi,
Füsunkar görünür gözlərimizə.

Elə ki, ayrıldı qayğılarından
Mədədən yuxarı düşünür insan.
Ağırlıq getdimi,

Çəki itdimi,
İnsan qanad açıb uçur ruh kimi.
Küçələr,
döngələr,
evlər,
divarlar.
Evdəki bucaqlar,
Döşəmə, tavan,
Hər şey həndəsidir,
öz hüdudu var.
Çıxmaq istəyirəm bu hüdudlardan.
Çığırmaq istərəm mən bu arzumu
Bütün qulaqlara...
Eşitsin hamı!

Cizgilər içində bu dünya, bu yer...
Hər cizgi nəyinsə həddidir ancaq.
Cizgilər içində ruh əzab çəkir,
Ruh isə cizgidən, qəlibdən uzaq!

Odur ki, göylərə baxanda insan,
Ruhu azad olur həddən hüduddan.
Gəlin, cizgiləri könüldən silək,
Hüdudsuz göylərə baxaq, dincələk.
Göydə nə ölçü var,
Nə sərhəd, nə xətt.
Göy də hüdudsuzdur ruhumuz qədər.
Hüdudsuz, çəkisiz ruhumuz, əlbət
Hüdudsuz göylərdə dincələ bilər.
Göylər cəzb eləyir ürəyimizi,
İstərik xəyalla qoşa uçmağı.
Ucalmaq istərik,

Ancaq yer bizi,
Başqa bir cəzb ilə çəkir aşağı.
Ömrümüz boyunca bu xoş arzudan
Qurtara bilmirik...
Nə sən,
nə də mən.
Çıxmaq istəyirik yerin hər zaman
Bizi yerə çəkən cazibəsindən.

Bəs çıxan oldumu?
Tək-təkdir hələ
Dünya qayğısından azad olanlar.
Göydə kosmonavtlar,
Yerdə eşq ilə
Yaşayıb
dünyaya heyran qalanlar.

Eşqdir eşidən,
Eşqdir görən.
Eşqdən ayrı söz tanımıram mən.
Biz eşqin cəzbilə çıxırıq yalnız
Yerin də əbədi cazibəsindən.

*Noyabr 1980,*
*Mərdəkan*

## ÖZÜMLƏ SÖHBƏT

Hərdən soruşuram özüm-özümdən:
-Niyə bu dünyadan gileyliyəm mən?
İstəyim, tələbim artır günbəgün
Bu qədər nankorluq nəyə gərəkdir?
Aqillik, dünyaya gəldiyi üçün
Bircə nəfəsə də şükr eləməkdir.

Mən heç gəlməsəydim dünyaya, məgər
Dünyadan bir çöpmü əskiləcəkdi?
Anamın bətnində ölsəydim əgər,
Dünya yoxluğumu nə biləcəkdi?

Nə verib almışdım bu ömrü, görən?
Mən canı yaratdım, ya bu can məni?
Müftə aldığımı qaytaram gərək,
Bəs nədir, görəsən, ağrıdan məni?

Başqası olsaydı mənim yerimdə,
Bəlkə də deməzdi: - Bu giley nədir?
Mənim bu dünyadan gileylərim də
Aldığım can kimi ancaq müftədir.

Nədir bu şikayət? Nədir bu danlaq?
Bəlkə bu dünyanın borcu var mənə?
...Günün doğuşuna bir dəfə baxmaq
Dəyər bu dünyanın hər möhnətinə!

*İyul 1981, Şəki*

## LƏZZƏTİ – AĞRISI

Gülün ləçəyində od varaq-varaq,
Bilmirik hardandır bu rəng, bu ətir.
Gül də iztirabdan doğulur, ancaq
Rəngi də, ətri də yanmaqdan gəlir.

Yanır önümüzdə ocaq gürhagur,
Biz də qızınırıq alışan oda.
Bilmirik, ağacın can ağrısıdır
Alışan kösöyün alovları da.

Oturub evində yalnız həzz üçün
Şeirimi oxuyan oxucum,
Düşün!
Sənin ürəyinə istilik verən
Bu duyğu, bu alov hardandır, görən?
Düşün, sən düşün!
Ətrimi iylədin, rəngimi gördün.
«Gözəldir» - dedin!
Ancaq bilmədin,
O rəng, o ətir
Böyük bir yanğıdan bircə qətrədir.

Oxu dərin dərin, duy dərin-dərin,
Ey mənim könlümü təftiş edənim.
Duysan, bilərsən ki, bu şeirlərin
Ləzzəti sənindir, ağrısı mənim.

*İyul 1982*

## ANAMA GİLEY

Hardasan, ay anam?
Yenə bu axşam
Qayğına, sevginə quraxsamışam.
Bir uşaq olaydım təzədən, yenə
Məni bələyəydin məhəbbətinə.
Çox da ki, şöhrətdən başda tacım var,
Bir isti nəfəsə ehtiyacım var.

Azıram yolumu dumanda, çəndə,
Qəlbim dolaşdırır gözüm görəni.
İndi də yuxuda şeytan görəndə
Səni çağırıram, ay anam, səni...
Əlinin istisi durur başımda,
Mən sənə möhtacam lap bu yaşımda.

Gəl məni yetişdir arzuya, kama,
Hər dərddən, bəladan sən gözlə məni.
Qayıdım təzədən uşaqlığıma,
Yenə oxşa məni, əzizlə məni.

Doğmalarım belə yanan bağrımı
Təsəlli donuna geyindirmədi.
Gözlə görünməyən gizli ağrımı
Hələ səndən özgə kimsə görmədi.

Gəl, mənə tanıtdır dostu, düşməni,
Hardasan, hardasan, gəl ovut məni.

Sən ki, yoxluğunda həmişə varsan,
Bircə sığalınla unutdurarsan
Balana dünyanın hər bəlasını,
Sənə minnətdaram torpağın sanı!
Ey mənim könlümün sözü, söhbəti,
Dilimin əzbəri sənsən hər zaman.
Mən səndən gördüyüm o məhəbbəti
İndi də umuram balalarımdan.

Günahkar bilmirəm burda heç kimi,
Bu dünya beləcə qurulub, ana.
Mənim balalarım mənim sevgimi
Mənə yox,
Qaytarır balalarına.

*Noyabr 1983*

* * *

Səhvlər üstündə boy atmışam mən,
Özümü təzədən yaratmışam mən.
İtirdim zirvədə bəzən izimi,
Qəsdən duman oldum, qəsdən çən oldum.
Səhvimin əliylə özüm-özümü
Öldürə-öldürə dirildən oldum.

Ən böyük qüdrətim, zəifliyimi
Riyasız, boyasız dərk etməyimdir –
Özümlə baş-başa durub dost kimi
Özümə, səhvimə ərk etməyimdir.

*1983*

## OĞUL TOYU

*Oğlum Azərin toyu münasibətilə*

**1**

Bu gün,
Mənim balam,
Toyundur sənin.
Bir boy da ucaldı arzumun boyu.
Toy toyun ardıdır;
ata-ananın
Toyundan törəyir balanın toyu.

Arzudan don biçdik ötən illərə,
Acılı – şirinli günlər görmüşük.
Sənin sevincindən bu gün yüz kərə
Atanın, ananın sevinci böyük...

Sənin toy sevincin özün üçünsə,
Bizim sevincimiz sənin üçündür.
Sənin öz toyundur...
amma mənimsə
Ömürlük arzumun toyu bu gündür.

Mənim nəyim varsa qaldı dünəndə,
Sənin görəcəyin hələ öndədir.
Sənin səadətin – gələcəyində,
Mənim səadətim – bax, bu gündədir.

Arzunu, istəyi dəyişir zaman,
Rəngini, ətrini dəyişir bir – bir.
Bu sənin toyundur...
Amma bu toydan
Mənim də toyumun avazı gəlir.
- Dayan keşiyində soyadımızın.
Bir vaxt bunu mənə öz atam dedi.
Bu gün ulu-ulu əcdadımızın
Bəlkə məzarında torpaq titrədi.

Toyun əyan oldu onlara haqdan.
Duyğunu özündən öndə gör, oğlum.
Xeyir-dua verir sənə bayaqdan
Mahnılar – əcdadın ruhudur, oğlum.

Bu bir silsilədir... Nə əvvəl, nə son...
Ay oğul, hələlik sonuncu sənsən.
Altaydan baş alan bu uzun yolun
Bir ucu əcdaddır, bir ucu sənsən.

Ulu babaların ruhu şad olsun,
Sönməsin binədən yanan hər ocaq.
Babam ocağından ayrılır bu gün
Təzə bir yurd-yuva,
Təzə bir ocaq.

**2**

Gəlişin mübarək, xoş gəldin, gəlin,
Yurdumda yurdçu ol,

Sən ağbirçək ol.
Bizi sevindirsin eşqin, əməlin,
Vəfada, dözümdə Banuçiçək ol.

Ocağım sənindir bu gündən belə,
Burda ömrün boyu yaşayacaqsan.
Babamın adını, balamla birgə
Öz soyadın kimi daşıyacaqsan.
Sən də budağısan ulu bir kökün,
Başqa bir budaqla birləşdin bu gün.
Bir istilik gətir, hərarət gətir
Çıxdığın ocaqdan – kökündən, qızım.
Mən öz ocağımı əmanət kimi
Sənə tapşırıram bu gündən, qızım.

Bu isti ocağı babam qaladı,
Bu isti ocağa nənəm and içdi.
Adına qoşuldu oğlumun adı,
Ünvanın dəyişdi, adın dəyişdi.

Xeyir-dua verək biz bu birliyə,
Birləşən ocaqlar həmişə yansın.
Bu iki budaqdan şüylənib göyə,
Gələcək günlərə zoğlar uzansın.

Uzansın silsiləm bir zəncir təki.
Balama bir bala yar olur bu gün.
Necə sevinməyim?
Məndən sonrakı
Nəslimin təməli qurulur bu gün.

Dostlar, sevincimə ortaq olun siz,
Daim pöhrələnsin, artsın nəslimiz.

*1981*

* * *

Gerçəyi öyrədir bizə yalanlar
Haqqa qovuşmuruq biz yanılmadan.
Tənəyə necə də bənzərimiz var,
Barlana bilmirik budanılmadan.
Budana-budana budaqlanmışam,
Təsdiq olunmadım inkar olmadan.

*May 1982*

* * *

Mən tək olanda da tək deyiləm ki,
Məni yerdən alır şirin xəyallar.
Sevirəm təkliyi...
Ancaq biləm ki,
Qapının dalında kimsə, kimsə var.

*1983*

* * *

Şeirim – qəzəbim, nifrətim, eşqim,
Şeirim mənim öz heyrətim, eşqim,
Xamlıqları tədbir ilə şumlar.
Səpdim ki, beyinlərdə cücərsin
Könlümdə yetişmiş bu toxumlar...
Səpdim,
Demə, qismət bu qədərmiş,
Haqqım, demə, borcumla yetərmiş...

*Sentyabr 1983*

* * *

Mən hardayam?
Mən yoxdayam, ya vardayam?
Mən bəlkə də öz-özümə toy tutduğum,
Öz-özümü unutduğum
anlardayam?
Mən hardayam?
İstəyimin göz dağında,
Oxucumun dodağında,
Bir misranın sorağında?
Mən hardayam?
Öz nəfsimlə öz əqlimin
Əlbəyaxa savaşında?
Ya bəlkə də bir günahsız məhəbbətin
Göz yaşında?
Ürəyimin ağrısında,
Hisslərimin harayında, çağrışında?
Mən hardayam?
Şeirimdəmi, sözümdəmi?
Heç bilmirəm,
Mən özüm də özümdəmi?
Mən hardayam?
Öz-özümü unutduğum anlardayam,
Bir də... bir də...
Harda yerim görünürsə...
Mən ordayam.

*1981*

## NƏĞMƏNİN SEHRİ

Ey nəğmə, sehrinə minnətdaram mən
Məni bu anlarda alıb özümdən,
Özümə qaytardın...
Özümə daldım,
İtirib çəkimi yerdən ucaldım.

Susma, işığını çilə qəlbimə,
Bilmirdim, dünyamız cənnətmiş, demə.
Oxu, qanadlandır diləklərimi,
Oxu, aşılmayan dağlardan aşaq.
Mən yaxşı bilirəm, sən susan kimi,
Dünya gözlərimdə ucuzlaşacaq.
Soyuq rəftarıyla, daş sifətiylə –
Əvvəlki amansız təbiətiylə.

Yerdə işim yoxdur, bu anlarda mən
Göyün üst qatında uçuram ancaq.
Susma, çətin olur bu ucalıqdan
Əl üzüb yenidən yerə qayıtmaq.

*İyul 1983, Mərdəkan*

## BARIŞMAQ

Qocalığın bir əlacı var ancaq
Gəncliyində qatı düşmən bildiyi
Hər şey ilə barışmaq!
Qəlbindəki giley ilə barışmaq!
Qoyma dişlə,
ləng yerişlə
barışmaq.
Lap çəliklə,
xəstəliklə
barışmaq.
Bu dünyanın yalaniyla,
Düzüylə də barışmaq
Lap ölümün özüylə də barışmaq.
Barışmasın neyləsin?
Bu «qüsurlar»
Qismətidir hər kəsin!
Barışmayan var ancaq:
Barışdı,
ya barışmadı,
Hökmü verən zamandır.
Barışmayan gülünc olur,
Gülünc olma, amandır.

*Fevral 1984, Mərdəkan*

* * *

Allah, Allah, mən kiməm?
Atam kimdir?
Babam kim?
Nədir mənim axırım,
Nədir mənim əvvəlim?
Xaliq – bu torpaqdısa,
İlki nədir torpağın?
Hara gedir bu axın?
Bu yoxluqdan varlığa,
Bu varlıqdan yoxluğa
Gedən sonsuz axın nə?
Uzaq nədir,
Yaxın nə?
Sökən nədir, tikən nə?
Zaman nədir, məkan nə?
Yaşadığım bu dünya
Kainatın harası?
Nədir yaranmışların
Əbədi macərası?
Ağıl bu dərinliyə
Vara bilmir bəs niyə?
Məni əlçatmazlığa,
Məni ünyetməzliyə
Çağıran
İçimdəki səs nədir?
Yaşayıb yaratmağa
Bu sonsuz həvəs nədir?

Nədir? Nədir?
Nəhayət,
Nəyin özü bəs nədir?

*Fevral 1983, Mərdəkan*

* * *

Qol-budaqlı bir ağacam,
Sinəsində boy atdığım
Torpaq mənim vətənimdir.
Meyvələri - gələcəyim,
Budaqları – bu çağlarım,
Köklərisə – dünənimdir.
Kökäm üstə boy atmışam,
Bu günümü, sabahımı yaratmışam.
Bu gün – mənim öz gözümlə
Seyr etdiyim mənzərədir.
Dünən – mənim sabahıma
Açılan bir pəncərədir.
Öz kökümə güvənməklə
Öz yurdumun, torpağımın övladıyam.
Budaq-budaq qollarımla
Atamdan çox,
Öz çağımın övladıyam.

*1982*

## ÇALAR

Gəncliyimdə bilməməzlik bəlasından
Vallah, elə bilirdim, bu dünyanı bilirəm mən.
Onda hökm verərdim ki,
Bu yaxşıdır, bu yamandır,
Bu doğrudur, bu yalandır.
Cavanlığın hökmü qəti.
Bu qətilik çəkiciylə
çox danmışam həqiqəti.
Zidd qütblər arasında
Vurnuxmayıb,
gah qazanıb, gah yanmışam.
Bu günsə mən
Yaxşıyla pis,
haqla nahaq,
qarayla ağ
arasında dayanmışam.
Dayandığım bu nöqtənin adı çalar:
Bu nöqtədə yaxşı da var, yaman da var,
Doğru da var, nöqsan da var.
İndi çalar çalasında
Mən ehtiyat məktəbini bitirmişəm.
Zidd qütblər arasında sərhəd çəkən
hüdudları itirmişəm.
Heç bilmirəm bu halıma

Mən ağlayım, yoxsa gülüm?
İtkin salıb inamımı təkamülüm!

*İyul 1984, Şəki*

## İKİLİK

Gözünlə gördüyün mən, ayrı məndir,
Əsl «mən» gözünə görünməyəndir.
Özüm də bezmişəm öz səs-küyümdən.
Düzünü axtarsan, göründüyümdən
Ucayam,
Bir fikrin dönməz quluyam,
Mənim gah sağımda, gah da solumda
Bir gözə görünməz mən var – mən oyam.

Hər saat, hər yerdə bitən deyiləm,
Birini danlasam, o, mən deyiləm,
Onu bağışlayan, anlayan mənəm.
Keçib günahından bir günahkarın,
Özünü hər işdə günahkar bilib
Danmayan – mənəm!

Əgər boylanmırsa sözüm özümdən,
Başqa mən əyləşib mənim yerimdə.
Bir nadan sözünə susuramsa mən,
Demək, gizlənmişəm mən öz səbrimdə.

Sənətdə güclüyə meydan oxuyan,
Həyatda dözümə baş əyən mənəm.
Ölən mən deyiləm, öldüyüm zaman
Ölümündən sonra yaşayan mənəm.

*İyul 1984*

## OXUCU MƏKTUBU

Məktublar alıram oxuculardan,
Məktublar nur dolu, təşəkkür dolu.
Bir bələdçi olub mənə çox zaman,
Göstərir haqq yolu, doğru-düz yolu.

Oxucu məktubu! Şirindən şirin!
Könlümə dayaqdır onun hər biri.
Dedi bu məktublar
                    Tənqidçilərin
Deyə bilmədiyi çox mətləbləri.

Oxucu məktubu! Möhtacam mən də
Sənin könül açan sözünə hər gün.
Bəzən öz-özümdən şübhələnəndə,
İnamsız qəlbimdə inama döndün.

Oxucu məktubu!
                    Düşünənlərin
Könül hıçqırığı, ürək nidası!
Yazdığım nəğmənin, yazdığım şeirin
Bir müddət sonrakı əks-sədası!

Səndən ey oxucum, çox bilmirəm mən,
Məqsədim deyildir dərs vermək sənə.
Məqsədim – qəlbimdə alışan oddan
Atəş çiləməkdir sənin qəlbinə.

Həqiqət naminə yaşayanların
Qəlbində alışar, döyünər bu od.
Yoxu var,
        əyrini düz sayanların
Könlündə köz tutmaz, tez sönər bu od.
Bu od əmanətdir Nəsimilərdən,
Şairlər qoruyub yaşatmış onu.
Bu odun nuruyla hər xalq, hər vətən
Açmış həqiqətin, haqqın yolunu.
Bu odun istisi yaşatmış bizi,
Zülmətdən keçirmiş mənliyimizi.

Günəş alışmasa, gün doğmaz yəqin.
Həqiqət görünməz!
                həqiqət budur!
Bir xalqın sağlığı – şairlərinin
Alışıb yandığı oda borcludur.

Şair – od qaynağı, şeir – gullədir.
Barıtsız şeirə şeir deyilməz.
Şairi olmayan bir xalq kütlədir,
Amalsız bir kütlə xalq ola bilməz.

Oxucu məktubu! Düşünənlərin
Könül hıçqırığı, ürək nidası.
Yazdığım nəğmənin, qoşduğum şeirin,
Bir müddət sonrakı əks-sədası!

Mən tək, siz çoxsunuz...
                    hər birinizə

Cavab yazammıram...
                Ancaq mən sizə
Borclu da qalmıram,
                Ürək sözlərim
Kağızlar üstündə şırım-şırımdır.
Ünvanı siz olan mənim hər şeirim
Sizə göndərdiyim məktublarımdır.

*İyul 1981*

## VAXT

Uşaqlığım,
Gəncliyim,
ahıllığım – eynimi?!
Yox, hər biri başqadır, bir-birinə yad kimi
Gələn qovur gedəni.
İnkar edir mən, məni...
Ömrün hər pilləsində başqalaşır təbimiz,
Dünyada məqsədimiz, dünyadan tələbimiz.
Vaxt məni pərvanətək başına dolandırır,
Dünən qanmadığımı bu gün mənə qandırır.

Kim döşünə döyər ki,
Mən vahidəm, mən birəm!
Bircə bunu bilirəm: mən güclüyəm, qadirəm.
Mən gücsüzəm, acizəm təkcə vaxtın əlində.
Ömrün o sahilinə əlim yetə bilməyir
Ömrün bu sahilində.

Hanı gözümün nuru,
Hanı qəlbimin qoru?
Kimdir udan, uduzan zaman ilə arzunun
əbədi yarışında?!
Saçımın ağlığında, alnımın qırışında
Zaman necə at çapır, yüyəni öz əlində.
Oğulsansa, tap görək, kimdir atın belində!
Mən öz azadlığıma tanrı dedim, haqq dedim
Bir hökmə, bir fərmana mən başımı

əymədim.

Amma vaxtın dalınca
Ömrüm boyu qul kimi necə sürünmüşəm mən,
Qolumdakı saatın quluna dönmüşəm mən.

*1985*

## LAYİQƏMMİ MƏN?

Atalar sözləri öyüddür bizə
Yüz illər, min illər deyiləcəkdir:
«Elə yaxşılığı, sən at dənizə,
Balıq bilməsə də, xalq biləcəkdir».

Mən xaliq demədim,
                Xalq dedim...
                        Nədən?
Xalqımdır, elimdir xaliqim mənim.
Onun dostlarına dost demişəm mən,
Onun düşmənidir, mənim düşmənim.

İşıqsız, qapalı bir göz, de, gözmü?
Yaşamaz sünbüldən düşən dən, ayrı...
Xalqın zərrəsiyəm...
                        heç gördünüzmü
Bir zərrə yaşasın kütlədən ayrı?

Sənsən qüvvət verən sətirlərimə,
Sənsiz özüm də heç, sözüm də hədər.
Damla zəhmətimə, zərrə şeirimə,
Sənsən qiymət verən dəryalar qədər.

Baxdın şairinə bir örnək kimi,
Dikdin üzümüzə baxışlarını.
Biz hara getdiksə,
                Gül-çiçək kimi,

Səpdin başımıza alqışlarını.
Sevgin gözlərində bizi böyütdü,
Öyündün bizimlə, ey xalq, ey Vətən!
Həmişə qəlbimdən bir sual ötdü:
Sənin hörmətinə layiqəmmi mən?

Onu bilirəm ki, sən elə sənsən,
Gücüm də səndədir, səadətim də.
Yaxşını yamandan yaxşı seçənsən,
Sənə bənzəyəydim dəyanətimdə.

Onu bilirəm ki, öz tanrım kimi
Həmişə fikrimdə, ürəyimdəsən.
Onu bilirəm ki, şeirlərimi
Yazan mən oldumsa, yazdıran sənsən.

Xalqa arxalanan xalqsevərlərin
Özü də xalq üçün arxaya döndü.
Xalqa arxasını çevirənlərin
Arxası həmişə yerdə göründü.

Tanıtdın adınla övladlarını,
Uçdular qırılmaz qanadlarınla.
Xalqlar cərgəsində dönüb özün də
Tanındın namuslu övladlarınla...

Hər bir övladının qələbəsindən
Boy alıb ömrünə gün qazanmısan.
Ürəyi ürəklə qarşıladın sən,
Sənə qul olanı allah sanmısan.

Sevgin gözlərində bizi böyütdü,
Öyündün bizimlə, ey xalq, ey Vətən!
Həmişə qəlbimdən bir sual ötdü:
Sənin hörmətinə layiqəmmi mən?

*1974*

## XATALI YUXU

Adların üstünə adlar calandı,
Bu nədir?!
Gözlərim alacalandı.
Şöhrət cədvəlində ad böyüdükcə
İstedad büküldü, balacalandı.

Xatalı yuxudur şöhrət yuxusu,
Canıma od saldı onun qorxusu.
Bu yuxuya uyan yatar, oyanmaz.
Dəbdəbə axtarar, təmtəraq gəzər,
Sürət qatarına necə də bənzər,
Kiçik obalardan ötər, dayanmaz.
Ancaq qulaqlarda qalar fit səsi.
Amandır, qorxuram, şöhrət zirvəsi
Razılıq təxtinə qaldıra məni.
Zirvə saymamışam, mən bir zirvəni.

Hara tələsirsən, dayan, ey qatar,
Ayağım altından torpaq qaçmasın.
Böyüklü, kiçikli ellər, obalar
Olarmı şairə könül açmasın!

Ağrıdan, acıdan yaranır əsər,
Ölər yaşanmamış söz bələyində.
Bitməmiş,
                    bitəmməz böyük bir əsər
Özündən razılıq kölgəliyində.

Şöhrətin yükünü düşündünmü bəs?!
Min şöhrət bir borcu ödəyə bilməz.
Qorxum ondandır ki,
                    ömrün qışında
Bahar çiçəkləri üzə gülməsin.
Sənətlə şöhrətin bu yarışında
Şeirim şöhrətimə çata bilməsin.
Min şöhrət yaradır bəzən bir şeir,
Min şöhrət bir şeiri yarada bilmir.
Sənəti şöhrətə yedək olanlar
Sonsuz olduğunu gorunda anlar.

Rahatlıq gəldimi,
                    Könül dincələr,
Xəzanı gəlməmiş susar söz bağım.
Bütün bu fikirlər, bu düşüncələr –
Özümün özümə xəbərdarlığım!

*1984*

## DAĞLAR KÖLGƏSİNDƏ

Dünyaya gələli babamın adı
Adımla yanaşı durdu, yaşadı.
Bu gün o ad ilə tanınıram mən,
O, keçən əsrdə ölüb...
yenidən
Bizim əsrimizdə adtək doğuldu,
O ad mənim üçün bir ünvan oldu.

Babalar,
        nəvələr
                və... nəticələr.
Uzanır ilk addan son ada qədər.
Uzun bir zəncirdə həlqələrik biz,
Bu başdan o başa gedir nəslimiz.
Bəs necə gəlməsin ürək fəryada,
Layiq olmayanda son ad ilk ada!

Babanın adıyla durur yanaşı
Bizim adlarımız...
                Üzüyün qaşı
Onun dəyəridir...
                        Dayan bu yerdə,
Sonuncu həlqəsən sən bu zəncirdə.
Həlqənin ilkini yaxşı bil, tanı...
Üzünü görmədən bu gün adını
Soyad götürdüyün ulu babandan

Xəbərin varmıdır, sənin, ay oğlan!
Nəyimiş arzusu, eşqi, diləyi,
Bunu düşündünmü ömründə bir an?!

Ulu babalardan biz soruşmadan
Onların adını ünvan götürdük.
Yoxsa... bircə dəfə, bir dağ aşmadan
Dağlar kölgəsində biz ömür sürdük!

*1985*

## XEYİR – ŞƏR

Təbiət insana iki əl verib,
Kiminsə əlindən tutub qaldıraq.
Bizə əməl üçün bir ağıl verib,
Çayların üstündən körpülər quraq.
Anamız, atamız bizə dil verib,
Darda çırpınanın halını soraq.

Dillər yaranıb ki, mahnı deyək biz,
Dillər yaranmayıb yalan deməkçün.
Mahnıda birləşir hisslərimiz,
Yalanda ayrılır yollar büsbütün.

O əli, o dili, o ağlı bəzən
Xeyirli işlərə işlətmirik biz.
Bu günə dəm tutan əməlimizdən
Suala çevrilir gələcəyimiz.

Hər duyan ürəkdən bir cahan keçir,
Əlvan boyalıdır dünyanın donu.
Kimi xalq yolunda canından keçir,
Kimi vəzifəyə satır xalqını.

Xalq var, özü odsuz, ocaqsız qalır,
Odundan qonşuya pay verir özü.
Xalq da var, o odu əvəzsiz alır,
Qonşu torpağına dikilir gözü.

Vicdanın güvəsi – tamah dağını,
Aşa bilənlərə insan dedik biz.
Yalandan, riyadan qazandığını
Vicdansız gerçəkdən qazana bilməz.

Min bir rəng yetirir bir rəngli torpaq,
Həm şəfa, həm ölüm yatır zəhərdə.
Kol-kos da bitirir, çiçək də torpaq,
Ağlın meyvəsidir xeyir də, şər də.

Yaxşı da, yaman da bizdədir deyin,
Nə onun, nə bunun öz odu yoxmuş.
Xeyir-şər qol-qola! Nə yüksəkliyin,
Nə də alçaqlığın hüdudu yoxmuş.

Böyük bir millətin taleyi bəzən
Tum kimi çırtdanıb tüpürülürkən,
Məəttəl qalırsan şərin hökmünə.
Baxırsan arxaya, baxırsan önə

Nələr törəyərmiş qərəzdən, kindən.
Deyirsən, insanın hafizəsindən
Həqiqət silinib unudularmış.
Xeyir də bu qədər məhkum olarmış?

Qoy nağıl oxusun siyasətçilər,
Onların qəlbinə nağıl nur çilər.
Nağıl dinləyənin fikri ucalır,
Xəyaldan yol açır o, həqiqətə.

Həmişə nağılda qələbə çalır,
Həqiqət yalana, işıq zülmətə.

*Mart-avqust 1986*

* * *

Taleyimiz qələm verdi əlimizə,
Yazımızı oxuyanlar
«Söz sərrafı» dedi bizə.
Sözün bütün şirəsini,
Kütləsini, zərrəsini
Dərk etməyə biz həmişə can atmışıq.
Dədələrin
bizə miras verdikləri kəlmələrlə
Çox kitablar yaratmışıq.
Amma hələ
Bir söz belə
yaratmadıq,
gətirmədik biz bu dilə.
Təkcə buna öyünürəm, ana dilim,
Ömrüm boyu eşqin ilə yandı sinəm.
Mən də sənin varisinəm.

*1986*

* * *

Ayıra bilmişmi, görən, bir nəfər
Həqiqi dünyadan kölgə dünyanı?
Qayıda bilsəydi əgər bir nəfər,
Dərk edən olardı bəlkə dünyanı.

Sən yolçu... Dünyasa məchul bir ada.
Keçə bilərsənmi fırtınalardan?
Dünyanın sirrini gəzmə dünyada,
İçində axtarıb, qəlbinə saplan!
Acizsən, oldunsa qulu dünyanın,
İçindən başlanır yolu dünyanın.

*Yanvar 1986*

## HAQQ – ZORAKILIQ

*Hindistanın dövlət gerbinə*
*«Ancaq həqiqət qələbə çalır»*
*sözləri yazılmışdır.*
**Ç.Aytmatov**

Mayasında haqq durur hər anılan zəfərin.
Zorla, zorakılıqla qazanılan zəfərin
Adı zəfərdir...
Özü
zəfər sayıla bilməz,
Əbədi ola bilməz.
Haqla zorakılığın əbədi döyüşündə
Məğlubiyyət – qələbə! Bir əbədi silsilə!
Keçəcək əldən-ələ.
Haqsız qalib sabahın məğlubuna çevrilər
Zəncirvari: bu ona, o da buna çevrilər.

Sən ey zorakılıqla həqiqəti tapdayan,
Həqiqətin gücündən xəbərsizsən, bir oyan!
Öyünmə qazandığın «şanlı» zəfərinlə sən.
Öz içində boğduğun həqiqətin səsini
Öz içində dinlə sən!
Bu qələbən boyda da qazanmısan, ay yazıq
Dünyanın nifrətini.
Zorakılıq yalanın eybəcər sifətini
Gizlədib örtə bilər,
Onu həqiqət kimi gözlərə dürtə bilər,
haqqı öldürə bilməz.

Yalan qapı sındırar, bir qəlbə girə bilməz.
Mayasında haqq deyil, yalan duran bir zəfər
Yalanın özü boyda sənə nifrət gətirər.
Nifrət susar,
o, dinməz...
Onun ürəklərdəki boy artımı, zoğları
Gözlərə də görünməz.
Qeyrət olar o, qanda.
Öz məqamı çatanda
Zora zorun özüylə cavab verər bir anda.
Bu zora,
bu nifrətə,
bu qeyrətə min əhsən!
Zorakılıq demərəm zoru yıxan zora mən.

*Oktyabr 1985*

## TAMAH – LƏYAQƏT

### 1

Nəfsinə qul olsan... Nə deyim sənə?
Ağlına güvənmə, güvən mədənə.
Adın insan olar, özün böcəksən,
Boyundan yüz dəfə kiçiləcəksən.
Dünyanı udsan da, doymaz gözlərin
Dibi görünməyən quyudur tamah.
Adəmdən Hatəmə dəyirman təkin
Nə töksən,
əridir,
üyüdür tamah.
Özünü yüz dəfə kiçildib, amma
Nəfsini yüz misli böyüdür tamah.

İnsan dərk edirsə bu gerçəkləri,
Onun zatındakı tamah bəs nədir?
Cənnəti almaya satandan bəri
Tamah, ləyaqətlə bəhsəbəhsdədir.

Nəfsinə uyanın
dövri – qədimdən
Həmişə silahı xəyanət oldu.
Bu da qəribədir,
Bəs, neçin, görən,
Tamahın qurbanı ləyaqət oldu?
Ağlı mədəsindən xırda gədələr
Dünyanı yedirdi öz niyyətinə.

Kəsib tamahından ulu dədələr
Caladı həmişə ləyaqətinə.

Alçalda-alçalda şəxsiyyətini
heç olur
Şərdən də xeyir güdənlər.
Ac qalar, alçaltmaz,
ləyaqətini
tamah qılıncına qalxan edənlər.

Acgöz «qazancında» yenə uduzdu
Çünki o pozdu –
Tamahla ləyaqət arasındakı
Nazik xətləri.
O, görə bilmədi adi bir korun
Yaxşıca gördüyü həqiqətləri...
Sərvətə qul olan bir rüşvətxorun
Xəlvət qazandığı var-dövlət oldu,
Aşkar itirdiyi ləyaqət oldu.

**2**

Meymun – ləyaqətin insan övladı.
Ləyaqət – insanın ikinci adı.
Ləyaqət – insana ən doğru ünvan.
İnsan bu ad ilə dördayaqlıdan
İki ayaqlıya bir tarix keçdi.
İnsan qətrə – qətrə insaniləşdi
Yalnız öz insanlıq ləyaqətilə...
Qazandıq bu adı biz gilə-gilə.

İndi ləyaqətlə qazandığımız
İnsanlıq adını itirəkmi biz?

*Oktyabr 1985*

## MƏNƏ SUAL VERİN

Həqiqət həmişə doğdu sualdan,
Dərinə aparır sual hər kəsi.
Qəribə zamandır...
                    Elə bil dildən
Harasa qovulub sual cümləsi.

Nöqtələr, vergüllər nə qədər desən,
Saxta nidalarla dolub kitablar.
Hər şeyi bilirik sanki dünəndən,
Artıq suallara nə ehtiyac var?
Sualsız kor olar gerçəyin gözü,
Yaşamır,
Dolanır sualsız insan.
Mənə sual verin,
                    sualın özü
Girər həqiqətin daş qapısından.

*Fevral 1986*

## DƏRİNLİK

Dedin, ömrümüzün yolu bir qarış,
Yüz ocaq söndürür bəzən bir ölüm.
Vallah, gözümüzü açıb yummamış
Qapının ağzını kəsdirir ölüm.

Yaşamaq nə imiş?
                    Bilmədən bunu
Nə ilə ölçürsən ömrün boyunu?
Yaşayan görmüşəm yüz, yüz əlli il,
Qovuq tək boş olub qəlb də, beyin də.
Ömrün mənasını boyunda deyil,
Gərək axtarasan dərinliyində.

Adam var, sağı sol, solu sağ bilir,
Ən yaxşı, ən gözəl yaşamaq bilir
Hər yerdə, hər zaman baş sayılmağı,
Xırda duyğulara yedək olmağı.

Yaşayan hər kəsdən gərək sorulsun:
Ləyaqət həyatın yolu deyilmi?
Nəyin bahasına olursa-olsun
Yaşayan, yaşarkən ölü deyilmi?

Biz bütün günlərin son anınadək
Çəkib şirəsini yaşaya bilsək,
Min şükür deyərik qismətimizə
Verilən ömür də bəs edər bizə.

Yaşayan görmüşəm yüz, yüz əlli il,
Qovuq tək, boş qalıb qəlb də, beyin də.
Ömrün mənasını boyunda deyil,
Gərək axtarasan dərinliyində.

*Oktyabr 1985*

## NƏYİNSƏ İLKİDİR,
## NƏYİNSƏ SONU

Dünya hey fırlanır belədən belə
Zamanı önləyib ötən olmasın.
Dünya fırlanır ki, keçməsin ələ,
Onun ətəyini tutan olmasın.

Dünya fırlanır ki, dönsün bu gərdiş,
İdrakın önündə an əyilməsin.
Dünya fırlanır ki, insan ölməmiş,
Dünyadan dünyaya keçə bilməsin.

Saxlasaq bir anlıq yolundan onu,
Həyat təzələnməz, yer təzələnməz.
Nəyinsə ilkidir, nəyinsə sonu
Dünya fırlanmasa, son ilkə dönməz.

Dünya fırlanır ki, biz də onun tək,
Fırlanıb qanmayaq min bir felini.
Dünya fırlanır ki,tapa bilməyək,
Onun nə sonunu, nə əvvəlini.

*Oktyabr 1985*

## «SÜKUT» LÖVHƏSİ

*Litva rəssamı və bəstəkarı*
*M.Çyurlönisin «Sükut» löv*
*həsi önündə.*

Sükut... sükut...
Sus; toxunma bu sükutun
Ürəyimdə köklədiyi sarı simə.
Onu sözlə, ya da səslə
Çilikləmə!

Sükut sirdir,
Kim baş açmış bu sirdən?
Köynək kimi
Geyib onun köynəyini
Çəkilmişəm xəlvətə mən.

Sözün, səsin gündüz kimi
Açıq-aydın bir dili var,
Mətləbinin axırı var, əvvəli var.
Sükutunsa... gecə kimi dili laldır.
Nə səsi var, nə sözü var.
Özü boyda möcüzü var.

Axı, necə vaqif olum

Bu möcüzə, bu sirrə mən?
Sükunətin bircə anı
Min illərin sualıdır.
Küll içində bir zərrə mən!
Fikirdəki qaranlığa,
Ürəkdəki dumanlığa
iz salaydım,
Özüm üçün açılaydım.
Öz-özümə naməlumam,
Mən hamıya məlum ikən.
Hardan gəlib, hara çatdım –
Öncə adi bir tum ikən...

Bəs bu yolun əvvəli nə,
Sonu nədir?
Bir məlumun min məchulu –
Möcüzədir, möcüzədir!

Sükutun bir yoldaşı var:
fikir, fikir!
O, yol çəkir,
O, ev tikir.
Əkən – fikir,
Dərən – fikir.
Baxan gözdür, görən – fikir.

Şaqqıldayan sudan deyil,
Sən lal axan o sudan qorx.

Sükunətdən gəlib keçən
Fikirdən qorx, duyğudan qorx.
Sus, toxunma sükunətin
Ürəyimdə köklədiyi sarı simə.
Onu sözlə, ya da səslə
Çilikləmə, çilikləmə!

*Noyabr 1983*

## ÖLÜM HAQQINDA ANLAYIŞ

**1**

Yox olan yenidən doğula bilməz,
Bu arzu bəşərin ulu niyyəti!
Varlıq – əbədiyyət! Bu ola bilməz.
Ölümsə – yoxluğun əbədiyyəti!

– Qorxursan?
Ölümü düşünmə bir an.
Əgər düşünməsən, qorxmayacaqsan.
Ölüm qorxuludur, qorxulu, ancaq
Onun dəhşətini düşünən zaman.

– Onu düşünməmək mümkünmü? Çətin!
Hər gün çarpazlaşır içimdə səslər.
Nə qədər xoşbəxtdir, düşüncəsinin
Ölümsüz qatına yüksələn kəslər.

**2**

–Ölümdən qorxuram.
–Yoxluqdur ölüm.
Nəyindən qorxursan yoxun, ay gülüm?
–Ölüm yoxluqsa da, özü var ancaq
Bir gün gec, bir gün tez məni çalacaq.
Yaşamaq çətindir, ölümün hər an,
Yoxluq olduğunu biləndən sonra.

–Bir şey bilirdinmi doğulmamışdan,
Nəyi biləcəksən öləndən sonra?

*Yanvar 1986*

## ÜZ-ASTAR

Yarpaqları tez tökülər şeirimin
Kökü yoxsa bu torpaqda, bu eldə.
Dadı, duzu varsa əgər şeirimin,
Bu dad, bu duz bu dildədir, bu dildə.

Ancaq bunu unuduruq çox zaman,
Ürək yoxsa, bir damarda qan atmaz.
Dil şeiri yaradandır, yaradan
Şeir, dili yaratmamış, yaratmaz.

Ana dilim, şeirim sənə borcludur
Bu torpağa, bu Vətənə borcludur.
Bunu bildik, naşükürük amma biz,
Axı, niyə sığışmırıq bir dilə?
Çalışırıq, istəyirik şeirimiz
Gah o dilə, gah bu dilə çevrilə.

Çevriləndə üz çevrilir astara
Özün söylə, astar hara, üz hara?
Öz iqlimi, havası var hər yerin,
Hər qəlbin də öz vurğusu, öz səsi.
Şeir ki var, ürəkdəki səslərin
Qatarlaşan nəğməsidir, nəğməsi!

Nəğmələri başqa dilə çevirmək
Oddan nuru ayırmaqdır, ay balam.

Sözü səsə, gülü ətrə böl görək,
Mümkünmüdür?
Mümkün deyil, vəssalam!

*Noyabr 1984*

## BAŞ DAŞINDA SAAT

Yazıldı saatsaz məzarı üstdə:
«Filan il doğuldu, filan il öldü».
Mərhumun kimliyi bilinsin deyə
Qəbrin baş daşına saat «hörüldü».

Yaşarkən – doğumu keçmiş zamandı,
Onun ölümüysə – gələcək zaman.
Ölümün özü də onda gümandı,
Ölüm gerçəyində dayanır zaman.
Dünyadan köçəndə
əslinə baxsan,
Qəbrə yox, keçmişə gömülür insan.

Elə bil saata gülür qəbir də
Nə dönüb dolanır, nə dinir saat.
Vaxtın, hərəkətin donduğu yerdə
Nə qədər qəribə görünür saat.

Üz-üzə dayanır ölüm həyatla,
Zaman üst qatdadır, alt qata sığmır.
Həyatı anbaan ölçdük saatla,
Ölümsə zamana, saata sığmır.

Burda yatanlara ölüm paylayan
Vaxt da onlar kimi ölmüş bu yerdə.
Həmişə öndədir gələcək zaman,
Keçmiş zaman isə yatır qəbirdə.

Vaxt – yerin üstündə keçəridirsə,
Əbədiyyət olur yer altında an.

Yerin üst qatında o, dövr edirsə,
Yerin alt qatında nüvədir zaman.

*Fevral 1986*

## AXI, DÜNYA FIRLANIR...

Vaxtın dəyirmanında daş əridi, qum oldu,
Tarixə atdığımız qayıtdı, lüzum oldu.
Dünənin həqiqəti bu gün tərs yozum oldu,
Niyə də yozulmasın, axı, dünya fırlanır.

Çox ovlaqlar içində çox ovları ovladım,
Aşıb – daşan arzumu mən artıq cilovladım.
Mən atamı ötmüşəm, məni ötür övladım,
Bu, belə də olmalı, axı, dünya fırlanır.

Dünən düz sandığımı bu gün əyri sanıram,
Bəzən olur, özümdən özüm oğurlanıram.
Hər il başqa arzunun başına fırlanıram,
Niyə də fırlanmayım, axı, dünya fırlanır...

Çox əyilən görmüşəm, əyilməyən başları,
Sular duruldu, gördük dibindəki daşları.
Ünvanını dəyişdi dünənin alqışları
Niyə də dəyişməsin, axı, dünya fırlanır.

Necə dönür bu dövran, necə dönür bu gərdiş,
Tazıların üstünə dovşanlar da gülərmiş.
Dünya bina olandan hər şey dəyişilərmiş,
Dəyişməsin neyləsin, axı, dünya fırlanır.

Əbədini dünyada mən əbədi sanmadım,
Bir atəşə tutuşdum, min atəşə yanmadım.

Bütlər gəldi və getdi, birinə inanmadım,
Niyə inanmalıyam, axı, dünya fırlanır.

Fırlandıqca bu dünya, yox da dönüb var olur,
Quruyan çeşmələrdən sular yenə car olur.
Bu dünyanın xeyri də, şəri də təkrar olur,
Niyə təkrar olmasın? Axı, dünya fırlanır.

Min-min illər bu dünya beləcə fırlansa da,
Bir yuvanın bülbülü min budağa qonsa da,
Aylar, illər, fəsillər bir-birini dansa da,
Dəyişməzdir əqidəm, çox da dünya fırlanır.

Nə qədər istəyirsə, min o qədər fırlana,
Qarşıma gah şər çıxa, gah xeyir dığırlana,
Çərxi fələk istəyir, lap dolana tərsinə,
Əqidəmi heç nəyə dəyişmərəm mən yenə.

*Oktyabr 1985*

## İKİ MÜHACİR

*Öz Vətəninə mənsub olmayan şəxs*
*insanlığa da mənsub deyildir.*
**V.Q.Belinski**

Dərd var ki, bənzəmir heç hansı dərdə
Gəzdiyim, gördüyüm yad ölkələrdə
Vətənçin burnunun ucu göynəyən
Adamlar görmüşəm nə qədər desən.
Bu vətən nisgilli mühacirlərin
Acı taleyinə acımışam mən,
Bəzən aşkar-aşkar, bəzən gizlicə...
Vətənə uçurlar onlar hər gecə
Min rəngli qanadlı yuxularında.
Qəriblik – Elə bir dərd ki, çəkilməz.
Balıq balıqdır ki, yad sularında
Yaşaya bilsə də, böyüyə bilməz.

Ulu keçmişimiz... həm qılınc, həm qın
Bizim həm xeyrimiz, həm şərimizdir.
Türbə qəbirləri əcdadımızın –
Torpağa işləyən köklərimizdir.
Bu kökün üstündə dayanmayan kəs
Yaşayar,
bir boy da ucala bilməz.
İmkan dənizində üzə bilsə də,
Fərəhdən bir çimdik pay ala bilməz.
Bir doğma anaya min ögey ana
Tay ola bilərmi?

Ögey – göz dağı!
Kim deyir eynidir, eyni insana
Vətən torpağıyla qürbət torpağı?
Min dəfə güclüdür öz imkanından
Vətən torpağının üstündə insan!
Bir Vətən həsrəti – bir ulu nisgil!
Vətənsiz yaşamaq – yaşamaq deyil.
Vətəndən kənarda yaşayanlara
Mühacir demişik... lap doğru, lap düz!
Vətənin içində yaşayıb, ancaq
Özünü Vətənə yad sayanlara,
Özgə mə'bədinə baş qoyanlara
Nə ad verək biz?

Adam tanıyıram, yuxularında
Üzər balıq kimi yad sularında.
Uçar Nyu-Yorka, uçar Londona,
Mənəvi mühacir deyərdim ona!

O, elin içində elinə özgə,
Tarixinə özgə, dilinə özgə,
Havasına özgə, suyuna özgə,
Əcdaddan baş olan soyuna özgə,
Doğma ocağına, közünə özgə,
Özü də bilmədən özünə özgə,
özgəyə doğma,
Vətəndən savayı hər şeyə doğma.

Qürbət çörəyini yeyər mühacir
Vətən havasıyla yaşayar ancaq.

Ölürkən... Dizinə döyər mühacir,
İstəyi – Vətəndən bir ovuc torpaq.

Mənəvi mühacir Vətənə deyil,
Güvənər həmişə ancaq özünə.
Vətən çörəyini təpər gözünə
Özgə havasıyla yaşayar müdam.
O da bir adamdır, bu da bir adam.
O da mühacirdir, bu da mühacir.
Biri torpaq istər, biri cəvahir,
Biri insan isə... o biri tacir!

*1986*

## BU DÜNYA BELƏDİR...!

*Sevsəm öldürərlər, sevməsəm ölləm.*
**Qaracaoğlan**

Deyirlər zülmətdə öz fitrətindən
Kimi daş-qaş gördü, kimi daş gördü.
O sirli diyarın bol nemətindən
Kimi götürmədi, kimi götürdü.

Götürən düşündü, aldandım əbəs,
Məndən çox götürdü filan, filankəs.
–Niyə götürmədim bir ovuc da mən,
Deyə fikirləşdi, heç götürməyən.

Dünyanın əvvəli, sonu müəmma,
Cövhəri müəmma, donu müəmma.
Dünyanı anlayan qəmini çəkdi,
Anlaya bilməyən dəmini çəkdi.

Sonda ömür yolu keçdi sitəmdən,
Biri qəmdən bezdi, o biri dəmdən.
Elə ki, ömürlər yetişdi sona,
Təəssüf oduna gözlər bərəldi.
Biri: «Hayıf» - dedi qanmadığına,
Biri qanmağından cəzanə gəldi.

Qanan gileyləndi öz qanmağından
Qanmayan söylədi: «Qanaydım mən də».
Zülmət diyarının daş – qaş dağından

Götürən də peşman, götürməyən də.
Bu dünya belədir yaranışından
Qaçan da peşmandır, qovan da peşman.
Sevənlər sevgidən nə qazandılar?
Sevib alışdılar, yanıb qandılar.
Sevən ömrü boyu ancaq inlədi,
Bu odun içindən keçənlər dedi:
Kaş əzəldən sevib sevilməyəydim,
Onun dadını da heç bilməyəydim.
Sevginin qəmindən, işgəncəsindən,
Zinhar olmayanı görməmişəm mən.
Məcnundan başlayıb Kərəmə qədər
Sevənlər sevgidən nalə çəkdilər.
Dastanlar bağlandı bu müşkül oda,
Bunu görə-görə çoxlarını da
Sevgi həsrətilə mən yanan gördüm,
Sevə bilənlərə qısqanan gördüm.

Sevgi axtardılar,
Sevda gəzdilər.
Tapdılar,
Ertəsi ondan bezdilər.
Gördülər, ürəyə işləmiş bu od,
Yananda bildilər, nə imiş bu od.
Bu düzsə, söyləsin sevgidən bezən,
Sevən bəxtəvərdir, yoxsa sevməyən?
Əlhəzər etsə də, söyləsin görək
Sevməkmi yaxşıdır, yoxsa sevməmək?
Ona da əl açır, buna da insan
Biz evi görmürük qapı döyəndə.
Zülmət diyarının bol daş-qaşından

Götürən də peşman, götürməyən də.
Bu dünya belədir yaranışından,
Gözəl də peşmandır, çirkin də peşman.

Bu, bir rəvayətdir: Bədbəxt bir cavan,
Yeddi il havanın quraqlığından
Əkdiyi zay olur, yazıq ac qalır,
Bir tikə çörəyə o, möhtac qalır.
Aclığın cəbrinə dözəmmir daha,
Açır əllərini bir gün dərgaha.
Deyir: - «Çatdır məni bircə arzuma,
Sən kəsib ömrümdən cala ruzuma.
Yoxdur bir istəyim, başqa diləyim,
Bol olsun təknəmdə yavan çörəyim.
Cavanın səsinə səs verdi allah,
Yüz kisə taxıl da göndərdi allah.
Dedi: - Bir şərtim var: israfdan çəkin.
Göndərdiyim taxıl qurtaran təkin
Sənin həyatın da çatacaq sona,
Dedim tarazlansın ömrün arzuna.
Cavanın gözləri güldü fərəhdən
Dedi: - İsraf nədir, gözü toxam mən.
Düşündü, o, gündə bir çörək yesə,
Ömründən o yana keçər yüz kisə.
Cavan yeyib yatdı o gündən bəri,
Tavana zilləndi xumar gözləri.
Yataqdan qalxmadı daha obaşdan,
Əlləri tutmadı kotandan, xışdan.
Ayda bir kisəni aşırdı təkcə,
Yedi bol taxılı can istədikcə.
Bir də ayıldı ki, on kisə qalmış,

Taxıl cəhənnəmə, ömür azalmış.
Neyləmək?
Başladı o, qənaətə.
Yarı ac, yarı tox, düşdü zülmətə.
Günü bir kümbəylə o, başa vurdu,
Arzusu ölümlə üz-üzə durdu.
Düşündü, dərgaha əl açan zaman
O, nə istəmişdi ulu tanrıdan?
«Allah, çatdır məni bircə arzuma:
Sən kəsib ömrümdən cala ruzuma...»
Allah da ömrümdən kəsib, arzumu
Qalan ömrüm ilə tarazlayıbmış.
Mənim istəyimin sonu bəs bumu?
Ömrümdən, günümdən, görən, nə qalmış?

Şərti düşününcə can qorxusundan
Sonuncu kisəni yemədi oğlan.
Bilirdi, yedisə, öləcək yəqin,
Bir həftə ac qaldı o, ölməməkçin.
Düşündü: «Vaxt çatıb, ölməliyəm mən,
Yeməsəm, aclıqdan, yesəm də şərtdən.»
Oynadı cavanın ağlı yerindən.
Quran belə qurub... neyləsin bəndə?
Bu dünya mülkünün nemətlərindən
Götürən də peşman, götürməyən də.

*Avqust 1986*

* * *

Ümid bayraq kimi
                    öz məsləkimi
Başımdan yuxarı qaldırar mənim.
Qışda çiçəkləyən ağac gümanlı,
Sisli, dumanlı
                    «Bəlkəm» var mənim,
Bəlkədən üstümdə kölgəm var mənim.
Bəlkə gözlüyünü gözümə taxdım,
Bəlkədən boylanıb dünyaya baxdım,
Nə gördüm?
                    Bəlkənin bu tayı uçurum,
O tayı arzum.

*Yanvar 1985*

## QANMAQ – QANMAMAQ

Bütün ömrüm boyu arılar kimi
Qəzetdən, kitabdan mən şirə çəkdim.
Bilməyə çalışdım bilmədiyimi,
Bunu bilmədim ki, mən bilməsəydim,
Nəyi uduzacaq, itirəcəydim?

Qazancım nə oldu,
İtirdiyim nə?
Qazancım dəyərmi itirdiyimə?

Qanmazın qandığı bir şey var ancaq:
Özünü hər yerdə düz, doğru saymaq!
O, elə bilir ki, səhv edə bilməz,
Bir müşkül önündə ağlı yenilməz.
Onun əməlində olmaz bir «xəta»,
Ondan ağıllısı yox bu dünyada.

Qandınsa... şübhələr və tərəddüdlər
Ömrünün peykinə dönəcək sənin.
Qandınsa... qəlbində dil açan kədər
Əzmini, eşqini yenəcək sənin.
Qananlar uduzur batıb dərində,
Qananlar uduzur şübhələrində –
Bağrına çəkilən qanma dağından.
Qanmazlar qazanır qanmadığından.
Qandıqca... özümlə durdum üz-üzə
O da mən,
Bu da mən.

Kimə haqq verim?
Möcüzə içində başqa möcüzə.
Nə hakim bəllidir, nə də müttəhim.
Kaş, qanmayaydım
Özümlə üz-üzə dayanmayaydım.

*Fevral 1985*

* * *

Alma düşdü ağacdan, onu kal ikən salan
Görən, kimin əliydi?
Nə küləkdi günahkar, nə fələkdi günahkar,
O, burda düşməliydi.
Budaqda bir an artıq, görən, onun qalmağa
Fərasəti vardımı?
Cazibə qanunundan alma xəbərdardımı?

Xəbərdar deyildisə, budağından kal ikən
Alma düşdü bəs nədən?
Bir vaxt elə bilirdim, fırlanmırdı
bu dünya,
Mən dünyaya gəlmədən...

*May 1985*

* * *

–İnsanların fikrini
　　　　oxuyaydım üzündən.
–Həyat öz mənasını
　　　　itirərdi o gündən.
–Həyatın mənası yox,
　　　　mənə özü gərəkdir.
–Hər şeyin mənası da
　　　　onun özü deməkdir.

*1985*

## ÖZÜNÜ DİNLƏ

Dinlə bu dünyanı öz ürəyinlə,
Sənət aləmində özünü dinlə.
Özgəni dinləsən kökdən düşərsən,
Sən özün özünə özgələşərsən.
«Özümü kənardan seyr edim» - deyə
Nə olar, hərdənbir çəkil təkliyə.
Üzbəüz, təkbətək qal ürəyinlə,
Sən onu dinlə!
Tək onu dinlə!

*1985*

* * *

Yox, dünya gözəldir, yaşamaq şirin
Görmək istəmirəm əyri-üyrünü.
Səni dilləndirən eybəcərliyin
İlkini görürsən, söylə, bəs sonu?
İşığa tərəfdir dünyanın yönü.
Doğrumu söylədim? Diləklərimi
Açdım ürəyimdə mən, çiçək-çiçək.
Dünyanı görmürsən olduğu kimi,
Görürsən, ey könül, istədiyin tək.

*Noyabr 1985*

* * *

Həyatdan getsəm də, xatiratdayam,
Arzuma həmişə çathaçatdayam.
Üstümə nə qədər torpaq atılsa,
İşığam, yenə də mən üst qatdayam.

*Yanvar 1986*

* * *

Kor kora kor desə – bu, keçib gedər,
Gözlüyə kor deyən kor, daha dəhşət!
Gözündə dağ boyda tiri görməyən,
Özgənin gözündə qıl seçər, əlbət.

Nadan öz sözünü yeritmək istər,
Özünü dərk etməz,
                    hamını danlar.
Aləmi çirkaba qərq etmək istər,
Çirkabın içində şıllaq atanlar...

*İyul 1974*

* * *

Yuxumdakı röyalarım, xülyalarım,
İnanmışam yalnız sizə.
Bir ömürdə çatmadığım
əlçatmaza,
ünyetməzə
An ömründə yetər oldum.
Həyatımda itə-itə
Rö'yalarda bitər oldum.
Ey yuxumdan oğurlanan
Ömrün-günün qəlpələri,
Sahillərdə dinclik tapan
Ey firtına ləpələri,
Vuruşların nə faydası?
Sükut, sükut!..
Ətəyindən tutub çəkən
Qayğıları unut, unut!
Yuxuya get, nağıla gir
Heç soruşma dünya nədir?

*1985*

## ON YEDDİ DEKABR

*Dostum Ş.Hüseynova*

On yeddi dekabr... Sənin ad günün,
Hərənin bəxtinə bir ulduz düşür.
Həm də tapmacadır yolu hər ömrün,
Sönmüş bir ocağa birdən köz düşür.

Sabahı bu gündən görmək çox çətin,
Yatır kül altında bir od külçəsi.
Birinci pilləni atan nə bilsin
İkinci pillənin nədir müjdəsi.

Birinci pillədə görmüşdünmü sən
Bu gün yetişdiyin mənzili, qardaş?
Gəl, gəl, alqışlayaq biz əvvəlcədən
Üzümüzə gələn hər ili, qardaş.
İllər yaxşı gəlir biri-birindən
Küllər çözələnir od hənirindən.

Biz hardan biləydik iyirmi yaşında
Ömrün hələ altmış düşərgəsi var.
İndi də nə bilək elçi daşında
Oturan elçinin nə müjdəsi var.

Gah olur, həsrətlə umduğumuzun
Görürük həyatda tərsini, qardaş,
Gah da gözümüzə ələnən tozun
Zaman özü verir dərsini, qardaş.

Bəzən yolda qalır gözlədiyimiz,
Gözlənməyən yerdən bəzən köz çıxır.
Bəzən qazananda uduzuruq biz,
Bəzən şərimizdən xeyrimiz çıxır.

Lal axan çayların altında yerdən
Qaynayan suları görmürük, fəqət.
Qırır qolundakı zənciri birdən
Yatmış bildiyimiz bir kölə millət.

Vaxtın axarında sular durulur
Gerçək gül açanda solur riyalar.
Bir anın içində uçub məhv olur
Yüz illik, min illik imperiyalar.

Bu gün dağlardakı dumanın, çənin,
Sabah gül açması bir himə bənddir.
Bu gün təşəxxüslə «mən, mən» deyənin
Sabahkı taleyi kimə bəllidir?

Birinci pillədə görmüşdünmü sən
Bu gün yetişdiyin pilləni, qardaş?
Təbrik eləyirəm elə indidən
Sabahkı gün ilə mən səni, qardaş!

*Dekabr 1986*

## HANSI MEDAL DÜŞÜR?

Dənizdə, havada min yarış gedir,
Dərinə, zirvəyə axtarış gedir.
Dağın zirvəsinə yol açan kəsə,
Uzaq məsafəyə tez qaçan kəsə,
Buz üstdə süzənə,
İpdə gəzənə,
Dərində üzənə medal paylanır.
Bu onu haqlayır,
O bunu danır.
Birinin qəsdini pozur, rədd edir
Başqa birisinin gücü, qüvvəti.
Birinin fərəhli qələbəsidir
Birinin kədərli məğlubiyyəti.
Hamı başqasını ötmək istəyir,
Hamı «mənəm» - deyir, hamı « mən» - deyir.
Bilmirik, başqası nə deyir bizə...
Tək öz arzumuza, öz hissimizə
Biz boyun əyirik, bəzən qul təki...
Amma düşünmürük,
                    öz içindəki
«Mənəmlik» hissini öldürən kəsə,
Hər kəsin yerini düz görən kəsə,
Özgəni özünə görk edənlərə,
Özgənin haqqını dərk edənlərə
Hansı medal düşür, hansı xal düşür?
Burda da araya qilü-qal düşür.

*Yanvar 1984*

* * *

Könül: lağım-lağım, yol: dağım-dağım
Bu yollar dağıtdı xoş xəyalları.
Köçdü ürəyimə enib qalxdığım
Enişli-yoxuşlu ömür yolları.

Qayəsiz, məqsədsiz ömür sürmədim,
Verdim əzablara mən öz qəlbimi.
Dərədə, təpədə dolay görmədim
Mənim içimdəki dolaylar kimi...

*1985*

## SEVİNCİN ZİRVƏSİ, DƏRDİN ZİRVƏSİ

*Köhnə dostum M. Sadıq müəllimə*

Qarışıb dünyanın yaxşı-yamanı,
Əzabı, ləzzəti, sevinci, qəmi.
Göründüyü kimi gördüm dünyanı,
Çox vaxt görəmmədim olduğu kimi.

Gəldim dünya ilə çox vaxt döş-döşə,
Bəzən ala bildim öz istəyimi.
Həyat qurtarardı,
əgər həmişə
Dünya görünsəydi olduğu kimi.

Dünya çalın-çarpaz dağlayan kəsi
Özgəsinə sevinc paylayan gördüm.
Ən böyük sevincdə ağlayan kəsi
Dərddə qol götürüb oynayan gördüm.

Arzu tənliyində,hiss tənliyində,
Tutur ağ qaranı,
Bəm səs zil səsi.
Birləşir duyğunun dərinliyində
Sevincin zirvəsi, dərdin zirvəsi.
Ey könül, dünyadan nə küs, nə inci,
Sevincdə qəmi gör, qəmdə sevinci.

*Mart 1986*

* * *

Neçə söz danışdın sən bircə gündə,
Yüz sifət gizlənir bircə üzündə.
Boşa dolu dedin, sola sağ dedin,
Qatığa gah qara, gah da ağ dedin.

Özün başdan-başa oldun bilməcə,
Bu xislət haqdanmı sənə verildi?
Anlaya bilmirəm; yüz sifət necə
Sənin bir üzünə sığışa bildi?

*Sentyabr 1985*

* * *

Bir rəssam axtarıram;
Qəlbimdən keçənlərin
Çəkə xəritəsini.
Bir cəllad axtarıram;
İstəyimin, arzumun
Boğa üsyan səsini.

*1986*

* * *

Bu möcüzə dünyanın
Yeri qandır,
Göyü qan.
Haqq – ədalət adından
Bağıran cəlladların
Səsi qandır,
küyü qan.
Bu, əzəldən belədir:
Min illərdir hey axır
Qabilin*  tökdüyü qan.

*1986*

*"Bibliya" mifologiyasına görə, qardaşə Habili qətlə yetirən Qabil nəzərdə tutulur.

## MƏN MƏNƏM

Dünyanın qarışıq mənzərəsində
Ürək: «Dözmə» - deyir,
Səbr: «Döz» - deyir.
Əslində, hər biri öz cəbhəsində
Tamam doğru deyir, tamam düz deyir.

Nə ilə bitəcək bu cəngin sonu?
Ürəyim qələbə çalsa, mən mənəm.
Mənim cəsarətim yenib qorxunu,
Səbrimin daşını dəlsə, mən mənəm.

*1986*

## YARAMAZ

Özünü dünyaya borc sayanların
Böyük ürəyinə arxalanmışam.
Yalnız öz işinə yarıyanların
Bircə damğası var: Yaramaz adam!

*1977*

## TƏRSİNƏ

Səksən beş yaşında bir qərib axşam
Hıçqırıb ağladı ölürkən babam.
Nəvəm gülə-gülə öldü... Axı, o
Bilmirdi ölümün nə olduğunu.

Bu çarxı tərsinə çevirib öncə
Bu gündən keçmişə dönə biləydik.
Biz uşaq doğulub, qoca ölüncə
Kaş, qoca doğulub, uşaq öləydik.

*1989*


HƏSRƏT
NƏĞMƏLƏRİ

*Sən dağın sirrini gülündən soruş,*
*Dərədə hönkürən selindən soruş.*
*Qayanın sirrini çırtma daşından,*
*Ocağın sirrini külündən soruş.*



## KÖNÜL VERDİK

Könül verdik, biz and içdik
Əhdimizə dönə-dönə.
Amma yenə inanmadıq
Nə sən mənə, nə mən sənə.

Ayıltmadıq könlümüzdə
O gözləri yol çəkəni.
Xəyallanıb uçurmadıq
Nə sən məni, nə mən səni.

Sənin sevda yollarını
Kirpiyimlə süpürənəm.
Bu eşqsiz, bu sevdasız
Nə sən sənsən, nə mən mənəm.

Bir uçuşu görməmişik
Nə sükansız, nə yüyənsiz.
Biz ki bütöv olmamışıq
Nə sən mənsiz, nə mən sənsiz.

*Fevral 1980*

* * *

Döydü qapısını ölüm qonşunun.
Ey vəfasız dünya, bu imiş sonun?
Bəlkə... ölmək üçün yaşayırdı o?
Söylə, etibarın, ilqarın bumu?

Bir anlıq ötəri bir həyat üçün
Dünyaya gəlməyə heç dəyərdimi?
Ölümlə qurtaran qısa ömür-gün
Əbədi ölümə heç dəyərdimi?
Həyat, gecən də var, səhərin də var,
Sənin şəkərin də, zəhərin də var.

Şəkərin – artırır həvəsimizi,
Zəhərin – aparır dərinliklərə.
Şəkərin – uçurur, qaldırır bizi,
Zəhərin – endirir göylərdən yerə.

Daddım zəhərini, dadıram yenə,
Daddıqca yaşamaq düşür gözümdən.
Endikcə həyatın dərinliyinə,
Qaçmaq istəyirəm özüm özümdən.

Daddıqca həyatın şirinliyini,
Ölümdən qorxuram...
O – son hədd imiş.
Bildikcə həyatın dərinliyini
Bildim ki, bilməmək– səadət imiş.

Ölümdən diksinib qorxmayan hanı?
Enmək istəmirəm dərinliklərə.
Bir dəfə öldürür ölüm insanı,
Qorxusu öldürür gündə yüz kərə.
Yox-yox! İstəmirəm düşünmək belə,
İstərəm tərsinə dönə dünyanı.
Nazınla,
        qəmzənlə,
                işvələrinlə
Unutdur, sevgilim, mənə dünyanı.

*Fevral 1980*

## KÖLGƏLƏR, SƏSLƏR

Cadusan, sirrsən, bilmirəm nəsən?
Sənin tilsiminə də uyuram ancaq.
Təpədən dırnağa sirli nəğməsən
Bu sirri bilmirəm, duyuram ancaq.

Hardasa qəlbinin gizli yerində,
Halıma gah gülür, gah ağlayırsan.
Sirrin çaxmaq çalır kirpiklərində
Atəşi görünür,
Qaynağı pünhan!

Baxışda şaqqıyan şimşək çaxışdan
Od qopar,
Bu odun qəsdi bilinməz.
Şimşək xəbər verər dolu yağışdan,
Baxış şimşəyinə nə ad verək bəs?

Şəkilsən...
        rəngləri seçmək çox çətin!
Bu göymü?
        Bu ağmı?
                Qaramı, yoxsa?
Bilinməz, oxunmaz mətləbi şəklin,
Kölgələr ılıqsa, rənglər soyuqsa?

Kölgələr rənglərə kölgələr salar,
Bu sirli kölgələr məni çaşdırar.

Rənglər arasında ılıq çalarlar
Sənin özünü də haçalaşdırar.
Küləksən... özünü görmürəm,
                                        ancaq
Səni tanıyıram əməllərindən.
Səni görmək üçün əsən otlara,
Əsən yarpaqlara baxmalıyam mən.
Səsi var,
                        Sözü yox
                                        otun, yarpağın.
Küləyin sirrini hardan bilim mən?
...Mən yazıq, sirrini sehrikar dağın
Bilmək istəyirəm dağın özündən.

Sən dağın sirrini gülündən soruş,
Dərədə hönkürən selindən soruş.
Qayanın sirrini çırtma daşından,
Ocağın sirrini külündən soruş.

Mən səs istəmirəm,
Söz istəyirəm.
Astar istəmirəm,
Üz istəyirəm.
Gəldi qulağıma bir sehirli səs:
«Səsi anlamayan sözü də bilməz.
Astara baxanda üzü bilməli,
Səsi dinləyəndə sözü bilməli!»

*Fevral 1980*

* * *

Çiskinli havalar yaman uzandı,
Bizim aramızda duman uzandı.
Nə mən yara bildim, nə sən, dumanı,
Ürəyə çökdürdük bu çən-dumanı.
Dəyişə bilmədik bir həqiqətə
Neçə ehtimalı, neçə gümanı.

Bu sevən ürəyim əlimdə bayraq,
Sonuncu mənzili görə bilmirəm.
Sənə ürəyimi vermişəm, ancaq
Neyləyim, özümü verə bilmirəm.
Əzizim, özün de, özün de, görək
Sənə ruhum gərək, ya cismim gərək?

*Mart 1980, Yalta*

* * *

Yamanca gecikir bu ayın beşi.
Geriyə işləyir elə bil zaman.
Günahkar bilirəm ayı, günəşi,
Elə bil dayanıb öz dövranından.

Həsrətin gözüylə baxıram...
                                        günlər
Uzanır...
Nolardı günüm an olsa.
Uzana bilməzdi zaman bu qədər
Həsrətin gözünü bağlayan olsa.

Gələcək, bilirəm, gözlədiyim gün,
Həsrət bitəcəkmi?
                              Yox, bitən deyil.
Min görüş, arada sərhəd tək duran,
Bir həsrət dağını əridən deyil.
Həsrəti, möhnəti ömrüm boyunca
Bir vəhdət eşqinə yedim doyunca.

Görünmür, neyləyim, möhnətin sonu
Mənim atdığım ox mənə tuşlanır.
Həsrətin ilkidir həsrətin sonu
Görüş bitən kimi həsrət başlanır.

*Mart 1980, Yalta*

* * *

Ömrümün ən uzun gecəsidir bu
Səhərin yolunu kəsib intizar.
Xəyalım havada bir binə qurdu,
Arzumla imkanım adaxlandılar.

Sabahın eşqinə mələyir könül
Yox, dözə bilmirəm bu iniltiyə.
Gecədən səhəri diləyir könül
Özüm şama döndüm, arzum piltəyə.

Səhərə yol açıb sinəm atlanır
Bəs nədir içimdə belə hönkürən?
O od ki, könlümdə alışıb yanır
Bəs niyə gecəni əritmir, görən?

Gecənin boynuna ölçüldü arzum
Gördüm ki, gecədən o, uzun oldu.
Susdu,
Nə qəmləndi,
            nə güldü,arzum.
Bir gecə ömründə biri on oldu.

Dolmuşam, ey səhər, tez açıl, tez gəl
Məni əldən saldı qəhər Yaltada.
Səhərdən işıqlı, səhərdən gözəl
Bir səhər doğacaq, səhər Yaltada.

*Aprel 1980*

* * *

Mən sənin oduna yaş ağac kimi,
Asta cızıldayıb, asta yanırdım.
Hələ tutmamışdı alov qəlbimi,
Hələ tüstülənir, dumanlanırdım.

Odundan od alıb alışdım tamam
Gerçəyə çevrilib gümanım indi.
Daha tüstülənib dumanlanmıram
İşığa çevrilib dumanım indi.

*İyul 1980*

* * *

Deyirsən: – Özünü yaman sevənsən,
Deyirəm: – Bunun da səbəbi sənsən.
Özümü sevməzdim,
hələ, əksinə,
Bir zaman özümdən bezib usandım.
Elə ki, ürəkdən bağlandım sənə,
Özüm öz gözümdə dəyər qazandım.

Özümü sevməkdə borcluyam sənə,
Sevgi bir sirdi ki, mən ona təslim.
Başqa birini yox, mən dönə-dönə
Səni sevdiyimdən özümü sevdim.

*İyul 1980, Şəki*

* * *

Ey qadın, hardandır səndə bir belə
Dəyanət, mətanət, sədaqət, dözüm?
Büllur gəncliyini sən verdin yelə,
Bir eşqin yolunda...
                Sənə yox sözüm.

Gələcək naminə fal açdırırsan,
Falın gah xoş gəlir, gah yaman gəlir.
Sabahı bu günə calaşdırırsan
Ümidin, dözümün eşqindən gəlir.

Gözünü açmamış ilk gəncliyindən,
Ümidlə sabaha dikilib gözün.
Ümidə dönmüsən ümidinlə sən
Təpədən dırnağa ümidsən özün.

*İyul 1980*

* * *

Ağardı saçları məhəbbətimin,
Amma qurumadı gözümün yaşı.
Qocaldım,
yolunda dəyanətimin
Hər il cavanlaşdı özünün yaşı.

Məhəbbət qocalmır,
onu daşıyan
Kövrək ürəklərin halına vay-vay.
Şübhə nə çaldısa oynadı güman,
Məhəbbət qopartdı haray, hay-haray!

Döz, mənim ürəyim,
Dözümdür əlac.
Harayda nə fayda,
Hayda nə fayda?
Qışın şaxtasına dözməyən ağac
Yazda çiçəklənməz, belədi qayda.

Bilmirəm payızdı, bilmirəm yaydı,
Könlümdə kükrəyir yenə də sellər.
Bulaqlar dağlarda ağlamasaydı,
Qəhqəhə çəkməzdi dərədə sellər.

*İyul 1980*

* * *

Könlümdə, ruhumda yenə, yenə sən
Möhürlü, kilidli bir xəzinəsən.
A mənim könlümə pərəstar, hayan,
Mənə bu dünyanı sevdirən oldun.
Mənim özüm qədər məni anlayan
Milyonlar içində təkcə sən oldun.

Mən necə?
Mən səni anladımmı bəs?
Sənsiz mənim dünyam mənə yavandır.
Tək bunu bilirəm:
                    aldığım nəfəs,
Sənin iqlimindir,
Sənin havandır.

İyul 1980

* * *

Sənin baxışların dərindən dərin,
Oxunmur, bilinmir arzun, istəyin.
Gah bulud toqquşur, gah şimşək çaxır,
Gah da bir gözündən iki göz baxır.

Gözlərin hər biri ayrı bir ulduz,
Biri haraylanır, biri huylanır.
Gah qadın gözüylə bakirə bir qız,
Gah qız gözlərilə qadın boylanır.

*İyul 1980*

* * *

Mən bir qiblənüma,
Qibləm sən oldun.
Mənə öz yönümü göstərən oldun.
Ərzin dörd cəhəti döndü vahidə.
O vahid sən idin,
Mənə yön oldun.

İnam bəxş eləyir bu yol hər kəsə,
Elə ki, tanıdın yönü, qibləni.
Bu yoldan azmaram ömür bitməsə,
Yönüm qibləgaha aparır məni.

*İyul 1980*

## YEDDİ SÖZ

Sənin teleqramında
Vur-tut yeddicə söz var.
Ürəyimdə oxudum,
Dilimə gətirmədim,
Qorxdum ki, dilim yanar.
Xəsisliklə yazılmış
hər sözün arxasında
Neçə-neçə söz dürür.
Hər söz öz yuvasından
Bir qatar söz uçurur.
Gəl, indi sən
Tut görüm
Yeddi sözün dalında
o gizlənən sözləri.
Deyilməmiş,
Ürəkdə əzizlənən sözləri.
Bu yeddicə kəlmədən
Öyrənmək istəyirəm
Halını,
ovqatını.
Oxumaq istəyirəm
Gizli duyğularının
Ən sonuncu qatını.
Bu yeddi sözdə
görmək,
tanımaq istəyirəm
sənə baxan gözləri.

Gözlərindən odlanıb
su tək axan gözləri.
İstəyirəm
yeddi söz
Səsinə dönsün sənin,
Özünə dönsün sənin.
Səsin, üzün bir anlıq
Bu həsrət gözlərimə
gəlsin,
görünsün sənin.

*İyul 1980*

* * *

Mən bir qəm daşıyam,
Qəlbinə dəydim.
Nə imiş bu dünya qəmsiz, kədərsiz?
Gördüyün yuxunu mən də görəydim
Səninlə bərabər, səndən xəbərsiz.

*Avqust 1980*

## SƏN OLURAM MƏN

Yaxşı ki, ayrıyıq,
Yaxşı ki, bizdən
Çırpıntı, sarsıntı əl üzmür yenə.
Həyatı öyrəndik həsrətimizdən,
Odur ki, həmişə möhtacam sənə.

Rəngi bir,
dadı bir
toyun, büsatın
Həsrət min rəng çəkir gözlərimizə.
Yaxşı ki, ayrıyıq,
bu dərd həyatın
Dərin qatlarını göstərir bizə.

Yanımda olanda uzaqdasan sən
Mən səni görmürəm olduğun kimi.
Səndən ayrıldımmı,
hər yerdə sənsən
Mən görə bilmirəm, vallah, heç kimi!

Yanında bir quru cisməm özüm də,
Ayrıldım,
ruh olub əriyirəm mən.
Eşitmir qulağım,
Görmür gözüm də.
Arzudur eşidən, həsrətdir görən.

Adi bir insanam,
Sənin yanında
Başqa qayğılarla yaşayıram mən.
Elə ki, ayrıldım,
qəm dumanında
Fikrimin ilki də,
Sonu da sənsən!

Yanında rahatam, sakitəm tamam,
Ayrıldım, od tutub alışır ürək.
Rahatlıq – ölümdür,
Hələ mən sağam.
Mənə tufan gərək,
həyəcan gərək!

Vüsal dəmlərində sən nur, mən çıraq,
Görürəm, mən mənəm, sən də sənmisən?
Ayrılıq dəmləri sən, sənsən, ancaq
Bilmirəm, bəs niyə mən olmuram mən?

Səndən ayrılanda vahidəm, birəm,
Həm də bir hədəfə vururam mən.
Yanında, həmişə ikiləşirəm,
Ayrıldım, çevrilib sən oluram mən.

*Avqust 1980*

* * *

Arzularım qönçələnir yuxumda,
Can yanğıma su çilənir yuxumda.
Hüdudları yaman aşdı yuxular,
Dəlilikdən ağıllaşdı yuxular.
Nəğmələşdi, nağıllaşdı yuxular.

Yuxularda həsrət bizdən gen düşər,
İntizarın saçlarına dən düşər,
Arzuların quzeyinə gün düşər.
Mən nə deyim bu qədəri yazana,
Yuxularım arzum qədər uzana.

*Avqust 1980*

* * *

Düz məramım,
            düz ilqarım,
                        düz eşqim,
İlki bilir,
Amma sonu bilməsin.
Məndən sonra yaşayacaq öz eşqim,
Aman allah,
            məndən əvvəl ölməsin!

*Avqust 1980*

## ZAMAN – MƏKAN

Səndən ayrılanda saat beş idi
Dolandı könlümə dağda hər dolay.
O anın dəhşəti nə müdhiş idi.
Getmək istəmədən gedənə vay-vay!

Maşın qanadlandı... heyrətdəyəm mən
Sürətlə hərlənən bu dörd təkərə.
Deyirəm, dərdimin qurşun yükündən
Bəs niyə təkərlər mıxlanmır yerə?

Bəs hara tələsir o, arsız-arsız?
Bir qüvvə yoxdurmu onu saxlaya?
Özüm müqəvvayam,
Könül qərarsız.
Maşın önə qaçır, fikir arxaya.

Mən də, sürücü də susurduq elə
Fikrimdə gəmirir şübhə şübhəni.
Məqsədsiz, məramsız baxırdım çölə
Hər daşın dalında görürdüm səni.

Ötdük neçə kənddən dinməz, söyləməz
Baxdım elə-belə saata bir də.
Yenə də beş idi.
Yox, ola bilməz!
Vaxt niyə dayanıb durduğu yerdə?
Vaxtı sürücüdən tez xəbər aldım.
-Düz yeddi tamamdır...

məəttəl qaldım.
Nəbzimi tuturam, nəbzim dayanmış,
Niyə dayanmasın qolda saat da?
Səndən ayrıldığım o an, nə anmış,
Mənimçün dayanıb o an həyat da!
Maşının gücünə, sürətinə bax.
Bu qüdrət «Hər şeyə qadirəm» - dedi.
Mənimçün məkanı dəyişdi, ancaq
Zamanı irəli çəkə bilmədi.

*Avqust 1980*

## DƏRİNSƏN, ZİRVƏSƏN

Hikmət kitabıdır sənin surətin.
Onu sona qədər oxumaq çətin!
Sən uzun illərin dolaylarında
Mənimçün heç zaman adiləşmədin.

Sən «gəlmə» deyirsən, əgər «gəl» - desən,
Yüz giley gizlənir bir gileyində.
Həmişə, hər yerdə qeyri-adisən
Qəribə görünən adiliyində.

Baş vurdum könlünün dərinliyinə,
Qalxdım zirvəsinə sənin arzunun.
Əlimi, qolumu bağladın yenə.
Nə orda son gördüm,
Nə də burda son.

Ürəkdə nə qədər inci gizlənər
Onlar bir-birindən baha, dəyərli.
Sonuncu görüşdə tapdığım gövhər
Əvvəlki gövhərdən daha dəyərli.
Sənin ürəyində yatan incilər,
Mənim ürəyimə ulduzlar çilər.

Qəlbini taybatay açmamısan sən,
Qorxmusan, gözünə çox işıq düşə.
Gözlərim qamaşa...
Hər görüşündən

Bir sirr saxlamısan gələn görüşə.
Aya çatmamışdan o gözəlliyə
Yetişmək eşqilə yandıq, düşündük.
Min il bu həsrətlə tor atdıq göyə,
Çatdıq,
ovcumuzda qum geri döndük.

Ayın əfsanəsi bitdi o gündən,
Dönüb ovcumuzda toz-torpaq oldu.
Sirrini insana bildirdiyindən
Ayın gözəlliyi itdi, yox oldu.

Sən mənim ovcuma qum tökməməkçün
Həmişə gizlətdin nəyisə məndən.
Ucaldın günbəgün,
Qalxdın günbəgün.
Daha gözəl oldun bu gün, dünəndən.

Hikmət kitabıdır sənin surətin.
Onu sona qədər oxumaq çətin!
Bu uzun illərin dolaylarında
Mənimçün bir dəfə adiləşmədin.

Dərinsən,
        zirvəsən mənim gözümdə,
Belə tanımışam səni mən, gülüm.
Qeyri-adiliyin boy alır, həm də
Mənim həsrətimdən, eşqimdən, gülüm.

*Avqust 1980*

* * *

Arzu darda qaldı, könül ayazda,
Bu qədər dözmüşük,
Dözək bir az da.
Taleyin əlinə verilən dilək,
Kim bilir, güləcək, ya gülməyəcək...

Dözmüşük,
Yenə də dözək, sözüm yox.
Yollara dikilib gözüm həmişə.
Sənə «döz» deməyə mənim üzüm yox,
Səadət göyərtmir dözüm, həmişə.

Yalnız qəlbimizdə pozub qaydanı,
Qınaqla, tənəylə gəldik döş-döşə.
Ancaq həyatdasa güdüb həyanı,
Suyun axarına üzdük həmişə.
Odur ki, izimiz suda qalmadı,
Biz dərdi yedikcə dərd azalmadı.

Bir zaman vuruşub dandıq hər şeyi,
Dedik haqqımızdır görünən işıq.
İndisə taleyin bəxş edəcəyi
Sədəqə-ümidə biz əl açmışıq.
Davaya, dalaşa daha lüzüm yox,
Dözmüşük,
        yenə də dözək,
                        sözüm yox.

*Avqust 1980*

## MƏNƏ İZTİRAB VER

Yönümü göstərdin sən kompas təki,
Çünki taleyimdə, qədərimdəsən.
İztirab dağının arxasındakı
Sevincim də sənsən, kədərim də sən.

Qəmdə bülövlənib ovxarlanım mən,
Kəsəri korlaşıb duyğularımın.
Mənə iztirab ver,
                    Mən bu zirvədən
Baxanda gerçəyi görmüşəm aydın.

Bir illik ağrıdır bir günlük sitəm,
Küllənən odumu çözələr mənim.
Mənə iztirab ver,
                    Bu həsrət, bu qəm
Hər dəfə sevgimi təzələr mənim.

İncimək istərəm,
                    Sən məni incit!
Rahat güzərandan bezmişəm yenə.
Mənə iztirab ver,
Dadım sevinci,
Həyatın dadını dərk etdir mənə.

İtər bu dünyada ayaq izlərim,
Dərdimin möhrünü basmasam yerə.
Mənə iztirab ver, varsın gözlərim

Gözlə görünməyən dərinliklərə.
Verdiyin əzabla məni, sevgilim,
Çıxart imtahandan, çıxart sınaqdan.
Mənə iztirab ver:
Ayıra bilim,
Yalanı gerçəkdən, qaranı ağdan.

Könlümün başında göynəsin kədər,
Şübhə mənə çatsın,
                    Qoy inam sənə.
Mənə iztirab ver, mənə ağrı ver
Yalnız o zirvədə çataram sənə.

Könül gecə-gündüz təlatüm istər,
Günahkar bilmirəm burda kimsəni,
Mənə iztirab ver, mənə əzab ver,
Mənə işgəncə ver: Çox sevim səni.

*İyul 1981*

## QOY BİR AZ YATIM

Yaman yorulmuşam, niyə, mən niyə
Asılı qalmışam fikirlərimdən?
Yatırıq, sübhədək dincələk deyə,
Yorğun oyanıram yuxudan da mən.

Yaman yorulmuşam, nə oldu birdən
Şimşəklər oynadı duyğularımda?!
Oyağam, fikrimdə, xəyalımda sən,
Yatsam, oyanırsan yuxularımda.

Yaman yorulmuşam,
Dərd yüküm ağır!
Bu həsrət yükünü nə qədər çəkim?
Mizan-tərəzidə tarazlaşıbdır
Möhnət çəkisiylə mənim öz çəkim.

Şübhəyə dönmüşəm, qara şübhəyə,
Sevgin inam olub dola ruhuma.
Sən bir nəğməyə dön, qədim nəğməyə,
Özünü nəğmədən çilə ruhuma.

Yaman yorulmuşam,
                    Şübhə çənindən
Yaralar, qaralar var ürəyimdə,
Gülüm, dan yerinin işığı ol sən,
Şübhə dumanını yar ürəyimdə.

Bir əzab görmədim bu əzab kimi,
Tək bircə şübhəmdə neçə güman var.
Yüz yerə at çapan şübhələrimi
Sevgi kəməndiylə inama qaytar!
Yaman yorulmuşam,
Bilirəm amma
Hardadır, nədədir ən son nicatım.
Mənim pərakəndə duyğularıma
Layla de,
Laylada qoy itim-batım;
Yaman yuxum gəlir, qoy bir az yatım...

*İyul 1981*

* * *

Məlum həqiqəti gətirib dilə,
Kora kor deməyin zəifliyindir.
Mənim həqiqətim yol gəlir hələ,
Sənin həqiqətin vaxtdan yeyindir.

Mənim həqiqətim – şübhədir hər an,
Sən şübhə dağını çoxdan aşmısan.
İnama güvənib məhkumluğundan
Hakimlik taxtına sən yol açmısan.

Axı, öz cəbhəndən, öz səngərindən
Mənim silahımla vurursan məni.
Necə amansızsan,
dünyada düşmən
Düşmən silahıyla vurmaz düşməni.

Mən elə bildim ki, səngərimiz bir,
Mənim şübhələrim – hədəfimizdir.
Mənim səngərimə dönəydin gərək,
Dönmədin,
Ağrıma, acıma qıydın.
Mən sənin şübhəni dağıtdığım tək
Sən də mənimkini dağıtmalıydın.

Sənin əlindədir, bilirsən tamam
Mənim təlaşım da, rahatlığım da.
Səni həm itirir, həm də tapıram
Hissimə, duyğuma səbatlığımda.

Özün də bilmirsən nə imiş qəsdin.
Bizi hara çəkir bu üzüntülər?
Çoxalır qəzəbin,
Azalır hissin
Mənə bəslədiyin inamın qədər...
Sevgi kitabında bu da bir varaq:
Üz döndü,
Astardan təzə üz aldı.
Sevgi şübhən qədər sonsuzdu bir vaxt,
İnamın artdıqca sevgin azaldı.

Qismətim əbədi təlaşdır mənim,
Sevgi kitabında bu da bir varaq:
Eşqim – şübhəm ilə həmyaşdır mənim,
Nə şübhəm qocalır, nə sevgim ancaq.

*Avqust 1981*

* * *

Gəldin düşüncəli,
Getdin fikirli,
Gəlişin müəmma,
                    Gedişin sirli.
Nə sən məni duydun,
                    Nə də mən səni.
Qopara bilmədim özümdən səni
De, nəyə gərəkdir bu giley-güzar?
Mənim hər sözümün bircə rəngi var.

Mən ki görünürəm olduğum kimi,
Nəyəmsə eləcə gör məni sən də.
Demişəm, deyirəm öz düşüncəmi
Bundan incisən də,
İncimәsən də.

Qəlbimdə bəslənən arzu, kam sənin,
Mənim bu arzumla sən yanmasan da.
Sehrinə, sirrinə heyranam sənin,
Buna inansan da, inanmasan da.

*1982*

* * *

Qarışdı yenə də, xeyirim, şərim,
Niyə dünya belə balacalandı?
Uzandı həsrətlə keçən günlərim,
Zamanı dağıdıb ömrə calandı...

Bir uca zirvəsən, mən sel, ay gülüm,
Amma xislətimdən arıdılmışam.
Zirvədən dərəyə deyil, ay gülüm,
Dərədən zirvəyə axan olmuşam.

Açıq kirpiklərim nizələr kimi
Açdı səhərlərə yol gecələrdən.
Mənim bu dərbədər baxışlarımı
Tez qayıt, amandır, yığ küçələrdən.

Bu həsrət, bu əzab mənə çətindi,
Yüz-yüz kilid ilə hissimə bəndəm,
Tətiyi çəkilmiş tüfəngəm indi,
Boşalmaq qəsdiylə bir himə bəndəm.

Hər şey çaş-baş olub.
                    De, bu nə sirdi?
Səadət tapmışam dərd-sərimdə.
Dünya özü boyda ağır fikirdi,
Mənim qovuşmayan kirpiklərimdə.

*1982*

* * *

Necə dincələrəm, bir dəli çovğun
Əsib, qaydaları dolaşdırarsa.
Şəhərdə bir mənəm, bir də yoxluğun,
Yalandır, riyadır qalan nə varsa.

Sevgi hədd tanımır, artır ilbəil,
Sevginin sərhəddi sevgidir yenə.
Sənə sədaqətim – adi borc deyil,
Sənə sədaqətim – sevgidir sənə.

Xəstə aparmısan sağaltmaq üçün
Ona şəfa verən mənə dərd verir.
Xəbərin yoxdur ki, sənin yoxluğun
Mən yazıq sağlamı xəstələndirir.

Səbr çox qısadır, həsrət çox uzun.
Mən ayrı düşmüşəm özümdən yenə.
Döndü gözlərinə sənin yoxluğun,
Səpildi Bakının küçələrinə.

Dönür dilənçiyə bəzən məhəbbət,
Ona da, buna da əl açıb durur.
Mən yaxşı bilirəm, birgünlük həsrət
Ömürlük vüsaldan niyə uzundur.

*1982*

## SƏSIN IŞIĞINDA...

Telefon söhbəti... ilk söz, ilk güman
Duyğumu, fəhmimi çəkir tarıma.
«Bəli» sözündəki səs çalarından
Ovqatın süzülür damarlarıma.

Səsində saxlanır bir aləm sənin,
İncə bir mətləbdir, sözdür səsin də.
Özünü, üzünü görürəm sənin
Səsinin xəfifcə titrəməsində.

Ayırmaq mümkünmü, de,sözdən səsi?
Sözün sinəsinə səsin od salar.
Bu səsin şəkili, rəngi, nəğməsi
Ruhuma, yuxuma işıq damcılar.

Mənim təşnəliyim sənin üçündür
Mənası dəqiqdir sözün, kəlmənin.
Sözün – zahirindir, görünüşündür,
Səsin – cövhərindir, ruhundur sənin.

Sözlər – qırıq-qırıq, səs – çiçək-çiçək.
Birləşir könlümdə göylə yer mənim.
Elə ki, yatıram,
                    həzin nəğmə tək
Səsin qulağımda cingildər mənim.

Oynaşır gözümdə: göy, yaşıl, sarı,
Görürəm dünyanı ayrı donda mən.
Görürəm ən dərin qaranlıqları
Səsinin rəngində, işığında mən.

*İyul 1982*

## QİTƏLƏR

Torpaq həmişə göylərə möhtac və təşnədir
Göylərdə gördüyüm bu fəsad, hansı fitnədir?
Sən, sən yaratmısan yenidən eşqdən məni,
Bilməm, özün yaratdığını sevməmək nədir?

*1981*

* * *

Səndən uzaqlaşınca özümdən də gendəyəm,
Heç bilmirəm, kiməm, nəçiyəm, hardayam, nəyəm?
Qulluqdan azad oldusa, qul şad olar, fəqət,
Mən azad olmuşam, niyə bəs qəm içindəyəm?

*1981*

* * *

Göylər dolur buludla, boşalmaqçın hər zaman,
Şimşək çaxır, səmada od olmaqçın hər zaman.
Eşqində sağ qalanlar ölür, ölmədən qabaq;
Eşqimdə ölmüşəm, diri qalmaqçün hər zaman.

*1982*

* * *

Sordun: - Niyə susdun? Niyə fəryadın ucalmaz?
Yarpaqları tökmüşsə, budaqlarda səs olmaz.
Üstün gəlib inkar elədi naləmi eşqim,
Tonqal ki, alov tutdu, onun tüstüsü qalmaz.

*1982*

* * *

Ürəyim min arzuya,
Tək bir fikrə calandı.
Bir arzuya gedən yol
Sonradan haçalandı.

Durdum yol ayrıcında,
Baxdım haça yollara.
Hava kimi bozardım,
Nə ağ oldum, nə qara.

İstəyimə «yox» - dedim.
Könül susdu, dinmədi.
Ağıllandı ürəyim,
Ağlım ürəklənmədi.

*1983*

* * *

Sən öz aləmində «haqlısan» yenə.
Yəqin ki, deyirsən: «nə günahım var...»
Vicdanı itirən qurdun qəsdinə,
Quzunun qətlinə haqq qazandırar.

Top kimi oynadıb sevən qəlbimi
Sən atdın...
                    Mənəmmi günahkar yenə?
Sən məni atmadın,
                    vicdanın kimi
İtirdin məni də... Eşq olsun sənə!

Məni itirməyin deyil qorxulu,
İtkilər yoludur bu ömür yolu.
Dünyada bir itki əvəzsiz olmaz,
Tək itən vicdana əvəz tapılmaz.
Bu da xeyrinədir, nə qədər sağsan,
İndi özün üçün yaşayacaqsan.

Tək məni itirmək çətindən çətin
Ürəiyn durmadı sənin qəsdinə.
Əgər vicdanı da itirməsəydin,
Mənsiz dağ çəkərdi bu həyat sənə.

*1983*

* * *

Sən mənim qəribə qismətim, payım,
Gecələr – günəşim,
Gündüzlər – ayım.
Güneydə – quzeyim,
                    Qışda – yazımsan,
Sən mənim –
həmişə əlçatmazımsan.

*1983*

* * *

Sənə çatmaq üçün qalxdım göylərə,
Həyat çəkdi mənim ətəklərimdən.
Göyün bu qatından baxıram yerə,
Böyüyən sənsənsə, xırdalanan mən.

Sənə can atdıqca ucalıb sanki
Göyün o tayına qanadlanırsan.
Sən göyün elə bir qatındasan ki,
Sənə çata bilməz əlim heç zaman.

Səslənib könlümdə sən bir nəğmətək
Qoru bu şərəfi, bu təmizliyi.
Can atmaq, ucalmaq, çata bilməmək!
Budur sevgimizin ölməməzliyi!

*İyul 1983*

* * *

Kölgəm kimi izləyir fikrim, xəyalım səni,
Düşüb sənin dalınca kölgəm udub kölgəni.
Yaşaya bilərmisən öz arzun, xəyalınca?
Gözətçi göndərmişəm xəyalımı dalınca.

*1984*

* * *

Dərmanı dərd olan bir xəstəyəm mən
Özümü içimdə dustaq etmişəm.
Dünyanın sevinci öz əlimdəykən
Hər şeyi özümə yasaq etmişəm.

Sən mənim nəyimsən, kimimsən bu gün?
Ömrümü özümə zindan edənim.
Dünyanı qəlbimdən silib süpürdün,
Dünyadan o tayda, ay dünyam mənim!

Qismətim bu imiş bəlkə...
qismətə
Nə qədər baş əyim?
Nə qədər dözüm?
Özüm də bilmirəm bu müsibətə
Tale günahkardır, yoxsa, mən özüm?

Taleyin verdiyi xoşbəxtliyin də
Gör necə başını kəsən olmuşam.
Sənə bəslədiyim qəzəb də, kin də
Özümə çevrilib mən, sən olmuşam.
Qənim kəsildiyim xoş taleyimdən
Hardasa gizlində utanıram mən.

*İyul 1984, Şəki*

* * *

Fikrin ayrılmaqdır, bilirəm bunu,
Hər ilkin bir sonu hökmü – zamandır.
Amma bir ricam var:
Sən öz arzunu
Bəhanə çitinə bükmə, amandır.

Yanağın ağ şirə, dodağın boya,
Gözlərin sürməli, sözlərin riya.
Boyalar, riyalar düzü əydikcə,
Aldada bilmədin qəlbini təkcə.

Məqsədin aydındır mənə gün kimi,
Aldada bilmədin qəlbini...
                                        Nə qəm.
Sözün də sevməyən o qəlbin kimi
Qoy riyasız olsun, de ki, sevmirəm!

Bilmirəm, sözləri qəlbin nə bilmiş!..
Sözə boya çəkmə, o yanaq deyil.
Nifrət bıçağıyla başı kəsilmiş
Sevginə sağ demə, o ki sağ deyil.

Ayrılmaq istədin, ayrıl,
                                        heç nədən
Bəhanə gətirmə,
                        keç bəhanədən!
De ki, köhnə yolda, təzə dindəyəm,
De ki, təzələnmək həvəsindəyəm.

*1984*

## ZƏRURƏT

Baş-başa dayanıb qara saç, ağ saç,
Bu ona möhtacdır, o buna möhtac.
İstək bir olsa da, bir ola bilmir –
Ürəyin vurğusu...
                    anlayıram mən.
Saçımın gümüşü qarala bilmir,
Bu qara saçların kölgəliyindən.

Dayanıb üz-üzə indim-dünənim,
Dedim, o da yetim, bu da yetimmiş.
Demə, qara saçlı bu afət mənim
Qədərdən adlayan zərurətimmiş...

*Noyabr 1984*

## QİSAS

Özüm bir dindəyəmsə, hissim özgə dindədir,
Ağlım da, məntiqim də sənin kilidindədir.
Bu kilidə düşəcək açarı hardan alım?
Ey həm nəşəm, sevincim, ey həm dərdim, məlalım.

Belə imiş, heç demə, kor taleyim mənim də
Ətrafıma baxıram, dostum da, düşmənim də
Bir damla sevincini dəryaya döndərərkən
Sən dərya sevincimi damlaya döndərmisən.
Sən təpədən-dırnağa günahmısan, şərmısən?

Sevinc? O nə deməkdir?
Qəlbin ağrılarıyla gözü neştərlənibsə,
De, o kimə gərəkdir?
Səninlə bağlanmayan, mənə səndən gəlməyən
Sevinci neynirəm mən?

Hökmün möhür basıbdır bütün əməllərimə
Möhür qapılar açır indi mənim yerimə.
Məni hara aparır bu qədərin oyunu?
Ağlım sənin hökmünə əyməsə də boynunu,
Hissim coşur, dağıdır bərəsini, bəndini.
Neynim, sənin əlindən
Mən qopara bilmirəm canımın kəməndini.

Canım əsarətində, özüm yol ayrıcında,
Qovruluram, yanıram öz odumun sacında.

Hər kəsə inanmadım, təkcə sənə inandım,
Mən səni öz ömrümə saat əqrəbi sandım.
Sənsə...
Sənin beynini oğradılar, yedilər,
Sənsə bunu qanmadın.
Sən hamıya inandın, tək mənə inanmadın.

Dağıtdılar qəlbini, dağıtdılar bağrını
Hələ yaran istidir, sən bilmirsən ağrını.
Qəzəbinin odundan qəlbin soyuqdur hələ
Sən nə itirdiyindən xəbərin yoxdur hələ.

Sən ki, mənim oduma alışmadın, nə olar,
Əminəm ki, gün gələr, alışarsan tüstünə.
Amma bircə ricam var:
Dizlərinə döyəndə gəlmə qəbrim üstünə.

Qisasa bax!
Neyləyim,
mən inanan, sən asi!
Heç rəva bilərəmmi sənə başqa qisası?

Amma sevən qəlb üçün bundan böyük cəza yox,
Ağlı oyaqlar üçün qədər varsa, qəza yox.
İnansaydım sevginə,
Vallah, rəva bilməzdim heç bunu da mən sənə.

*Dekabr 1984*

## KİMDƏN ÖYRƏNİM?

Əzabım, zillətim artır ilbəil,
Bu ağrı-acıdan bezmirəm yenə.
Mənim məhəbbətim məhəbbət deyil,
Taleyin verdiyi cəzadır mənə.

Fırtına yatdımı, sən bircə anda,
Mənimçün zülmətdən çıxan dan oldun.
Küsüşüb, hər dəfə biz barışanda,
Ömrümə təzədən qayıdan oldun.

Bitmədi,
Çox yerdə əkdik «bəlkə»ni
İndi eyniləşib qara da, ağ da.
Gör necə müşkülə düşmüşəm,
                    səni
Unutmaq da çətin, unutmamaq da.

Səbəbsiz deyilmiş bu fırtınalar,
Yoxsa, qəlbin odu sönür gizlicə?
Sevəndə sevmişik, biz açıq-aşkar,
Sevgin nifrətəmi dönür gizlicə?
Mən sənin qəlbini sevgi yaşımda
Görə bilməmişəm...
                    Bəs, özün necə?

Nə ağlını dinlə, nə məni dinlə,
Təkbətək, üzbəüz dur ürəyinlə.

Gör, nə deyir o?
Nə istəyir o...
Mənim bacardığım bir şey var ancaq:
Sevmək!
Bu sevgidən dünyaya baxmaq!
Sevgi mayasından boy atmışam mən,
Sevməyi öyrəndim məhəbbətimdən.
Yox ikən könlümdə nifrət qaynağı,
Bəs kimdən öyrənim mən unutmağı?

*Fevral 1985*

## QINAQ

Sevgimə, hissimə dodaq büzənim,
Məhəbbət – ən şirin nəğməmdir mənim.
Sevinc axtarırsan sən bu həyatda,
Mənəsə çox görmə seçdiyim qəmi.
Sənin qınağının ayağı altda
Qurban kəsməliyəm mən öz nəğməmi?
Sən məni qınadın...
                    Sən ki, doyunca
Bu xəsis dünyadan nəşə dadmısan.
Sevgi nəğməsini ömrün boyunca
Sən nə eşitmisən, nə yaratmısan.

Odur ki, heç səni qınamıram mən
Dərd deyil, qınasa bir nadan məni.
Sən hardan biləsən, nədən biləsən,
Sevgi nəğməsidir yaradan məni.

*Aprel 1985, Moskva*

## BƏHANƏ – GERÇƏK

– Başlanan hər şeyin – dedin, - sonu var –
Çünki öz qəsdinə güvəndin bu gün.
Deyirlər, ayının min oyunu var,
Ağzı sulandıran bir armud üçün.

Sənin də əlində min bəhanə var.
Qəlbində göyərən bir niyyət üçün.
Mənim bostanıma atılan daşlar
Hədəfdir, sevginə nəhayət üçün.

Vurmaq istəyənə, vuruşmaq üçün
Ən adi söz belə təkan olarmış.
Hər hansı niyyətə qovuşmaq üçün
Bəhanə tapmağa, axı, nə varmış!

Elə ki, küsürsən, belədi qayda:
Tez haqq da tapırsan öz nifrətinə.
Amma bax, beləcə barışmağa da
İstəsən bəhanə taparsan yenə.

Əgər istəməsən, gərilən teli
Heç «uf» da demədən dartıb qırırsan.
Bu da bəs deyilmiş, hələ üstəlik
Sən özünə haqq da qazandırırsan.

Onda sən özünlə dayan təkbətək,
Dinlə, gör, dinlə gör, nə deyir ürək.

Bəhanə gətirmə! Səbəbdən danış,
Bəhanə heç zaman səbəb olmamış.
Bünövrə qopmasa bina uçulmaz,
Yalanla gerçəyin çarpışmasında
Bəhanə məntiqi dəstəvuz olmaz.
Nəyinə gərəkmiş bu bəhanələr?
Onu da bilirəm, uşağam məgər?
Əsil məramını bilirsən sən də,
Bəhanə başlanar sevgi bitəndə.

Sevgin yaşayanda mən bir təpəydim,
Sən məni ən uca bir dağ görərdin.
Sevgin ölməsəydi bu gün, ey hakim,
Mənim qaramı da sən ağ görərdin.

Bəhanə nə imiş? Əlində toxmaq!
Günahı özgənin boynuna yıxmaq!
Bəhanə suyunda çimdirmə məni
Mən sirdaş olmuşam otuz il qəmlə.
Könlündə incələn sevgi telini
Qırmaq istəyirsən mənim əlimlə.

Bununçün bəhanə gərəkmiş sənə?
Açıq niyyətini açıq desənə!
Bəzən çərxi-fələk tərs dolansa da,
Həqiqət tərəfə üz dönür yenə.
Yalanın üzünü kirşanlasan da
Xoruzun quyruğu görünür yenə.

Məhəbbət ağacı qurusa kökdən,
Yarpaqlar solacaq, yüz yağış yağa.

Ehtiyac varmıdır ürək boş ikən,
Sevgi havasına əl-qol atmağa?
Sevgin – kökü yanan bir kola bənzər,
Bəhanən – atdığın əl-qola bənzər.

Bəhanə kölgəsi düşməz gün üstə
Nə göydə, nə yerdə yel olub əsməz.
Sevgi kökü varsa, o kökün üstə
Bəhanə gerçəyin başını kəsməz.

Sən öz niyyətindən, səbəbdən danış,
Bəhanə heç zaman gerçək olmamış!

*Sentyabr 1985*

* * *

Eşqində itmişəm mən ilim-ilim,
Elə sanıram ki, gənclik çağımdır.
Həsrətlə baxmağım sənə, sevgilim,
Həsrətə həsrətlə boylanmağımdır.

Həsrət yollarının yolçusuyam mən,
Sənə həsrətimdə tapmışam səni.
Gecədə gündüzəm, yasda toyam mən,
Baş-ayaq görürəm odur, dünyanı.

Aşdıq hüdudları hər görüşdə biz,
Hardandır bu arzu, nədəndir bu od?
Bizim təlatümlü hisslərimiz
Hüdudsuz aləmdə tanımır hüdud.

Duyğu hardan bilə nədir hüdud, son,
Nədir fikrimdəki bu qorxu, təşviş?
Mənim yuxularım dəli ruhumun
Göydən yerə enmiş kölgələriymiş.

Yuxuda düşməni dost sanıram mən,
Ayılıb, özümdən utanıram mən.
Özümü özümdən alıb məhəbbət
Həsrət vüsal olub, vüsalsa həsrət!

*1986*

## BİR GÜN

Sənə qovuşmaqçün dəqiqələri
Sayırkən, bir gün də gecikdim yenə.
Bir günüm bir ildir məndən ötəri,
Könlümdə nisgildən ev tikdim yenə.

Bir günün nisgili – mənim göz yaşım,
Yatmaq istədim ki, tez olsun axşam.
Nisgil yol yoldaşım, ömür yoldaşım,
Elə bil nisgillə adaxlanmışam.

Vaxtı, vaxtsızlığa yozdu nisgilim,
Günü dörd fəsilə düzdü nisgilim.
Həsrət odundakı qüdrətə bir bax,
Zaman ölçüsünü pozdu nisgilim.

Könlümü asmışam bu bircə gündən,
İstək qönçə – qönçə, söz varaq-varaq.
Nə çıxar xəstənin tələsməsindən,
Armud öz vaxtında yetişər ancaq.

Vaxtın axarından baş açmadım mən
Qəlbin tələsməsi hədərmiş, demə.
Bəzən sürətlənən, bəzən ləngiyən
Vaxtın axarı da qədərmiş, demə.

*1986*

* * *

Həsrətin hökm etdi özündən əvvəl
Həsrətin selində axdım, duruldum.
Sənin həsrətində
Mən səndən əvvəl
Özümü, sözümü dərk edən oldum.

Gah vaxtı haqladım,
Gah geri qaldım
Ömrün yollarında can haçalandı.
Rəngi rəngə qatıb təzə rəng aldım,
Həsrətin rənginə çalar calandı.

Rənglər öz ilkindən ayrıldı, döndü,
Şübhə inam oldu,
Həqiqət güman.
Həsrətin dadı da löyün-löyündü,
İndi şirinləşib acılığından.

Həsrətin min rəngi, min üzü varmış
Ağrı acısının əvəzi varmış.
Şeirə çevrilir dərdli günlərim,
Mənim həsrətimin əvəzi - şeirim!

Qələmim danışır mənim yerimə,
Yandırıb yaxdıqca məni həsrətim.
Həsrətdən boylanır şeirlərimə
Mənim məhəbbətim, eşqim, fitrətim.

Həsrət – dərdin dili, idrakın gözü,
Həsrət – sevginin də kamal yaşıymış.
Ürəyin açarı,
Diləyin sözü,
Həsrət – fitrətimin məhək daşıymış.

Toxunub həsrətin məhək daşına,
Fitrətim ucaltdı mənim adımı.
Həsrətim – fitrətim!
                    Durdu yan-yana
Həsrətə borcluyam istedadımı.

*İyul 1986*

## OVQATIMIN İQLİMİ

Gün kimi gah çıxıb, gah batanımsan,
Mənim mühitimi yaradanımsan.
Gün kimi çıxdınsa, dönərəm günə,
Batdınsa, bataram zülmət gölünə.
Sən varsan, dünyamda hər şey var mənim,
Yoxluğun dünyamı boşaldar mənim.
Sən varsan, baxaram dost tək düşmənə,
Səni sevənlər də əzizdir mənə.
Sən varsan,
                    dünya var,
                              orda varam mən.
Sən yoxsan, varlıqla barışmaram mən.
Varsansa, daşlar da açar gül-çiçək,
Yoxsansa,
                    çiçək də daşa dönəcək.
Sən varsan, özümə möcüzəyəm mən,
Qəlbindən asmışam mən öz qəlbimi.
Sən gözə görünməz bir ətir kimi
Ruhuma, könlümə səpələnənsən,
Mənim ovqatımın iqlimi sənsən.

*Avqust 1986*

## TƏZƏDƏN YARAT!

Sənin səcdəndədir dil də, könül də,
Məni sən yaratdın sinə dağından.
Yoxsa, xəbərsizdir bu otuz ildə
Yaradan, özünün yaratdığından?

Xəbərin yox imiş öz əməlindən,
Mən sənin oduna yanıb bişmişəm.
Sənə çatmaq üçün ucaldıqca mən,
Dönüb gözlərində adiləşmişəm.

Sən məni yenidən yaratmamışkən
Qeyri-adi idim gözlərində mən.
Elə ki, yaratdın,
                    böyüdü qəsdin,
Sən razı qalmadın yaratdığından.
Çatdığın zirvəni zirvə bilmədin,
Daha ucalığa can atdığından.

Bəli, yaradanın budur xisləti,
Daim inkar edir o, ətaləti.
Yaradan zirvədən uçar zirvəyə,
Çatdığı zirvədən boylanar göyə.

Əgər görünsəydi uçuşun sonu,
Xəyalın zamandan geri qalardı.
Xaliq tanısaydı öz məxluqunu,
O, xaliq olmazdı, məxluq olardı.

Durduğum zirvəni zirvə sanmadın,
Sən mənim kölgəmdə daldalanmadın.
Bu gün adi görüb yenə sən məni,
Yeni zirvələrə səslərsən məni.
Xəbərin yox imiş öz əməlindən,
Mən sənin oduna yanıb bişmişəm.
Sənə çatmaq üçün ucaldıqca mən,
Təzədən gözündə adiləşmişəm.

Daim irəliyə! Belədir həyat,
Sevgilim, sən məni təzədən yarat!

*Avqust 1986*

## MƏN NECƏ BƏNDƏYƏM?

Heç kəs özüm kimi görəmməz məni,
Hara çəkirsiniz, hara, siz məni?
Dərdə dəva deyil bu təsəllilər,
Odun çəkdiyini yalnız od bilər.

Hardan biləsiniz nə çəkirəm mən,
Özümdən oluram, ancaq özümdən
Ondan bircə qətrə yana dönəndə,
Özümə dönürəm, ona dönəndə.

Sevgimdən döndümsə, könlüm yetimdir,
Sevgi – fitrətimdir, mahiyyətimdir.
Məgər mümkünmüdür özünü danmaq?
Özünə şəkk edib, yada inanmaq?

Nə yazıq bəndəyəm, nə yazıq bəndə,
Özümdən dönürəm ondan dönəndə.
O, necə düşməndir,
                                        O, necə düşmən?
Ona qələbəmdə qəmlənirəm mən,
Amma sevinirəm məğlub olanda.
Mən necə bəndəyəm,
Mən necə bəndə?

*Mart 1987*

## SƏBƏB AXTARMA

Düzü, otuz illik məhəbbətindən,
Son illər yüz dəfə sən dönə bildin.
Səni yalvarışla qaytarmışam mən,
Sənsə dönməyinlə öyünə bildin.

Bunlar nə deməkdir?
Bir düşün sən də.
Ölüb məhəbbətin məhəbbətində.

Neçə yol küsüşdük...
küsüşən anda
Barışmaq istədim, əyilmədin sən.
Mən öz qələbəmə peşman olanda,
Sən öz qələbənə fərəhlənmisən.

Gəl səbəb axtarma, ürəyin bom-boş,
Bünü məndən gözəl bilirsən yəqin.
Səbəb, sevgisini çoxdan unutmuş,
O səbəb axtaran qəlbindir sənin.

*Mart 1987*

## MƏNİM ZƏHLƏM GEDİR

Şair, döz bu zülmə, inləmə çox da,
Görürəm, ürəyin yaman kövrəlib.
Kəlləri görmüşəm boyunduruqda,
Çəkdiyi zillətə yazığım gəlib.

Sənə verən gündən öz ürəyimi,
Boynum halqadadır o kəllər kimi.
Könül bu zillətdən bir an dincəlmir,
Amma öz-özümə yazığım gəlmir.
Özümlə əbədi vuruşdayam mən,
Mənim zəhləm gedir indi özümdən.

*Mart 1987*

## BU GÜNDƏN – DÜNƏNƏ

Sevirdim, küsmüşük, nə deyim sənə,
Sevirəm, sevirəm, sevirəm yenə.
Sən mənə həsrətdə daha yaxınsan,
Sevgi ölmür, ölmür, ölmür heç zaman.

Bir yolluq əl götür gileylərindən,
Oxuyan o quşu dinlə dərindən.
O quş nəğməsində deyir, ey insan,
Ölmür, ölə bilməz sevgi heç zaman.

Biri-birimizdən ayrılsaq da biz,
Bir vurur həmişə ürəklərimiz.
Ötən günlərimə «dön» deyirəm mən,
Keçmişə qayıtmaq istəyirəm mən.

Bu gündən dünənə yollar çəkilsin,
Məni keçmişimə apara bilsin.
Sən mənə həsrətdə daha yaxınsan,
Ölmür, ölmür, ölmür sevgi heç zaman.

*Mart 1987*

## HEYRƏTDƏYƏM MƏN

İlahi, bir üzdə nə qədər fikir,
Nə qədər müəmma, əfsanə və sirr,
Nə qədər düşüncə, nə qədər xəyal,
Nə qədər möcüzə, nə qədər sual.
Nə qədər razılıq, nə qədər üsyan,
Nə qədər sakitlik, nə qədər tüğyan,
Nə qədər həyəcan, nə qədər dözüm,
Nə qədər fırtına, daşqın, təlatüm,
Nə qədər həlimlik, nə qədər sərtlik,
Nə qədər qısqanclıq, nə qədər mərdlik,
Nə qədər cazibə, nə qədər əfsun,
Nə qədər dərinlik, nə qədər məzmun,
Nə qədər qəm, kədər, nə qədər şadlıq,
Həm sadiq köləlik, həm də azadlıq,
Sığışa bilərmiş?!
Heyrətdəyəm mən.
Axı, bu heyrətsiz kiməm, nəyəm mən?
Elə bu heyrətdir məni də qultək
Mehrabım – o üzə səcdələndirən.

*1989*

## SEVGİNİN TİLSİMİ

Həyat bizim üçün çox ağır oldu.
Bizim halımız bu, rüzgarımız bu.
Bu qədər bağlıykən könül-könülə,
Qorxuram həyatın hər zərbəsindən.
Biz gərək çıxmayaq bircə dəm belə
Sevginin tilsimli cazibəsindən.

Bir kökdən cücərir hər istəyimiz,
Eyni bir taleyi tən bölüşmüşük.
Çəkmə taylarıtək sağ-sol idik biz,
Sonradan gör necə taykeş düşmüşük.

İstək başımızda döndü qaxınca,
Tənələr dəmbədəm xırpalar bizi.
Məhəbbət dəmində ucadan uca,
Həyat qəpik-qəpik xırdalar bizi.

Gətir xatirinə gecə gündüzü,
Biri qapqaradır, biri ağappaq.
Sevginin bu tayı sevginin özü,
Sevginin o tayı – gileydir ancaq.
Sevginin tilsimli cazibəsindən
Gəl,
gülüm,
çıxmayaq,
aman, çıxmayaq!

*1989*

* * *

*Gözüm gözlərinə dikiləndə də*
*Həsrətəm, həsrətəm, həsrətəm sənə.*

Bulağım qurumuş, suyum kəsilmiş,
Amma taleyimə yazılmış adın.
Ey mənim könlümə hakim kəsilmiş,
Niyə taleyimə hakim olmadın?

Bəs bu nə ayrılıq, bəs bü nə həsrət?
Sən ki, taleyinə qənim deyilsən.
Məlum duyğularda məchul əsarət,
Ovcumda olsan da, mənim deyilsən.

Eyni arzudayıq, həm mən, həm də sən,
Bəs niyə mən qaçan, sən qovan oldun?
Sənin qolu bağlı əsirin ikən,
Niyə mən sükançı, sən sükan oldun?

*İyul 1989*

## YAZAN ÖZÜNSƏN

Səninçün həmişə açıq kitabam.
Məni oxuyursan cümləbəcümlə.
Mən sənə aydınam, aşkaram tamam,
Fikrimlə, hissimlə, tələblərimlə.

Ömür kitabıma səndən xəbərsiz,
Bircə sətir belə yazılmamışdır.
Könlümün ən dərin guşələrində
Yatan duyğular da sənə tanışdır.

Sənsiz olanda da, gülüm, bircə an
Xəyalım, diləyim sənsiz olmamış.
Səndən danışmayan, sənə yad olan
Bir duyğu könlümdə yuva salmamış.

Oxu bu kitabı sən dönə-dönə,
Onun əvvəli sən, sonu da sənsən.
Görərsən, hər mətləb tanışdır sənə.
Axı, bu kitabı yazan özünsən.

*Avqust 1989*

* * *

Zülm eylə, sənin rəhminə yox, zülmünə qurban!
Zülm eylə, gülüm, sən mənə zülmündə yaxınsan.
Ruhum – dinə, eşqim – sənə, kölgəm – günə möhtac!
Möhtaclığı dərk eyləməyim, zülmünə möhtac!
İdrakım üçün sən mənə hər şeydən əzəlsən,
Rəhmində deyil, vallahi, zülmündə gözəlsən.

*Avqust 1989, Şəki*

* * *

Qədərin hökmünə baş əydi istək,
Bu köhnə döyüşdə üstələnmişik.
Biz ömrümüz boyu iki kösöv tək
Tutuşa bilməyib tüstülənmişik...

Tüstülər içində keçdi ömür-gün,
Tüstülər qoymadı bir yoldan keçək.
Tüstünün içində sən məni gördün,
Mən səni görmədim istədiyim tək.

*İyul 1988*

* * *

Həsrətin könlümün ehtiyacıdır,
Nədən ki, güclüdür məndən yüz kərə.
Həsrət ürəyimdə dar ağacıdır,
Asır, asır məni gündə yüz kərə.

Həsrətin ağrısı key edib məni,
Yoxumu görürəm bəzən varımda.
Həsrətim o qədər göynədib məni,
Keyləşib ağrım da, əzablarım da.

Mən özüm-özümə göz dağıyamsa,
Bəzən sevincim də mənə bir yükdür.
Mən öz həsrətimin dustağıyamsa,
Axı, hardan bilim dünya böyükdür?

Sevdanın əvvəli, axırı qəmsə,
Nə uma bilərəm adi sevincdən?
Ağzımın dadını itirmişəmsə,
Balın ləzzətini hardan bilim mən?

Batanlar əlini atar samana,
Ümid saplağından asılıb arzum,
İynənin gözündən keçən gümana,
Əl açan ümidə qısılıb arzum.

Həmişə baxmışam arzuma gendən,
Həyat ötüb keçib yanımdan, gülüm.

Mən sənin olmuşam, səni sevəndən,
Mənim olacaqsan sən haçan, gülüm?

*İyul 1988*

## «MƏN»LƏR ARASINDA

Özümdən yuxarı «MƏN»ə ucalmaq
Ən böyük, ən uca diləyim oldu.
Bütün ömrüm boyu çalışdım, ancaq,
Ona çatammadım,
Payım – qəm oldu.

Özümdən yuxarı «MƏN»im çox uca,
O «MƏN» mən deyildim, o «MƏN» sən idin.
Sənə pillə-pillə yaxınlaşdıqca,
Daha ucalığa məni səslədin.

Bir üzüm ağ oldu, bir üzüm qara,
«MƏN»lər arasında qaldım dəmbədəm.
Bir də ayıldım ki,
                                        xırdalıqlara
Yuxarı «MƏN»imi qurban vermişəm.

Yuxarı «MƏN»imə gör necə qıydım,
Təəssüf gətirən cəhalətdi bu.
Özümdən yuxarı «MƏN»ə çatsaydım,
Sənə də çatardım, həqiqətdi bu!

*İyul 1988*

* * *

Səslər eşidirəm gah sərt, gah həlim;
Hissimin, duyğumun dərin qatından.
İsa tək çarmıxa çəkilən qəlbim
Asılıb telefon aparatından.

Divin bu qutuda çırpınır canı,
Kim artıq yeyibdir öz qismətindən?
Disqi hərlədəndə
                    Sanki dünyanı
Arzumun başına hərlədirəm mən.

Bu cansız rəqəmlər vüsal körpüsü,
Ümidin, xəyalın, gümanın özü.

Rəqəmlər üstündə əksin canlanır,
Xəyalı gerçəyə necə calarmış.
Rəqəmlər üstündə barmağım yanır,
Rəqəmlər necə də qaynar olarmış.

Bir telin üstündə iki nəfəsin,
Yelindən arzular iməklər, gülüm.
Mənim qulağımı oxşayan səsin
Kökü ürəyimdən çiçəklər, gülüm.

Səslər eşidirəm gah sərt, gah həlim,
Hissimin, duyğumun dərin qatından.

İsa tək çarmıxa çəkilən qəlbim
Asılıb telefon aparatından.

*İyul 1987*

* * *

Mənim öz dünyamdır bir o, bir də mən.
Yanımda olanda özü boydadır.
Elə ki, ayrıldım, həsrət qəmindən,
Könlümdə boy atan arzu boydadır.

Həsrətin ölçüsü sığışmır sözə,
Həsrətim, ümidim – qaram, ağımdır.
İşığı tanıdan qaranlıq isə
Sevgimi tanıdan ayrılığımdır.

*Avqust 1988*

## SEVDİNSƏ...

Sevdinsə... Beş il nə, on beş il nədir,
Bütün ömrün boyu gözləyəcəksən.
Nə boyda zülm etsə sevgilin sənə,
Sevdinsə... «hər zülmə döz», - deyəcəksən.
Sevdinsə... Kölgəyə dönüb hər zaman
Sən onu hər yerdə izləyəcəksən.

Sevdinsə... qəm içib, dərd udacaqsan,
Onu unutmağı unudacaqsan.
Zərərin xeyirdir, xeyirin zərər,
Sevdinsə... Günahın içində haqsan.
Onu unutmağa çalışsan əgər,
Sən özün özünü unudacaqsan.

Sevdinsə... qanqalı gül biləcəksən,
Hər əsən yarpağa kövrələcəksən.
Sevdinsə... nə dünən, nə də bu günsən,
Sevdinsə... həmişə sən gələcəksən.
Sevdinsə... bir ömrün ilk sabahısan,
Dünyanın ən böyük xeyirxahısan.

*1980*

## HAMI ELƏ BİLİR...

Könül ağrısını gətirib dilə,
Biri sevgisindən mənə söz açdı.
O, elə bildi ki, məhəbbətilə
Bu köhnə dünyada təzə iz açdı.

Dedi, bu sevdada bir gün içində
Sular gah bulanıb, gah durularmış.
Məhəbbət yolunun döngələrində
Nə qədər yıxılıb durmaq olarmış.
Dedi, dözəmmirəm, daha bu dərdə,
Keçdi ömrüm-günüm iniltilərdə.

Gördüm, həmsöhbətim hələ naşıdır,
Dedim: - sevda yolu hamarmış məgər?
İztirab sevginin yol yoldaşıdır,
Eyni yolu keçir bütün sevənlər.
Dedi: -Çəkdiyimi mən bilirəm, mən!
Sən özgə dərdini hardan biləsən?

Onu inandırmaq gördüm, çox çətin!
Sözündə, qəsdində özümü gördüm.
Siqaret yandırıb
                    dərindən – dərin,
Bir köks ötürdüm.

Milyon il insanın keçdiyi yolu
Hamı elə bilir, o keçib ancaq.

Sevgi yollarının iztirab dolu
Eniş-yoxuşunu o, açıb ancaq.

Hamı elə bilir, onun bu dərdi
Heç kəsin dərdinə bənzəyə bilməz.
Ömrü başdan-başa qəmdi, kədərdi,
Onun çəkdiyini çəkməyib heç kəs.

Hamı elə bilir, bu gen dünyada
Bu yolu ilk dəfə tək odur keçən.
Hamı elə bilir əhdə vəfada
Tək odur, tək odur canından keçən.

İz açar sevənin nəfəsi daşda,
Hər sevən özünü tək sayır, allah.
Bu yolda əzab da, eniş-yoxuş da
Necə bir-birinə oxşayır, allah.

Heç kəs bunu bilmir,
                    düşünürük biz:
Bu köhnə dünyada təzə iz açdıq.
Keçilmiş yollarla keçib hamımız,
Elə bilirik ki, yolu biz açdıq.

*İyul 1988, Şəki*

## BƏS BU NƏ GİLEYDİR?

-Ya rəbbim, bu yaşda bu sevda nədir? –
deyə əllərimi açdım göylərə.
Yer mənə cəhənnəm,
                    Göy biganədir,
Könlümdən fışqıran bu gileylərə.
Bu sevda nələrə duruş gətirmiş,
Bu sevda çəkəcək nə qədər, allah?
Mənim qismətimdir, yoxsa, bu gərdiş, -
Bu qəza, bu tale, bu qədər, allah?
Yazıya pozu yox,
Bəs, mən neyləyim?
Mənmi günahkaram, yoxsa, taleyim?

Bu sevda nələrə duruş gətirmiş?
Ömrün bahasına döndü bu sevda.
Bu sevda könlümə əbədi girmiş,
Bu giley-güzarın içində belə
Könlümdə quş kimi dindi bu sevda...

Bəs, bu nə gileydir çıxdı dilimdən?
Yoxsa, bu sevdadan usanmışam mən?
Yoxsa, mən əhdimi danıram indi?
Yoxsa, mən qocalıb ağıllanmışam?
Yoxsa... hissi boğub qanıram indi?
Mən özüm özümü, yoxsa, danmışam?
Əvvəl bu sevdamı satmazdım baha,
Aradan nə keçdi, qəlb üstələndi?

İçimə baxmaqdan bezikib daha,
Çölümü görürəm, mən koram demək,
İçimi görmürəm, nankoram demək.

Bu sevda deyilmi
sinəsi yanmış
Ney kimi, saz kimi çaldıran məni?
Bu sevda deyilmi gündə bir qarış,
İdrak yoxuşuna qaldıran məni?

Bu sevda deyilmi, ay allah, bu gün
Səni işıq kimi göstərən mənə?
Bu sevda deyilmi bir amal üçün
Din verən, yol verən, yön verən mənə?

Gileylər içində könül alçalır,
Qurtar gileylərdən sən məni, allah,
İndi mənim üçün bir idrak qalır:
Dostdan seçə bilim düşməni, allah!

*İyul 1988*

* * *

Özündə özünü ay danan gülüm,
Halal sevgisindən utanan gülüm.
İçində ağlayıb üzdə şən oldun,
Kibrit atəşinə isinən oldun.
Uyub məhəbbətin laylalarına,
Yanğının içində ay sönən gülüm.
Bəxtəvər qoşalar dursun bir yana,
Bədbəxt qoşalara küsənən gülüm.

Qismətə şükr edib azı çox bilən,
Haqlı sevgisini oğurluq bilən,
Əyrini, doğrunu yaxşı görürkən,
Hamıdan çəkinən, hamıdan hürkən.

Tənə qılıncından gözü kölgəli,
Niyyəti tər-təmiz, sözü kölgəli,
Eşqinin dalınca lazım gələrsə,
Ərzin o başına yüyürən gülüm.
Billur sevgisini, ehtiyatından,
Dumana, çiskinə bürüyən gülüm.

Rəqibin haqqını haqqından üstün,
Özünün haqqını gizlədən gülüm,
Qətrə xoşbəxtliyə şükr edən gülüm.
Haqqını güdməyən, ərkindən keçən,
Dünyanın boşundan, bərkindən keçən,
İlkindən a başı bəlalı gülüm,
Mələk götürməzdi bu halı, gülüm,

Sən necə götürdün çiyinlərinə?
Günahı özündə, ya məndə gördün?
Səndən soruşmağım nöqsandır mənə.
Gərək mən biləydim necə götürdün?
Özündə özünü ay danan gülüm,
Halal sevgisindən utanan gülüm.

*İyul 1987*

## SAKİT GÖLƏ DAŞ ATDIM

Ey könlümün öz səsi,
Mən sanardım özümü dünyanın müqəddəsi –
Sənə rast gəlməsəydim.
Sənin duyğularının o tül qanadlarında
Uçub yüksəlməsəydim...
Əzab odundan keçən uca duyğularından
Həmişə dərs götürdüm.
Təmizlik aynasında mən öz ləkəmi gördüm.
Mən yaxşıca tanıdım dostu da, düşməni də.
Sən öz təmizliyinlə təmizlədin məni də.

Yuxusunda gül dərən yuxulu duyğuların,
Hələ əl toxunmamış o ulu duyğuların
Şirin xəyallarının şirin laylalarında
Mışıl-mışıl yatırdı.
                    Ayıltdım yuxusundan,
                    Ayıltdım özüm üçün.
Axı, onsuz da bir gün
Sən öz yuxularından qalxıb oyanmalıydın,
Kiminsə sevdasına alışıb yanmalıydın.

Sakit gölə daş atdım,
Sən diksindin...
Oyandı yuxulu duyğuların.
Səni məndə yaşatdım.
Elə ki, bu sevdanın arxasınca sən uçdun,
Tez-tez vaxtı soruşdun,

Gündə təqvimə baxdın.
Bircə günün eşqinə
Altı günü darıxdın.
Saatları, günləri arzu dəyirmanında
Sən üyütmək istədin,
Vaxtı ötmək istədin.
Xoşbəxtəm ki, könlümün
Çılğın duyğularıyla
Yaşadıram səni mən.
Başqasını yaşatmaq
Daha gözəl olurmuş yaşamağın özündən.

*1959*



# QƏZƏLLƏR, QOŞMALAR, GƏRAYLILAR



*Mənim iç dünyamı, çöl dünyamı görmək diləyən*
*Sənə baxsın, səni görsün, o da sənsən, bu da sən.*

*Ulu rəssam içimin şəklini çəkmək diləsə,*
*Səsinin şəklini çəksin, boya tapsın o səsə.*

* * *

Zülmətdə yanan, bərq vuran bir üzüyəm mən,
Könlümdə yatan bir kitabın ön sözüyəm mən.

Yox, açmamışam mən hələ öz könlümü aşkar,
Mən, mən deyiləm, bir ulu fikrin özüyəm mən.

Eşqim, muradım hər gözə, hər yerdə görünməz,
Qəlbimdə çatılmış ocağın tüstüsüyəm mən.

İçdin məni bağçanda, gülüm, bilmədin ancaq,
Yüz-yüz bulağın dağdakı büllur gözüyəm mən.

Həsrətləri, zülmətləri fikrimdə əritdim,
Min-min gecənin gec açılan gündüzüyəm mən.

Bəxtim mənim öz yarıma yar olsa, nə dərdim,
Söylərdim o vaxt, könlümün öz güzgüsüyəm mən.

*Yanvar 1980*

* * *

*Ustad Şəhriyara*

Çəkdik, çəkirik biz ki, yüz ildən bəri həsrət
Döndərdi qaranlıqlara gündüzləri həsrət.

Ustad mənə şe'rilə salam göndərə bildi,
Kim qoydu yanan gözlərə od gözləri həsrət?

«Bir xalqa ədalət!» - deyə divanə çağırsın,
Ahlardan oyanmış yanan ulduzları həsrət.

Şeirindəki şimşəkdən od almış dəli könlüm,
Bir şimşəyə döndərdi zərif sözləri həsrət.

Sabir dedi, «Biqeyrət olur ağlayan insan»
Tarixdə zəbun etdi əməlsizləri həsrət.

Öz haqqına biganə olan bəxtiyar olmaz
Çapmış, talamış daima dilsizləri həsrət.

Həmqafiyədir adlarımız, Şəhriyar ustad,
İnsafmı ayırsın bu qədər bizləri həsrət?

*Yanvar 1980*

* * *

Mənzil uzaqda, yol dolaşıq, ömrümüz qısa,
Məqsəd yəqindi, qəsdi dolaylarda çaşmasa.

Ağlımdan heç nə gözləmirəm, arzum hönkürər,
Hissin məramı dalğalanıb yolda coşmasa.

Getdikcə məqsədim niyə məndən uzaqlaşır?
Olmaz şirinliyi sənə, səndən o, qaçmasa.

Yalnız məramdan aşmadı kar, bilmişəm bunu
Min-min mərama bir ulu eşqin qarışmasa...

Bəxtindən inci, vaxtını, ey Bəxtiyar, əgər,
Vaxtın əlindən almağa, vaxtın çatışmasa.

*Mart 1980*

* * *

Yaranışdan bilirik, ömrə nəhayətdi ölüm,
Zamanın hökmü budur: Hər kəsə qismətdi ölüm.

Hələ dərk etməmişik, amma ölümdən o tayı,
Bizim idrakımıza gör necə sərhəddi ölüm.

Nə imiş hikməti dünyamızı tərk eyləməyin?
Ulular söylədi: torpaq ilə vəhdətdi ölüm.

Nə olarmış, görəsən, saxlaya bilsək zamanı?
Kim bilir, bəlkə də insana bir hörmətdi ölüm.

Ölənin qəbrinə qan-yaş axıdıb ağlaşırıq,
Nə bilək, bəlkə şərəf, bəlkə fəzilətdi ölüm.

Bəşər ölməzsə, bu dünya təzələnməz, qocalar,
Bütün insanlıq üçün bir əbədiyyətdi ölüm.

*Sentyabr 1985*

* * *

Sən mənim ruhumun aşkardakı öz timsalısan,
Sən humayundakı səslər selinin son xalısan.

Mənim iç dünyamı, çöl dünyamı görmək diləyən
Sənə baxsın, səni görsün, o da sənsən, bu da sən.

Ulu rəssam içimin şəklini çəkmək diləsə,
Səsinin şəklini çəksin, boya tapsın o səsə.

Sən bu dünyaya mənim heyrətimin heyrətisən,
Yenidən heyrətə saldın nə qədər heyrəti sən.

*Yanvar 1984*

* * *

Biz hər ikimiz birgə keçib dərd cığırından
Bir eşq yaratdıq, qanı məndən, canı səndən.

Dəryada duman var, gedirik, yol üzə durmuş,
Məchul yeli məndən, ağaran yelkəni səndən.

Gəl, gəl ki, dəyirman daşı tək fırlanalım biz,
Eşqin başına, sel-suyu məndən, dəni səndən.

Bir odda bişib, qaynaq olub canına canım,
Ölmək də ayırmaz səni məndən, məni səndən.

Eşqin səni insan elədi, eşq yolunda
Neylim ki «mənəmlik» ayırıb insanı səndən.

*Fevral 1984*

* * *

Min qibləyə baş qoydum, o vaxt şəndi bu könlüm,
Bir qiblədə qəm təxtinə milləndi bu könlüm.

Qibləm də sən oldun, səni mən tapmadan əvvəl,
Min bir budağın üstdə veyilləndi bu könlüm.

Məcrasını hər gün dəyişən sel idi bir vaxt,
Könlümdə bu gün gör necə gölləndi bu könlüm.

Yüz-yüz qapı döydüm, məni heç kəs tanımazdı,
Bir ünvana qondum, necə bəlləndi bu könlüm.

Əvvəl canıma qan dağıdan adi ürəkdi,
Vallah, səni sevməklə könülləndi bu könlüm.

*Oktyabr 1985*

* * *

Heç bilmədik, ey dost, necə dünyadı, bu dünya,
Şirnikdiyimiz arzudu, sevdadı bu dünya.

Uyduq, yaşadıq, qəm daşıdıq, anlamadıq heç,
Əslində həqiqətmi, ya röyadı bu dünya.

Dəm çağları qaqqıldaşırıq, «ah, nə gözəldir»,
Qəm çağları söylər bizə bicadı bu dünya.

Yalnız sona çatdıqda ömür, biz bunu qandıq:
Başdan-başa çarpışmadı, qovğadı bu dünya.

*Mart 1987*

* * *

Ələnib keçmişəm artıq mən ələkdən o yana.
Ürəyim nazilib ağ tüldən, ipəkdən o yana.

Məni sevdaya salan cövhəri görmək dilədim,
Demə, varmış min özək bir qat özəkdən o yana.

Bu qədər olmaz idi kor fələyin zülmü bizə,
Bizi fırlatdı fələk çərxi-fələkdən o yana.

«Sən gərəksən mənə»- söylərkən utandım, düzü, mən
Sən gərəksən mənə, vallah, bu gərəkdən o yana.

Ulu röyalarımız qəlb üçün idrak cığırı,
Bu cığırdan keçirik biz gələcəkdən o yana.

Mənim öz bəxtimə yar, ömrümə yol, qəlbimə qəlb,
Sinəm altına ürəksən, sən ürəkdən o yana.

*1989*

* * *

Dərk etmədiyim min cürə halət var içimdə,
Eşqimlə yaşıd bir yeni fitrət var içimdə.

Öz borcum ilə haqqımın illər savaşından,
Mərdanə çıxan hakim ədalət var içimdə.

Bəzən də olur, haqqımın öz haqq zəfərindən,
Qorxub çəkilən qəmli xəcalət var içimdə.

Dərdimlə də dünyanı nədən xoş görürəm mən?
Ölməz, əbədi təşnəli heyrət var içimdə.

Röyalara, xülyalara min yol qanad açdım,
Gördüm, neçə əngəl, neçə sərhəd var içimdə.

Hər yerdə gözəllik görürəm, Bəxtiyaram mən,
Dünyanı gözəlləşdirən afət var içimdə.

*1988*

## ULU DÜNYANIN

*Nəsimiyə*

Şübhənin, gümanın ağırlığından
Əyilər, dikəlməz beli dünyanın.
Elə ki, həqiqət röyaya döndü
Soldu əlimizdə gülü dünyanın.

Sevgi – həqiqətə gedən doğru yol.
Bu yolda hər dərdə, qəmə hazır ol.
İldə neçə dəfə, gündə neçə yol
Bulanır, durulur seli dünyanın.

Sənə «can», «can» - deyir dünya hər anda
Bircə çırtma ilə sən daş qıranda.
Xaşıl daşa dönüb diş sındıranda
Yaman topuq çalır dili dünyanın.

Sevincin nəşəsi bizi çaşdırır,
Kədər – həqiqətə qapı açdırır.
Bizi zaman-zaman ululaşdırır
Möhnəti, zilləti ulu dünyanın.

Mərdliyə çağırır bu gün hər kəsi,
Dərisi soyulan şairin səsi.

Uzaq əsrlərdən gəlir nəfəsi
Diri dünyamıza ölü dünyanın.

*1980*

* * *

Bulud ötdü, hava endi havaya,
Daş-torpağın dil açdığı zamandır.
Gül ətirli, gül arzulu baharın
Qarlı qışla dalaşdığı zamandır.

Yaz yoldadır… Tamaşa qıl məşqinə.
Bu oyunda arzusu nə, eşqi nə?
Bir baharın, min diləyin eşqinə
Könüllərin fal açdığı zamandır.

Ələviyyə*, çox oturma otaqda.
Səndən küsər dağ da, daş da, bulaq da.
Quş dimdikli düymələrin budaqda
Bir-birinə əl açdığı zamandır.

Ey Bəxtiyar, çağlayırsan binədən
Sellər kimi, sular kimi, de, nədən?
Məmməd Aslan, misraların sinədən
Dodaqlara yol açdığı zamandır.

*Mart 1980, Yalta*

---

* Yazıçı Ələviyyə Babayeva nəzərdə tutulur.

## HARA YAZIM MƏN?

Sırğa əvəzinə qulaqlarından
Andımı zikr edən könül asım mən.
Yenə inanmasan, qəm dağlarından
Söz açan kitaba qoy əl basım mən.

Mənə nə deyirsə, məhəbbət deyir,
Qoyma taleyinə sən minnət – deyir.
Ürəyim gəl deyir, ağlım get deyir,
Hansının sözünə qulaq asım mən?

Özün uzaqdasan, adın dilimdə,
Dünya çaş-baş olub hər əməlimdə,
Xatirən könlümdə, əksin əlimdə,
Bəs, sənə məktubu hara yazım mən?

*1960*

* * *

Nənəm dedi, göydən düşdü üç alma,
Sayı üçdür, amma özü üç olmaz.
«Qıvrıl bala, yat» - dedilər yetimə,
Yetim quzu böyüsə də, qoç olmaz.

Hər canlının can içində canı var,
Hər toplunun öz miqdarı, sanı var.
Yaranmışın əvvəli var, sonu var,
Şəkli dönər, rəngi itər, puç olmaz.

Əgər sənin öz qismətin sirkəsə,
Şükür elə, minnət qoyma bir kəsə.
Günəş sənin ürəyindən düşməsə –
Günəş doğar, amma səhər açılmaz.

*İyul 1982*

## NEYLƏRƏM

Açmışkən könlümdə al-əlvan güllər,
Bağçada açılan gülü neylərəm?
Könlümdə əbədi odum var mənim,
Ocaqda qaralan külü neylərəm?

Könlüm ki, tutuldu yazda da qışam,
Ayları, illəri qarışdırmışam.
Təqvimdə sabahı bu gün cırmışam,
Mən ayı neylərəm, ili neylərəm?

Gözlərim həsrətdir, həmişə gözlər,
Həmişə axtarar, həmişə izlər.
Könlümdə çaxnaşır göllər, dənizlər,
Görünən dənizi, gölü neylərəm.

Başımda min səsli sevdalarım var,
Könlümdə min rəngli xülyalarım var,
Yuxumda min dürlü röyalarım var,
Dövləti, sərvəti, pulu neylərəm.

Dünya sala bilməz könlümü bəndə
Gecə də məndədir, gündüz də məndə.
Sığınıb könlümə çöl də, çəmən də,
Gəzməyə çəməni, çölü neylərəm.

Bəxtiyar, şairlik öz həvəsimdir,
Şeirçün ürəyim əsim-əsimdir,

Dünyadan köçəndə bez də bəsimdir,
İpəyi neylərəm, tülü neylərəm?

*1964*

## BİR TƏRƏFDƏ

Gah ağlıma uydum, gah da könlümə,
Ürək bir tərəfdə, baş bir tərəfdə.
Qəlb iki qansızın arasındadır,
Zaman bir tərəfdə, yaş bir tərəfdə.

Ömür köhlənimi daşlığa sürdüm,
Gah coşub kükrədim, gah köks ötürdüm.
Həmişə dünyanı mən belə gördüm;
İştah bir tərəfdə, aş bir tərəfdə.

Əzəldən qayğısız doğula insan,
Ya da qəm çəkməyə dağ ola insan.
Gah sağa boylanır, gah sola insan,
Bahar bir tərəfdə, qış bir tərəfdə.

Bir yanım gecədir, bir yanım səhər,
Bir əlimdə şəkər, birində zəhər.
Deyirəm, dünyada bütün tərəflər,
Hamısı olaydı kaş bir tərəfdə.

*Fevral 1965*

* * *

Səninlə hər görüş ilk görüşümdür,
Mənimçün həmişə təzəsən, gülüm.
Tək sənin eşqinə möhtac könlümü
Əlvan duyğularla bəzə sən, gülüm.

Bir canıq, olmadı arada birlik.
Qədərin işidir, buna dözərik.
Özüm – göz muncuğu, eşqim – üzərlik
Dedim, gəlməyəsən gözə sən, gülüm.

Könlümə ən yaxın sirdaşım kimi,
Mən sənə vermişəm dərdi - sərimi.
Dedim, səndən küsən sətirlərimi
Boynuna mərcan tək düzəsən, gülüm.

Təpədən-dırnağa dözümsən, dözüm
Bu sonsuz dözümə mən necə dözüm?
Günahkar özüməm, bilirəm, özüm,
Gəl, bunu heç vurma üzə sən, gülüm.

*Mart 1980, Yalta*

* * *

Dedim, qorxan gözə çöp düşər, düşdü
İstədim yolundan mən dönəm sənin.
Çoxları başına döndü, dolandı
Gördün ki, əsirin tək mənəm sənin.

Sən sevgi dənizi, mənsə bir ada,
Könlümü bağladım yalnız bir ada.
Ömür sərhəddimin o tayında da,
Qapını hər zaman döyənəm sənin.

Üz-üzə dayanıb sonum, əvvəlim,
Hara getdiyimi mən hardan bilim?
Sənin dərgahına açılıb əlim,
Tanrımsan, mən adi bəndənəm sənin.

*İyul 1980*

## HƏMİŞƏ ÖZÜDÜR...

*Dostum Z. Məmmədova*

Bizim dostumuzun dosta, tanışa
Qayğıdan, hörmətdən amanı yoxdur.
Daim həyəcanlı, təlatümlüdür,
Coşmamış, daşmamış bir anı yoxdur.

Hörmət sahibidir el gün içində,
Min yerə baş çəkər bir gün içində.
Dəyirman daşı tək zaman içində
Zamanı üyüdər, məkanı yoxdur.

Tərsinə hərlədər bəzən gərdişi,
O, enər yoxuşu, qalxar enişi.
Hamının hayına çatar bu kişi,
Amma öz hayına çatanı yoxdur.

Bir gözəl çəmənin, çiçəkli yalın
Qaçar görüşünə o, ayaqyalın,
Həmişə özüdür, bizim Zeynalın
Zeynal olmadığı zamanı yoxdur.

*1983*

* * *

Öz könül dünyama səyahətimdə
Susur, nə danışır, nə dinirəm mən.
Dərdimdə tapıram həqiqətləri,
Kədərim artdıqca sevinirəm mən.

Dərdimə təşnəyəm, nəşədən toxam.
İstərəm dünyaya içimdən baxam.
Fərəhin içində çoxam, lap çoxam,
Dərdimdə vahidəm, birəm, birəm mən.

Ömrü başa vurduq günah içində,
Yox olduq, ah olduq min ah içində.
Ürəkdən gəlməyən qah-qah içində
Özümdən usanıb deyinirəm mən.

Doğdu hər niyədən təzə bir niyə,
Ümidin gözüylə baxdım hər şeyə.
Arzumla həmişə bir olum deyə
Arzumu könlümə geyinirəm mən.

*Avqust 1982*

## HEÇ DEMƏ...

*Şair dostum. Ş.Əkbərzadəyə.*

Gənc ikən dünyanın çölünü gördüm,
İçini görməyim mənə fərz imiş.
Nəfsim itiləşir mən yaşadıqca,
Demə, daddıqlarım bir çərəz imiş.

Düşündüm, arzudan boy alırıq biz,
Onlara çatmaqla ucalırıq biz.
İndi görürəm ki, arzular yalnız
Yaşaya bilməkçün bir həvəs imiş.

Əlhəzər eylədim hər yanlışımdan,
Umdum ucalığı düzgün işimdən.
Göynədim hər dəfə yıxılanda mən,
Demə, hər yanlışım mənə dərs imiş.

İki ömrüm ola dedim, müttəsil,
Bir ömür nədir ki, olsun lap yüz il.
Heç demə, qanmaza yüzü bəs deyil,
Qanana bir ömür, vallah, bəs imiş.

Çürük bildiklərim sağa dönübdür,
Qara bildiklərim ağa dönübdür,
Solda gördüklərim sağa dönübdür,
Dünyanın hər işi başdan tərs imiş.

Yol getdim, dünyanı seyr elədim mən,
Xəbərim olmadı yolun özündən.

Ölü dünənimiz diri bu gündən
Daha canlı imiş, müqəddəs imiş.

Əsl dost var isə, nə qohum-qardaş
Ona arxalanıb, qaya çap, dağ aş!
Övlad da insana dost olaydı kaş,
Amma neyləyəsən o, əvəz imiş.

Elə ki, yollarda bitdi enişlər,
Hər kəs barmağını xəlvəti dişlər.
Arxadan atılan daşdı «imişlər»,
Dəyər topuğuna, o da faydasız
quru səs imiş.

*Yanvar 1984*

* * *

Çaşbaş fikirlərin qaranlığında
Bilmirəm nə huyda, nə haydayam mən.
De, kimə söyləyim şikayətimi?!
Özüm öz əlimdən haraydayam mən.

Boğmağa çalışdım məhəbbətimi,
Dəyişmək istədim təbiətimi.
Gördüm ki, qalmışam olduğum kimi,
Əvvəl nə idimsə yenə oyam mən.

Başıma bəladır vərdişim mənim,
Əngəlsiz ötüşmür bir işim mənim.
Tərsinə dolanır gərdişim mənim
Arandan yaylağa axan çayam mən.

Ürəyim baxmadı etirazıma,
Könüllü getmişəm öz güdazıma.
Bu sevdam dönübdür alın yazıma
Sevdam nə boydasa, o boydayam mən.

*Avqust 1984*

## KÜSƏNDƏ

Günahdır illəri bir ana satmaq,
Özündən küsürsən, məndən küsəndə.
Din – allah yoludur, allaha çatmaq
Özün de, mümkünmü dindən küsəndə?

Hər qədirbilməzə bu dünya dardı,
Haqqını bağırıb nalə qopardı.
Çöldə gecələdi, çaqqal apardı,
Bizim çil toyuğu, hindən küsəndə.

Sevginin nə günü, nə də kölgəsi,
Cana doydurmadı sevən hər kəsi.
Nədən bəmə düşdü qəlbin zil səsi,
Kölgədə nə tapdın gündən küsəndə?

*1985*

## AMAN, HEY

Sevgim mənə qanad verdi, uçurdu,
Mən özümdən yuxarıyam, aman, hey.
Sən qəlbimdə qəlbim kimi vurmasan.
Bütöv deyil, mən yarıyam, aman, hey.

Öz əlimlə möhürlənir günbəgün,
Öz əlimlə bağladığım bu düyün.
Əyləcini qeyb eləyən bir ömrün
Qəza vuran qatarıyam, aman, hey.

Nişan aldım, mən hədəfi görmədim,
Zərər gördüm, bir yol nəfi görmədim.
Öz hissimdən o tərəfi görmədim,
Öz-özümün çəpəriyəm, aman, hey.

Sən yoxsansa... mən bir heçəm, hədərəm,
Sənin üçün bir taleyəm, qədərəm.
Sevgim qədər, məhəbbətim qədərəm,
Mən özümün inkarıyam, aman, hey.

*Fevral 1985, Yessentuki*

## GÖZÜN OLMASA

Şair, gəl, əlinə qələm götürmə,
Könlünü gəmirən sözün olmasa.
ŞeІrin bir ürəyi isidə bilməz,
Könlündə közərən közün olmasa.

Deyə bilmirsənsə sözün düzünü,
Danlama özgəni, danla özünü.
Düşməni qınama, əgər sözünü
Üzünə deməyə üzün olmasa.

Sən halal urvana bir çimdik qədər
Əgər haram qatsan, kündən küt gedər.
Bu müqəddəs sənət səndən nə istər –
Əyridən danışma, düzün olmasa.

Əyrini görürsən... görsən əyəni,
Sərraf oğul deyə, öyərəm səni.
Sən şair deyilsən, görünməyəni
Görməyi bacaran gözün olmasa.

*Avqust 1985*

## HARA GEDİR?

Təbiətin sümüyünə dirəndik,
İliyini sorasıyıq, sorası.
Əlimizlə bu anamız torpağın
Dağlanmamış, görən, qaldı harası?

Təbiətə insan kimi günü yox,
Zülmümüzdən rüzgarı yox, günü yox.
Bu dünyanın əvvəli yox, sonu yox,
Var olarmı yoxla yoxun arası?

Tale bizim qəsdimizə gülürkən,
Doğanaqdan keçə bilməz bu örkən.
Torpağın da öldüyünü bilirkən,
Söz qalmadı bu dünyadan sorası.

Bəzən insan qazananda uduzar,
Qədərinə yazılanı kim pozar?
Bu dünyanın min sifəti, rəngi var,
Qismətimiz – ağından çox, qarası!

Yaranışdan biz övladıq, o – ana,
Bu sitəmi necə qıydıq biz ona?
Hara gedir o, fırlana-fırlana –
Sinəsində çalın-çarpaz yarası?

*1985*

## YAYLAQDA

*Dostum İnqilab üçün*

Uzunyal, Yüzbulaq, Xanım dərəsi,
Qayalar sıldırım, yallar örüşdü.
Taxtadan başlanan yollar, cığırlar
Turşsuyun üstündə gəlib görüşdü.

Tutulur, açılır dağlar bir anda
Əl-ələ tutuşur yaxşı, yaman da.
Zirvələr başında şimşək çaxanda
Elə bil dərədə, dağda döyüşdü.

Dağın təpəsində gördüm Zalxanı,
O dağlar gözəli, o dağlar xanı.
Yağış çisələsə, gəzmə daldanı,
Yalın beşi quru, biri höyüşdü.

Min dərdin dərmanı yatır çəməndə
Burda xeyirədir duman da, çən də.
Arxacın üstündən bulud keçəndə
Quzular bahardan payıza düşdü.

Dağlar bir-birindən sirrini gizlər,
Amma sinəsində rəng rəngi izlər.
Daşda çarpazlaşan cığırlar, izlər
Elə bil xanada arğac-ərişdi.

Tüstülü havanı biz uda-uda,
Şəhərə bağlandıq... hikmətdir bu da.
Dörd fəsli gözümlə gördüm Turşsuda
Hava bir saatda on yol dəyişdi.

*1986*

## ƏLEYKƏSSALAM

*Əliyəm, gəlmişəm sənlə üz-üzə,*
*Ölməz şeirlərin hikmət, möcüzə.*
*Duyğular sinəmdə çevrilib sözə,*
*Misralar şairə salam söyləyir.*
**Aşıq Əli**

Möcüzə dağlarda, sən də möcüzə,
Əli, salamına əleykəssalam.
Dağlar ucalıqda eşqini gördük,
Arzuna, kamına əleykəssalam.

Qəlbində ümiddən şam yandırmısan,
Şamını məşələ döndərsin zaman.
Bü gündən nur alıb, sabaha baxan
O ümid şamına əleykəssalam.

Sənin ürəyinin döyüntüsündən,
Zəngin olan dama «yoxsul» - dedin sən,
Keçmişəm dünyanın yaxşı, pisindən,
O «yoxsul» damına əleykəssalam.

Gəl, açaq sandığı, tökək pambığı,
Oldumu qəlbsizin könül çaldığı?
Dilimin, ağzımın səndən aldığı
Dadına, tamına əleykəssalam.

Bəxtiyar, de nədir bu kin, bu qiyam,
Mən sənət dəlisi, şeir acıyam.

Əli, döşə gəlsin, söz möhtacıyam,
Şirin kəlamına əleykəssalam.

*Avqust 1986*

## KÖHNƏ DƏRDLƏ MƏN

İçdim bir nəfəsə yumub gözümü,
Ömrün badəsini qurta-qurtla mən.
Bir vaxt deyərdim ki, ölüm uzaqdır,
Bəlkə qiyamətə qaldım qurdla mən.

Sevgimdən özümə bir qala qurdum,
Ömrü bu qalada mən başa vurdum.
Dünyanı özümə haram buyurdum,
Yaşadım həyatı tək bir şərtlə mən.

Bu yerdə kələfim yaman dolaşdı,
Qərəz zurna çaldı, inam qol açdı.
Neynim, ürəyimə şübhə yol açdı.
Bacara bilmədim o namərdlə mən.

Göyün yırtıq yeri düşdü başıma,
Soyuq su qatdılar isti aşıma.
Hər gün bir təzə dərd çıxdı qarşıma,
Bir gecə yatmadım köhnə dərdlə mən.

*1985*

## ELÇİYƏM

Qismətimin oğrusuyam, doğrusu,
Zahirdəsə mən «toxanam», «alçıyam».
Barmağımı yalamadım bal tutub,
Başqasına bal paylayan balçıyam.

Əlindəyəm, mən tutulmuş ov kimi,
Şüşədədir mənim canım div kimi.
Sən çevirdin taleyimə sevgimi,
Bu taleyin yedəyində yolçuyam.

Bu dünyadan xoş bir sifət, üz umdum,
Can yanğımı yelpikləyən söz umdum.
Önümdəki səadətə göz yumdum,
Sabahıma min fal açan falçıyam.

Bir eşq ilə mən düşmüşəm yollara.
Niyyət hara, mənzil hara, yol hara?
İçimdədir gecə, gündüz, ağ, qara,
Öz ağımdan öz qarama elçiyəm.

*1986*

## ÇAŞIB MƏNİM KİMİ...

Kiminsə əzabı, fəlakətiymiş
Səadət quşunun yemi, sən demə.
Onun da sonu var, qəmlə qurtarır
Hər günün, hər ayın dəmi, sən demə.

Ölümə gedirik doğulan anda,
Elə bil tərsinə dönür zaman da.
Nəyinsə izinə düşüb tapanda
İtir bu dünyanın çəmi, sən demə.

Hamı elə bilir bir o, beş mənəm,
Hər yerdə, hər zaman ancaq baş mənəm.
Elə bilirdim ki, tək çaşbaş mənəm,
Çaşıb mənim kimi, hamı, sən demə.

Köçüb röyalara ümidlərimiz,
Dəyişib yerini xeyir-şərimiz.
Vallah, özümüzü unutmuşuq biz
Uçub ağlımızın damı, sən demə.

Enişin ardıdır hər dik, hər yoxuş,
Tufan dediyimiz sükutdan qopmuş.
Atalar düz deyib, tərs qoyulubmuş
Binədən dünyanın xımı, sən demə.

*İyun 1986*

## GEN DÜŞƏ

Açammadım bir qapını əzabsız,
Heç olmadı kədər məndən gen düşə.
Ömrüm boyu bir diləyə can atdım
Suladığım sünbülümə dən düşə.

Keçdim neçə dolanbacdan, dolaydan,
Seçilmədi gün həftədən, il aydan,
Bağırıram içimdəki haraydan
Buz bağlayan könüllərə ün düşə.

İndi daha döyüşürəm dözümlə,
Öz əlimlə özümədir bu həmlə.
Dözüm bitdi, qorxuram ki, özümlə
Qədərimin arasında qan düşə.

Qan qoxuyur zəmanənin yelləri,
Qum gətirir, lil gətirir selləri.
Neyləyirəm, qəm möhürlü illəri
Qismətimə gözlədiyim an düşə.

Öz yolunu heç azmadı bu gərdiş,
Zəmim yandı, taxılımı biçməmiş.
Nə olar ki, bu dünyadan köçməmiş
Mənim həsrət quzeyimə gün düşə.

*Fevral 1986*

## DEYİLMİ?

Ömür başdan-başa – beşikdən-qəbrə
Həyatın sevinci, qəmi deyilmi?
Ölüm bir ömürlük iztirabların –
Ağrının, acının cəmi deyilmi?

Mənəvi dünyaya qalxıb ucalmaq
Qanadlı duyğuya qismətdir ancaq.
Beləysə, ömürdən, gündən kam almaq
Hər kəsin arzusu, kamı deyilmi?

Keçir məqamlar da gündə yüz əldən,
Hansı gizli əldir pozan, düzəldən?
Sənin güvəndiyin dünya əzəldən
Əkilən, biçilən zəmi deyilmi?

Ayaqlar altında yer oldu tapdaq,
Sirrini, məğzini bilmədik ancaq.
Tapdaq etdiyimiz bu qara torpaq
Əbədi mənzilin damı deyilmi?

Damımız üstündə gəzər, hey gəzər,
Hərə öz qəlbiycə bir mənzil bəzər.
Torpağı sormaqdan etmədik həzər,
Bu da ağlımızın kəmi deyilmi?

Ötəri mənzildə qədər hökm edər,
Kimimiz bal içər, kimimiz zəhər.

Əbədi mənzildə hamı bir nəfər,
Bir nəfər özü də hamı deyilmi?

*Fevral 1986, Yessentuki*

## GÜN, BATMAQ ÜÇÜN

Sən mənə gərəksən hər saat, hər gün,
Bədəni sonadək yaşatmaq üçün.
Sən mənə gərəksən, mənim könlümün
Uyuyan gölünə daş atmaq üçün.

Özümlə əbədi davamsan mənim,
Günəşim, yağışım, havamsan mənim.
Mən dağam, dumanlı zirvəmsən mənim,
Şərəfdir, şöhrətdir zirvə, dağ üçün.

Torpaq son yuvadır, torpaq son binə.
Dedim torpağımsan, gəldim səcdənə.
Ömrün son çağında əyildim sənə,
Əyilər torpağa gün, batmaq üçün.

*Mart 1987*

* * *

Çox danışdıq haqqın qələbəsindən
Haqqın qollarını bükən zor ikən.
Bağrı çatlamadı namərd oğlunun
Gözlüyə kor dedi, özü kor ikən.

De, necə dözəsən, gündə yüz kərə
Gözünlə gördüyün müsibətlərə?
Neyləyə bilərsən, həqiqətlərə
Bu gün həqiqətin özü kar ikən.

Seçə bilmədilər haqsızı haqdan,
Doğdu düz əyridən, zülmət işıqdan.
Necə baş açasan bu dolaşıqdan,
Dünyanın varı yox, yoxu var ikən.

Bilməm mən qədiməm, ya dünya qədim?
İndi düşüncəyəm, əvvəl nə idim?
Dünyanın sirrini bilmək istədim,
Mən özüm-özümə bu gün sirr ikən.

Doğdu hər niyədən təzə bir niyə,
Qonduq bir pillədən başqa pilləyə.
Sən niyə baş qoydun iki qibləyə,
Allaha çatmağın yolu bir ikən?

*Fevral 1989*

## SƏMA SONSUZ, AĞIL MƏHDUD

Ölçülərin nisbətini bilməyən
Çoxda azı, azda çoxu qavramaz.
İki rəngin həddindəki çalarda
İtən qafil, bu bozluğu qavramaz.

Gözünlə yox, qəlbinlə bax aləmə,
Zalim demə hər zülm edən zalimə.
Görünməzə, bilinməzə yox demə
Sənin ağlın, səncə yoxu qavramaz.

Həyat – ölüm arasında aman var.
«Hə»lə «yox»un arasında güman var.
Səma sonsuz, ağıl məhdud, zaman dar,
Məhdud ağıl, sonsuzluğu qavramaz.

*1989*

## VAY HALINA

Doğulduğun, böyüdüyün Vətənində
Haqq tapdanıb, şər udulsa, vay halına!
Səxavətin unudulsa, qəm eləmə,
Ləyaqətin unudulsa, vay halına!

İmzası var yasda toyun, toyda yasın,
Bu qütblər bir-birindən ayrılmasın.
Sənə şorun bahalığı dərd olmasın,
Yağın şorla bir tutulsa, vay halına!

Hər söhbətin hər məclisdə yeri deyil,
Unutma ki, qocalırsan sən ilbəil.
Yaşıdların sənə gülsə, zarafat bil,
Balan yaşlı cavan gülsə, vay halına!

Həyatından gileylənib çox ağlama,
Ötənləri yana-yana varaqlama.
Arzuların ölməsinə yas saxlama,
İnam ölsə, iman ölsə, vay halına!

Nöqsanını üzə deyən namərd deyil,
Kirayədə yaşadığın ev, yurd deyil.
Anan sənə ögey olsa, bir dərd deyil,
Zaman sənə ögey olsa, vay halına!

*Yanvar 1989*

## QƏSD EDİR İNSAN

Ayağı üstündə durduğu gündən
Biliyə həmişə təşnədir insan.
Bir şey yayınmadı onun gözündən,
Gündə bir zirvəni qəsb edir insan.

Mayası, cövhəri torpaqla birkən
Üyüdür dağları, daşları dən-dən.
Bilmir, təbiətə qəsd eləyirkən
Özündə özünə qəsd edir insan.

Toruna düşübdür öz qüdrətinin
Vurduğu düyünü açmaq çox çətin.
Həm cəhlin, qəflətin, həm fəzilətin
Yoxuş yollarında yol gedir insan.

Çalışır, vuruşur gecəbəgündüz,
İdrakdan doyammır: Bu əyri, bu düz!
Qəflətdən oyanmır: yanlışı yüz-yüz,
Qonduğu budağı tərpədir insan.

Bəs bu nə adətdir, bəs bu nə vərdiş?
Tərsinə dolanır indi bu gərdiş.
Ağlı öz başına bəla kəsilmiş
İnsan, ağlın varsa, de, nədir insan?

*Fevral 1987*

## YALAN HAKİM OLUB

Qorxu kölgəsinə sığınmış bu gün
Sədaqət, dəyanət, məhəbbət, allah.
Yalan hakim olub, böhtan gözətçi,
Çürüyür zindanda həqiqət, allah.

Əyri əyriliyi yeridir daşa,
Keçib əyriliklə hamıdan başa.
Doğru həsrət qalıb isti bir aşa.
Görən hara gedir bu millət, allah.

Həftələr dəyişdi, günlər dəyişdi,
Tərəflər dəyişdi, yönlər dəyişdi.
Qiblələr dəyişdi, dinlər dəyişdi,
İtə ot verilir, ata ət, allah.

Ünvanı dəyişib rəzalətin də,
Qaymaq da satılır şor qiymətində.
İndi sədaqətin səltənətində,
Əyləşib hökm edir xəyanət, allah.

Ha çığır, ha bağır, yatan ayılmaz,
Yaxşını yamandan ayıran olmaz.
Satsan, üzünə də baxan tapılmaz,
Necə ucuzlaşıb ləyaqət, allah.

Yalanlar həqiqət qiyafəsində,
Yeklər cövlan edir şeş xanəsində.

Oğrular, əyrilər zəmanəsində
Əyrilik sayılır fərasət, allah.

*İyul 1989*

## OLAMMAZ

Qan bahası, can bahası yığdığın
Sərvət olar, sənə dövlət olammaz.
Bir məqsədlə bir hədəfə döyməyən
Min zərbədən bir kəramət olammaz.

Kişiliyi aradılar səbirdə,
Ürəyimi qanatdılar bu yerdə.
Təpər yoxdur hər harayda, həşirdə,
Hər təpərdə əsl qeyrət olammaz.

Çox gizlətmə öz içində sən, səni,
Yaxşı görür el gözləri, əzəni.
Gizlətməmiş el çuvalda nizəni,
Axı, nifrət daim xəlvət olammaz.

«El bir olsa, zərbi kərən sındırar»,
El gücündə el dedi, sel gücü var.
Beş nəfərin yanmağından nə çıxar,
Xalq yanmasa, dönüb millət olammaz.

*Mart 1989*

* * *

*Cibi dolu, başı boşlara.*

Qeyrət yoxsa bir kişinin qanında,
Dərisinə yeritdiyin biz yazıq.
Əyrilərin, oğruların gözündə,
Gədə – kişi, kişi – fərsiz, düz – yazıq.

Bir qanmazın qabağında alışsan,
Yanmağını nöqsan bilər o nadan.
Anlamazı anlatmağa çalışsan,
Yana-yana söylədiyin söz, yazıq.

Min sirr yatır bir rübabın telində,
Min nalə var hər ocağın külündə.
Söz anlamaz bir naşının dilində
Nəğmə qırıq, mizrab sınıq, saz yazıq.

Min boyunu bir halqaya saldılar,
Doğma deyib, yada səcdə qıldılar.
Üstəlik də bizi bizdən aldılar
Alan «qoçaq», verən maymaq, biz yazıq.

*1988*

## DEYİL

Adını hər yerdə zikr edən ürək,
Əhdindən, sözündən dönəri deyil.
Səni, sənə layiq eşq ilə sevmək,
Axı, hər oğulun hünəri deyil.

Bu yolun əzabı, məşəqqətilə
Çatdım bu məqama otuz beş ilə.
Sevdikcə bilirəm, bu sevgim hələ
Sənin sənliyinə yetəri deyil.

Günəşdən yayınıb qızındım yenə,
Sənin dumanına, sənin kölgənə.
Ayrılıq – mənəvi ölümdür mənə,
Ölüm – dərdlərimin betəri deyil.

Bu sevgi – öz  məğzim, öz fitrətimdir,
Bu sevgi – özümə sədaqətimdir.
Bu sevgi – kəlmeyi-şəhadətimdir,
Bu sevgi – zövqümdən ötəri deyil.

*İyul 1989*

## O QƏDƏR QORXMUŞAM

Özümlə həmişə üz-üzə gəldim,
Usanıb yoruldum, düzü, mən, daha.
Görürəm, yamanca üstələnmişəm,
Yoxdur umacağım zülümdən daha.

Yoxdur bir sərvətim sözümdən özgə,
Əlacım qalmadı dözümdən özgə,
Düşmənim özüməm, özümdən özgə
İndi qorxmalıyam, de, kimdən daha?

Addadım Arazdan, keçdim Fəratdan,
İndi piyadayam, düşmüşəm atdan.
O qədər qorxmuşam mən bu həyatdan,
Zərrəcə qorxmuram ölümdən daha.

*1984*

## İNAM ZİRVƏSİNƏ...

Kimdən gileylənim, kimdən, bilmirəm
Gah dosta üz tutdum, gah da yada mən.
Bir əlimdə su var, bir əlimdə od,
Gah suya üz tutdum, gah da oda mən.

Toxunma könlümdə hönkürən simə,
Arzu da, ümid də nağılmış, demə.
Həyatda yetişə bilmədiyimə
Yetişə bilmişəm tək rö'yada mən.

Gözəl nə vardırsa, ona vuruludum
Mən öz içimdəcə qat-qat buruldum.
Bütün ömrüm boyu tələbə oldum
Gözəllik adlanan bir ustada mən.

İnam zirvəsinə daim can atdım,
Şübhə məqamında günaha batdım.
Səfərə çıxmışam, hər gün bir addım
Gedirəm şübhədən etiqada mən.

Ayıra bilmədim mən azdan çoxu,
Enişdən yoxuşu, varlıqdan yoxu.
Həyat bir yuxuymuş, adi bir yuxu
Demə, yol getmişəm yata-yata mən.

Həmişə axtardım, amma bulmadım,
Sel kimi bulandım, heç durulmadım.

Bir gün bu dünyada rahat olmadım
Rahat olarammı o dünyada mən?

*Dekabr 1989*

## ÖZ-ÖZÜNÜ AŞMADIR

Həyat – başdan ayağa,
Düyündür, dolaşmadır.
Ömür yolu – özünlə
Vuruşdur, dalaşmadır.

Yorulduq zaman-zaman,
Bu vuruşdan, bu qaldan.
Ömür yolu – məchuldan
Məluma yol açmadır.

Ömür yolu – qara, ağ,
Çox çətindir baş açmaq.
Gah özünlə barışmaq,
Gah özündən qaçmadır.

Artdıqca günahımız,
Bizi yaxdı ahımız.
Eşqdir pənahımız
Eşq – özünü aşmadır.

*Mart 1986*

* * *

Arzu zirvə başındadır,
Onun min bir pilləsi var.
Bir arzunun neçə-neçə
Böyük, kiçik çilləsi var.

Dözən olduq dönə-dönə
Yaxşı günə, yaman günə.
Taleyin insan ömrünə
Sığalı var, şilləsi var.

Min zülmətə dözə-dözə,
Yol açırıq bir gündüzə.
Öz qibləni dürtmə gözə,
Hər evin öz qibləsi var.

Baxdıq sola, döndük sağa,
Endik düzə, çıxdıq dağa.
Könülləri qanatmağa
Bu dünyanın ibnəsi var.

*Yanvar 1987*

## YALAN DÜNYA

Gah başıma tumar çəkən,
Gah ilantək çalan dünya.
Gah sinəmə dağlar çəkən,
Gah könlümü alan dünya.

Gah dağılan, gah qurulan,
Bəzən açan, bəzən solan,
Gələnləri yola salan,
Özü baqi qalan dünya.

Bir yanda at, bir yanda ot,
Solu günəş, sağı bulud.
«Dovşana qaç, tazıya tut» -
Deyən köhnə filan dünya.

Min rəngi var, min donu var,
Neçə-neçə oyunu var,
Nə əvvəli, nə sonu var,
Yalan dünya, yalan dünya!

*Avqust 1981*

## XEYİRLƏ ŞƏR ARASINDA

Vaxt gəmirir hər binanı,
Tavanla tir arasında.
Bir rəqəm də, demə, varmış
İkiylə bir arasında.

Ucaldıqca biz ucaldıq,
Özümüzdən qisas aldıq.
O gündən ki, körpü saldıq –
Göy ilə Yer arasında.

Qardaş olub siçan-pişik,
Biz gül əkib, vay dərmişik.
Sərhədləri itirmişik
Xeyirlə şər arasında.

İki duyğum – iki aləm,
Birində qəm, birində dəm.
Amma ömür sürməmişəm
İki fikir arasında.

Fikir də bir, amal da bir,
İşarədən mətləb götür.
Gözünlə bax, ağlınla gör
Fikri sətir arasında.

Könül, bulan, könül, durul,
Hər gün səfərə hazır ol.

Ömür dedin – beş addım yol
Beşik – qəbir arasında.

*Mart 1987*

## ŞEYTANIN BARMAĞI

Gerçək hələ yol üstədir,
Gəlməyinin sorağı var.
Həqiqətin doğum günü,
Yalanın da son çağı var.

Bir sevdanın odu, közü
Kül elədi ömrümüzü.
Bu dünyanın iki üzü,
Həm qarası, həm ağı var.

Yaxşılar diz çökə-çökə,
Daim girir ağır yükə.
Yaxşı dönüb təbərrükə,
Bir gülün min alağı var.

Yamanların qəsdi qandır,
O iblisdir, o şeytandır.
Həqiqəti – ağ yalandır
Amma yaman qılığı var.

Bəlli deyil əsl üzü,
Yüzdür biri, birdir yüzü.
Hər nitqində dostluq sözü,
Qoltuğunda bıçağı var.

Dövran sürür şeytan hələ,
Orda tələ, burda tələ.

Harda qopsa bir vəlvələ,
Orda şeytan barmağı var.

*Fevral 1987*

## BÖYÜK

Ayağı altda torpaq yox,
Yerdən umacağı böyük.
Bir qətrə qıymaz kimsəyə,
Açdığı qucağı böyük.

Nə dostu var, nə düşmanı,
Yalan deyib tükü sanı.
Gözü görmür bu dünyanı,
Pıç-pıça qulağı böyük.

Həddi yoxdur qiybətinin –
«Sevgisinin», «nifrətinin».
Hər sözünün, söhbətinin
Ciddisi az, lağı böyük.

Bir mehraba səcdə qılmaz,
Nə bulanmaz, nə durulmaz.
Bir söz ilə könül almaz,
Vurmağa çomağı böyük.

Öz-özünə o, əvəzdir,
Başqaları quru səsdir.
İmkanına baca bəsdir,
Meydanının tağı böyük.

*Fevral 1987*

## DAN OLMUŞAM

Kədərimin zirvəsində
Birdən dönüb şən olmuşam.
Allah kəssin bu şənliyi,
Əhdimdən dönən olmuşam.

Haqq zorlanıb, zor haqlanıb,
Sabahıma yol bağlanıb.
Dərd içimdə pardaqlanıb,
Dərdlə öyünən olmuşam.

Bilə-bilə, qana-qana,
Bu əzabda yana-yana,
Mən özümü dana-dana
Öz-özümdən gen olmuşam.

Ömür yandı öz yağında,
Bir diləyin sorağında.
Gecənin oğlan çağında
Mən ağaran dan olmuşam.

*İyul 1989*

## SIĞIŞMADI

Mənim könlüm bu dünyanın
Yer-göyünə sığışmadı.
Bir həqiqət, min yalanın
Səs-küyünə sığışmadı.

Çox şişirtdik biz hər şeyi,
Dərk etmədik bu şitliyi.
Adamların eşitdiyi
Gördüyünə sığışmadı.

Qəm əkib, dərd biçə-biçə,
Ömür sürdük biz beləcə.
Bir yasımız neçə-neçə
Toy-düyünə sığışmadı.

Sağlar dönüb çürük olub,
Ulaq şələyə yük olub,
Din, allahdan böyük olub
Öz boyuna sığışmadı.

*1989*

# UŞAQ DÜNYASI




Bu torpaq sənin,
Bu dil sənindir.
Bu gözəl Vətən,
Öz Vətənindir.

## ÇÖRƏYƏ DƏ
## «BABA» DEYİR ADİLƏ

Körpə nəvəm yavaş-yavaş dil açır,
Doğma sözlər dodağında gül açır:
Yaxşı şeyə «pəpə» deyir – Adilə.
Uşaqlara «bəbə» deyir – Adilə.
Əmziyinə «soqqa» deyir – Adilə.
Çəkməsinə «aqqa» deyir – Adilə.
Babasına «baba» deyir – Adilə.
Bircə bunu anlamıram, bəs niyə
Çörəyə də «baba» deyir Adilə.

*1982*

## ÖZÜ DESİN

Adilənin iki əli,
bir dili var;
Hər əlində beş barmağı,
Hər barmaqda dırnağı var.
Adilənin özü desin,
Onun neçə barmağı var,
Onun neçə dırnağı var.

*1982*

## SAY

-Bir, iki, üç, dörd.
-Bəs sonra? Sonra.
-Bilmiyəm.
-Niyə?
Susur, danışmır,
O baxır göyə.
-Ay mənim gülüm,
Bir də de görüm.
-Bir, iki, üç, dörd.
Susur Adilə
Burda həmişə,
Adlaya bilmir
O, dörddən beşə.
Axı, çatmayıb
O, iki yaşa.

*Noyabr 1982*

## NƏNƏ – NƏVƏ

Adiləyə lay-lay çalır nənəsi.
Amma yatmır nənənin bir dənəsi.
-Layla bala, laylacan.
Adilənin yuxusuna layladan
Şəkər qatır nənəsi.
Yox, oyaqdır nəvəsi,
Adilədən əvvəl yatır nənəsi.

*1982*

# BU DİL

*Nəvəm Bəxtiyara*

Qönçədən çıxıb
Gül açır nəvəm.
Ana dilində
Dil açır nəvəm.

Bu torpaq sənin,
Bu dil sənindir.
Bu gözəl Vətən,
Öz Vətənindir.

Bu el – şöhrətin,
Bu dil – qüdrətin –
Sənə verdiyim
Böyük sərvətin!

*1985*

## SƏRÇƏLƏR

Eyvanda cingildəyən
Sərçəyə bax, sərçəyə,
Yəqin məni çağırır
«Dur qapını aç» - deyə.
Qışın bu şaxtasında
Yəqin acdı sərçələr.
Dən səpərsəm onlara,
Bu sərçələr dirçələr.
Yəqin acdı sərçələr
Eyvana darı səpdim.
Yedi, uçdu sərçələr,
Qanad açdı sərçələr.

*1985*

## PAYIZDA

Otlar ağlayıb
Gedən bahara
Matəm saxlayıb
Gur saçlarını
Yoldu payızda.

Sular əl çalar
Qızardıqca nar,
Bağlar, bağçalar
Soldu payızda.

Duman ucaldı
Dağlar başına.
Ana təbiət,
Kamal yaşına
Doldu payızda.

*1985*

## BABASI KİMİ

Mənim bir gözəl
Körpə nəvəm var.
O da Bəxtiyar,
Mən də Bəxtiyar.

Biz baba-nəvə
Adaşıq, adaş.
O, mənə vüqar,
Mən ona sirdaş.

Mən bir ağacam,
Nəvəm – qol- budaq.
Mən onun kökü,
O, məndə yarpaq.

Xalqa vuruldum,
Mən şair oldum.
Bilmirəm ancaq
O, nə olacaq?

Nə olur olsun,
Kim olur olsun,
Babası kimi
Xalqa vurulsun.

*1985*



# POEMALAR

*Kaş gözəl olaydım...*
*Onu da Allah*
*Bir yoxsul qızına*
*qıyıb vermədi...*



# AMERİKA GÖZƏLİ

*1973 il müsabiqəsində «Amerika gözəli» adını almış Emma Naytın dilindən*

**1**

Yaman gileyliyəm öz taleyimdən,
Varlı bir ailədə doğulmadım mən.
Bu nə güzərandır?
                    Kimdədir günah?
Mənə öz bəxtim də üz göstərmədi.
Kaş, gözəl olaydım...
                    Onu da allah
Bir yoxsul qızına qıyıb vermədi.

Mənim güvəndiyim yalnız səsimdi,
Müğənni olsaydım, bu da bəsimdi.
Nəğməmi dinləyən dostlar, tanışlar
Hamısı deyir ki, gözəl səsim var.
Musiqi təhsilim yoxdu, neyləyim,
Sənəd istədilər hara getdimsə.
Könlümdə dustaqdır eşqim, diləyim,
Könlümdən keçəni duymadı kimsə...
Səsim bəyənildi...
                    Sübutçun yalnız

Sənəd istədilər...
Cansız bir kağız.
Ən böyük dəlilmiş mənim səsimə,
Səsimin yerinə səslənəcəkmiş!..
Yalana, böhtana deyil,
Sən demə,
Yalnız həqiqətə sübut gərəkmiş...
Sənədin yoxdursa, danışma, kiri!
Hünərin olsa da, onsuz heç nəsən.
Sənədin vardırsa, buyur, gəl bəri,
Səsin olmasa da, sən xanəndəsən.
Səsin olmasa da, mikrofon ki, var,
Olmayan səsini səsə oxşadar.
Qəribə dünyadır...Nələr düzəltdik
Ağ-ağ yalanları doğrultmaq üçün.
Amma həqiqətdən sübut istədik,
Sübutu olmadı,
Dandıq büsbütün...

Yalan, cazibəli yalan gözəldir,
Olmayan şeyi də yalan düzəldir.
Olana sübutsuz inanmırıq biz,
Yalana uyuruq sübut-dəlilsiz.

Bu nə güzərandır, kimdədir günah?
Mənə öz bəxtim də üz göstərmədi.
Kaş gözəl olaydım...
Onu da Allah
Bir yoxsul qızına qıyıb vermədi...

Məndən çox gözəldir rəfiqəm Meri;

Uzun kirpikləri, iri gözləri.
Düz biçimli burnu, al dodaqları,
Şahanə yerişi, düz ayaqları...
Həm də təmiz qızdır, çox mərdanədir,
Bilməz giley nədir, ya qeybət nədir.
Haqlının haqqını haqsıza verməz,
Heç zaman dilinə yalan gətirməz.
Meri hamı üçün əldən gedərdi,
Təsəlli verərdi hər zaman mənə.
O, mənim səsimə qibtə edərdi,
Mən isə Merinin gözəlliyinə.

Onun əsiridir bütün cavanlar,
Sərvəti yoxsa da, gözəlliyi var.
Bəs mən?
Bəs mən niyə belə yarandım?
Nə sərvətim oldu, nə gözəlliyim.
Qonşumuz Rudolfun eşqinə yandım,
Məni bəyənmədi, yamanca sındım...
Çirkin ki, deyiləm,
                    həm də bədənim
Deyirlər, ülgüyə bənzəyir mənim.
Qırx səkkiz ölçüyə necə tən gəlir
Gen çiyin,
            Nazik bel,
                    Qabarıq sinə.
Doğrusu, dərzilər məəttəl qalır,
Mənim bədənimin biçimliyinə.
Meri çox gözəldir, bilirəm mən də,
Amma bilmədiyim bir məsələ var:
Meriylə yan-yana biz yol gedəndə

Nədənsə, ondan çox mənə baxırlar.
Günah anamdadır,
uşaq ikən mən
Deyərmiş: «balamın gözəlliyindən
Kəsib taleyinə calasın xuda».
Sən bir alqışa bax! Alqışdır bu da?
Kəsdi, yaman kəsdi gözəlliyimdən,
Amma calamadı bəxtimə xuda.
Nə taleyim oldu, nə gözəlliyim,
Mən belə allaha indi nə deyim?
Mən bu gerçəkliyə indi nə deyim?

**2**

Doğrusu, Rudolfu yaman sevirdim,
O idi hər arzum, o idi dərdim.
Hər yerdə izlərdi onu xəyalım,
Gecələr yuxuma girərdi zalım.

Rudolfun döşündə medalı vardı,
Cavanlar həsədlə ona baxardı.
Deyirlər, Vyetnam vuruşmasından
Qəhrəman çıxıbdır bu cavan oğlan.

Gündə əlli dəfə, gündə yüz dəfə
Eyvanı altından keçərdim onun.
Çevrilib baxmazdı o, mən tərəfə,
Qəlbinə girmədim zalım oğlunun.

Bizim qonşuluqda bir falçı vardı,
Qarımış qızlara o, bəxt açardı.
Adicə maraqçün bir gün xəlvəti

Gəldim falçıgilə... Qəlbin niyyəti
Gözdən oxunarmış...
                                        O, baxan kimi
Üzümə söylədi məhəbbətimi.
Yalvarıb-yaxardım, «əlac et» - dedim,
Məni əldən salıb məhəbbət – dedim.
Özün bir tədbir tök, əlacım nədir?
– Kişilərin ağlı gözlərindədir, -
Deyib gülümsündü...
Dedim: – Haqlısan,
Gözəllik axtarır o gözəl oğlan.
Mən isə...
Sözümü kəsdi tez qarı.
Dönüb mənə baxdı altdan yuxarı,
Açdı müəmmalı, gizli pərdəni:
– Gözəl eləyərəm, - dedi: - mən səni.
– Gözəl olmayanı gözəl eyləmək?
Əgər bu mümkünsə, allahsan demək.
– Belədir, ay qızım, mənə qulaq as.
İnsan eləyəni allah bacarmaz.
Allah hər mətləbi düz seçmək üçün
Ağı ağ yaratdı, qaranı qara.
Bu mütləq rəngləri dəyişmək üçün
İnsanlar yaratdı cürbəcür boya.
Allah göz yaratdı, insan da çeşmək,
Allah rəng yaratdı, insanlar boya.
Qara çeşmək ilə baxsan, de görək,
Ağmı görünəcək, qaramı dünya?

Allah haqq yolundan azan bəndəni
Qorumaq istədi şərdən, fitnədən.
Atam yaman bicdir, saydı kündəni,

Anam ondan bicdir, kəsdi kündədən.
Dedim: – Kəsəsini söylə, a falçı,
Gözəl görünməyin nədir əlacı?
Falçı pıçıldadı: – Boyalı çeşmək!
– Mənmi taxmalıyam?
– Xeyr, mən gərək
Yüz ölçüb bir biçəm burda hər şeyi.
Sənsə hər sözümə «bəli» de ancaq.
Mənim vəzifəmdir həmən çeşməyi
Sənə baxanların gözünə taxmaq.
– Bəs sonra?
– Sən mənim sözümə baxsan,
Bu il payızdakı müsabiqədə
Gözəllik tacını sən alacaqsan.
Mən qəhqəhə çəkib güldüm bu sözə.
O, ələ salırdı məni bəlkə də...
Falçı pıçıldadı: – Gül, doğru sözə
Gülüblər həmişə bizim ölkədə.
Mənə xoş gəlsə də danışdıqları,
Hansı doğru sözdən danışır qarı?
Gözəl olmayanı əsl gözəl tək
qələmə vermək
Doğru söz oldu?
Ancaq düz deyir ki, bizim ölkədə
Həmişə, hər yerdə yalan düz oldu...
– Mən də öz gücümü bilirəm, bu bir,
İkinci, dediyim yalan deyildir.
Sən bəxti üzdəsən, sən naxışlısan,
Gözəl olmasan da, yapışıqlısan.

Qızım, bu mətləblər mənə çox aydın,

Mən yaxşı bilirəm nə dediyimi.
Elə eləyərəm, yapışıqlığın
Görünər gözlərə gözəllik kimi...
İnamla danışır, inamla qarı,
Ürəkdən gəlirdi pıçıltıları...
Düzünə qalırsa, ilk gəncliyimdən
Falçının gücünə bələd idim mən.
Gözümün önündə çox ərsizlərin,
Nişanlı seçməkdə hünərsizlərin
Dadına çatmışdı bizim bu qonşu.
İndi də inamla danışırdı o.
Keçdi bir neçə gün söhbətimizdən,
Qarı ayağını üzmədi bizdən.
Şəhərin ən gözəl bərbəri gəldi,
Biri getməmişdən o biri gəldi.
Üzümü, gözümü əlləşdirdilər,
Qıvrım tellərimə sığal verdilər.
Rəssam gətirdilər...
O cavan oğlan
Məni soyundurdu – tamam lüt-üryan.
Ölçdü qıçlarımı,
Ölçdü sinəmi.
Ölçdü uzunumu, ölçdü enimi,
Nəsə hesabladı... Təzədən baxdı,
Belimə kətandan kəmər də taxdı.

Ertəsi görüşdüm qarıgildə mən
Mebel firmasının sahibkarıyla.
O, ayaga qalxıb öpdü əlimdən,
Baxdı, baxdı mənə xeyli zənd ilə.

Mənsə tanımışdım onu əlbəəl.

Dedi: – Mən hardasa görmüşəm sizi.
Dedim: – Mən iş üçün neçə ay əvvəl
«Ziyarət» etmişdim idarənizi.
Qoca gülümsündü...
                    Bu gülüşlə biz
Biri-birimizi tez başa düşdük.
Gizlincə danışdı nəzərlərimiz,
O köhnə mətləbdən dərhal ötüşdük.

...Yanına getmişdim...
                    Çeşməyi altdan
Baxıb ehtiramla ayağa durdu.
Dərdimi dedikcə o, məni an-an
Həris baxışlarla soyundururdu.
Onun ehtiraslı nəzərlərinə
İkrah eləsəm də, dözürdüm yenə.
Qurtardım sözümü,
                    Qəhvə gətirtdi,
O, mənə bir xeyli təsəlli verdi.
Dedi: – İndi mənim yoxdu boş yerim,
İxtisara düşür öz işçilərim.
Amma düzəldərəm bir iş, tez, ya gec,
Belə bir xanımın pulsuz qalması,
Yoxsul yaşaması rəvadırmı heç?
Deyib, o əlini cibinə atdı,
İki min dollarlıq bir çek çıxartdı.
Dedi: – Sən hələlik götür bu pulu,
Sıxma ürəyini, düzələr dalı!
Onun niyyətini tez başa düşdüm,
Pulu götürməyib ordan sivişdim.

Sonra eşitdim ki, Meri də bir gün
Qocanın yanına gəlib iş üçün.
Əvvəlcə çox ciddi dindirmiş onu,
Sonra məqsədinə keçmiş astaca.
Eyni həngaməni, eyni oyunu
Onun da başına gətirmiş qoca.
Özünü itirmiş Meri karxımış,
Qocanın qəsdini başa düşüncə,
Üzünə tüpürüb qapıdan çıxmış.

Bu həmən qocadır,bu həmən qoca,
Təzədən düşmüşəm onun cənginə.
Bəs indi neyləyim?
Yenə, mən yenə,
Asılıb qalımmı öz taleyimdən?
Yoxsa, taleyimə üsyan edim mən?
Qarıya dedim ki, bu nə kələkdir?
Axı, bu oyunlar kimə gərəkdir?
Sənin dediyin nə, elədiyin nə?
Qarı gülümsündü...
Dedi: – Mən sənə
Yalan deməmişəm, bu o, bu da sən,
Əgər bu kişinin tutsan əlindən,
O, səni çatdırar hər istəyinə.
Mən bir söz demirəm, fikirləş yenə.
Qoca kürsüsünü irəli çəkdi.
Dedi: – Acıqlanmaq nəyə gərəkdi?
Aramla, sakitcə deyək dost kimi
Əvvəl sən, sonra da mən öz şərtimi.

Dedim: – Nədir şərtin, bilək indidən?!
Dedi: – Sənə şöhrət verəcəyəm mən.
Tələsmə, sonadək sözümü dinlə,
Mənim gərəyimdir o şöhrət, o şan.
Aldığın şöhrəti öz xidmətinlə
Sən mənim firmama qaytaracaqsan.
Bu yerdə astaca dilləndi qarı:
– Hələ görməmişəm şöhrətdən qaçan.
Pulun açmadığı çox qapıları
Bizim zəmanədə şöhrətdir açan.

– Şöhrət elə-belə ad-san deyil ki...
Onun qarşısında kim əyilməmiş?
Şöhrətin açdığı qapını bil ki,
Hələ heç bir qüvvə aça bilməmiş.
Gözəllik tacını sən alan kimi
Reklam olacaqsan mənim firmama.
Əgər qəbul etsən, sən bu şərtimi
Onda ikimiz də çatarıq kama.

Xeyli fikirləşdim, xeyli düşündüm,
Gördüm, bundan özgə ayrı yolum yox.
Ertəsi qocanın yanına döndüm,
O gündən hər işdə biz əlbir olduq.

O gündən qocayla əl-ələ verdik,
Getdik ən bahalı restoranlara.
Onunla çox gözəl günlər keçirdik,
Düşündüm, mən hara, bu günlər hara?

Kafe-şantanlarda səhərə qədər
Uzanan məclisin nəşəsi vardı.
Bahalı paltarlar, xoş əyləncələr
Mənim gözlərimi qamaşdırırdı.
Daddım hər ləzzəti...
                    yaşamaq şirin,
Yorulmaq bilmirdim əyləncələrdən.
Bir vaxt ayıldım ki, qoca fermerin
Artıq üç aydır ki, aşnasıyam mən.
Beş ay məşq elədi rəssam mənimlə,
Gah üzüm-gözümlə, gah bədənimlə.
Nəhayət, başlandı altıncı ayda
Gərgin müsabiqə qızıl sarayda.
Meri də buradaydı,
            Onu görüncə
Doğrusu utandım xəcalətimdən.
Özümü itirib qısıldımküncə –
Merinin yanında bir heç idim mən.
Ona gözəlliyi təbiət verib,
Məni məşşatələr gözəlləşdirib.
Həqiqət önündə yaman həsdədim,
Gözlərdən yayınıb qaçmaq istədim.
Başımın üstünü aldı tez qarı,
Yenə də başlandı pıçıltıları:
– Niyə titrəyirsən, qorxursan, nədir?
Ora bax, hamının gözü səndədir.
Münsif öz haqqını alıb dünəndən,
Tac sənin olacaq, arxayın ol sən.
– Necə?
– Sən oyunu udmusan.

– Demək,
Taxılıb gözlərə boyalı çeşmək?

Əldə firmaların al bayraqları,
Münsifin önündən keçir gözəllər.
Yanır gözəlliyin gur işıqları,
Alır qiymətini bir-bir gözəllər.
Növbə mənə çatır... mənim əlimdə
Mebel firmasnın yaşıl bayrağı,
Keçirəm salondan başı aşağı.
Mənim adamlarım mənə əl çalır,
Saxta ucalıqdan insan alçalır.
İkinci dövrədə, ikinci turda
Qızlar gəlib keçir tül penüarda.
Lüt-üryan bədənlər görünür aydın,
Görünür ən incə cizgiləriylə.
Qızlar yox,
Əslində, yarışır bu gün
Firma sahibləri biri-biriylə.
Yarış sona çatdı, qızlar geyindi,
İntizar anları başlanır indi.
Meri mənə baxıb işarır bu an,
Oxudum mən onun baxışlarından:
«– Ay yazıq, sən bura niyə gəlmisən,
Məgər bizim qədər sən gözəlmisən?»
«– Yox, gözəl deyiləm, bilirəm bunu,
Dərdmi çəkməliyəm ömrüm uzunu?
Onsuz da dünyada mən çox yanmışam,
İndi də ümidə arxalanmışam».
«– Ümid yox, gözəllik yarışır bu gün,

Biz səndən gözəlik, bilirsən özün».
«– Özünə güvənmə, məndəki tədbir
Bəlkə də üstündür gözəlliyindən.
Sənə verən allah məndən kəsibdir,
Mənim hesabıma ucasan məndən.
Mənim hesabıma ikicə barmaq
Sən məndən ucasan, belədir, ancaq.
De, hardan olmusan sən gülməşəkər?
Sənə məndən kəsib caladı allah.
Birinin boyundan bir barmaq kəsər,
Verər o birinə, belədi allah!»
Baxışlar danışır,
Baxışlar dinir,
Məşvərət qurtarır, hamı diksinir.
Münsif qərarını oxuyur...
Dayan!
Bitdi baxışların gizli davası.
Mən düzmü eşitdim?
Oldum bu gündən
Ölkənin gözəllik kraliçası!
Necə?
İnanmırsan?
İnanmaq çətin?
Mən də düz bildiyim çox əməllərin
Riya olduğuna inanmamışdım,
İndi inandım.
Yalana inanıb, gerçəyi dandım.
Bunu anladınsa, demək sən haqsan.
Sənin öz haqqındır əbədi cənnət.
Gerçəyə inansan, aldanacaqsan,

Yalana inan ki, budur həqiqət!
Mənim bülbül kimi ötən səsim var.
Amma dandılar.
Yoxdu gözəlliyim, «Gözələm» - dedim;
Mənim yalanıma tez inandılar,
Gözəl olmayanı, gözəl sandılar.

Gerçək iynələyən, yalan tumardır,
Onun can alıcı qüdrəti vardır.
Düzün, həqiqətin dili çox acı,
O, sübut istəyir, dəlil istəyir,
Yalanın sübuta nə ehtiyacı,
Şirin bir dil ilə «Mən varam» - deyir.

O, yalnız özünü həqiqət sayır,
Amma gerçək kimi düz saplanmayır.
Kəsə bir yol ilə əyilib gəlir,
Gəlməyin təhrini o, bilib gəlir.

Gizli qapıların odur açarı,
Həqiqət bizləyən yalan sığaldır.
Gerçəyin vurduğu çox yaraları
Yalan sığal çəkir, yalan sağaldır.

Gözəl adlandırdı məni rəyasət
Qoy əsl gözəllər buna yanmasın.
Gözəl olmasam da məni, nəhayət,
Kimin haqqı var ki, gözəl sanmasın?
Yanın, yanın, siz ey məni dananlar,
Gözəllər önümdə bir şərməndədir.

Çox da ki, doğrudan, gözəldir onlar,
Axı, gözəlliyin tacı məndədir.

**3**

Elə ki, ad alıb, şöhrət qazandım,
Özümdən ayrılıb özümü dandım.
Falçının quluna döndüm o gündən,
Azad günlərimə nöqtə qoyuldu.
Dəyişdi mənimçün hər şey kökündən,
Vaxtım da mənim yox, özgənin oldu.
Mənim əfsanəvi gözəlliyimdən,
Həm də «kamalımdan» yazdı qəzetlər.
Dedilər, ən böyük yurdsevərəm mən,
Yurdumu sevirəm öz canım qədər.

Təriflər yazıldı mənim şənimə,
Oxuyub fərəhdən necə şişirdim.
Özüm də inanıb gözəlliyimə,
Anbaan, günbəgün gözəlləşirdim.

Bəzən inanmayıb şan-şöhrətimə,
Elə bilirdim ki, yuxudayam mən.
Əslində, gözəllik ləyaqətimə
Özümdən savayı yoxdu şəkk edən.

Mənəmmiş birinci gözəl ölkədə,
Yəni, bu xalqa da inanmayım mən?
Əsl gözələmmiş, dedim bəlkə də
Xəbərim yox imiş özüm-özümdən.
Tutaq ki, özümü xudbinliyimdən

Tanıtmaq istədim mən gözəl kimi,
Bəs bu camaata nə düşüb görən,
Niyə alqışlayır gözəlliyimi?
Tutaq ki, münsifi satın aldılar,
Bu boyda milləti aldatmaq olar?
Gördüyüm ehtiram, eşitdiyim «can»,
Gəzdim şəhərləri mən əl üstündə.
Ölkənin ən varlı kübarlarından
Məktublar alırdım, yüzü bir gündə.
Mənimlə bir gecə keçirmək üçün
Təklif edirdilər əlli min, yüz min...
Qoca fərəhindən aşıb-daşırdı,
O da mənə görə məşhurlaşırdı.

Firmanın gəliri birə-on oldu,
Həftəlik qazancı on milyon oldu.
Mebelin adı da dəyişdi dərhal,
Mənim adım ilə adlandırıldı.

Yanımda olurdu çox zaman qarı,
Məni çəkirdilər belədən-belə.
Ətir şüşələri, kirşan qabları
Bəzəndi çıl-çılpaq şəkillərimlə.

Daddım bu dünyanın hər nemətindən
Mən pəri olmuşdum, dünya da cənnət.
Qəlbimlə dilimin arasında mən
Yaranmış uçrumda tapdım səadət.

Nitqlər söylədim, dinlədi aləm,
Sözümdə dəyişib qara ağ oldu.

Ağ evdə yazdılar,
Mənim vəzifəm
Hazır yazıları oxumaq oldu.
Dedim ki, həqiqət, düzlük bizdədir,
Ən böyük ədalət ölkəmizdədir.
Şəri şər içində xeyirə yozduq,
Kol dedik çiçəyə, sol dedik sağa.
«Xoşbəxtlik göləndə» o qədər üzdük,
Vaxt tapa bilmədim xoşbəxt olmağa.
Qoca bir gün məni şəhər merinin
Bağına gətirdi.
Cənnətmiş bu bağ.
Danışdıq, gülüşdük biz şirin-şirin,
İçdikcə-içirdik,
Doymurduq ancaq.

Bir də ayıldım ki, qoca sivişmiş,
Bir mənəm, bir də mer...
Gecə də keçmiş.
Dedim: – Bəs o hanı? Bu nə deməkdir?
Dedi: – Çoxdan gedib, gəlməyəcəkdir.
Sənin bu gecəni bəxş etmiş mənə.
Mən layiq deyiləm bircə gecənə?
Dedim: – Sözüm yoxdur, amma de görək
Mənim bir gecəmi neçəyə satdı?
Dedi: – Neyləyirsən?
Dedim: – Mən gərək
Biləm qiymətimi...
Bəs zarafatdı?
Mənim bir gecəmə yüz min verən var.

Bəs sən nə vermisən?
                    Dilləndi kaftar:
– Mən pul verməmişəm, düzünü bilsən,
Aldım bu gecəni bir imzaya mən.
Dedim: – Aydın oldu, bircə ricam var:
Verdiyin imzanı geriyə qaytar.
Qalxdım getmək üçün...
            Birdən üç cavan oğlan
Girdi içəriyə arxa qapıdan.

**4**

Həyatın dibindən yuxarı qalxdım,
Dolaşdım alilər cərgəsində mən.
Cibimi doldurub, könlümü yıxdım,
Alçaldım ucalıq zirvəsində mən.
Məndən gözəlləri gözəl olmadı,
Ölkədə birinci gözəl mən oldum.
Onlar düz yol getdi.
                    Yol ucalmadı,
Mən əyri yol getdim, yüksələn oldum.

Qocanın yanına gəldim ertəsi,
Gördüm ki, qarı da sağ böyründədir.
Dedim son sözümü...
                    Qarının səsi
Dəldi qulağımı, –
Dedi: – Dayan bir,
Ay nankor, naşükür, nə tez qudurdun?
Səni yedirdənin üzünə durdun.

Adam da bilməzmiş xeyir-şərini.
Bəs nə tez unutdun ac günlərini?

Deyəsən rahatsan, isinib yerin,
Kim adam sayırdı, axı, kim səni?
Axı, adama da yoxdu bənzərin,
Gözəllər gözəli elədim səni.
Bildirki sərçəyə öyrətmə cib-cib,
Aldığın pulları nə tez əritdin?
Dedim: – Zahirimi gözəlləşdirib,
Sən mənim qəlbimi eybəcər etdin.
Dedi: – Öz bəxtinə təpik atma gəl,
Ötən günlərini sən unutma gəl.
İşarıb dilləndi qoca bu yerdə,
Dedi: – Adın-sanın gəzir dillərdə.
Meri gözəl idi yüz dəfə səndən,
Gözəllik tacını aldıq əlindən.
Firma borca düşdü, işdən qovuldu,
Getdi,
Restoranda oxuyan oldu.
– Necə? Meri hara, oxumaq hara?
Vallah, məəttələm bu oyunlara.
Axı, səsi yoxdur... oxuya bilməz.
O, mənim səsimə afərin deyər,
Mənə küsənərdi...
                    Dedi: – Söylə bəs,
Sənin gözəlliyin var idi məgər?

Susdum, danışmadım,
                    O düz deyirdi.

Onun sözü ilə əməli birdi.
Xəcalət çəkmirdi əməllərindən,
Açıqca deyirdi: – Qazanmaq üçün
Dünyada heç nədən çəkinmərəm mən.
Mən isə deyirəm, həm varım olsun,
Həm də ki, ismətim, vüqarın olsun.
Mən bir həqiqəti bilmədim hələ:
Yalan olan yerdə düz dilə gəlməz.
Eyni tərəzidə saxta şöhrətlə
Həqiqət, ədalət çəkilə bilməz.
...Heç demə, yarışda məğlub olalı
Merinin büsbütün dəyişmiş halı.
Bir ay üzü üstə o, xəstə yatmış,
Haqqını tapmayıb matəmə batmış.
Axırda anlamış: – Belədir zaman,
Ən böyük haqsızdır haqqı axtaran.
Görmüş ki, gözündə qalır muradı,
Görmüş ki, dərdinə ayrı əlac yox.
Quru bir şərəfi, təmiz bir adı
Çəkib daşımağa bir ehtiyac yox.
Şərəf də, namus da bir yükdür ona.
Geymiş şərəfini ayaqlarına,
Bir multmilyonçunun yanına gəlmiş
Dərdini söyləmiş,
İşlər düzəlmiş...

Milyonçu söyləmiş: – Bildir arzunu,
Mərmərin üstündə bitirrəm onu.
Meri söyləmiş ki, Emma, o alçaq
Gözəl müğənniydi, olmadı ancaq.
Ondan dəfələrlə gözəl idim mən,

Gözəllik tacını aldı əlimdən.
Səsim olmasa da, xanəndə olmaq
Mənim bu dünyada arzumdur ancaq.

Milyonçu söyləmiş: – Sən xanəndəsən,
Pul ilə suyu da yandıraram mən.
Bununçün nə ona, nə buna minnət.
Pulun öz səsi var,
                    Sinədən gələn,
Boğazda qaynayan səsə nə hacət?

**5**

Nəhayət, özümdən yaman usandım.
Dedim: – Daha bəsdir, yorulmuşam mən!
Şöhrət zirvəsində hər şeyi qandım,
Dedilər: – Alarıq tacı əlindən.

Dedim: – Gözəllik də paltar deyil ki,
Geri alasınız... O ki, məndədir.
– Gözəllik, çirkinlik, dedilər – bil ki,
Hakimi-mütləqin öz əlindədir.

Anladım, şöhrətin acı minnəti;
Adamın başına nə gətirərmiş.
Demə, mükafatı, adı, şöhrəti
Hökümət adama rüşvət verirmiş.

Qaranı ağ kimi dürtürlər gözə,
Tərif də, təltif də hiylədir bu gün.
Şöhrəti verirlər ləyaqətsizə –
Onu ləyaqətli göstərmək üçün.

Mən özüm-özümdən qaçdığım zaman,
Bir gün bizə gəldi medallı oğlan.
Məni təriflədi, məndən yox imiş,
Sən demə, «sevirmiş» o, məni çoxdan.

Razıdır özündən, həm də zamandan,
Tək bircə rənglidir onunçün həyat.
Bu boyda bədəndə bu gözəl oğlan
Sərçə ürəyilə yaşayır rahat.
Döşündə medalı, adı qəhrəman,
Mənim gözlərimdə necə kiçildi.
Əsrin çəkiciylə yaxşı nallanan
Qəhrəman oğlana yazığım gəldi.

Görürəm nadandır... Bundan beşbetər,
Bir şeyə yanıram: Bəs mərdlik hanı?
Mən belə bilmirdim,
Görün, nə qədər
Alçalda bilərmiş zaman insanı.

Uyub şöhrətimə, uyub küyümə,
Xoşbəxt olduğumu o sanır yəqin.
Mənim də onuntək düşündüyümə,
Nadan olduğuma inanır yəqin.
Gör necə dəyişdi mənimçün zaman,
İmkanım arzumla bir gün tən oldu.
Dünən göz ucuyla mənə baxmayan
Bu gün ayağıma döşənən oldu.
Danışır, ağzında dolaşmır sözü,
O öz yalanına inanır özü.

Bilmir, ürəyimdən gəlib keçəni,
İnamla deyir ki: - Sevirəm səni.

Aldatmaq istəyir, görün, kim kimi?
O bilir yalan nə, həqiqət nədir.
Həqiqət – yalanın həqiqət kimi
Cürətlə, inamla deyilməsidir.

– Ay oğlan, bu qazanc əvəzsiz deyil,
Nəyin əvəzidir bu cah-cəlalın?
Şərəfin, namusun bahasıdır bil,
Mənim tacım ilə, sənin medalın.

**6**

Bir axşam səhnədə gördüm Merini:
Oynada-oynada o, əllərini
Ürəklə, inamla nəğmə deyirdi.
Oxuya-oxuya gülümsəyirdi.

İnamla oxuyur...
Görün bu anda
Meri inamına necə sığınmış.
Əyrilə doğrunun çarpışmasında
Çətini özünü aldatmağınmış.

Əvvəlcə özünə hakim kəsilsən,
Özgə gözündə də sən uca dağsan.
Əvvəlcə özünü aldada bilsən,
Sonra sən hamını aldadacaqsan.

Kormudur gündüzə gecə deyənlər?
Bunun niyəsini gec anladım mən.
Bildim, öz ağlıyla düşünməyənlər
Çoxdur öz ağlıyla fikirləşəndən.
Mikrofon ucaldan saxta səslərə
Aldanan camaat necə əl çalır.
Eyni bir mahnını, o neçə kərə
Oxuyur,
«Səsinə» özü mat qalır.
Necə də saxtayıq...
Meri də, mən də.
Bunu o dansa da, mən necə danım?
Məni gözəl etdi, onu xanəndə
Onun mikrofonu, mənim kirşanım.

Əsl gözəl idi Meri onsuz da,
Xanəndə mən idim mikrofonsuz da.
Yaman dolaşdırıb zəmanə bizi,
Mən bu dolaşığa məəttəl oldum.
Gör necə dəyişdik yerlərimizi;
O, xanəndə oldu,
Mən gözəl oldum.

Demə, boşalmazmış dərd, göz yaşıyla,
Demə, qəh-qəh çəkib o, gülməliymiş.
Yəqin ki, məsafə – çəki daşıyla,
Ağırlıq – çərəklə ölçülməliymiş!

Yolunu düz gedən yolu azarmış,
Əsl nizamsızlıq özü nizammış.
Anladım bu böyük gerçəyi mən də,

Bu gerçək – hər şeyə düzgün dəyərmiş.
Heç demə, ayaqlar başa keçəndə
Ayaq düşünərmiş, baş yeriyərmiş!
Meriyə dedim ki, gəl, bir iş görək,
Əvvəl adımızı biz dəyişdirək.
Sən ol Emma Nayt, mən olum Meri,
Aldadaq aldanmış düşüncələri.
Bu əyri yol ilə tutaq doğru yol,
Qayıdaq gerçəyə – özümüzə biz.
Mən çalıb-oxuyum, sən də gözəl ol,
Yaşayaq bir saat boyasız, rəngsiz.

Meri razılaşdı.
Qalxdım səhnəyə –
«Tanınmış xanəndə Meriyəm» - deyə.
Dedim: – Ay camaat, bayaq oxuyan
Ölkənin gözəli – Emma Nayt idi.
Siz bu zarafata uydunuz yaman,
Dinləyin xanəndə Merini indi.
Atdım mikrofonu bir kənara mən,
Şaqraq qaynatmalar axdı sinəmdən.
Dikildi heyrətlə səhnəyə gözlər,
Merinin səsində bu vaxta qədər
Kimsə görməmişdi bu nəfəsləri,
Salonu titrətdi alqış səsləri.

Nəğmənin sonunda bir nalə çəkdim,
Yapışıb qolundan səhnəyə çəkdim
Bir anda Merini...
Dedim: - Emma Nayt –

Ölkənin gözəli! Bir baxın buna.
Şəkkiniz varmıdır bu gözəlliyin
Bütün gözəllərə tac olduğuna?
Yenidən gurladı alqış səsləri,
Bu sonsuz alqışlar həqiqətəydi.
Amma o Emmaydı, mən isə Meri,
Alqışlar ilk dəfə hədəfə dəydi.
Biz elə bildik ki, yeni doğulduq,
Biz bircə saatlıq özümüz olduq.
Bir anda birləşdi dil ilə ürək,
Təkcə adlarımız dəyiş-düyüşdü.
Adları dəyişdik,
Yalanla gerçək
Hər biri özünün yerinə düşdü.
Qara qara oldu,
Ağ da ağ oldu.
Amma cəmiyyətdə nizam pozuldu.

Həqiqət axtarsan, yalandan yapış,
Azadlıq axtarsan, əsarəti gör.
Yaxşılıq axtarsan, yamandan yapış,
Səadət axtarsan, fəlakəti gör.

Sən bu həqiqəti unutma bir an:
Haqqı axtarmağın yolu budur tək:
Adları dəyişsən, haqqın adından,
Tutar öz yerini yalanla gerçək.

*Fevral-mart 1982*

# MƏRZİYƏ

## P R O L O Q

Sən doğuldun qeyrətindən,
Cürətindən,
Mərziyəcan.
Aldım sənin sorağını
Ölümündən
Çox sonra mən,
Mərziyəcan.
Sən vuruşdun, əlindəki silahla yox,
Qəlbindəki inamınla, imanınla.
Həkk elədin öz adını
sən tarixə öz qanınla.
Min il keçsə qalacaqsan
İyirmi yeddi yaşında sən,
Tarixin yaddaşında sən.
Tələbəlik illərində
Sən sinifdən sinifə yox,
Addımladın axtarışdan axtarışa.
Bir tapıntı yazılıbdır
Alnındakı hər qırışa.
Nəyi tapdın?
Beynindəki sualların cavabını.
Bu dünyada sənin sevinc
qismətini kor eyləyən

Bir ömürlük əzabını.
Sən gənc idin,
Neyləyirdin bu dərdləri, bu qəmləri?
Niyə gəlib səni tapdı
Bu dünyanın sitəmləri?
Düz demədim.
Onlar deyil,
Sən onları tapan oldun.
Beynindəki sualların
Arxasınca çapan oldun.
Kimi gəlir, bu dünyada
Bu dünyanı unutmağa.
Kimi gəlir, dünyaya yox,
Öz qəlbinə züy tutmağa.
Kimi gəlir, bu dünyanın
Nəşəsini yaşamağa,
Kimi gəlir, bu dünyanın
Dərdlərini daşımağa.
Kimi gəlir, bu dünyadan
Umduğunu götürməyə,
Kimi gəlir, bu dünyaya
Öz odundan nur verməyə.
Kimi gəlir, bu dunyada
olanlara daş atmağa,
Kimi gəlir, bu dünyada
olmayanı yaratmağa - yaşatmağa.
Haqq istədin,
Dedin, niyə adı varın özü yoxdur?
Dedin, niyə bu dünyanın
Əyrisi var, düzü yoxdur?

## I FƏSİL

– Haqq hardadır?
Bu sualın cavabını
Tarix boyu aradılar.
Duyğuları çözədilər,
Fikirləri daradılar.
O kitaba, bu kitaba baş vurdular,
Xəyalların, arzuların qanadında
Nağılları uydurdular.
Nağıl dedi:
              - Haqq axtaran,
              Geyib dəmir çarıqları,
Gərək düşə, Ağ babanın ağ yoluna.
Həqiqəti tilsimləyib,
      Tullayıblar dağ dalına.
Öz ağlına,
      öz gücünə,
qüdrətinə,
      söz gücünə
         güvənənlər
            yola çıxsın,
Ümidlə qol-qola çıxsın!..

Ayaqlarda dəmir çarıq, əldə çomaq
Ər babalar,
Nər babalar yola çıxdı,
                  o dağ-bu dağ,
soraq-soraq...
Az getdilər, üz getdilər,
Dərə-təpə düz getdilər.

Min bulaqdan su içdilər,
Dağ aşdılar, düz keçdilər.
Bu dünyanın sirlərini
Oxudular varaq-varaq.
Ayaqlarda dəmir çarıq,
                    əldə çomaq
Bu dünyanı dolaşdılar
                    qarış-qarış.
Nəsillərdən-nəsillərə
Davam etdi bu axtarış.
Ata bezdi,
               döndü geri.
Oğul geydi,
               nəvə geydi,
Ataların, babaların
çıxartdığı çarıqları

Çox gəzdilər, çox getdilər.
Bu yollarda
Neçə-neçə çomaqları dəyişdirib,
Çarıqları əritdilər.
Həqiqəti «Öz gözümlə gördüm» - deyən
               heç olmadı.
               Haqq ağladı ürəklərdə,
Dünyadasa tapılmadı.
Səhənd dedi: – Həqiqətdir
Çarıqların, çomaqların
               Dağ yolunda əriməsi.
Ayaqların qabarıdır,

ürəklərin nisgilidir
Nağıllara aldanmağın cəriməsi.
...Qızım, sən də bu gerçəyi bilən gündən
Həqiqəti nağıllarda axtarmadın,
Umdun ancaq el gücündən,
sel gücündən.
Dedin: – Mənə qulaq asın
ey həqiqət qurbanları,
Həqiqətdir,
zülm əliylə
Məzlumların axıdılan al qanları.
Həqiqətdir
həqiqətin müc olması.
Həqiqətdir
dərimizin soyulması.
Həqiqətdir
ağ yalanın haqq adından
danışması.
Həqiqətdir
haqq bağıran ürəklərin
ağ yalanla barışması.
Həqiqətdir
həqiqətlə yalanların
bir – birinə qarışması.
Həqiqətdir
tonqallarda yanmağımız.
Həqiqətdir
ölüm hökmü qabağında
həqiqəti danmağımız.

«Həqiqət var» yalanına –
bu riyakar nağıllara
ömrümüzü satan olduq.
Xəyalların xumarında
yatan olduq.
Ayaqlarda dəmir çarıq,
əldə çomaq
Siz bunumu gəzirdiniz
Bu dünyanı qarış-qarış
dolaşaraq.
Aradınız, axtardınız
Yalan sizə dayaq oldu.
Atalardan oğullara,
Babalardan nəvələrə
Qalan yalnız çarıq oldu,
çomaq oldu,
Biz də geydik o çarığı.
Əgər uysaq nağıllara,
Balamız da geyəcəkdir,
Nəvəmiz də geyəcəkdir,
«Dağ dalında həqiqət var» –
deyəcəkdir.
Babalardan miras qalan bu yalanı
Həqiqətin əvəzinə
yeyəcəkdir,
yeyəcəkdir.
Gəlin indi biz uymayaq nağıllara,
Biz güvənək sərt əllərə, tunc qollara.
Bu əllərlə, bu qollarla

Olmayanı yaradaq biz.
Budur bizim bu dünyada
Ən müqəddəs vəzifəmiz!

* * *

O, «Xatirat dəftəri»nə köçürürdü çoxdan
bəri
qəlbindəki nağılları
Beynindəki fikirləri:

## MƏRZİYƏNİN «XATİRAT DƏFTƏRİ»NDƏN

*12 fərvərdin, 1348-ci il, şəmsi*
*(miladi – 1969-cu il, 22 mart)*

Düşünürəm,
demək, varam.
Haqqımı da, borcumu da anlayıram.
Düşünürəm,
Mən özümü dərk edirəm.
Düşünürəm,
Mən qanıram,
Mən görürəm,
Eşidirəm.
Düşünürəm...
Demək, artıq qul deyiləm.
Düşüncədə yetişmişəm,
kal deyiləm.

Düşünürəm... Fikirlərim qanadımdır.
Mən uçuram
ehkamların o tayına!
Bu yerişlə çatammazsan
hey çığıran,
haqq bağıran,
Sərhədləri yaran, qıran
harayıma!
Haqsızlığın başı üstdə mən yumruğam,
Mən hədəyəm
Hər gün təzə cəbhədəyəm.
Bir yaxşı bax sən özünə,
söylə, nəsən?
Mütləqiyyət, sən qocasan,
sən köhnəsən!
Köhnə, çürük bayatını
Hər gün ötən
bir boşboğaz,
bir gəvəzə!
Sözüm yeni, dinim təzə!
Düz 2500 ildir
Yol gəlirsən,
amma yenə
yerindəsən,
Yerindəsən!
Ehkamları özünə zidd
bir dindəsən!
Zülm edirsən.
Zalımların silahıdır
Zülüm! Ölüm!
Mən zülümə sığışmaram!

Bir ölümlə qorxuzduğun yetər məni!
Bir həyata sığışmadım,
yüz ölümə sığışmaram!

* * *

Elə ki, Üsküdə müəllim oldu,
Bu yandan boşalıb, o yandan doldu.
Arzusu, ümidi çəkildi dara,
Ümid zirvəsindən baxıb hər şeyə,
Məktəbdə dərs verib balacalara,
Həyat dərsi alır kənddən Mərziyə.
Könlündə qışqıran dəli bir səsə
o, qulaq kəsildi,
yaşadı yalqız.
Əlifba öyrətdi,
əvəzindəsə
Həyatı öyrəndi həyatdan bu qız.

*23 ordibehişt, 1348 şəmsi (1969)*

Ümidim, diləyim əlimdə bayraq,
Mən onu qaldırdım özümdən uca.
Ümidlə yaşadım bu ömrü ancaq
Möcüzə gözlədim ömrüm boyunca.
Xəyalımda gülən ümidlərimi
Daddım arzumdakı azadlıq kimi.

Gəlmir möcüzə də,
Gülmür dilək də.
Ümidi həyata calaq eylədik,

Qayəni qorxuda, sözü ürəkdə,
Cürəti dözümdə dustaq eylədik.

Nə ilə ölçdülər zülmün həddini?
Bilmirəm, bu dünya bizi nə bilmiş?
Bu həyat, dözümün ən son həddini
Bilməyə sınaqmış, həyat deyilmiş!

Ümidin başını buludlar alıb,
Boran tüğyan edər, yarpaq titrəşər.
Ümidin saplağı yaman incəlib,
Amandı, toxunma qırılıb düşər.

Ağrısı, acısı boşalsın deyə
Köçürür dərdini şeirə Mərziyə.
Başından keçəni birbəbir yazır,
Gah xatirə yazır, gah şeir yazır.

Ümidi mühitin qaranlığında
Söndümü, özünü o, bir heç sanır.
Arzusu ümidə qahmar çıxanda
Qəlbində inamdan çıraqlar yanır.

Hazır olmalıyıq biz qurbanlara,
Yalnız istək ilə kar aşmaz-deyir.
Xeyrini, şərini anlayanlara
Taleyi gözləmək yaraşmaz - deyir.

Zamanın odunda fikri qarsalır,
Qəlbi qanad taxır əsrin səsindən.
Bu günün gözüylə baxıb dərs alır
Dünənki Firdovsi «Şahnamə»sindən.

Görür ki, dəyişən adlardır ancaq
Gavə o Gavədir, Zöhhak – o Zöhhak.

*8 xordad, 1348 şəmsi (1969, 21 may)*

Hər bir əfsanədə bir həqiqət var,
Ən böyük məktəbdir onlar bizimçün.
Zöhhakın çiynində bitən ilanlar
Yeyir cavanların beynini hər gün.

Bu, bir əfsanədir,
Yoxsa, həqiqət?
Bəzəyi əfsanə,
Özəyi ibrət!
Zöhhak ilanının qidası nədən
İnsan beyni imiş?
Düşündünmü sən?
Zülm yaxşı bilir, zülmkar kimi
Ağıldır, beyindir onun qənimi.

Tarixdən məlumdur, bu ki, hər kəsə,
Həmişə izləmiş yalan doğrunu.
Zülüm beyinləri yeyə bilməsə,
Beyinlər, ağıllar yeyəcək onu.
Bunu bildiyindən zülm, hər zaman
Qorxub həqiqətdən, bir də ağıldan.

Ağıldır anlayan,
Ağıldır görən.
Boyalar dalında yaşınan zülmü.
Azadlıq adına bir məmləkətdən
Başqa məmləkətə daşınan zülmü.

Əgər qorxmasaydı zülm ağıldan,
Öncə beyinləri yeməzdi zalim.
Yalanla qorxunun izdivacından
Törəyir, qoxaqlıq zatından mələzdi zalim.

* * *

Dünyaya mənim sorğu-sualım da tükənməz,
Min il yaşasam, cəngi–cidalım da tükənməz.

Eşqim, diləyim düşsə də zindana o susmaz,
Eşqim, diləyim, dərdü məlalım da tükənməz.

Xislətdə dözüm, ruhda təvəkkül nə qədər var,
Məzlum baş əyər zülmə və zalım da tükənməz.

Zülmünlə qolum bağlı, əlim bağlı, dilim lal
Azadlığım eşqimdə, xəyalımda tükənməz.

## II FƏSİL

Telefonlar səsləndi: – Axı kimdir Mərziyə?
Cavab gəldi Təbrizdən:
– Üskü qəsəbəsində müəllimdir Mərziyə.
– Kimdir ona dil verən?
Sükut...
            Cavab gəlmədi.
                        Məgər bilmədilərmi
Ancaq öz ürəyidir hər bir kəsə dil verən
Tapındığı gerçəyin nəğməsinə dönəcək
            gerçəyə könül verən.

Yox! Bunu bilmədilər...
Öz yoluyla yeriyən ən böyük həqiqətə
«Yoldan azıb» - dedilər...
Niyə belə olmalı?
Axı, niyə həqiqət yalana yozulmalı?
Niyə haqqın taxtına nahaqqı mindirdilər,
Yalanlara həqiqət vəsiqəsi verdilər?
İndi bir zaman gəlib:
sual vermək yasaqdır.
Bu «niyələr» nahaqdır.
Yalan həqiqət olub dünyanın yaddaşında.
Özülü yalan olan cəmiyyətin başında
Bomba kimi səslənir hər «nə üçün», hər
«niyə»
Üskü qəsəbəsində müəllimdir Mərziyə.
Bəs o, Üsküdən əvvəl hardaydı?
– Bilmirsiniz?
Sizdən soruşuruq biz.
– O, Sipahidaneşdə oxuyurdu bir zaman.
Onun çıxışlarından
Alovlandı ölkə də tələbə tətilləri,
Unuda bilməzsiniz, axı, siz o illəri.
...Görən, nəymiş Savakı belə qəzəbləndirən?
Şahın tulalarını cin atına mindirən?
Bu çəlimsiz, bu zəif, üzdən fağır qızcığaz,
Qeyrəti çəkisindən yüz qat ağır qızcığaz
Hədələrə, qorxuya niyə təslim olmadı?
Onun iradəsi də niyə sındırılmadı?
– Zindandan çıxan kimi tamam unutduq onu,
Dəyişdirdi Üsküdə mübarizə yolunu.
Nə imiş təzə yolu?

Çox düşündü Mərziyə.
Müəllimlik!
Yolundan, yoxsa, döndü Mərziyə?
Azərbaycan elində
Elin balalarına el dilini danaraq,
«Zəbani-madəri»ni öyrətməli!
Dərdə bax!
Yaşamadı dərd kimi
O, qəlbində bu dərdi,
O, dərdi dilləndirib əlacına çevirdi.
Vətən balalarına
Doğma ana dilində şeir əzbərlədərdi:
«Ala-bula boz keçi,
Ay qoşa buynuz keçi,
Yalqız gəzib dolanma,
Dağa, daşa dırmanma.
Bir qurd çıxsa qarşına,
Sən nə edərsən ona?»
Şeiri burda saxlayıb, bir də təkrar edərdi
sonuncu misraları.
Uşaqların qəlbində
Naxışlanıb durardı «qurdun» ayrı çaları:
Bir qurd çıxsa qarşına,
Sən nə edərsən ona?
Burda şeiri qırardı
Başqa cür qurtarardı:
«Var gücümü toplaram,
Buynuzumu o qurdun
Sinəsinə saplaram».
Sonuncu misraları bir də təkrar edərdi.
Uşaqlara beləcə cəsarət öyrədərdi.

O, çox gözəl bilir ki,
Qorxu bizə nə verər, qorxu bizdən nə alar,
Qorxu adlı o iblis doğar kölə balalar.
Kölə balalar isə mütiliyi balalar.
Bir xalq üçün səfalət,
Ya aclıq, ya fəlakət
Bir elə zillət deyil.
Amma millət qul olsa,
Ayaqlara çul olsa,
Fikircə yoxsul olsa,
O, hələ millət deyil.
Millətin millətliyi yaşar ləyaqətində –
eşqində, qeyrətində,
Şərəfində, adında
Bir də... azadlığında.
Axı, o, öz xalqını kölə deyil, qul deyil,
Azad görmək istəyir.
Xalqın kürəyindəki köləlik damğasını
O götürmək istəyir.
Ən adicə haqqıdır azadlıq hər millətin,
Birinci övladıdır ləyaqət – hürriyyətin.
Əsir xalqın dünyada nə yeri var, nə səsi.
Əsir xalqın yerinə qanan da özgəsidir,
Görən də özgəsidir, danışan da özgəsi!
Xalqın azadlığıdır –
Xalqların cərgəsində mötəbər vəsiqəsi!
Bir xalqın ki, yerinə düşünürlər, qanırlar,
O xalqı nə sanırlar?
Hanı, hanı bəs onun özünün ləyaqəti?
Millət saymaq olarmı əsir olan milləti?
Hanı, hanı bəs onun öz kamalı, öz dili?

Kim seçdi yad millәti başqasının vәkili?
Bu fikirlәr içindә ovxalanır Mәrziyә,
Qandığıyçın alışıb yanır, yanır Mәrziyә.
Vәtәn mәhәbbәtini
O, çevirib özünün yaratdığı bir dinә,
Yanğısını köçürür uşaqların qәlbinә.

Meydan oxuyuram bütün dinlәrә,
Ancaq öz qayәmdә bir dinçiyәm mәn.
Xam torpaq misallı saf beyinlәrә
İndi toxum sәpәn әkinçiyәm mәn.
Әminәm sәpdiyim hәr bir toxumdan
Meyvәli ağaclar boy atacaqdır.
Rüzgarlar önündә kişi tәk duran
Keçilmәz meşәlәr yaranacaqdır.
Özüm olmasam da
ağaclar kimi,
Sonsuz arzularım bitәcәk mәnim.
O günә yetişәn nәğmәlәrimi
Saldığım meşәlәr ötәcәk mәnim.

Bir gün müdir çağırdı yanına Mәrziyәni,
Dedi: – Bu nә demәkdir? Anlamıram mәn sәni.
– Nә olub?
– Nә olacaq... Budur valideynlәr
Sәndәn şikayәt yazıb yuxarıya...
Deyirlәr:
Özbaşınalıq edirsәn.
Hәrdәn ana dilindә şeir әzbәrlәdirsәn.
–Deyin görәk, ay müdir,
Mәnim tәdris etdiyim fәnnin adı bәs nәdir?

«Zəbani-madəri»mi? Bu sözləri indi biz
Fars dilindən çevirsək,
olar «Ana dilimiz»
Mən də şagirdlərimin öz doğmaca elində
Şeir əzbərlətmişəm onlara öz dilində...
Budur mənim günahım?
Söylə, hansı ölkədə,
Xalqın öz ana dili ona yasaq edilmiş?
Yurddaş deyilsən deyə, yurddan qaçaq edilmiş.
Bəs sən necə? De, görək,
Bu Vətənin oğlutək
Necə dözə bilirsən dilimizdən asılan
bu qıfıla, kilidə
Sürgün etmək olarmı bir ölkədən dili də?
Müdirin üz-gözünü od sarsıtdı elə bil
Bu qızın sözlərindən.
Dedi: – Bala, bir düşün dediyini dərindən.
Sən hələ bilməmisən deyəsən öz yerini.
Kim bizə haqq verib ki, dilimizə çevirək
«Zəbani-madəri»ni?..
Atma öz əllərinlə gəl, özünü oda sən.
Bu boş düşüncələrlə vermə bizi bada sən.
– Bəs öz ana dilini bilməsinmi uşaqlar?
– Axı, ana dilinin kimə nə faydası var?
– Qeyrətin də kimsəyə
faydası yoxdur – deyə
Qeyrətsizmi olaq biz?
Axı, qeyrətimizdir bizim ana dilimiz
–Yox, sənə aydın deyil, hələ sənin etdiyin.
Bir də... ana dilində şeir əzbərlətdiyin
Həmin o şagirdlərin ataları deyilmi

Səndən şikayət yazan?
Bəli, valideynlər
İstəmir ki...
–Bəllidir... Oğurlanmış beyinlər
Hardan bilə, nə bilə öz xeyrini, şərini.
–Düşün dediklərini!
Deyə bayaqdan bəri bir kənarda əsnəyən,
Susub kəlmə kəsməyən
Kişi qalxdı ayağa.
Dedi: – Sən kimsən, nəsən
Bu millətə xeyrini, şərini göstərəsən?
Mən çox gözəl bilirəm, xeyrim nədir,
şərim nə?

Ata kimi qanıram,
Balam möhtac deyildir bu gün ana dilinə.
Sabah gərək olarsa, o dili də öyrənər.
– Buqələmunsan məgər?
– Başdan-başa nağıldır, əfsanədir
sözlərin.
Bunlar bu gün dünyadan, vaxtdan
xəbərsizlərin
Nəhəngə hürməsidir.
– Sənin dediklərinsə... azman, nəhəng olanın
Qorxusundan özünü balaca görməsidir.
...Mübahisə uzandı...
Həmən kişi, heç demə
Savakın adamıymış, sonra bildi Mərziyə.

Ertəsi Mərziyə işdən qovuldu.
Müdir əməlinə peşiman oldu.

Gəldi o biri gün
Mərziyəgilə
Bir az vicdanını ovutmaq üçün.
Dedi: – Məramın da
Mənə bəllidir.
Vətən balasına ana dilini
Sevdirmək səninçün bir təsəllidir.
Amma neyləyəsən, bu da yasaqdır.
Bir də ki... əslində kəsilmiş başın
Saçına ağlamaq məncə nahaqdır.
– Onda neyləməli? Susub oturmaq?
– Bizim əlimizdən bu gələr ancaq.
Filin nə vecinə, ayağı altda
Onlarca, yüzlərcə ölə qarışqa.
Atılıb-düşməkdən, axı, nə fayda,
Neyləyə bilər ki, filə qarışqa?
Şahın Savakı var əjdaha təkin,
Ona dişi batmaz, axı, heç kəsin.
– Biz bu bayatını, vallah, çox ötdük,
Alıb çiynimizə onu böyütdük.
Onun qüdrəti də bəllidir bizə,
Biz sənin fikrincə, yəni heç nəyik?
O, böyük görünür gözlərimizə,
Çünki biz hələlik diz üstündəyik.
Kiçildik, biz ona «böyük» dedikcə,
Yetər bu səcdələr, bu dizçökmələr.
Biz onun önündə iməklədikcə,
Əzdi başımızı nallı çəkmələr.
Duraq ayaq üstə,
Axı, ərik biz,
Qalxsaq, o kiçilər, böyüyərik biz.

– Sən mənə tanıtma, gəl, bu milləti,
Onun zatındadır öz ətaləti.
Sən onun yolunda candan keçərsən,
Bu mərdlik, bu qeyrət heç ona çatmaz.
Sən onun yolunda odda bişərsən,
«Uf» - deyib o, sənə əl də uzatmaz.
Belə bir xalq üçün indi sən niyə...
...Müdirin sözünü kəsdi Mərziyə.

## Ana dili

Mən «çal» - dedim,
«Ucal» - dedim,
Mən «vur» - dedim,
«Qaldır» - dedim.
Söz – hücumdur, söz – həmlədir,
Bircə kəlmə bir cümlədir.
Sən dildəki qüdrətə bax.
Cürətə bax!
Bir cümləni bir kəlməyə sığışdıran
Kəlmədəki barıta bax!
Yüz illərin ələyindən arıdılmış
arıta bax!
Dədələrim
Bu sözlərin alovunu geyinibdir.
Ürəkləri
Bu sözlərin vurğusuyla döyünübdür.
Qalxan taxıb «Qalx» səsinə,
Vuruşubdur «Vur» səsinə,
Axı, niyə dəyişdirək
Bizim Qorqud atamızın

Yaratdığı kəlmələri
Başqasının gəlməsinə?
Niyə mənim anam «madər»,
Niyə atam «pədər» olsun?
Bu dolaşıq ticarətdə
Niyə mənim doğmalarım
Özgəsinin tapdağında hədər olsun?
Niyə yadın bəhməzinə «bal» deməli?
Öz aşıma «yal» deməli?
Niyə mənim ana dilim
Gəlmə dilin qabağında
titim-titim titrəməli?
Niyə doğmam yad olmalı,
Öz sözlərim öz dilimdən qovulmalı?
Heç gördünmü torağayı
Qarğa kimi «qa-qa» deyə?
Heç gördünmü sığırçını
Sərçə kimi cükküldəyə?
Sözlərin də millət kimi
Öz əzəli sifəti var.
Hər kəlmənin öz cövhəri, fitrəti var.
Dəyişəndə yad sözünə
öz sözünü, öz ləhcəni,
Sifətini dəyişirsən
Tanımıram onda səni.
Anlamıram fitrətin nə, sifətin nə?
Göyşəyəndə sən özgənin sözlərini,
Sifət taxdın sifətinə...
Sən tüpürdün öz babanın ocağına.
Anan səni bu ocağa övlad doğub,
Sənsə girdin özgəsinin qucağına.

Hər ulusun
Ən qiymətli sərvətidir ana dili.
Övladları yer üzünə səpələnsə,
Pərən-pərən düşənlərin
Vəhdətidir ana dili.
Bu dünyanın
Hansı uzaq bucağında səslənərsə,
O bucağı mənim üçün
əzizlədən ana dilim,
Qürbəti də Vətən edən ana dilim!
Sözlərinin nəğməsində
ruhumuzu cingildədən ana dilim!
Məni ana Vətənimin
Bütün oğul-qızlarıyla
qohum edən ana dilim!
Sən gözlərə görünməyən
Bir telsən ki,
Yol açmısan keçmişimdən gələcəyə.
Ana yurdun öz ruhunu
Keçirirsən –
Bu nəsildən o nəsilə,
Bu ürəkdən o ürəyə.
Öz dərdimi, sevincimi
Dodağımda çağladanım,
Məni ana vətənimə,
Bu günümü
Sabahıma, dünənimə
bağladanım.
Ey səsimə səs verənim,
Sən ey mənim varlığımı
Yer üzünə göstərənim.

Ey şərəfim, ey bayrağım,
Ey «Anamın kitabı»nda adı qalan
Doğma ikən ögey olan
sinə dağım.
Xətainin qılıncında,
Füzulinin qəzəlində
Bülövlənib ovxarlanan söz kəsərim,
Dağlarımdan
Damcı-damcı sızıb gələn öz əsərim.
Ey bu günü dilim-dilim
Parçalanan ana dilim.
Sinəsində od qalanan ana dilim.
Qapıların arxasında
Boynu bükük qalan dilim,
Var ikən yox olan dilim.
Ayaqlarda kilim, dilim,
Vuruşlarda bir qəhrəman,
Barışlarda həlim dilim!

Yadın fitvasıyla, öz gülləmizlə
Özgənin dilinə ov olan dilim.
Möhürlü, hüquqlu idarələrdən
Daxmalar küncünə qovulan dilim.

Ali təbəqələr səni dandılar,
Sən bir ümman ikən dayaz sandılar.
Özgənin dilində xoruzlandılar,
Sən ey öz sacında qovrulan dilim.

Xətai taxtında sən fərman oldun.
Dillərə hökm edən qəhrəman oldun,

Bəs niyə sən bu gün pərişan oldun,
Babək qılıncından od alan dilim?!

Tarixin yolunu keçdin uğurlu,
Sənə batammadı bir qolu zorlu,
Dünəni möhtəşəm, sabahı nurlu,
İndisi tapdanıb ovulan dilim.
Analı-atalı, a yetim dilim!
Şərəfim, şöhrətim, qeyrətim, dilim.

## III FƏSİL

Yığıldı başına dostları bir gün
Namazi, Səncəri, Novruzi, Həsən.
Bir gün doğulacaq səhərlər üçün
Nəqşələr qurdular gecə sübhəcən...
On iki nəfərlik gizli dərnəyin
O gecə qoyuldu ilk təməl daşı.
Ürəklərdə gülən bir gələcəyin
Uğrunda başlandı haqqın savaşı.

Mərziyə dedi ki, bu qara, bu ağ,
Gəlin, biz hər şeyi başdan başlayaq.
Hələ qapalıdır bu xalqın gözü,
Hələ seçə bilmir əyridən düzü.

Bir yandan məscidin təvəkkül səsi –
Şükür fəlsəfəsi,
«Döz» səfsəfəsi.

O biri yandan da mütləqiyyətin
Qorxusu canında yaşar millətin.

Hələ azadlığı hiss edir bu xalq
Şirin arzu kimi, xoş niyyət kimi.
Hələ azadlığı dərk etmir ancaq
Bir ehtiyac kimi, zərurət kimi.

Elə danışırıq... bəs əməl hanı?
Sözlər ürəkdəki dağı əritməz.
Zərurət bilməsə azadlığını,
Xalq onun yolunda ölümə getməz.

Budur ilk borcumuz, ilk vəzifəmiz:
Demişəm qardaşlar, deyirəm yenə.
Xalqın nəzərində azadlığı biz
Qaldıraq zərurət səviyyəsinə.

– Doğrudur.
– Doğrudur.
Səslər ucaldı,
Sözlərdən əmələ bir körpü saldı.

Zülmə haqqın naminə
biz beh verilmişlərdənik,
Haqqa can vermək üçün dünyaya gəlmişlərdənik.
Biz əsarət məktəbində imtahandan çıxmışıq,
Ömür üçün azadlığı
bir qayə bilmişlərdənik.
Zərbələr yetməzmi? Dur, onsuz da kökdən
düşmərik,

Biz çalınmaqçın müdam simtək gərilmişlərdənik.
Haqqa qurban getmişəm, yoxdur ölüm,
bəsdir zülüm,
Biz ölümdən ömür alıb, haqdan dirilmişlərdənik.

## IV FƏSİL

Çerik hərəkatı* başlanan zaman
Şahın bağırtısı qopdu saraydan:
«Şübhəli adamlar damlansın gərək».
Calandı dalbadal fərman fərmana.
Bu zaman peşəkar inqilabçıtək
Qəsdən Mərziyə də gəldi Tehrana.
Yazdı «Dalğa»sını**, dalğalar dindi,
Dedi təvəkkülü, şükrü danmalı.
Vaxt bizi gözləmir, məqamdır indi
Yetər daldalanmaq,
Dalğalanmalı!
Hər iki tərəfdə səngər düzəldi,
Dalğa dalğa ilə üz-üzə gəldi.

Mərziyə, ölkəyə vəlvələ saldın,
Keçirdin ömrünü fırtınalardan.
Bu gücü, qüdrəti sən hardan aldın?
Bu cılız vücudda bu atəş hardan?

Vətən qeyrətini daşıdığından,
Yaşamaq səninçün çox çətin oldu.

*Partizan hərəkatı.- şəmsi 1351 (1972) ildə Tehranda başlamışdır.
**Mərziyənin seirinin adı.

Gərdək əvəzinə qaranlıq zindan
Sənin evin oldu, qismətin oldu.

Bir öpüş görməyən dodaqlarında
Dərdi dilə gəldi Azərbaycanın.
Manikür yerinə dırnaqlarında
Alışdı öz qanın, yandı öz qanın.
Körpə əvəzinə o şümşad qollar,
O şirmayı əllər tüfəng götürdü.
Səngər yoldaşların – igid oğullar,
Səni qız görmədi, bir əsgər gördü.

Xalqın iztirabı, dərdi, yarası,
Sənin ürəyində şişdi, dağ oldu.
Gözünün sürməsi barıt qarası,
Üzünün kirşanı toz-torpaq oldu.

Qandal da vurdular biləklərinə,
Yox imiş qolbağın, ya bilərziyin?
Medalyon yerinə, mərcan yerinə
Güllələr güllləndi döşündə sənin.

Bu güllə tarixin tərkindən gələn
Zülmün qəhqəhəsi deyil, bəs nədir?
Dünən Səttərxanın, Xiyabaninin
Köksündən keçən də həmin güllədir.

Beləcə, güllələr keçirir sapa
Zamandan zamana qəhrəmanları.
Yenidən göyərib atılır oda
Vətən qurbanları, haqq qurbanları.

Anamız torpağı biz zaman-zaman
Qızıl qanımızla suvaran olduq.
Arzu göyərmədi torpağımızdan,
Qırıla-qırıla yenə doğulduq.

Yenə də gözləyir bizi ölüm, qan,
Demə ki, son məqsəd bizdən uzaqdır.

Tökülən qanların qızartısından
Vətənin dan yeri qızaracaqdır.

Bir kəs ki, onun qibləsi yalnız Vətən oldu,
Alçaqda itib min uca yerdən bitən oldu.

Qəlbindəki qeyrət damarından asılanlar
Hər dövrdə el naminə qurban gedən oldu.

Min-min silahın atəşi yetməzdi, qəzəbdən
Bir qəlbin odu zülm evini tərpədən oldu.

Tarix boyu al qırmızı qan içdi bu torpaq,
Otlarda, ağaclarda yaşıllıq nədən oldu?

*1984*

# BAĞIŞLAYIN,
# SƏHV OLUB!

***(poema – pamflet)***

Bir ölkənin başında beş-on nəfər əzazil.
Onlar üçün nə qanun,
                    nə məhkəmə,
                    nə dəlil.
Qanun, sübut, şəriət yalnız avamlar üçün –
Biçarə xamlar üçün.
Məhkəməsiz, sübutsuz Səlim edam edildi.
Görən, hökm sahibi məmləkəti nə bildi?
Bu milləti nə sandı?
Ona bu hökmü verən əzabkeş millətindən
Nə qorxdu, nə utandı...
Niyə utanmalıydı?
Səlimlər, Haqverdilər
Ön qapıdan girdilər,
Köhnə mütləqiyyəti məmləkətdən sürdülər.
Amma arxa qapıdan
Köhnəsindən yüz dəfə qəddar mütləqiyyəti
Ölkəyə gətirdilər,
Ona hökm verdilər,
Bir bütə döndərdilər.

Başdan aşdı dərdləri,
Dedilər: - Köks ötürmə!
Gözü oldu onların,
Dedilər: - Görmə, görmə!
Dili oldu onların,
Dedilər: - Dinmə, dinmə!
Ağlı oldu onların,
Dedilər: - Çox düşünmə!
Bu hansı zəmanədir?
Zamanın bu çağında
Edamın səbəbini bilməyən, haqq verməyən
millətin qabağında
Səlim dara çəkildi.
Bəs, həqiqət, ədalət, görən, hara çəkildi?
Hamı susdu, dinmədi,
Yalnız kəsdi havada
Çarpazlanan ah ahı.
Bir soruşan olmadı «nədir onun günahı?»
Sorğu sual nə gərək, axı, mütləq hakimə
Sual vermək yasaqdır.
Nə məcəllə,
nə qanun?
Hər hökmündə o, haqdır!
Bununçun da susdular,
Bu zülmü haqq bildilər.
Xeyr, qorxu dillənib araçılıq elədi,
Zülm ilə barışdılar,
haqsıza əyildilər.
Quldarlıq yada düşdü:
Kölələr gecə-gündüz tər töküb işləyərdi,
Bir doyumluq çörəyə min yol «şükür» -

deyərdi.
Çağdaş köləlrəsə
Ac qarına, lüt-üryan şükrü dedizdirirlər.
Hazır qalıblardakı fikri dedizdirirlər.
İçindən ağlasan da oynayıb gülməlisən,
Qara günün içində «Ağ günlüyəm» qışqırıb
Ağa bükülməlisən.
Qışqırdırlar adamı,
Özünü öz üstünə qısqırdırlar adamı.
Yaşamaq istəyirsən?
Düzün əyriliyinə, əyrinin düzlüyünə,
«Həqiqətəm» söyləyən yalanların küyünə
Tab edib dözməlisən,
Ayağınla düşünüb, başınla gəzməlisən.
Bircə qaşıq qanından qorxmursansa, buyur, gəl,
Bu meydanda ən əvvəl
Hər şeyin öz adını özünə qaytar görüm,
Sözlərin öz məğzinə, cövhərinə var görüm.
Qorxursan?
Onda dinmə,
Onda sus, səsini kəs!
Qorxunun arxasından gerçək boylana bilməz.
Qorxu, qorxu, sən nəsən?
Əyilməyən başları əyən gizli qüvvəsən.
Dəyanətə xəyanət,
Rəzalətə ləyaqət – deyən gizli qüvvəsən.
«Məni» mənsizləşdirən, üzü üzsüzləşdirən,
İnsanı düşmən kimi özüylə üzləşdirən,
Vicdanları susduran,
Ədalətə od vuran,
Həqiqəti təkləyən,

Zülmü də dəstəkləyən
                    həmişə sən olmusan!
Zorun, gücün başına sığal çəkən olmusan?
Bütün haqsızlıqlara haqq verən də sən oldun,
Zülmü qara daş üstə bitirən də sən oldun.
Düzlüyü əyriliyə,
Həqiqəti yalana,
Cürəti yaltaqlığa,
Yaxşını da yamana
                    dəyişən sən olmusan!
İnsandan insanlığı iyrəndirən olmusan!
Ağızlara daş basan,
Dillərdən qıfıl asan,
Xəyanətə yol açan,
Dözümə könül açan
Qorxular olmasaydı,
                    yaşamağa nə vardı,
Hər şey dönüb yenidən
                    əslinə qayıdardı.
Bu hansı zəmanədir?
                    Zamanın bu çağında
                    Millətin qabağında
Səlim dara çəkildi.
Bəs, həqiqət, ədalət, görən, hara çəkildi?
Qorxunun qoltuğuna!
Qorxu haqqı gizlədib, sığal çəkdi bığına.
Atasına yetişdi bu xəbər... O dinmədi.
Bəs, bu qara xəbərdən o niyə diksinmədi?
Deyən, qulaqlarına inanmadı o, öncə,
Mollabaşı xəbəri bir də təkrar edincə
Dünya döndü zülmətə kişinin gözlərində,

Ürəyini tutub o, səndirlədi yerində.
Yapışdılar qolundan, uzatdılar yatağa.
Daş dözə bilməzdi, yox!
                    Ata qəlbi bəs necə,
Necə dözsün bu dağa?
Nə dindi,
Nə danışdı.
O, tüstüsüz alışdı.
Mollabaşı mətləbi düz hədəfə tuşladı;
Təsbehini çevirib,izahata başladı:
Dedi: - Oğlun islama xain çıxıb, ay ata,
Yas saxlamaq günahdır belə nankor övlada.
Çox ağırdır bu xəbər, necə olsa, atasan,
Amma rəva bilmə ki, sən günaha batasan.
Hələ beş balan da var,
Beşinin xatirinə
Yum gözünü birinə.
Sənə olan olubdur, sızlamağın xeyri nə?
Mənə yaxşı qulaq as:
            İndi meyit gələcək,
Müsəlman tək sən gərək
Biləsən ki,
            Şəriət bir yoldur vardan-yoxa,
Xainlər dəfn edilməz adi qəbristanlığa.
Unutma,
            saxla yadda:
Eləsi dəfn olunur təzə «Lənətabad»da.
Din yolunda ölənlər dəfn edilir şəhid tək
Yalnız «Cənnətabad»da.
Mərhumun axirəti iman şəhadətilə
Göstərilir bu adda.

Molla susdu...
Dayandı...
Bir ah çəkdi dərindən.
Molla xəcalət çəkir, yoxsa, dediklərindən?
Elə bil ki, az imiş bir övlad müsibəti,
Ondan da betər oldu «Lənətabad» söhbəti.
O, çəkinə-çəkinə
Baş vurdu mətləbinin cövhərinə, təkinə.
-Mən bitirdim sözümü, nə deyirsən buna sən?
Səs çıxmadı kişidən.
O əyildi yatağa:
-Eşitmirsən bəs məni?
Səs çıxmadı,
Bu dəfə o tərpətdi xəstəni.
Gördü qoca keçinmiş,
Əl-ayağı buz kimi,
Gözündə bir damcı yaş parlayıb ulduz kimi
Mollanın sualına cavab verir elə bil.
Qocanın yanağında gilələnən yaş deyil,
Yanğısıdır, dərdidir səksən illik bir ömrün.
Ölürkən suya dönüb
                  üzə çıxdı o, bu gün.
Odla su arasında gedən çevrilişə bax.
Bu dünyanın dərdini tək bircə damlasında
Alışdıran yaşa bax.
Susub duran suyu gör,
O qışqıran yaşa bax!
O səs yəqin daş deşər,
O səsi kim eşidər?
O səs laldı, sağırdı
Dağdan daşdan ağırdı.

Bircə damla o yaşdan
Dərd yağışı yağırdı...
Molla qalxıb ayağa ev əhlini çağırdı.
Topladı övladları,
Üzü qiblə tərəfə döndərdilər meyidi;
Dəyişdilər yerini.
Qapadılar
Tavana zillənən gözlərini.
Qəfil ata ölümü!
                    Bu da bir dərd!
                    Təzədən,
Qopdu evdə vay-şivən.
Molla dedi: - Səbr edin, əlimizdən nə gəlir?
Bütün bunlar birbəbir,
Qədərin qəzasıdır,
Allahın rizasıdır.

Elə bu dəm bayırda haray qopdu, hay-haray.
Kimsə açdı küçədən darvazanı taybatay!
Meyit çiyinlərində imam gözətçiləri
Qəfil girdi içəri:
– Bu lənətə gəlmişi sabah dəfn edərsiniz
Ancaq «Lənətabad»da.
Müsəlman olan kəsin olmamalı bu gündən
Nə qardaşı,
                    Nə dostu,
                    Nə qohumu
                              bu adda.
Molla dedi:
– Bu qərar gətirməsin sizə qəm.
O çəkir cəzasını.

Mən buna da əminəm
Siz asi olmazsınız heç vaxt müsəlmanlığa.
Atanızı dəfn edin adi qəbristanlığa.

* * *

Oğul ilə atanı uzatdılar yan-yana.
Sabah günorta çağı
Biri o qəbristana, biri bu qəbristana.

Bağrı qan ağlamazmı bu torpağın, bu yerin?
Öz evində yan-yana yatan bu bədbəxtlərin
Haqq evində yan-yana yata bilmək haqqı yox.
Bu müsibət içində ölü sahiblərinin
Dinmək bir yana dursun,
Dindirilmək haqqı yox.
Kim qoydu bu şərtləri?
Kim özünü haqq bilib
Adamlar arasında çəkdi bu sərhədləri?

Elə ki, bu dünyada masalar rütbələndi,
Zülm haqqın, gerçəyin bələyinə bələndi.
Hüquqlar neçə-neçə dərəcəyə güvəndi.
Biri qalxdı, ucaldı, biri endi, nə endi.
Onların arxasınca
Dükanlar rütbələndi, bazarlar rütbələndi.
İndi də şükr allaha, məzarlar rütbələndi.
Hər zülmün bir həddi var:
O yerdə ki, başçılar
İnsana insanlığı ali rütbə sanmadı,
İnsanlıq dəyərilə insan əyarlanmadı –

Vay halına insanın!
Onda yazıqlar olsun kamalına insanın!
Onda bütün adamlar
Yalnız «zirəkliyilə» rütbələrə bölünər,
Qarğa qırğıya dönər.
Qırğı qalar kölgədə.
Zülmün təməli üstdə qurulan bir ölkədə
Gör necə də qarışdı yaxşılıq yamanlığa.
Bacarıqlı zirəklər tüpürüb insanlığa
Ancaq rütbə diləndi.
Adamlar rütbələrlə necə dərəcələndi.
Ədalətin adından insanı daşladılar,
İndi yerin altını bölməyə başladılar.
Burda ali ölülər,
Orada adi ölülər.
Dirilərə bilirik,
Ölülərə torpağı
Kim ayırar,
kim bölər?
Kimdir bu vəzifəni öz boynuna götürən?
O dünyaya getməmiş
Birini lənətləyən, birinə cənnət verən?
Bilirdik, bir zamanlar,
Yer altında bölgü yox,
yer üstündə bölgü var.
Hamını birləşdirən
torpaq idi, yer idi.
Bəli, orda, tək orda hamı bərabər idi.
Dünya yamanca döndü.
İndi ölülər belə təbəqəyə bölündü.
Başqa xalqlar bu gündən gələcəyi biləndə,

Bölünməyən atomu iki yerə böləndə
Biz də o xalqlar ilə girib idrak cənginə,
Bircə rəngli torpağı
Böldük cəmiyyətdəki təbəqələr rənginə.
Bəyənmirsən, bəyənmə, bu da bizim elmimiz.
Kimin haqqı var desin,
Avropadan yüz-yüz il geridəyik indi biz?
O dünyanın işini bu dünyada görürlər,
Lap allahın özünə indi yol göstərirlər.
O dünyaya gedənin
Rütbə vəsiqəsini bu dünyada verirlər.
Sən kimsən, sən nəçisən,
Ki, Allahın adından adamları seçəsən?
Adamların əyninə allahın torpağından,
«Ali», «adi» və «lənət» paltarını biçəsən.

* * *

Min-min illik torpağından, kökündən
Bu dünyada üzülməmiş nə qaldı?
İnsanlıq da nadanlığa çullanıb,
İnsan üçün dözülməmiş nə qaldı?

Bal zəhərə, duz şəkərə qarışdı,
Yer tavana, göy də yerə qarışdı.
Şər xeyirə, xeyir şərə qarışdı,
Dağılmamış, pozulmamış nə qaldı?

Zamanənin üzü yaman boz imiş,
Üzü astar, astarı da üz imiş.
Həqiqət də, ədalət də söz imiş,

Əməl getdi, söz olmamış nə qaldı?
Sözün hərfi qalsa da, əsli unudulubdur,
Söz mətləbə açar yox, indi qıfıl olubdur.
Hamı sözün dalında ürəyini gizləyir,
Ağıl nə deyir desin, dilsə başqa söz deyir.
Sözlərin bayramıdır, sözlər qalxıb oynağa,
Əməl qapı dalında, söz hökmüran, söz ağa!
Məşşatəyə bənzəyər,
O, çirkin əməllərin üz-gözünü bəzəyər.
Doğruya dil göstərər,
Adama oxşamazı bizə «gözəl» göstərər.
Dünya – şahmat taxtası!
Hamı mənəmliyindən bir-birinə «şah» deyir.
Qaçan da «allah» deyir,
Qovan da «allah» deyir.
Allah qalıb məəttəl:
Görəsən, bu adamlar dünyadan nə istəyir?
Siyasət də qudurub, həqiqəti daladı,
Ucaldıqca ucalan
Dünyaya əşrəf olan
                İnsanı xırdaladı,
                Hakim oldu zamana.
İndi siyasətçilər papuç tikir şeytana.
Hələ allah da, din də
Bir qılınca dönübdür siyasətin əlində.

* * *

Bu beş qardaş ertəsi,
Meyitləri həyətdə uzatdılar yan-yana.
Biri o qəbristana.

Biri bu qəbristana.
Çöldə mağar quruldu,
Amma mağar boş oldu.
Boyun əyib qorxudan imamın fitvasına,
Qohum-qonşu gəlmədi mərhumların yasına,
Qıldı meyid namazı molla atanın üstdə,
Səlimi lənətlədi.
Dinə ağ olanları föhş ilə töhmətlədi.
Kiçik qardaş dözmədi:
–Səlimin namazını özüm qılaram – dedi.
Cənazənin önündə o namaza əl açdı,
Qardaşlara yol açdı.
Gəlib durdu beşi də bircə anın içində.
Neçə iman cücərdi bir imanın içində.

* * *

Elə bu vaxt həyətdə göründü Mollabaşı,
Topladı ətrafına yaralı beş qardaşı.
Dedi: - Yaman aldadıb
Bir dələduz xainin qaldırdığı küy bizi:
İndi yas sahibləri bağışlasın qoy bizi.
İndicə öyrənmişik, Səlim günahsız imiş,
Deyilən böhtan imiş, bir uydurma söz imiş.
O, ali həzrətləri batmamaqçün günaha
Tez əl açdı dərgaha,
Lənətini götürdü,
    və...
    günahsız Səlimə
    İmam cənnət istədi.
Məni bura yolladı,

Özü namaz üstədi.
Deyə üz tutdu molla birbaş meyidə sarı.
Taxdı onun boynuna əlindəki açarı.
Dedi: – Səlim ucaldı taxtına
«mərifətin»,
Bu açarla açacaq qapısını cənnətin.
Yalana bax, ilahi!
Bir paslıca açarın dəliliylə doğrulub,
Cənnəti həm o dünya, həm də bu dünya üçün
Vəd edənlər çox olub.
Amma onun gözgörə açarını verəni,
Yolunu da inamla meyidə göstərəni
Görməmişdik,
şükürlər!
Onu da göstərdilər!
Amma, a Mollabaşı, bir bunu da de görək,
Axı, hardan bilirsən cənnət qapısındakı
Başın boyda qıfıla hansı açar düşəcək?
Peysərini qaşıyıb molla sözə başladı.
Bu mərhumun ömrünü
Yaralı qardaşların ömrünə bağışladı.
Dedi: – Şükür xudaya, tez açıldı bu düyün,
İndi nə durmusunuz, siz sevinin, öyünün
Ölünüzü aparın indi «Cənnətabad»a.
Amma xahiş edirik,
Artıq söhbət olmasın, sabah eldə, obada.
Neyləmək, səhv etmişik,
Bu səhvi bağışlayın.
Di durmayın,
Namaza siz təzədən başlayın.

* * *

Qəribədir,
Bir anda əmr döndü minnətə,
Ölü hansı qüdrətin hökmüylə birdən-birə
Çıxıb cəhənnəmindən düşə bildi cənnətə?
Yaxşı, deyək, o xain aldadıbdır mollanı,
Tanrımızda tanrılıq kəraməti bəs hanı?
Bəs o niyə aldanıb?
Allah da aldanarmı?
Öz əvvəlki hökmünü bir gün sonra danarmı?
Bəs onun allahlığı harda qalıb, görəsən?
Allahın öz adıyla ev dağıdan, baş kəsən,
Əli qanlı ağalar,
Sizdə heç insafmı var?
Nədir xalqın günahı? Onu layiq bildiniz
Bu sitəmə, bu dağa.
Bu boyda məmləkəti doladınız barmağa.
Bu naqafil xəbərdən gözlər gölməçələndi,
Qardaşların üstünə elə bil su ələndi.
İçdəki hönkürtüdən boğazları tutuldu.
Qardaşların beşi də elə bil iflic oldu.
Onlar xeyli susdular.
Bilmədilər bu hökmün əyrisi nə, düzü nə?
Sonra xeyli baxdılar baş mollanın üzünə.
Deyən, molla çəkindi
Gözlərdə tonqal çatan o qəzəbdən, o kindən,
Yayındırdı gözünü qardaşların üzündən.
Qardaşlarsa susurdu.
Nə desinlər?
                    Hansı söz bu yanğıya su çilər?
Hansı söz, ürəkdəki nifrət, qəzəb odunu

İndi söndürə bilər?
Necə yəni bağışla?
Necə yəni səhv olub?
Axı, insan məhv olub.
Bu səhv necə səhvdir?
Bəs, bu səhvin adı nə?
Vardım sözün təkinə,
Gördüm, səhvin məğzini səhvin özü qanmayıb.
Belə səhvi deməyə hələ söz yaranmayıb.
«Bağışlayın» - deyirsən.
Niyə bağışlamalı?
Kimə bağışlamalı, nəyə bağışlamalı?
Nəyə gərək bu üzr?
Yoxsa, iki ölümün bahasıdır bu üzr?
Heç belə də iş olar?
Ürəkləri, başları nə qədər təftiş olar?
Məgər insan çibinmi,
Harda gördün qırasan,
Sonra da üzr istəyib, səhvdən dəm vurasan?
Yuxarının bir səhvi aşağıda min olur.
Yuxarının səhvini düzəltmək çətin olur.
Min-minlərin ömrünü siz əlindən aldınız,
Min-min yetim balanı küçələrə saldınız.

Handan-hana ayılıb, kiçik qardaş mollanın
Yapışdı ətəyindən.
Dedi: – Molla, indi sən.
Bizdən üzr istəyirsən?
Bizdən niyə, a nadan?
Sən üzr istəməlisən, bu tabutda yatandan.
Əgər dindirə bilsən,

soruş, bağışlayırmı?
Soruş, onun əlindən aldığınız həyatı
Sizə halal sayırmı?
Mənim atam, qardaşım nə ilk, nə də son deyil.
Bir səhvi ki, sonradan düzəltmək mümkün deyil,
Ona səhv deməzlər.
Yerinə başqasından üzr də istəməzlər.
Axı, üzrlərinlə bu bədbəxti yenidən
Dirildə bilmədin sən.
Onda cavab ver görək,
«Bağışlayın, səhv olub» -
Nə deməkdir, nə demək?
Deyəndə ki, «səhv» olub» - sevinmədim mən buna,
İnanmışdım mən onun sizin əqidənizcə
Günahkar olduğuna.
İndi sizin səhviniz səhvinizi səhv saydı,
Qardaşımın ölümü əgər səhv olmasaydı,
Yandırmazdı heç məni atamın da ölümü.
İndi necə götürək bu dağı, bu zülümü?
Yanıram ki, qardaşım
Ölürkən ölümünün səbəbini qanmadı.
Onun müftə ölümü
Təəssüfdən savayı bir dəyər qazanmadı.

* * *

Yox-yox! Ölüm səhv deyil.
Beş il, on il, on beş il
Onsuz da gəlməliydi.
Atam da ölməliydi,
Səlim də ölməliydi.

Öncə bilək, səhv nədir?
Doğru nədir,
Düz nədir?
Bunu bilincə
Bizə
aydın olar:
Səhv də
günahsız qurbanları
Törədən səbəbdədir.
Zülm də bu səbəbin üstdə bərqərar olmuş,
Bu səbəbdən zülmlər ədalətə gor olmuş.
Kiçik qardaş susunca, molla dedi: – Balalar,
Günahkar axtarmayın, burda qəza hökmü var.
Böyük qardaş dedi: – Sən
Çox dəm vurma qədərdən.
Gəlin, günahınızı siz qəzavü-qədərin
Boynuna yükləməyin.
Qəza deyə bu xalqı oda sürükləməyin!
Sizindir
«Cənnətabad», qoy sizə qismət olsun,
Bizim qismətimizsə, qoy elə «Lənət» olsun.
İndi ki, gənc yaşında
Sizin əllərinizlə vida dedi həyata,
Qoymaram qardaşımı sizin uydurduğunuz
«Cənnətabad»da yata!
Məzlumların həyatı alovdan, oddan keçir.
Əbədiyyətin yolu
«Cənnətabad»dan deyil, «Lənətabad»dan keçir.
Kiçik qardaş yapışıb mollanın
saqqalından
Dedi: – Qorxmursanmı bəs, bu işlərin

dalından?
Sabah tufan qopacaq, dəryalar durulacaq
Onda bəlkə, kim bilir,
Dönüb «Lənətabad» da «Şöhrətabad» olacaq.
Kaş dördüncü, beşinci qəbristan da olaydı,
İnsanlığı qul edən saxta qanun-qaydalar
Orda basdırılaydı...

* * *

Molla kiçik qardaşın üzündəki şimşəyi
Görüb əsdi ürəyi.
Bəllədi sağ-solunu;
O, yayınmaq istədi.
Kiçik qardaş kəsdi onun yolunu
Dedi: – Hara qaçırsan?
Sualım var, bir dayan!
İndi səni öldürsəm, sənin yerin haradır?
Cənnətdir, ya cəhənnəm?
–Mənciyəz buyruq qulu, bir günahsız bəndəyəm.
–Günahsızsan, çox gözəl, demək cənnətdir yerin.
Eləysə, bu dünyadan doymayıbmı gözlərin?
Sənin dediklərinə kafirdir inanmayan,
Onu doğru sanmayan.
Biz sənə inanırıq, sən də inan sözümə,
Səni indi bu saat cənnətə göndərməyi
Borc bilirəm özümə.
–Bu nə deməkdir, oğlan?
–İndi mənim əlimdə sən şəhid olacaqsan.
Həm günahsız, həm şəhid!
Cənnətin lap ortası hazır yerindir sənin,

Vallah, bu səfərinə indi həsəd aparar
Həm dostun, həm düşmənin!
–Oğlan, günaha batma!
–Qalma mənim dərdimə,
De hazırlaş, uzatma!
Sən ki, sevinməlisən bu qismətə, bu günə, –
Deyə balaca qardaş cumdu onun üstünə.
Mollabaşı diz çöküb qopardı haray-şivən.
Üz tutdu qardaşlara:
–Müsəlman deyilsiniz?
Bəs niyə almırsınız məni bunun əlindən?
–Söylə, mənim qardaşım müsəlman deyildimi?
Sən niyə qıydın ona mö'min müsəlman kimi?
O, cəhənnəmlik idi,
anlamıram səni mən,
Bəs niyə sən qaçırsan inandığın behiştdən?
Kiçik qardaş mollanı qaldırıb çırpdı yerə,
İstədi ki, bıçağı sinəsinə endirə,
Böyük qardaş kiçiyi arxadan qucaqladı,
Düyümlü yumruğunu havadaca saxladı...

## EPİLOQ

İndi seçmək çətindir yalandan həqiqəti,
Gör, necə də qırışmış bu dünyanın sifəti.
Diplomatiya, siyasət – çatıb bir əndazəyə,
Qaç deyirlər dovşana, tut deyirlər tazıya.
Hər şey çaşbaş olubdur siyasət dumanında.
Təzə-təzə dinlərin, imamların yanında
Köhnə dinlər, imamlar lap suya getməliymiş.

«Güclüyəmsə, haqlıyam» - deyən ötən şahların
Zəfəri də, hökmü də boş hava, boş küy imiş.
İndi qolu zorlular demir qolu zorluyam,
Deyir, zorum yoxsa da,
amma düzəm, doğruyam.
Həqiqət paltarına geyindirib yalanı
Zəiflərin belinə qoyur cırıq palanı.
Şələləyib çapdırır
Deyir, şələ mənimdir, amma palan sənindir.
Mən sənin qardaşınam, həmcinsin düşmənindir.
Xına yaxıb əlinə,
Çiçək düzüb telinə
Haqqın elçi daşında indi kələk oturmuş.
Elə güman edirsən, orda mələk oturmuş,
İndi səni sevəcək...
Sən onu dindir görək.
Şirin-şəkər səsinə,
Nazına, işvəsinə,
O hüsnü-camalına,
Aldansan,
Vay halına!
Ayılıb görəcəksən, evinə sahib olmuş,
Sənin cibin bir anda dönüb ona cib olmuş.
Dövlətinə, varına
Sahib olmaq bir yana,
«Sağ ol» da deyəcəksən,
Hələ üstəlik ona.
Sənin gördüklərini
özünə dandıracaq,
Amma görmədiyinə
səni inandıracaq.

Başını sığallayıb, qılığına girəcək,
Sənin bədbəxtliyini
Sənin xoşbəxtliyin tək sənə yedizdirəcək!
Onun yayı gərili, onun oxu qurulu.
Sənin dolunu bomboş, öz boşunu dopdolu
Sənin təzəni köhnə,
Özünün köhnəsini
Təptəzə göstərəcək.
O, sənə görmədiyin möcüzə göstərəcək.
Bu möcüzə yanında
Sirkdəki möcüzələr
Vallahi, qələt elər.
Hünərin var inanma!
Yox, sən inanmalısan!
İçdən inanmasan da, üzdən inanmalısan.
«İnanmıram» - söyləsən...
Bu nə sözdü mən dedim!
İndi inanmalıyıq yalnız inanılmaza!
Olana inanmırıq, inanırıq olmaza!

«Ulduz müharibəsi»!
Dünyanın başı üstdə bir barmağın hədəsi!
Sabah bütün dünyanı bir düyməylə məhv edən
O barmağın sahibi
İndi bir insan kimi
Gərək aça gözünü...
O, sabah «Səhv etmişik, bağışlayın» – sözünü
Deməyə bircə nəfər tapa biləcəkdimi?
Ki, ondan üzr istəyə o vaxt günakar kimi?

*Noyabr 1985*

# LƏYAQƏT

*Ləyaqətini həyatından üstün tutan 13*
*yaşlı Saşa Loqvinovun xatirəsinə*

## P R O L O Q

Sordum hakimlərdən: - İndi daha çox
Hansı cinayətlə rastlaşırsınız?
Biri: «Rüşvət» - dedi, biri: «Oğurluq»
Biri: «Qətl» - dedi, biri başqa söz.

Yolun öz səmtini dərk etməyincə
Mənzilə çatmarıq, ha tut çəlikdən.
Bütün cinayətlər törəyir məncə,
Yurda və yurddaşa biganəlikdən.

Elə bir məqama çatmışıq, artıq
Adamlar içində adamlar təkdir.
Ən böyük xəyanət soyuqqanlılıq,
Ən böyük cinayət biganəlikdir.

Bilirik, qanırıq indi hər şeyi,
Amma yuxudadır vicdan, ayılmır.
İnsanın insana biganəliyi
Hələ məcəllədə günah sayılmır.

Doğma vətəninə, doğma elinə,
Ata-babasına, ana dilinə,
Biganə kəsilən əqidəsizdən
Hansı həqiqəti tələb edim mən?

Dünya atəş ilə var oldu yoxdan,
Dəmir qaynaqlanır dəmirə közlə.
İlan qanı kimi qanı soyuqdan,
Yaxşını gözləmə, yamanı gözlə!

## 1. NƏZARƏTÇİ

Ərzaq mağazasında
Əlində tor zənbili
On üç yaşlı bir uşaq
Dayanıbdır növbəyə,
Evə şey-şüy alacaq.
Elə bu vaxt bir qadın
Növbəni yara-yara
Yaxınlaşıb uşağa, çəkdi onu kənara.
Dedi: – Adın Saşamı?
–Bəli.
–Qorxub eləmə,
amma burdan birbaşa
Tərpən xəstəxanaya...
Yerində dondu Saşa.
–Nə olub ki?
–Ananın halı bir az... Əlqərəz,
Səni görmək istəyir, çox yubanma, di tələs –
Deyə qadın bir anda çıxdı çölə... o, yenə

Nəsə sormaq istədi, söz gəlmədi dilinə.
Qadının arxasınca qaçmaq istədi, durdu.
Yarpaq tək uçunurdu.
Bir az keçdi...
Gördü ki, çatıb onun növbəsi.
Yaxınlaşdı kassaya
Tutuldu birdən səsi.
O, danışa bilmədi,
zor – güc ilə birtəhər
Hesabını ödədi.
Gördü bütün nəzərlər
Ona dikilmiş... Hələ
əlləri də əsirdi,
Anasının yanına çatmağa tələsirdi.
Seyr edirdi Saşanı nəzarətçi bayaqdan,
Şübhələndi uşaqdan.
Saxladı dərhal onu.
Zənbildəki şeylərin hesabladı pulunu,
Hesabladı o, bir də.
Gördü ki, ödənişdə nəsə qalıb kəsirdə.
–Aha, tapdım, süzmənin pulu çatmır... sən yəqin
Elə buna görə də qaçmağa tələsirdin.
Düz iyirmi beş qəpik!..
–Ödəyərəm bu saat, unutmuşam, ay xala.
–Yaxşı baxın, camaat, «unutmuşam» -
söyləyən
Bu balaca naqqala.
Saşa xəcalətindən yerə dikdi başını,
Qəlbinə damcılatdı gözlərinin yaşını.
Ağladı xısın-xısın.
Cəsarəti çatmadı adamların üzünə

Baxmağa da yazığın.
Dilləndi asta-asta:
–Anam xəstəxanada yatır, mənə inanın.
–Sənin oğruluğuna nə dəxli var ananın.
–Mən anamın yanına tələsirdim... O, indi
Məni gözləyir, xala...
Xalada insafmı var? O yenidən təpindi:
–Aman yoxdur oğruya, buraxmaram səni mən.
–Hesabı çaş salmışam, vallah,
                                        tələsdiyimdən.
Nəzarətçi uşağa yenə də inanmadı,
Qəlbinin yanğısına şərik olub yanmadı.
Şübhə ilə boylanır ətrafına o, ancaq
Guya onun şübhəsi bir həqiqət doğacaq.
Öz solunun sirrini pıçıldamaz o, sağa,
Nəzarətə dönübdür o, təpədən-dırnağa.
Qınamayın siz məni,
Yalanlardır ərsəyə çatdıran hər şübhəni.
Şübhə! Hər sözə şübhə,
Qulağa, gözə şübhə,
Fikrə, kəlama şübhə,
Arzuya, kama şübhə,
Eşqə, diləyə şübhə,
Şübhə! Hər şeyə şübhə –
Beynimizdə sozalan
Dilimizdə söz olan
Xəyalı da, fikri də necə axtalamışdır,
Şübhə – oğru gözüylə bu dünyaya baxışdır.
Nəzarətçi qadında qəzəbə bax, kinə bax.
Bir həftə bundan qabaq
Müfəttişlər min manat kəsir tapmamışdımı

Onun mağazasından?
Niyə hirslənməmişdi bəs o zaman o, bundan?
Bu məqamda hirs nədir?
Gülümsəmək gərəkdir,
Yoxsa, iş bitəcəkdir.
Gülümsədi,
Əl açdı düyün düşən kələfə.
İndi niyə düşünmür aldığından üç dəfə
Artıq rüşvət verdiyi, sarsıldığı o günü?
İyirmi beş qəpiklə bəlkə örtmək istəyir
Verdiyinin üstünü?
–Ay xala, mən, inan ki...
–Kəs səsini, avara!
Xala yaman qışqırdı.
Qışqırmasın, neyləsin, oğru gərək
qışqıra...
Qışqırır ki, doğrunun qorxub bağrı
yarılsın,
Doğrulara, düzlərə hədləri qandırılsın.
Kağız, qələm gətirdi.
–Adın?
Uşaq dinmədi.
Bir də, bir də o, sordu.
Uşaq elə susurdu.
Susurdu, qorxurdu ki, ünvanını bilsələr,
Bu işdən xəbər tutar
Yazıq, xəstə anası,
Anasında ürək yox, bu dərdə tablanası.
–Susur ki, yaxasından əl çəkək,
səhv edirsən!

Boş yerə həm özünü,
                    həm bizi incidirsən.
İnadına bax bunun!
Müdafiə yoludur inadkarlıq oğrunun.
–Yox, mən oğru deyiləm,
          Bacarmaram onu mən!
Qadın coşdu daha da:
–Üzr istəməliykən,
                    Dediyindən dönməyir,
                    İnad edir bu yenə.
Deyə, qalxıb zəng çaldı o, milis şöbəsinə.

* * *

Milislərin önündə Saşa müqəssir kimi
Gedir başı aşağı.
Günah yıxıb boynuna
                    Bir gündə on, on beş il
                    Böyütdülər uşağı.
Görəsən, əl-qolunu niyə bağlamayıblar?
Belə mahir «qulduru», yoxsa, uşaq sayıblar?
Saşa gedir
          Milislərin önündə,
Lap məktəbin tinində
Gördü sinif yoldaşı Lida Korolenkonu,
Yana tutdu üzünü.
                    Amma iş-işdən keçib,
                    Çoxdan görüb qız onu.
Qız əvvəl inanmadı,
İnanmadı gözünə.

Sonra gördü özüdür,
düşündü: «Günahı nə?
Adam nahaq tutulmaz, bir təqsiri var yəqin.
Böyüklər düz deyirmiş:
Adamları tanımaq çətin imiş, çox çətin...
Mənsə onu...
hamıya qısqanırdı o, məni...»
Elə bu dəm Saşa da
Düşünürdü Lidanın ürəyindən
keçəni.

* * *

Milis idarəsində
Sual-cavab başlandı
qanun dairəsində:
–Adın?
–Atanın adı?
–Familyan
və sair
O, bütün suallara cavab verdi birbəbir.
Saşa başa düşdü ki, budur işin qaydası,
Artıq inadkarlığın yoxdur ona faydası.
Anket də doldurdular.
İyirmi beş qəpiklik bu «böyük» cinayətin
Hər yönünü sordular.
Nəsihət də verdilər,
Hələ Makarenkodan
Tərbiyə barəsində
Misal da gətirdilər.

İltizam da aldılar hələ onun dilindən:
«Bu səhvə yol verməræm gələcəkdə bir də mən»

### 2. XƏSTƏXANADA

Bu gün tibb bacısı iynə vuranda
Ananın ürəyi getmiş bir anda.
Min bir əziyyətlə yenə həkimlər
Özünə gətirmiş onu birtəhər.
Ayılıb axtarmış ana, oğlunu,
«Bu saat Saşanı çağırın» - demiş.
Uşağın ardınca gedənlər, onu
Axtarıb heç yerdə tapa bilməmiş.

Qapıya zillənib ana gözləri,
Saşanı gözləyir səhərdən bəri,
Ana ürəyi tək dərinlik hanı,
Baş vura bildikmi biz bu ümmana?
Uşağın başına gələn qəzanı
Hələ əvvəlcədən hiss etmiş ana.
Huşunu itirib, getmiş özündən,
Bu fəhmə, bu hissə məəttələm mən.
Elə ki, qapıda Saşa göründü,
Sevincdən qəşş edib ana hönkürdü.
–Hardaydın, ay oğul, bəs bu vaxtacan,
Bilmirsən, yolunu gözləyir anan?
–İki seriyalı bir kino vardı,
Vallah, Dimka məni zorla apardı.
–Yaxşı eləmisən, sən çoxdan bəri
Kinoya getmirdin...

Doldu gözləri.
Saşa bilmədi ki, neyləsin bu an.
Dilində göynəyən ağ yalanından
Utandı,
Başını o, dikdi yerə.
Saşa həyatında birinci kərə
Yalan danışırdı.
                    Yalana bir bax!
Günahsız yalandan utanır uşaq.
Onu bu yalana məcbur edənlər,
Yalandan, böhtandan məqsəd güdənlər
Günahlı yalandan utanmaz, ancaq
Günahsız yalandan utanır uşaq.
«Mən yalan danışdım,
Anam inandı,
Gerçək olmasa da o, doğru sandı.
Amma mağazada bir qədər əvvəl
Mən doğru danışdım, inanmadılar.
Mənim doğrumu da düz sanmadılar».
Anam doğrudanmı inandı?
                    Nədən
Kinonun adını sormadı məndən?
O, məni tutmadı sorğu-suala,
Susdu... Amma düşdü o, haldan-hala.
Axı, mənim anam belə deyildi,
Yalan dediyimi bəlkə o, bildi?
Heç nə sormadı.
Yoxsa, yalanımı üzə vurmadı?
Ağrının ardına calandı ağrı.
«Mən niyə dolaşdım, mən niyə çaşdım?
Mənə ömrü boyu düz danışmağı

Öyrədən anama yalan danışdım.
Yox, o başa düşdü.
Bəs, neyləyəydim?
Mən ona bu dərdi necə deyəydim?
Necə deyəydim ki, ay anam, öyün,
Mən oğru adını almışam bu gün.
Demək olardımı bu sözü ona?»
Keçmiş bir əhvalat düşdü yadına:
... Saşanın dayısı neçə il qabaq
Onlarda qonaqdı, əziz bir qonaq.
Bir gün dayı evdə tək olan zaman
Birdən işıq sönür...
            o, qalxıb haman
Sayğacı düzəldir...
            İşıqlar yanır,
İşindən bir az da o, qanadlanır.
Hələ işıq pulu az gəlsin deyə
Sayğacda rəqəmi çəkir geriyə.
Axşam bacısına deyərkən bunu,
Ananın bir anda tutulduğunu
Saşa xatırlayır hələ bu gün də,
Hamıya örnəkdir o, düzlüyündə.
Hər kəsdən həmişə düzlüyə hörmət,
                    sədaqət umar.
Ana qardaşına dedi: – Bu saat
Sayğacın milini yerinə qaytar!
Dayı: – Qəribəsən, - dedi, – ay bacı,
İndi yaşamağın budur əlacı.
Doğruluq, düzgünlük indi nə gəzir?
Məgər bilmirsənmi, birinin əli
İndi o birinin cibində gəzir?

Ana qəzəbləndi: – Sən gəl haqq sözü,
Yalana boyayıb salma səs-küyə.
Düzlük istəyənin ən əvvəl özü
Əgər düz olmasa, vay o düzlüyə!
Başqası vicdanı pula satanda
Biz gərək deməyək bizə dəxli yox!
Sayğacda halala haram qatanda,
Biz həm yalançıyıq, həm də oğruyuq.
Ölümdən min dəfə betərdir ancaq
Mənimçün yalançı və oğru olmaq.
... Bu sözlər indi
Saşanın yadına düşdü,
Diksindi.
Onun ürəyində qalxdı bir qiyam:
«Saf ikən, düz ikən anam bu qədər
Mənsə, doğrudan da, həm yalançıyam,
Həm də oğru sandı məni özgələr...»

Susdular bir an.
Bala qəlbindəki fırtınalardan
Xəbərsiz ana
Fərəhlə, qürurla baxdı oğluna
Sonra da başladı sorğu-suala:
–Bu gün nə yemisən?
–Marusya xala
Sıyıq bişirmişdi.
–Kolya yedimi?
–Onu hər gün dərsdən qayıdan kimi
Özüm yedirirəm.
–Ağlamır?
–Xeyr.

Nə desəm eləyir, nə versəm yeyir.
Mənə dedilər ki, bu gün səhərdən
Halın...
-Görürsən ki, lap yaxşıyam mən.
Nədənsə, ana
Səhərki sancını demədi ona.
–Bəs atan necədir?
–Yaxşıdır, o gün
Gözəl bir çanta da alıb mənimçün.

Necə də xoşbəxtdir bu anda Saşa,
İndi o, bir qədər özünə gəlmiş.
İndi anasının yanında Saşa
Bildi ki, dünyada o, tək deyilmiş.

Milis şöbəsində elə bu səhər
O, necə yalqızdı,
O, necə təkdi.
Elə bil o donuq üzlər, o gözlər
Onu bir qurd kimi gəmirəcəkdi.

Canavar ağzından qaçan quzu tək
Gör necə sığınıb o, anasına.
Bəlkə bilməmişdi o, bu vaxtadək
Anası nə qədər gərəkmiş ona.

### 3. CƏZA

Ana sığalından, nəvazişindən
Özünə gəlmişdi Saşa bir qədər.

Evə girən kimi dəyişdi birdən,
Üzünə dayandı qəlbindəkilər.

Dərdi tikan oldu, sancdı ürəyi,
Qalxıb dibçəklərə su verdi Saşa.
Qəfəsdən boylanan Sarıköynəyi
Fit ilə bir ağız dindirdi Saşa.

Baxdı dibçəklərə, o baxdı bir an,
Oxşadı gülləri, tər qönçələri.
Gördü, unudammır başından aşan
Müdhiş fikirləri, düşüncələri.

Saşa bu həyatın ilk zərbəsindən
Sarsıldı,
Özünü itirdi birdən.
Adicə, sadəcə bir uşaq idi
Saşa on üç illik ömrün içində.
Elə ki, üzünə dərd şillə çəkdi,
Bir ömür yaşadı bir gün içində.

Dünyanın qəsdini o, hardan bilə,
Axı, o, həyata hazır deyildi.
Uşağın uşaqlıq təmizliyilə
Dünyanın sərtliyi üz-üzə gəldi.

Həyatın cəbrini dadmadığından
Sandı ki, bu dünya ovucundadır.
Xəyal həqiqətlə toqquşan zaman
Faciə törəyər!..
Dəhşət bundadır!

Onunla bərabər ötərdi şən-şən
Əl-ələ, qol-qola gəzərdi dünya.
Bir günün içində dəyişdi birdən
Uşağın üzünə bozardı dünya.

Onun xəyalında, düşüncəsində
Dünya al-əlvandı, ala-bəzəkdi.
Bəs, ona nə oldu?
            Bir gün içində
Bu dünya üzünə qaramı çəkdi?
Uşaq hardan bilsin, dünyanın nədən
Min üzü,
Min sözü,
            min də rəngi var.
Bizi gah ağladan, gah da güldürən
Həyatın insanla min bir cəngi var.

Dünya uşaqlarçın aydın, apaşkar,
Burdan bura qədər...
Bu qara, o ağ.
Rənglər arasında çalarlar da var,
Rəngi seçə bilməz çalardan uşaq.

Anlaya bilmədi, adi gerçəyə
Niyə inanmadı adamlar, niyə?
O, bir insan kimi dindirilmədi,
Sadə ürəyilə Saşa bilmədi,
Ordakı haqq xəstə, yalan həkimdir,
Düzə, həqiqətə inanan kimdir?
Bilmədi,
Bilmədi,

nə bilsin uşaq,
Yalan arxalıdır, həqiqət təkdir.
Yalan sübutsuz da ötüşər, ancaq
Düzə, həqiqətə sübut gərəkdir.

Dükandan çalınan o min manatı
Örtdülər yalanla, belədir qayda.
Oğurluq doğruldu... Yalanın atı,
Gerçəyin atını qoydu arxada.

Oğurluq ağacı yalan bitirdi,
Oğurluq yalanla sazişə girdi.
Yalanın başında həqiqət tacı,
Yalanın sübuta nə ehtiyacı?

İyirmi beş qəpikçün ancaq uşaqdan
Sübut istədilər doğruluğuna.
Baş-ayaq dünyadır, zənbildən çıxan
Süzmə sübut oldu oğurluğuna.
Di gəl, sübut elə düz olduğunu,
Qəsdən əyriliyə yozulduğunu.

Oğrular tutulmur, oğru olmağın
Yolunu öncədən bilir oğrular.
Doğrular tutulur, doğru olmağın
Gərək cəzasını çəkə doğrular.

Dünyanın cəbrini dadmadığından
Saşa elə bildi dünya bal dadır.
Xəyal həqiqətlə toqquşan zaman
Faciə törəyir! Dəhşət bundadır.

Nəzarətçi qadın baxır qəzəblə,
Ona dar otağın hər bucağından.
Milis də «yaz» deyir min bir tələblə
Təhqirlər eşidir sol və sağından.

Ona kinayəylə baxır uzaqdan
Lida da bildirir öz nifrətini.
Ona «oğru» - deyir döşəmə, tavan,
Yadına salırlar «cinayətini».
Hamıyla astadan danışıb dindi.
Elə bil içində boğulub səsi.
Hər kəsdən çəkinib anladı indi
Nə pis səslənirmiş «oğru» kəlməsi.
Beləcə yaşamaq ona göz dağı,
Götürmək mümkünmü bu qəbahəti?
Durdu gözlərində ata danlağı,
Dəldi qulağını ana töhməti.

Suallar, cavablar hələ nə qədər,
«Aktı məktəbə də göndərəcəklər.
Orda müzakirə,
qərar
və töhmət!
Mən tövbə etməli, onlar nəsihət!

Tövbə? Nəyə tövbə? Neyləmişəm mən?
Hələ bir tövbə də çıxsın dilimdən?
İşə bax, yamanca düşmüşəm tora.
Neyləyim, nə gələr mənim əlimdən?
Milisin yazdığı kağızdan sonra
Axı, kim inanar, günahsızam mən?»

Bu an ürəyində inlədi bir səs,
Üşütmə sarsıtdı içindən onu.
Düşündü: «Mən niyə bilməmişəm bəs,
Dünyanın bu qədər pis olduğunu?»
Özünü bir qədər o, ələ aldı,
Sabahkı dərsləri yadına saldı.
Dərdindən, qəmindən umdu rahatlıq,
O, möhlət istədi bircə saatlıq.
Qovdu beynindəki sual-cavabı,
Qoydu qabağına dəftər-kitabı.
Fikrini topladı...
riyaziyyatdan
Çətin məsələni həll edə bildi.
Özünün ilk həyat məsələsini
Həll edə bilmədi, Saşa kəsildi.

Həyatın önündə susdu, tutuldu,
Amansız həyata o, təslim oldu.
Qaynadı beynində bir fikir onun
Qalxıb toqqasını qış paltosunun
Açdı,
Tavandakı halqaya saldı,
Bir an gözlərində dünya qaraldı.
Toqqadan yapışıb yumdu gözünü,
Ləyaqət beləcə asdı özünü.

Qərar çıxarmaqda yaman tələsdi,
O, ölüm hökmünü özünə kəsdi.
Soyuqqanlılığa, qəlbi buzluğa
Qanunlar adına qanunsuzluğa
O, hökmü, qərarı çıxarmalıykən...

Bunu mən deyirəm,
Mən deyirəm, mən!
Ancaq bu gələrdi onun əlindən!
Haqsız cəzasıyla, öz ölümüylə
Oyatmaq istədi o, bizim hələ
Yatan, mürgü döyən vicdanımızı,
İnamı tərk edən imanımızı.

Ədalət adına bu kişi oğlan
Ölürkən qışqırdı «Mən varam» - deyə
Özünə kəsdiyi haqsız cəzadan
Haqlı cəza umdu, o, əyriliyə.

Oğrular «oğrusan» dedilər ona,
Ölümə gedirkən mərdi-mərdanə.
Məsələ həll edib borc ödəyən kəs
Haqqından artığı götürə bilməz.

Bizdən çox böyükmüş bu böyük uşaq,
Dünya insandakı bu qata borclu.
Ölüm qabağında böyüklüyə bax,
Qalmaq istəmədi həyata borclu.

Sən bir uşaqdakı dəyanətə bax,
Bununla daş atdı bu yazıq uşaq
Əyriyə düz deyən əxlaqsızlığa.
Haqsız ölümüylə o, haqsızlığa,
Yalana, böhtana ölüm istədi.

Onlar ölməliykən «mən ölüm» - dedi.
«- Onlar var olduqca ədalət də yox,

Həqiqət özünü var saya bilməz.
Onlar sağ olduqca düzlük, doğruluq
Ölər mənim kimi, yaşaya bilməz».

Onun ləyaqəti tapdanmış bu gün.
Bu itki ölümdən betərmiş ona.
Saşa ləyaqəti qaytarmaq üçün
Adını doğrultdu can bahasına.

Sən bir uşaqdakı şəxsiyyətə bax!
Şəxsiyyət insanı böyüdər ancaq.
Ölümlə dünyaya dedi sözünü
Təmizlik önündə o həm özünü,
Həm də ətrafını tamam unutdu.
Günahsız ölümü o, uca tutdu,
Ləkəylə qol-boyun yaşamasından.
Bu yerdə adından böyükdür insan!

## 4. İSTİNTAQ

İstintaq başlandı... Doldu varaqlar
Tapa bilmədilər, kimdir günahkar.
Əvvəl dindirdilər nəzarətçini:
– Günahkar bilməyin burda siz məni.
Süzmənin pulunu vermədiyindən
Qaçmaq istəyirdi, yaxaladım mən,
Oğurluq şagirdə yaraşmaz – dedim,
Mən ona tərbiyə vermək istədim...
Əcəb tərbiyədir,

bu tərbiyədən
Özü özünə də o, verəydi kaş.
Suallar yağırdı: – Nə üçün?
Nədən?
Qadının gözündə gilələndi yaş.
Müstəntiq düşündü: «Öz əməlinin
Suçunu anlayıb ağlayır yəqin...»
Müstəntiq aldanmış... İşə bax yenə,
Burda da, qalırmış o, öz dərdinə:
– Niyə ağlayırsan?
– Bəs, ağlamayım?
Zəhərə dönübdür çörəyim, çayım.
Bu nə yazı-pozu, bu nə çək-çevir?
Hər ağzı söz tutan bir sual verir.
Vallah, lap başımı itirmişəm mən.
Bir qadın evimə zəng çalıb dünən
Mənə nələr dedi... Belə dərd olar?
Axı, nə istəyir bizdən adamlar?
Həmişə qorudum təmiz adımı,
Şikayət olmayıb bir işimizdən.
O gün də kəsdilər mükafatımı,
Zərbəçi adını aldılar bizdən.
Bu dəfə başladı o hönkürməyə,

Gör nəyə ağlayır bu qadın, nəyə?
Uşaq «uf» demədən keçdi canından
Ləyaqət adına, düzlük adına.
Bu isə... keçməyib öz imkanından
Ağlayır kəsilən mükafatına.

Necə də əzizdir ona öz canı,
Baxmır nə arxaya, nə önə, ancaq.
Görmür özgəsinin can qurbanını,
Yas tutur özünün çöpünə ancaq.

Vicdana, ürəyə bax sən ondakı,
O da bir adamdır, bu da bir adam.
Amma adamların arasındakı
Bu boyda bir fərqi mən anlamıram.

İnsandır, bəs onda insanlıq hanı,
O nəyə satıbdır qəlbi, vicdanı?
Satıb nəyə isə... Satıb əlqərəz,
Nə alıb, görəsən, əvəzində bəs?

– Söylə, bu xəbəri eşidəndə sən,
Neylədin?
– Yadımda deyil... O gündən
Anlaya bilmirəm, neçin bu uşaq
Özünü öldürdü?..
                    Suala bir bax!
Yox-yox! Qınamayın əsla siz onu.
Anlaya bilərmi oğru doğrunu?
O, hardan anlaya, o, hardan bilə
İnsan insan olub ləyaqətilə.
O, hardan bilə ki, insan olan kəs
Oğru damğasıyla yaşaya bilməz
Saşanın qəsdini o anlamadı,
O ki, əyriliyə adətkərdədir.
Yazıq hardan bilə təmiz bir adı

Həyat bahasına qorumaq nədir.
Ey insan adını daşıyan qadın,
Bir uşaq ömrünü sən oğurladın.
Günahkar bilmədin özünü hələ,
Səbəbkar olduğun bu ölüm belə
Səni sarsıtmadı, qorxutdu ancaq
Qorxdun ki, bu ölüm baş ağrıdacaq.
Burda da özünü düşünən qadın,
Sən insan adında insan olmadın.
Ey əsrin insanı, vallah, çaşmısan,
Qəlbindən, hissindən uzaqlaşmısan.
Xəyallar dalınca sən öz qəlbini
Uçura bilməzsən... Bitib nağılın.
Eyni bir xətt boyu fırladır səni
Sənin maşın ağlın, avtomat ağlın.
Sənin ürəyin də maşına dönmüş,
Yanmaq üçün deyil, qanmaq üçünmüş.

Geyimin, kecimin yaman müasir,
Eynək, cinsi şalvar, layka və sair.
Dəblə geyinməkmiş mədəniyyətin?
Oğurluq özü də dəbdədir bu gün.
Bu dəbin hörməti artır ilbəil,
Bacaran tayından çox oğurlayır.
İndi oğurluğu bir günah deyil,
Sənə bənzəyənlər bacarıq sayır.
Çölün bər-bəzəyi... Bu təmtərağın
İçin boşluğuna, yoxsa, bir əvəz?
Bir illik aylığın, təkcə laykanın
Bazar qiymətini ödəyə bilməz.

Sən təmiz vicdandan danışdın... Hanı?
Sözlə həqiqəti tora salmısan.
Əgər təmizsənsə, bəs o laykanı,
O cinsi şalvarı necə almısan?
Bəli, dəbə düşüb indi oğurluq,
Mənəvi yoxsulluq, mənəvi korluq.
Torpaq oğrusu,
Tarix oğrusu.
Millət oğrusu,
Zəhmət oğrusu,
Beyin oğrusu,
Şöhrət oğrusu,
Qeyrət oğrusu.
Bilmək çətindir,
                hara gedir bu?
Mənəvi şikəstlik, mənəvi korluq
Asdı insanlığı həmişə dardan.
Ana təbiətdə yoxdur oğurluq
Onun övladında bu sifət hardan?

Mədəni sayırsan özünü yəqin
Amma bilmirsən ki, mədəniyyətin
Yalnız əynindədir...
                        Çölü bəzək ikən
                        İçi təzəksən.

Müxbirə söylədi milis rəisi:
– Bu işdə günahkar bilməyin bizi.
Hər kəsə atmayın söz kəməndini,
Deyin, təlimatın hansı bəndini

Pozmuşuq?
İnsafən, rəis haqladır.
Onların hər işi təlimatladır.
Rəis təkcə bunu biləydi barı:
İnsan ürəyinin həyəcanları
Heç bir təlimata sığışa bilməz.
Amma... duyğu var ki, o çeynənilməz!

Hər insan qəlbinin öz dünyası var,
Hər bir dünyanın da yüz dünyası var.
Yoxdur ürəklərdə duyğunun sonu.
Adi gözlə baxma sən bu həyata.
Əlvan duyğuların təmənnasını
Sala bilərsənmi bir təlimata?

Hər qəlbin, duyğunun öz açarı var,
Onu tapmadınsa, müşkül ötüşməz.
Ürək qapısını tək ürək açar,
Təlimat açarı ürəyə düşməz.

Saşanın yazdığı iltizam bu gün
İttiham aktıdır hər birimizçün:
Yazıb öz əlilə: «Gələcəkdə mən
Səhvə yol verməərəm bir də təzədən».

«Gələcək» sözünü yazdı səsbəsəs
Bu sözü yazanda nə çəkmiş ürək?
Onun gələcəyi hanı? İndi bəs
Biz o gələcəyi kimdən istəyək?

Bir yanda «gələcək», bir yanda ləkə,
Onu haqq-hesaba çəkirdi gendən.
«Gələcək» sözünü yazanda bəlkə
Əlini üzmüşdü gələcəyindən.

Amma bilmədilər daş ürəklilər
Qanın istisini daş hardan bilər?
O, öz ağrısını tək özü bildi,
Onun gələcəyi qurban verildi
İyirmi beş qəpiyə...
                    Belədir, əlbət.
Bəlkə baha gəlir sizə bu qiymət?
Siz də bilmirdiniz öləcəyini.
Doğdu bir xatadan başqa bir xata.
Saşanın məhv olan gələcəyini
Buyur, cənab rəis, sal təlimata!

## 5. KİMDİR GÜNAHKAR?

Beləcə, bağlandı cinayət işi.
Demə, bu ölümdə yoxmuş günahkar.
Cansız məcəllənin öz göstərişi
Belədir...
          Bu hökmə nə sözünüz var?
O, həm ölən imiş, həm də öldürən
Üstəlik özünə cəza da verən.

Bu işin üst qatı belədir yəqin
Alt qatı?..
Gələmməz bu qat qələmə...

İyirmi beş qəpiklik bir cinayətin
Dəyəri bir insan ömrüymüş, demə...

Günahkar yox imiş,
Səbəbkar necə?
Bu oyun qurtardı, yoxsa, heç-heçə?

Qorxulu o deyil, bir insan ölə,
Biz ona «qədərin hökmüdür» - deyək.
Qorxulu odur ki, ölənin hələ
Əsl qatilini tapa bilməyək.
Onda bu günahı hamıya payla,
Hərənin boynunda bir qətrəsi var.
Onda bu ölümdə dolayısıyla
Sən də günahkarsan, mən də günahkar.
Öldürür özünü artıq bax belə –
İnsan öz əlilə, öz əməlilə.

Bu, belə gedərsə, vay halımıza,
Yas donu geydirək amalımıza.
Qorxuram dünyada bir zaman gələ,
İnsanlar yaşaya, insanlıq ölə.
Ey əsrin övladı, vallah, çaşmısan,
Ulu əcdadından uzaqlaşmısan.
İnsan böyüdükcə, bilmirəm nədən,
Qaçar fitrətindən, qaçar özündən.
Olar öz içində özünə dustaq.
Özgələr önündə könlünü bağlar.
Bizim tək, bir cürə düşünüb, ancaq
Başqa cür danışa bilməz uşaqlar.
Uşaqlıq dövründə bəşəriyyətin

Uşaq da, böyük də beləymiş yəqin.
Dəyişib, sandıq ki, ağıllanmışıq,
Sən demə, çox şeyi itirmişik biz.
Ağılı qazanıb, hissi danmışıq,
Dandıqca soyuyub ürəklərimiz.

«Mənə nə var»ları düz yol sanmışıq,
Özgəni duymayıb «ağıllanmışıq».
Ağıl çevriləli tamahımıza,
Çata da bilmirik iştahımıza.
Ürək əvəzinə ağıl döyündü,
Yaman bildiyimiz yaxşıya döndü.
Piyada getmişik ürəksizliyə,
Maşınla dönmüşük, «qadirik» - deyə.
Biz bütün bunları qələbə sandıq,
Nəyi itirmişdik, nəyi qazandıq?
Dünyada dünyalar yaradan insan
Yolunu azdımı, yoxsa, çaşdımı?
Nur səpdi dünyaya öz kamalından,
Mənəvi dünyası yoxsullaşdımı?

Dəyişdi əməl də, dəyişdi söz də,
Hələ bir üstəlik xislətimiz də:
İnsan duya bilmir öz həmcinsini,
Yoxsa, yavaş-yavaş danır irsini?
Bundan qorxmalıyıq, budur təhlükə:
Yeni insan növü yaranır bəlkə?

Ölən arvadının qızıl dişini
Çıxardan ərə,
Ata bir, ana bir öz qardaşını

Həbsə düşdüyüçün danan kəslərə,
Ana-atasını evindən atan
Oğula, qıza,
Çürük mənliyini stola satan
Bir əxlaqsıza,
Öz ana dilini özgə dil sayan,
Özgənin önündə quyruq bulayan
Namussuz, şərəfsiz vətənsizlərə,
Haram yüzlükləri cibinə dürtən
Həris gözlərə,
Çirkin əməlini yalanla örtən,
Ağlına güvənən könülsüzlərə
Nə ad verək biz?
Bu adla soyusun ürəklərimiz.
Sabahkı havanı dünəndən bilən,
Yazda xoruzlanıb, qışda əkilən,
Kiçiklər önündə böyük görünən,
Böyüklər önündə sərçəyə dönən,
Ucalar yanında boyunu danan,
Əslini, kökünü, soyunu danan,
Təzə növ insana öz qəzəbindən
«Manqurt» ləqəbini verənə əhsən!

İlbəil azalan quşlar, bitkilər,
«Qırmızı kitaba» düşür son illər.
Qorxuram, manqurtlar həddini aşa,
Məsləkə dırmaşa, qəlbə dırmaşa,
Sonra əl uzada kökə, fitrətə,
Yeni növ çoxala, köhnə növ itə.
Qədim binaları yaşatmaq üçün
«Bərpaçı» şirkəti yaranmış bu gün.

Çoxdan unudulmuş,
Nəfsə qul olmuş,
Müqəddəs hisslərin, həyəcanların,
Gözəl duyğuların, saf vicdanların
Gəlin, bərpaçısı olaq, adamlar.
Yoxsa, halalı da haram haramlar!

* * *

Yaxınlar, uzaqlar düşdü səs-küyə,
Ata da gah onu, gah bunu dinlər.
Bala ölümünü xəstə anaya
Deyə bilmədilər,
Necə desinlər?
Elə ki, xəstənin keçdi böhranı,
Qohumlar yığışdı xəstəxanaya.
Olmuş əhvalatı, bitmiş qəzanı,
Dedilər astaca yazıq anaya.

O susdu,
            dinmədi,
                        nə deyəcəkdi?
Amma birdən-birə, o, qıyya çəkdi.
Qalxdı yerindən.
Yapışdı ərinin ətəklərindən.
Qışqırdı: – Günahkar tapılmayıb bəs?
Susdular...
– Heç kəsin ağlına gəlməz.
Amma mən bilirəm kimdir günahkar.
Mənim bilməyimə şübhənizmi var?
Kimdən tələb edim balamı, kimdən?

Heç kəsdən!..
Bu dərdi qoy bilsin aləm.
Saşanı insan tək böyütdüyümdən
Onun ölümündə günahkar mənəm.

Müstəntiq hardadır? Çatdırın ona
Əsl günahkarı tapmışıq – deyin.
Ədalət adına, qanun adına
Hakimdən anaya cəza istəyin!
Düzgün tərbiyəymiş, demə, günahkar,
Bunu kinayəylə dedi o ana,
...Bilmədik xəlvəti, ya açıq-aşkar,
Xeyir şərə dönmüş, yaxşı yamana.
Bir də ayıldıq ki, yalan, oğurluq,
Adicə qaydadır,
            Xəbərimiz yox!

Ana nə biləydi, haqqın, gerçəyin,
Susması nə günə salacaq onu.
Düzgün tərbiyəsi,
            bir halqa təkin
Boğacaq bir zaman öz övladını.

## EPİLOQ

Vuruşub qorudu dueldə Puşkin
Qanı bahasına şərəf, şanını.
Zasuliç günahsız güllələnmişin
Aldı generaldan intiqamını.
Saşa hissi ilə ayırmış yəqin

Doğrudan əyrini,
Yaxşıdan pisi.
Saşa – puşkinlərin, zasuliçlərin
Ləyaqət varisi, qeyrət varisi!

Xeyir həqiqətdən, şər, şərdən doğar,
Haqdan yaranıbdır, haqdan dünyamız.
Yaxşı ki, dünyada saşalar da var,
Yoxsa, dağılardı çoxdan dünyamız.

Demə ki, yaxşılar pislərdən azmış,
Yaxşılar köçdükcə talanır dünya.
Ləyaqət naminə özünü asmış
O əllər üstündə dolanır dünya.

Açaq süfrə kimi ürəyimizi,
Tısbağa deyilik, çıxaq bu qından.
Atom bombaları məhv etməz bizi
Qorxaq insanlığın məhv olmasından.

İnqilab gərəkdir düşüncələrdə
Köhnə beyinlərdə inqilab olmaz.
Ədalət, mərhəmət var olan yerdə
Atom bombası da, vallah, açılmaz.
Havada oksigen azalır-deyə
Qorxuya düşmüşük...
            Amma biz niyə
Qorxmuruq bir an
Mehri-məhəbbətin, gözəl ülfətin,
            xeyirxahlığın,
            səmimiyyətin

azalmasından?
Gəlin, özümüzü biz insan sayaq,
Hissdən, həyəcandan, gəlin, qorxmayaq.
Qorxaq şirin-şirin
təbəssümlərin
Ardında gizlənən min bir kələkdən,
Qorxaq başqasına biganəlikdən.
Qorxaq, əməl qala quru söz təki,
Qorxmayaq, dünyanın puç olmasından,
Qorxaq adamların öz içindəki,
Mənəvi dünyanın dağılmasından.

*Oktyabr 1986*

# İKİ QORXU

*Mərhum bəstəkarımız Qəmbər*
*Hüseynlinin xatirəsinə*

Mənim dostum idi, mahnılarından
Torpaq ətri gələn bəstəkar Qəmbər.
Dillərdə gəzərdi bizim bir zaman
Qoşa yazdığımız şirin nəğmələr.

Xoşuna gələndə yazdığım şeir,
Sözün alovuna bürünərdi o.
Bir anın içində tamam dəyişər,
Başqa bir sifətdə görünərdi o.

Şeiri dönə-dönə o, oxuyardı,
Sözün nəğməsinə dalar, uyardı.
Sonra dindirərdi astadan tarı,
Muğam naxışları, muğam xalları
Süzülüb axardı barmaqlarından;
Külçə götürərdi söz dağlarından.

Alardı ilhamı sözdən, şeirdən,
Sənət meydanında çapan bəstəkar;
Muğamdan nəğməyə keçərdi birdən

Şeirin nəğməsini tapan bəstəkar.
Amma həmişə
Ala gözlərində bir kədər vardı.
Bilirdim, zamanla gəlmiş döş-döşə,
Odur ki, hər yerdə az danışardı.
Özü deməmişdi, bilirdim,
onu,
Neçə il qabaq
Həbs eləmişlər.
Günahı nə imiş, bilmirdim, ancaq
Nə mən soruşardım,
Nə o deyərdi.
Söhbət bu mətləbə yaxınlaşanda
Sözü dəyişdirib təzələyərdi.

Açıqca görürdüm, gizli dərdi var,
Adamlar içində çox zaman susar,
Xatalı söhbətdən yan keçərdi o,
Yüz ölçüb, min ölçüb,
Bir biçərdi o.
Neçə il zindanda əzab çəkəli
Dolandı həmişə o, səksəkəli.
Məgər yalnız omu?
Xeyr, hamımız.
Qaldı gözümüzdə bütün kamımız.

Qorxu qayda oldu, adicə qayda,
Qorxudan don biçdi əyninə illər.
Bu məmləkət boyda həbsxanada
Dustaq olmadıqmı hamımız məgər?

Gülmədi bir dəfə üzünə illər,
Kiçik bir daxmada yaşadı Qəmbər.
İçində dəfn etdi dərdi-sərini,
O bildi, yox imiş yazıya pozu.
Tar üstə yaratdı nəğmələrini,
Nə royalı vardı, nə pianosu.
Əlçatmaz zirvəyə daim can atdı,
Ucalıq eşqinə yazdı, yaratdı.
Amma neyləyəsən, bəyənmədilər,
«Qəmbər tar üstündə yazır» - dedilər.
Guya saz avazı, guya tar səsi,
Ulu dədələrin ulu nəğməsi
Uyuşmur zamanın öz ahənginə,
Əsrimiz sığışmaz saz ahənginə.
Ruhumuz qovuldu musiqimizdən,
Uyduq uzun illər caz ahənginə.
Bir soran olmadı, ay qardaş, nədən
Axı, baş yerinə ayaq tərpədən,
Bizi səmalardan yerə endirən,
Özgə qapısında veyilləndirən
Dayaz rok-en-rollar göyə ucalsın,
Üzeyir məktəbi yetimmi qalsın?
Hara çəkirsiniz musiqimizi,
Nadanmı sandınız bu qədər bizi?
Amma o satqınlar çatdı şərəfə.
Qəmbər bir dəfə
Mənə gileyləndi güzaranından,
Ürəyim sıxıldı...
Soruşdum ondan:
– Bəs səni nə üstə həbs etmişdilər?
Birdən barıt kimi açıldı Qəmbər:

– Bilmirsən? Dünyanı lənətləmişdim.
«Ellər atasına»* düşmən demişdim.
Bu boyda ölkəni saldı nə günə.
O qəddar, o zalim, müdhiş zülmünə.
Bir dəfə demədi, həvəsdi, bəsdi,
Düşünən kəslərin başını kəsdi.

O, nəsə andı,
Birdən dayandı...
Anladım onu, -
Mən başa düşdüm
Niyə birdən-birə tutulduğunu.
O dözə bilmədi, birdən danışdı,
Sonra dediyinə peşmanlamışdı.

O susub dinməmiş, susarkən hələ
Onun əsiriydi qəlbinin sözü.
Dözmədi, partladı,
öz əsirinə
Dönüb əsir oldu indi o, özü.
Qorxuya düşmüşdü dediklərindən,
O, birdən dayandı, o birdən susdu.
Yəqin ki, çəkindi, o qorxdu məndən,
Düşündü: «Bu şair bəlkə casusdu».

Sənə tanış deyil bu hal, ey cavan,
Qorxardıq doğmaca qardaşımızdan.
Dədəsini satan az olmamışdı
Yalnız yaşlılara bu hal tanışdı.

---

*O zaman Stalinə "Ellər atası" deyərdilər.

Rütbə sata-sata, yer sata-sata,
Çoxları hörmət də qazandı bol-bol.
O vaxt şübhəliydi oğuldan ata,
Gəlindən qaynana, atadan oğul.
O vaxt susardılar xeyirdə, şərdə,
İdrakı, vicdanı əzərdi şübhə.
O zaman evlərdə, idarələrdə
Qara kabus kimi gəzərdi şübhə.
Yaman yeyin idi şübhənin atı,
Hamımız qul idik, o, bəydi ancaq.
Birinin birinə münasibəti
Şübhəydi,
şübhəydi,
şübhəydi ancaq!
Odur ki, qorxardıq bir-birimizdən,
Qorxu saçılardı gözlərimizdən.

Düzlüyü, mərdliyi döşlədi qorxu,
Bir əsər qalmadı vüqarımızdan.
Elə canımıza işlədi qorxu,
Axdı qan yerinə damarımızdan.

Səhrada göyərən bir qanqal təki
Bizim içimizdə kök atdı qorxu.
Yalanla həqiqət arasındakı
Halal sərhədləri dağıtdı qorxu.
Boğub həqiqəti yalan öyündü,
Əsl mənasını itirdi söz də.
Yalan üzümüzdə gülüşə döndü,
Həqiqət ağladı ürəyimizdə.

Yalanın hökmünə düz əyilincə
Əyri pərvazlandı, əyri dağ aşdı.
Həqiqət ürəkdən dilə gəlincə
Yolda yetmiş dəfə mayallaq aşdı.
Yəqin ki, düşündün bu dəm, ey cavan,
Bəs qanun, bəs qayda yoxmuş o zaman?
Cəllad nə istəsə edə bilərmiş,
Ona hansı qanun, bu hökmü vermiş?

Necə cavab verim sənə mən indi?
İnsan hər zülmə, vallah, dözəndi.
Qanundan qorxmazdıq o illərdə biz,
Adamdan qorxardıq, adamdan, yalnız.

Mütləq  hakim idi o vaxt bircə baş,
Onun iradəsi hər şeydi, ancaq.
Adamlar qanuna deyil, a qardaş,
Qanun bir adama tabeydi ancaq.

– Bağışla, qızışdım, - söylədi
birdən, -
Özümü, sözümü bilmirəm hərdən.
Bir yazıqlıq duydum onun səsində,
Qəmbər də haqlıydı öz şübhəsində.

Onun şübhəsini dağıdım – deyə
Dediyi sözləri dəstəklədim mən:
– O qənim kəsilib, - dedim, - ölkəyə,
Cavidlər* sürülüb öz Vətənindən.

*Hüseyn Cavid nəzərdə tutulur. 1937-ci ildə onu və onun kimi çoxlarını Sibirə sürgün etmişdilər.

Daha danışmadı, dinmədi Qəmbər.
Anladım, dediyi o doğru sözlər,
Daş kimi asılıb çiyinlərindən,
O yazıq qorxurdu, qorxurdu məndən.

## II

Qəmbərgildən dönüncə fikir məni
apardı,
Qorxu, təlaş içimdə bir fırtına
qopardı.
Yada düşdü o söhbət –
O giley, o şikayət
Birdən-birə tutuldum,
Elə bil iflic oldum.
İttihamçı gözüylə mənə baxan
divarlar
Gördüm, gəlir üstümə,
Durub mənim qəsdimə
Əli qanlı o cəllad.
Söydüm özüm-özümü,
Dedim, ay evi bərbad,
Niyə dəsmal bağladın
ağrımayan başına?
Niyə soyuq su qatdın sən isticə aşına?
Axı, o nə söz idi çıxdı sənin dilindən?
Cəlladın ünvanına Qəmbərin o sözləri
Qəsdən demədiyini nə bilirsən, axı, sən?
Min-min günahsızları dünən suçlu gördülər.
Neçə min günahsızı Vətənindən sürdülər.
Ölkənin başçısını düşmən adlandıranı

Azad edərlərmi heç?
Bəs, burda məntiq hanı?
İnanmıram mən buna –
Onun lənətlərinin səmimi olduğuna.
Güzərandan, zamandan qəsdən söhbət salırmış,
O, məndən söz alırmış.
Mən maymaq da söylədim, ürəyimdən keçəni.
Qıvrıldım yatağımda, yatmadım o gecəni.
Yumşaq yorğan-döşəkdən min-min tikan
batırdı
Bədənimə elə bil.
Bu, adi tikan deyil,
Qorxu tikanlarıdır bədənimi dağlayan.
Mənim gələcəyimdir ürəyimdə bu gecə
Matəm qurub ağlayan.
Dedim, hardan bilirəm,
Bəlkə elə bu gecə tutacaqlar məni də?
Üç ay əvvəl gecəykən məgər tutmadılarmı
İsmixanı, Azəri, bizim Gülhüseyni də?*
Mən onlardan artığam? Yox, mən də onlar kimi
Saxlamadım dilimi.
Dağ başında süzürdüm, birdən çamura düşdüm.
Dilimdən tora düşdüm.
Yox-yox! Bu ola bilməz.
Qəmbər məni alçaldıb özü ucala bilməz.
O, özünü bu qədər yerə endirərmi heç?
Sənətkar sənətkarı güdaza verərmi heç?
Tfu! Bu nə söz idi mən danışdım?
Dünyadan

*1947-ci ildə həbs edilən universitet tələbələri.

xəbərsiz, naşı kimi?
Məgər, otuz yeddidə güdaza vermədimi
Qələm yoldaşlarını
öz qələm yoldaşları?
Hələ lənət oxları,
hələ tənə daşları
Atılmayıb onlara –
Özgəsinin yerinə
Sənət zirvələrinə
qalxıb ucalanlara?
İndi də bax, bu Qəmbər...
O, məgər
Qələm yoldaşlarını gələcək şöhrətinə
Qurban verib ucalan,
Satqınlıqdan öc alan
kəslərdən artıqdımı?
Namərdlərlə döyüşən
Yoxsa, qalib çıxdımı?
İnsan çiy süd əmibdir,
Xeyri də var, şəri də;
Mən ki, bundan halıyam;
Bu ikili insana niyə inanmalıyam?

* * *

Mən bu düşüncələrdə beləcə qovrularkən –
Boşalırkən, dolurkən
Qapımızın önündə bir maşın durdu, allah,
Kimsə düşüb maşından ünvanı sordu, allah.
Ev başıma dolandı,
Dünya bir an içində
Kameraya çevrilib, necə balacalandı.

Soyuq tər basdı məni.
Dedim, dar ağacından öz dilim asdı məni.

Motor səsi eşitdim,
Maşının qapıları örtüldü taraq-taraq.
Maşın guruldayaraq
Getdi...
şükür allaha!
Bu xatadan sovuşsam, çarmıxa çəksələr də
Ağzımı kilidlərəm, danışmaram bir daha.

**III**

Keçdi ürəyimdən bu dəm ah, nələr:
...Məni aparmağa nə vaxt gəlsələr,
Yəqin arxivimə baş vuracaqlar,
Yazımı, pozumu axtaracaqlar.

Düşündüm, nəyim var, qaradan, ağdan!
Baxdım öz içimə bir an yad kimi –
Gecənin yarısı qalxıb yataqdan,
Tökdüm qabağıma şeirlərimi.
Gördüm ki, ilahi, çapa getməyən
Nə qədər şerim var, yazı-pozum var.
Başqa bir göz ilə oxuyanda mən
Gördüm, hər sətirdə neçə sözüm var.

Düşündüm bunları yazırkən, görən,
Hansı duyğularla yaşamışam mən?
Ürək sıxılarkən, göydə və yerdə
Necə qanadlanıb xəyalım mənim!

Aşıb hüdudları bu şeirlərdə
Həqiqət axtaran amalım mənim.

Axı, kim yaratdı bu sərhədləri?
Kim saldı qəlibə fkri, xəyalı?
İdrak cığırına düşəndən bəri
Çərçivə tanımır insan kamalı.

Yazmaya bilməzdim yəqin bunları,
Könlümü sarsıdan burulğanları
Yazıya köçürüb dincəlmişəm mən.
Neyləyim, bu gəlib mənim əlimdən.

Çapa vermədiyim şeirlərimə
Müfəttiş gözüylə baxıb titrədim.
– Bunlar ələ keçsə, mənim dərimə
Vallah, saman təpər o cəllad, - dedim.
Alışıb yandığım illərdən bəri
Duyub düşündüyüm bu şeirləri
İndi öz əlimlə yandırımmı mən?
Onda dönmərəmmi həqiqətimdən?

Söylə, həqiqətin nə imiş sənin?
Kimdir həqiqətə baxan, ay yazıq?
Sən indi çalış ki, o qan içənin
Əlinə keçməsin yaxan, ay yazıq.

– Onda yandırımmı? – Əlacım nədir,
Axı, həyatına kim biganədir?
Kim istər dünyada bir gün görməmiş
Arzular naminə ömür sürməmiş

Zindanlar küncündə yanıb qovrula,
Uzaq sürgünlərdə ömrü qəhr ola?

Verdim qərarımı!
Aman, əlaman!
Dünyadan həqiqət, ədalət uman
Şeirlərimdən
Tonqal çatmalıyam, tonqal çatmalı!
Fikrimi, hissimi, duyğularımı
Ömrümə, günümə müftə satmalı!
...Yanır haqsızlığa qarşı yüksələn,
Əqidəm, məsləkim, xeyirim-şərim;
Yanır rəzalətlə döş-döşə gələn
Qorxmaz sətirlərim, kişi sözlərim.

Yanır gileylərim, şikayətlərim,
Yanır, zəmanəyə üsyanım yanır.
Yanır arzularım, xoş niyyətlərim,
Düşüncəm, xəyalım, vicdanım yanır.

Yanır bu dünyada ayaq izlərim,
Yanır arzuların qışqırıqları.
Yanır o həqiqi, doğru sözlərim,
Yanır ürəyimin hıçqırıqları.
Yanır hədəfini düzgün bəlləyən
Açıq məhəbbətim, açıq nifrətim.

Yanır oxucuya həqiqət deyən
Riyasız, boyasız sözüm, söhbətim.
Dünyadan dünyaya gileyim yanır,
Yanan şeirlərə ürəyim yanır.

Yanır, yanğısıyla məni yandırır,
Qəlbimdən süzülüb axan hər şeirim.
Bir anlıq zülməti işıqlandırır
Yanan duyğularım, düşüncələrim.
Gördüm öz-özümü bu işıqda mən,
Gördüm ayrılmışam öz fitrətimdən.
Gördüm, sığınmışam dözümə, yarəb,
Qənim kəsilmişəm özümə, yarəb.

Qorxmadım, yandırdım bir qatil kimi
Mən öz gerçəyimi, həqiqətimi.
Çünki əmindim,
Həqiqət yansa da məhv ola bilməz,
Sap kimi uzanar, qırıla bilməz.
İnanıram mən,
Həmin o həqiqət vaxt gələcəkdir,
Başqa birisinin dililə hökmən
Deyiləcəkdir.
Yanan şerlərin od-alovundan
Bədənim üşüdü, ürəyim əsdi.
Bir neçə şerimə qıymadım, ancaq
Dedim, kifayətdi,
Dedim, ta... bəsdi.

Bir neçə şeirimə qıymadım o gün,
Saralmış vərəqlər durur bu gün də.
Həmin şeirləri gələcək üçün
Gizlətdim anamın protezində*.
Ağır qəm yüküdür bunlar bir ömrün,

*Anamın bir ayağı protez idi.

Açılsın, tökülsün deyirəm bu gün
Duyan ürəklərin gizli sirləri.
Ey cavan oxucum,
bu şeirləri
Gizlədib mən bu gün çatdırdım sənə.
İstərəm biləsən, ürəklərimiz
Susmadı...
Kölgədə yatan olmadıq.
O vaxtlar qəhrəman olmasaq da biz,
Hay-küyə aldanan nadan olmadıq!

## DAMCI - DAMCI

Bulaq oldum, çağladım,
Susuz qalan çöllərin.
Halına qan ağladım.

Çəmənlərə çiləndim,
Axdıqca nəğmələndim.
Tez yolumu kəsdilər,
Ağzıma daş basdılar.
Elə güman etdilər,
Gah mıxa, gah da nala
Döyən amalsızmışam.
Amma əsli budur ki,
Gur axa bilməsəm də,
Damcı-damcı sızmışam.

Dəniz deyil, göl oldum,
Axıb çuxura doldum.

Öz dərdimlə doluydum,
Dibimi oydum, oydum,
Yer altında daşları,
Qayaları döşlədim,
Eninə bacarmadım,
Dərininə işlədim.
Dalğa pıçıltısında
Dibə yatan daşların,
Mətləbinə varan yox.
En görünür hər gözə,
Dərinliyi görən yox.
Dedilər dayazmışam.
Bir çuxurdan baş alıb,
Öz yolumu azmışam.

Mən yolumu azmadım,
Mənə «Az!» deyənlərin
Fikrini azdırmışam.
Onun öz məramını
Qəsdinə yozdurmuşam.
Qanım Qorqud qanıdır,
Mən əvvəlki damaram.
Damcı-damcı damaram,
Damcını saxlamaram.
Damcı damar, göl olar,
Cığır dönüb yol olar.
Bir yanıqlı sazam mən,
Hələ çağlamazam mən.
Asta-asta dinmişəm,
Arzuma köklənmişəm.
Səsləri bu kök üstdə
Səslədən avazmışam.

Dərd qaynaqlı ələməm,
Kağız üstə qələməm,
Nifrətimi deməyə
İmkanım olmayanda
Mən sevgimi yazmışam.

## SOĞAN

Soğan qabığına baxdı, düşündü.
Başını buladı,
O, mənə döndü.
Dedi: – Sərt olacaq qış, bu il yaman
Dedim: – Nədən bildin?
Dedi: – Qabıqdan.
Qalındır,
deməli,
Sərt keçəcək qış.
Təbiət əzəldən müdrik yaranmış.
O ki, nəğməsidir qaydanın, yönün,
Dağı yaratmamış ona yol seçir.
Soğanı soyuqdan qorumaq üçün
Onun paltarını o, qalın biçir.
Əhsən bu paltara, dona, təbiət,
Sən bu səxavətdə nəsən, nəsənmiş!
Ey ana təbiət,
                    ana təbiət,
Bilmirdim,
            necə də rəhimlisənmiş!
Acı soğan kimi, bəs, axı, mən də

Övladınam sənin,
Balanam sənin.
Mən də üşüyürəm, mənə gələndə
Rəhmin harda qaldı, ay anam, sənin?
Ələm çovğununda, qəm tufanında
Soyuqdan əsirəm, axı, mən yetim.
Soğana qıymadın, sənin yanında
Bir soğan qədər də yoxmuş qiymətim?
Nədir bu fikirlər, bu üzüntülər?
Ürəyi bir verdin, əzabı min-min.
Nolardı, mənə də dözümüm qədər
İztirab verəydin, əzab verəydin.

## YOX

Ömrüm başdan-başa ahu-nalədir,
Çox da ki, dilimin ahu-zarı yox.
Hər il bahar gəlir çölə, çəmənə
Nə olsun, könlümün öz baharı yox.

Düşündüm dünyanı, düşündüm dərin,
Önündə acizəm mən bu sirlərin.
Könlümdə bəslənən cavahirlərin
Kolxoz bazarında xiridarı yox.

Dar gəlir könlümə hər şey büsbütün,
Dünya da kiçilir, yoxsa, günbəgün?
Yaralı könlümün, yazıq könlümün
Nə göydə, nə yerdə bir qərarı yox.
Alçaldım yerə də, qalxdım göyə də,

Başımın üstündə gördüm min hədə.
Dinməyə qoymurlar,
düşünməyə də
Axı, mən yazığın ixtiyarı yox.

## IV

Sən vaxtın, zamanın hökmünə bir bax,
Zamandır hər fikrə yön verən, ancaq.
İnsan zaman ilə gəlir döş-döşə,
İnsanı yetirən vaxtdır həmişə.

Zaman var, xəyalı çəkir zirvəyə,
Zaman var, məhv edir eşqi, niyyəti.
Zaman var, insanı qaldırır göyə,
Zaman var, öldürür insaniyyəti.

Zaman var, köksünə gül taxır yerin,
Zaman var, düşünən, duyan kəslərin
Ağzına daş basır, qəlbi susdurur;
Zaman var, uçurur, zaman var, qurur.
Zaman var, yalana həqiqət deyir,
Zaman var, tanrı tək haqqa baş əyir.

Bir də görürsən ki, dünənki dağlar
Təpəyə əl açıb dilənir bu gün.
Yalanlar, gerçəklər, haqlar, nahaqlar
Vaxtın ələyində ələnir bu gün.
Dünən düzlüyündən üzə çıxmayan,
Özünü zamanda günahkar sayan

Mənim üzüqara bu şeirlərim,
Bu gün üz ağlığım, haqq sözüm oldu,
Üzə çıxmağı da bir lüzum oldu.

**V**

Bütün dövrlərdə müstəbid, qəddar
Ağıldan, kamaldan, fikirdən qorxar.
Çünki o bilir ki, fikir, düşüncə
Nə hüdud tanıyar, nə sərhəd bilər.
Odur ki, müstəbid hər şeydən öncə
Fikrə, düşüncəyə qənim kəsilər.

Fikir adamları onun qənimi!
O yaxşı bilir ki, fikir gün kimi
Yanıb qaranlığa birdən nur çilər,
Boyalı sözlərlə üstü örtülən,
Ağlarkən gülən,
Həqiqətləri
Görməyən gözə də göstərə bilər.

Müstəbid bilir ki, kamalın, fikrin,
Gözə görünməyən qanadları var.
İdrakın yolunu kəsmək çox çətin,
İqlimdən-iqlimə o uçar, uçar.
Fikir sığa bilməz hüduda, həddə,
O, zora baş əyməz, gücə əyilməz.
Fikir azad olan bir məmləkətdə
Zülm öz atını səyirdə bilməz.
Sönmədi qəlbinin qəzəbi, odu,

Müstəbid qılıncı qoymadı qına.
Azadlıq adına meydan oxudu,
Fikrin, düşüncənin azadlığına.
Susduq... bəxtimizə asi deyildik,
Bəli, dərd budur ki, biz elə bildik
Belədir qayda.
Bizdən bəxtəvəri yoxdur dünyada.

Mahnı da oxuduq: «Bəxtəvərik biz,
Gül kimi açılıb diləklərimiz».
«El azaddır,
Tel azaddır.
Azad vətəndə
Dil azaddır».
Hansı dərdimizi demişdik ki, biz,
Üstəlik azaddır – dedik dilimiz?
Qaldı kitablarda gerçəyin adı,
Nə özü göründü, nə ayaq izi.
Yalan danışmaqdan üz qızarmadı,
Alqışdan qızartdıq əllərimizi.

Bədbəxtlik gölündə biz üzə-üzə,
İnandıq bəxtəvər olduğumuza.
O qansız cəllada bunlar gərəkdi,
Onun yalanları axdı hər yerə.
Yalnız sərhədləri deyil, o çəkdi
Dəmir pərdələri düşüncələrə.
Pərdədən o yanı görə bilmədik,
Dondu düşüncəmiz, dondu fikrimiz.
Dəmir pərdələri yara bilmədik,
Çevrildik fikirsiz müqəvvaya biz.

Cəlladın əlində alətə döndük,
O necə düşündü, elə düşündük.

Müstəbid zülmünü doğrultmaq üçün,
Ehkamlar yaratdı, bütlər yaratdı.
«Ellərin atası» olub o, bir gün
Özünü millətə çox baha satdı.

Apardı dalınca şüarlar bizi,
Kütləşdi beynimiz, hissimiz tamam.
Aldı əlimizdən düşüncəmizi
Zülmün, istibdadın maskası – ehkam!
Müstəbid dəyişdi tariximizi,
Biz gah midiyalı, gah filan olduq.
Silindi tarixdən gerçəyin izi,
Bilmədik biz hansı atadan olduq.

Yadlar sahib çıxdı sərvətimizə,
Sahib çıxmadılar bizə bəs nədən?
Yetim evi oldu bu dünya bizə,
Ata axtarırıq indi özgədən.

De, hara sığışar, hara ey zaman,
Bu boyda təhqirə xalqın dözməsi –
Dədə Qorqud kimi dədəsi olan
Millətin özünə dədə gəzməsi.

Gör nə günə saldı müstəbid bizi,
Ay anam, hardasan, ağla bu dərdə.
Elə dolaşdırıb tariximizi,
Başını itirib tarixçilər də.

Başımız üstündə həmişə yumruq,
Halal adımızı deməyə qorxduq.
Damğa da vuruldu hələ bu ada,
Dandıq qorxumuzdan öz babamızı.
Kifayət deyilmiş bu da cəllada,
Dəyişdi min illik əlifbamızı.

Yenə soyumadı cəlladın kini,
O elə düşündü, elə bildi ki,
Latına keçməklə biz yeniləşdik.
O, buna dözmədi... on il keçməmiş
Cəlladın əmrilə Kirilə* keçdik.
Beləcə, qaraldı mənliyin şamı,
Bulandı dilimin büllur çeşməsi.
Bir deyən olmadı, əlifbadamı
Qocaman millətin yeniləşməsi?!
Əgər belədirsə, ədalət hanı?
Niyə dəyişmədin öz əlifbanı?

Sənin sadiq qulun, - mənim soydaşım,
O, yerli rəhbərim, cahil kütbaşım,
Susdu, danışmadı, yumdu ağzını.
Çünki o görmədi, görə bilməzdi
Sənin məqsədinin əsl məğzini.
Sən qanıb, düşünüb keçdin bu qəsdə,
O gün dünənimdən intiqam aldın.
Mənim min-min illik tarixim üstdə
«Şalako»** oynadın, məndən kam aldın.

*Kiril - rus əlifbası.
**Şalako - gürcü oyun havası; Stalinin bizə elədiyi zülmə işarədir.

Bir qənim kəsildin mənə o ki var,
Min illik ruhumun tutdun yasını.
On ildə neçə yol dəyişmək olar,
Bir xalqın minillik əlifbasını?

Etiraf olmadı?
Oldu: Bir nəfər;
Ona hər tərəfdən göz bərəltdilər.
– Rəhbər deyən sözə nə müzakirə?
Ona canımızı qurban verərik.
Əlifba nədir ki, lazım gələrsə,
Ana dilimizi dəyişdirərik.

Niyə dəyişməsin, axı, bu satqın –
Ata dili varkən, ana dilini!
Beləsi turp əkdi başında xalqın,
Satdı Vətənini, satdı elini.
Bunu deyən oğul, həmin o anda
Rəhbər atasından rütbə diləndi;
Bir həftə keçməmiş, o rütbələndi.
Bəs etiraz edən? Onun taleyi?
Atdı hər şeyi.
Bir müddət Bakıdan köçünü çəkdi,
Yoxsa, Cavid kimi sürüləcəkdi.
Əlifba dəyişdi,
Buna öyündük.
Bilmədik, rişəsiz budağa döndük.
Qabağı görmədik öz yaşımızdan,
Nəsillər arası qırıldı bağlar;
Qovulub silindi yaddaşımızdan
Qurulan çadırlar, yanan ocaqlar.

Vətəndən qovuldu ana dilimiz,
«Ana dili» - dedik gəlmə, yad dilə.
Ərəbcə danışdıq ölülərlə biz,
Rusca qırıldatdıq dirilər ilə.
Öz ana dilimiz «lallığımızdan»,
Ölüyə küfr oldu, diriyə nöqsan.
Hanı Bunu Çiçək? Hanı Qazan xan?
Biz ki, ruhu əsil, qanı əsildik.
Qorqud qanı axdı damarımızdan,
Özümüz Qorquda düşmən kəsildik.
Doğudan Batıya, at çapan babam,
Mənim oğuz babam, mənim xan babam
Təzə kitablarda mənə yad oldu,
Soy soya qarışdı, kök unuduldu.
Ələnə bilmədik, qaldıq ələkdə
Gör, necə kökündən laxladı millət.
Yapıx daxmalarda, kənddə-kəsəkdə,
Yenə də milləti saxladı millət.

**VI**

Varaq-varaq çevirdim düşüncəmi, fikrimi:
«Səhər açılan kimi
Gedəcəyəm yanına.
And verib vicdanına
Deyəcəyəm, amandır,
Dünən dediklərimiz başdan-başa yalandır.
Bir diş bilsin, bir dodaq.
Səni dəstəkləməkçün elə dedim mən ancaq.
Əslində, çox sevirəm mən o dahi rəhbəri,
Odur bizə bəxş edən bu bəxtəvər günləri.

O bizim bu dünyada tək güman yerimizdir,
Düşünən beynimizdir, görən gözlərimizdir».
«Mən qələt elədim» - deyə səhərə kimi
Öz-özümə deyindim,
Səhər açılan kimi qalxıb dərhal geyindim.
Birdən qapı döyüldü...
Bizə kim gələ bilər səhərin bu çağında?
Aynanın qabağında
Gördüm, əsir bədənim.
Qapını açmağa da heç taqətim yox mənim.
«Yəqin, o satmış məni,
elə dünən gecədən.
Aparmağa gəlirlər hara qaçım indi mən?»
Qapı bir də döyüldü.
Bir də, bir də döyüldü.
Gələn kimsə, görünür, məqsədinə çatmamış
Burdan gedən deyildi...
– Kimsən?
– Mənəm, a qardaş.
Bu Qəmbərin səsiydi.
Bu da mənə bəs idi.
Yəqin şahidtək gəlib üzümə durmaq üçün.
Məni susdurmaq üçün.
Əsə-əsə əllərim, mən qapını açınca
O, üstümə atıldı boynumu qucaqladı,
Hönkür-hönkür ağladı.
Boylandı məlul-məlul
O bir sola, bir sağa.
Dünənki söhbətini başladı tez-tələsik
Ayrı səmtə yozmağa:
-Zarafatla demişdim dünən mən o sözləri;

Əslində, çox sevirəm, mən o dahi rəhbəri.
O, bizim bu dünyada tək güman yerimizdir,
Düşünən beynimizdir, görən gözlərimizdir.
Başa düşdüm mən onu.
Susdum... Bu yozumların ağ yalan olduğunu
Anlayırkən, qanırkən.
Bir gün sonra o və mən sözümüzü danırkən
Riyakara döndərdi vaxt həm onu, həm məni, –
O da yata bilməyib, demə, bütün gecəni.

*Avqust 1988*

# KİTABIN İÇİNDƏKİLƏR

"Yaradıbdır inam məni, mən inamın övladıyam"
*(Ramazan Qafarlı)* ______ 03

## ƏLVAN ÇIÇƏKLƏR

Vətən var ______ 15
Vətəndaş ______ 16
Mübarək ______ 18
Payiz düşüncələri ______ 20
Yaşaya-yaşaya yaşamayanlar ______ 22
Saray-daxma ______ 24
Salam, Özbəkistan ______ 26
Çəkməçi Əli ______ 27
"Dünyadan əgər…" ______ 29
Deyirəm, bəlkə də,,, ______ 30
Ustad Şəhriyarın Süleyman Rüstəmə
məktubuna cavab ______ 32
Eyni yaşdayıq ______ 35
Nə ondansan, nə bundan ______ 39
"Böyük arzuları xəyalmı sandıq?" ______ 42
"Bir anın içində dəyişir halım" ______ 43
Bahar həsrəti ______ 44
Dağdan aşan gün ______ 46
Öz dünyam mənim ______ 48
Əl-ələ, qol-qola ______ 50
Ülkər əfsanəsi ______ 51
Taras Şevçenkoya ______ 53

Yunus İmrəyə 56
Abdulla Tukaya 57
"Bulud əllərini açır göylərə" 58
Sovetlər birliyinin xalq deputatlarına açıq məktub 59
Qanmaq istəməz 61
Baba-nəvə 63
Mən belə dünyaya nə deyim indi 64
Din 66
Əbədiyyət 68
"Öz dərdin özünə böyük göründü" 69
"Tələsə-tələsə yol gedirik biz" 70
"Bermud bucağı" 71
Novruz bayramı 73
Yalnız susun 76
Ümid, yaşa 79
Sinə daşı 81
Gələcək var 82
Çöldən işıq düşmür 84
Təsadüf saxlayar 85
İş-vaxt ölçüsü 87
Mənim çırağım 88
Yasəmən üçün 91
Gəlirsiz zəhmət 93
"Dedin ki, dünyanın dərdini çəkmək" 94
Hun səsləri 95
Mənimki gətirmir 96
"Çox dözdüm "dostların" xəyanətinə" 98
Ağlımızla 100
"Qağanoviç sədaqətlə" 101
Haqqa haqsız dedilər 102
Arzumla görüş yerim 104

Qışqırtı-pıçıltı 105
Hörmər-rüşvət 106
Göynərti 109
Qeyrət 113
Qeyrətmi, ağılmı? 115
Allah 118
"Sevinc ağ, qəm qara" 120

## İNSAN VƏ ZAMAN

Bütövlük 123
Tapmaq-itirmək 125
Sualımız yoxsa 128
Nizam-ahəng 130
Göz-qulaq 131
A.Litiyentalın Kartera məktubu 133
Yaxın uzaq oldu 135
Yaxşı ki, bilmirik 138
"Hər ömrün sonunda" 140
Axtaran tapar 141
Təbəssüm ordeni 145
"Torpağı göyərdən" 146
Həqiqəti yaşadan 147
Barıt qoxusu var 149
Qartal 151
"Dəyişilib zəmanə…" 153
İşıq 154
Əşyalar danışır 156
"Üç qiymət göndərdilər" 158
"Bağrımdan min nemət" 159
Bıçaq-qələm 160

Aşıq Əli 162
Cavab 164
"Qızıl ləçəkləri" 168
Bir ömrün tərcümeyi-halı 169
Əsarət, ya ölüm? 170
"Böyük bir amala..." 171
Hüseyn Cavidə 172
"Kiminin..." 174
"Yamanca qorxuruq..." 175
Şam 176
Təhqir 178
Özünü hamıya borclu sayanlar 180
Uçmaq istəyirəm 182
Yaxşı bax dünyaya 184
Çəkisizlik 186
Özümlə söhbət 189
Ləzzəti ağrısı 190
Anama giley 191
"Səhvlər üstündə" 193
Oğul toyu 194
"Gerçəyi öyrədir..." 198
"Mən tək olanda da..." 199
"Şeirim-qəzəbim..." 200
"Mən hardayam..." 201
Nəğmənin sehri 202
Barışmaq 203
"Allah, allah mən kiməm?" 204
"Qol-budaqlı bir ağacam" 206
Çalar 207
İkilik 209
Oxucu məktubu 210

Vaxt 213
Layiqəmmi mən? 214
Xatalı yuxu 218
Dağlar kölgəsində 220
Xeyir-şər 222
"Taleyimiz qələm verdi əlimizə" 225
"Ayıra bilmişdi..." 226
Haqq-zorakılıq 227
Tamah-ləyaqət 229
Mənə sual verin 232
Dərinlik 233
Nəyinsə ilkidir, nəyinsə sonu 235
"Sükut lövhəsi 236
Ölüm haqqında düşüncələr 239
Üz-astar 241
Baş daşında saat 243
Axı dünya fırlanır 245
İki mühacir 247
Bu dünya belədir 250
"Ümid bayraq kimi..." 254
Qanmaq-qanmamaq 255
"Alma düşdü ağacdan..." 257
"İnsanların fikrini..." 258
Özünü dinlə 259
"Yox, dünya gözəldir..." 260
"Həyatdan getsəm də..." 261
"Kor, kora kor desə..." 262
"Yuxumdakı röyalarım..." 263
On yeddi dekabr 264
Hansı medal düşür 266
"Könül: lağım, lağım..." 267

Sevincin zirvəsi, dərdin zirvəsi 268
“Necə söz danışdın?...” 269
“Bir rəssam axtarıram…” 270
“Bu möcüzə dünyanın…” 271
Mən mənəm 272
Yaramaz 273
Tərsinə 274

## HƏSRƏT NƏĞMƏLƏRİ

Könül verdik 277
“Döydü qapısını…” 278
Kölgələr, səslər 280
“Çiskinli havalar…” 282
“Yamanca gecikir…” 283
“Ömrümün ən uzun…” 284
“Mən sənin oduna…” 285
“Deyirsən…” 286
“Ey qadın…” 287
“Ağardı saçları…” 288
“Könlümdə, ruhumda…” 289
“Sənin baxışların…” 290
“Mən bir qiblənüma…” 291
Yeddi söz 292
“Mən bir qəm daşıyam…” 294
Sən oluram mən 295
“Arzularım qönçələnir…” 297
“Düz məramım…” 298
Zaman- məkan 299
Dərinsən, zirvəsən 301
“Arzu darda qaldı…” 303

Mənə iztirab ver 304
Qoy bir az yatım 306
“Məlum həqiqəti…” 308
”Gəldin düşüncəli…” 310
“Qarışdı yenə də…” 311
“Necə dincələrəm…” 312
Səsin işığında 313
Qitələr 315
“Ürəyim min arzuya…” 317
“Sən öz aləmində…” 318
”Sən mənim qəribə qismətim…” 319
“Sənə çatmaq üçün…” 320
“Kölgəm kimi izləyir…” 321
“Dərmanı dərd olan…” 322
“Fikrin ayrılmaqdır…” 323
Zərurət 324
Qisas 325
Kimdən öyrənim? 327
Qınaq 329
Bəhanə-gerçək 330
“Eşqində itmişəm…” 333
Bir gün 334
“Həsrətin hökm etdi…” 335
Ovqatımın iqlimi 337
Təzədən yarat 338
Mən necə bəndəyəm? 340
Səbəb axtarma 341
Mənim zəhləm gedir 342
Bu gündən-dünənə 343
Heyrətdəyəm mən 344
Sevginin tilsimi 345

“Bulağım qurumuş…” 346
Yazan özünsən 347
“Zülm eylə…” 348
“Qədərin hökmünə…” 349
“Həsrətin könlümün ehtiyacıdır…” 350
“Mən”lər arasında 352
“Səslər eşidirəm…” 353
”Mənim öz dünyamdır…” 355
Sevdinsə 356
Hamı elə bilir 357
Bəs bu nə gileydir? 359
“Özündə özünü ay danan gülüm…” 361
Sakit gölə daş atdım 363


## QƏZƏLLƏR, QOŞMALAR, GƏRAYLILAR


“Zülmətdə yanan…” 367
“Çəkdik, çəkirik…” 368
“Mənzil uzaqda…” 369
“Yaranışdan bilirik…” 370
“Sən mənim ruhumun…” 371
“Biz hər ikimiz…” 372
“Min qibləyə baş qoydum…” 373
“Heç bilmədik, ey dost…” 374
“Əlmənib keçmişəm…” 375
“Dərk etmədiyim…” 376
Ulu dünyanın 377
“Bulud ötdü…” 379
Hara yazım mən? 380
“Nənəm dedi…” 381
Neylərəm 382

Bir tərəfdə 384
"Səninlə hər görüş ilk görüşümdür…" 385
"Dedim qorxan gözə…" 386
Həmişə özüdür 387
"Öz könül dünyama səyahətimdə" 388
Heç demə 389
"Çağdaş fikirlərin qanadlarında" 391
Küsəndə 392
Aman hey 393
Gözüm olmasa 394
Hara gedir? 395
Yaylaqda 396
Əleykəssalam 398
Köhnə dərdlə mən 400
Elçiyəm 401
Çaşıb mənim kimi 402
Gen düşə 403
Deyilmi? 404
Gün batmaq üçün 406
"Çox danışdıq…" 407
Səma sonsuz, ağıl məhdud 408
Vay halına 409
Qəsd edir insan 410
Yalan hakim olub 411
Olammaz 413
"Qeyrət yoxsa…" 414
Deyil 415
O qədər qorxmuşam 416
İnam zirvəsinə 417
Öz-özünü asmadır 419
"Arzu zirvə başındadır" 420

Yalan dünya 421
Xeyirlə şər arasında 422
Şeytanın barmağı 424
Böyük 426
Dan olmuşam 427
Sığışmadı 428

## UŞAQ DÜNYASI

Çörəyə də “baba” deyir Adilə 431
Özü desin 432
Say 433
Nənə-nəvə 434
Bu dil 435
Sərçələr 436
Payızda 437
Babası kimi 438

## POEMALAR

Amerika gözəli 441
Mərziyə 467
Bağışlayın, səhv olub! 495
Ləyaqət 516
İki qorxu 548

# BƏXTİYAR VAHABZADƏ

## ƏSƏRLƏRİ

**On iki cilddə**

**V cild**

**(1980 - 1989)**

«Qafqaz Plus» MMC-də hazırlanmışdır.

Bədii dizayneri
Xəyyam Əliyev

Texniki redaktorları
Aytən Cəfərova,
Ləman Qafarova

Çapa imzalanmış 26.03.2008. Kağız formatı 84x108 1/32.
Həcmi 39,11. Tirajı 500. Sifariş 146.
Qiymәti müqavilә ilә.

**Direktor:** **prof. N.B.Məmmədli**
**Nəşrə məsul:** **Əziz Ələkbərli**

Kitab «Nurlan» nəşriyyat-poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən çap edilmişdir.
E-mail: nurlan 1959@yaho.com
Tel.: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.